**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**Fəxri Valehoğlu**

# XIX ƏSR BORÇALI ƏHALİSİNİN İMTİYAZLI ZÜMRƏLƏRİ *KAMERAL TƏSVİRLƏRDƏ*

Bakı – 2021

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktor:** **Kərim ŞÜKÜROV**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **İkram AĞASIYEV**
*tarix elmləri doktoru, professor*

**Nazir ƏHMƏDLİ**
*kimya üzrə fəlsəfə doktoru*

**F. Valehoğlu. XIX əsr Borçalı əhalisinin imtiyazlı zümrələri kameral təsvirlərdə,** Bakı: "Elm" nəşriyyatı, 2021, 320 s.

Kitabda XIX yüzilə aid kameral təsvirlərə və digər rəsmi siyahıyaalınmalara istinadən Borçalı mahalının türk-müsəlman əhalisinin imtiyazlı təbəqələri (sultanlar, ağalar, bəylər, ruhanilər, kəndxudalar, koxalar, maaflar, məmurlar) və onların ailə üzvləri barədə məlumatlar təqdim edilir.

ISBN 978-9952-523-39-4

© AMEA Tarix İnstitutu, 2021
© Fəxri Valehoğlu, 2021

# ÇAR RUSİYASININ BORÇALI VƏ ƏTRAF BÖLGƏLƏRDƏ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ VƏ YERLİ ƏHALİNİN İMTİYAZLI TƏBƏQƏLƏRİ

## Kartli-Kaxetiya çarlığının ilhaqı və həyata keçirilən inzibati-ərazi islahatları

1783-cü ildə imzalanmış Georgiyevsk müqaviləsinə əsasən Kartli-Kaxetiya çarlığı tabeliyində olan Borçalı, Qazax, Şəmşəddil və Pəmbək mahalları ilə birlikdə Rusiya imperiyasının himayəsi altına keçir. Müqavilənin şərtlərinə görə, Rusiya Kartli-Kaxetiyanın daxili işlərinə qarışmamalı, müttəfiqlik prinsipi əsasında onu xarici təhlükələrdən qorumalı və müstəqilliyinin təminatçısı olmalı idi[1]. Amma reallıqda tamamilə bunun əksi baş verir və Çar Rusiyası müqavilədən Cənubi Qafqazı nəzarəti altına almağa hədəflənmiş strateji məqsədləri üçün istifadə edir.

Ağa Məhəmməd şah Qacarın 1795-ci ildə Tiflis üzərinə böyük yürüşü zamanı Kartli-Kaxetiya çarı II İraklinin (II Ereklenin) hərbi yardım üçün müraciətinə baxmayaraq, rus çarı qoşun göndərməkdən imtina edir[2]. Bu yürüş gürcü çarlığının dayaqlarını ciddi şəkildə sarsıdır və zəiflədir. Rusiyanın 1796-cı ildə general V.Zubovun komandanlığı altında Dərbənd istiqamətindən Cənubi Qafqaza göndərdiyi qoşun isə çariça II Yekaterinanın ölümündən sonra geri çağırılır. 11 yanvar 1798-ci ildə II İrakli vəfat edir və onu taxtda oğlu XII Georgi əvəz edir. 18 aprel 1799-cu ildə Rusiya imperatoru I Pavel XII Georgini Kartli-Kaxetiya çarı, onun böyük oğlu XII Davidi isə taxt-tacın varisi elan edir. 22 dekabr 1800-cü ildə isə I Pavel ölüm ayağında olan

---

[1] Bax: Y.M. Mahmudov, K.K. Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi: Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları, I cild. Bakı, 2009, s. 265-278.

[2] საქართველოს ისტორია, ტომი III, ლაშა–გიორგის მეფობიდან საქართველოს ანექსიამდე (Gürcüstan tarixi, III cild, Laşa-Giorginin çarlığından Gürcüstanın anneksiyasınadək), Tiflis, 2012, s. 341.

XII Georginin müraciəti əsasında Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında manifest imzalayır[3]. Bu manifest 1801-ci ilin 18 yanvarında Peterburq və Moskvada, təqribən bir ay sonra – 16 və 17 fevralda Tiflisdə elan olunur[4]. Rusiyanın həm müstəqil gürcü çarlığını ilhaq etməsi, həm də varislik planı XII Georginin ögey anası Darecan (Darya) ilə ögey qardaşlarının narazılığına, taxt uğrunda çəkişmələrin, eyni zamanda rus hökmranlığına qarşı mübarizənin başlanmasına səbəb olur. Bundan əvvəl də Georgiyevsk müqaviləsinin şərtlərini yerinə yetirmədiyinə görə Rusiya ilə sıx münasibətlərin əleyhinə çıxış edən çariça Darecan oğlu şahzadə Yulonun çarın varisi elan olunmağını istəyirdi[5].

1800-cü ilin iyun ayında II İraklinin Borçalının Şüləver məntəqəsində yaşayan oğlu şahzadə Aleksandr (Aleksandr Mirzə//Aleksandr Batonişvili) birbaşa gürcü çarının nəzarəti altında olan Qazax bölgəsinin onun tabeliyinə verilməsini istəyir və rədd cavabı alır. Etiraz əlaməti olaraq şahzadə ən yaxın adamları ilə Şüləverdən Qarsa, oradan da Qacarlar sülaləsindən Fətəli şahın varisi Abbas Mirzənin Araz çayı sahilindəki düşərgəsinə yollanır və böyük hörmətlə qarşılanır. Bundan sonra Qacarların himayəsinə sığınan şahzadə Aleksandr Gürcüstanda Rusiyanın ağalığına qarşı ardıcıl və kəskin mübarizə aparmağa başlayır[6]. Müasir gürcü tarixşünaslığında Kartli-Kaxetiya çarlığının anneksiyası nəticəsində başlanmış anti-rus fəaliyyətləri gürcü dövlətçiliyinin bərpası naminə milli-azadlıq hərəkatı kimi səciyyələndirilir[7].

---

[3] Manifestin mətni üçün bax: Y.M. Mahmudov, K.K. Şükürov, göstərilən əsər, I cild, s. 323.

[4] ჰ. კუპრაშვილი. დიდი "რუსიანობა" საქართველოში. XIX საუკუნის პირველი ნახევარი (H.Kupraşvili. Gürcüstanda böyük "rusçuluq". XIX əsrin birinci yarısı), Tiflis, 2011, s. 33.

[5] К.С. Попов. Храм славы, часть 1, Париж, 1931, с. 116.

[6] Исторический очерк кавказских войн от их начала до присоединения Грузии / Под. ред. В.А. Потто. Тифлис, 1899, с. 323; K.Popov, göstərilən əsəri, s. 116.

[7] Bax: H.Kupraşvili, göstərilən əsəri, s. 31.

Şahzadə David atasının 28 dekabr 1800-cü ildə vəfatından sonra özünü Kartli-Kaxetiyanın hökmranı elan etsə də, o zamana artıq Gürcüstanda geniş təsir gücünə malik rus hakim dairələri onun çar elan olunmasının qarşısını alır[8]. 1801-ci ilin yazında isə o, ümumiyyətlə, idarəçilikdən kənarlaşdırılır. İmperiya Dövlət Şurası yeni birləşdirilmiş Kartli-Kaxetiyada muxtar gürcü idarəçiliyinə son verib rus idarəçiliyini tətbiq etmək qərarına gəlir. Tiflisdəki rus ordu birliklərinin erməni əsilli komandanı general-mayor İvan (Ovanes) Lazarev "Gürcüstanın idarəçisi" təyin olunur və onun rəhbərliyi altında müvəqqəti idarəetmə orqanı yaradılır[9].

12 mart 1801-ci ildə sui-qəsd nəticəsində öldürülmüş I Paveli imperator taxtında əvəz edən oğlu I Aleksandr gürcü monarxiyasının tamamilə ləğv edilməsində qərarlı idi. Bununla bağlı o, 1801-ci il sentyabrın 12-də Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında yeni manifest imzalayır[10]. Bu sənəd orijinaldan Gürcüstanda daha çox işlənən iki dilə – Azərbaycan türkcəsinə və gürcücəyə tərcümə olunur[11]. Manifestlə eyni gündə Gürcüstanda yeni idarə üsulunun təsis edilməsi barədə əsasnamə təsdiq olunur[12]. Əsasnamə ilə Rusiya imperiyası tərkibində siyasi müstəqilliyinə son qoyulmuş Kartli-Kaxetiya çarlığının sərhədləri daxilində Gürcüstan quberniyası yaradılır. Quberniya 5 qəzaya – Lori (inzibati mərkəzi Tiflis şəhəri idi), Qori, Telav, Sığnaq və Duşet qəzalarına bölünür. Qazax, Borçalı, Şəmşəddil və Pəmbək mahalları Lori qəzasının (1804-cü ildən Tiflis qəzası) tərkibinə verilir. Gürcüstanın baş hakimi (baş idarəçi, qubernator) vəzifəsi Qafqazda rus qoşunlarının sərdarı (baş komandanı) general-ley-

---

[8] З.Авалов. Присоединение Грузии к России, Санкт-Петербург,1901, с. 203-204.

[9] Г.В. Хачапуридзе. К истории Грузии первой половины XIX века, Тбилиси, 1950, с. 53-54.

[10] H.Kupraşvili, göstərilən əsəri, s. 41-42; Q. Xaçapuridze, göstərilən əsəri, s. 54-55.

[11] Акты, собранные Кавказскою Археографическою Комиссиею/ под ред. Ад. Берже, том I. Тифлис, 1866, с. 414.

[12] Q. Xaçapuridze, göstərilən əsəri, s. 55.

tenant K.F.Knorrinqə həvalə olunur[13].

1802-ci ilin aprel ayında təntənəli şəkildə Tiflisə gələn Knorrinq gürcü zadəganlarını Sion kilsəsində bir araya toplayıb, onlara Kartli-Kaxetiya çarlığının ləğv edildiyini açıq bəyan edir və Rusiya çarına sədaqət andı içdirir[14]. Həmin ilin may ayında isə o, Tiflisdə yeni quberniya idarəetmə qurumunu – Gürcüstanda rus qoşunları sərdarının, yəni özünün rəhbərliyi altında Gürcüstan Ali Hökumətini təsis edir, ancaq bundan sonra tutduğu vəzifədə çox qala bilmir. Gürcü zadəganları arasında rus idarəçiliyinə qarşı artan narazılığın qarşısını almaq məqsədiylə 11 sentyabr 1802-ci ildə Moskvadakı gürcü icmasının nümayəndəsi, sonuncu gürcü çarı XII Georginin arvadı Məryəmin qohumu general-leytenant P.D.Sisianov (Sisişvili) Gürcüstanda rus qoşunlarının sərdarı təyin edilir[15].

Bundan sonra Cənubi Qafqazda mövqelərini gücləndirən Rusiya imperiyası siyasi pərakəndəlik dövrünü yaşayan digər Azərbaycan və Gürcüstan hakimlərinin torpaqlarını da  işğal etmək uğrunda mübarizəyə başlayır. Meqrel knyazlığı, İmeretiya çarlığı, Quriya knyazlığı, Gəncə xanlığı,  İlisu və Şürəgəl//Şörəyel sultanlıqları*, Qarabağ, Şəki, Şamaxı, Bakı və Quba xanlıqları Rusiyanın hakimiyyəti altına alınır.

Çar Rusiyası Qafqazın güneyində ələ keçirdiyi torpaqlarda fərqli inzibati sistem yaradır və hərbiləşdirilmiş komendant üsul-idarəsini tətbiq edirdi. Yeni yaradılmış inzibati-ərazi vahidlərin-

---

[13] Акты…, т. 1-й, с. 437-438.

[14] საქართველოს ისტორია, ტომი IV, საქართველოს ანექსიიდან საბჭოთა კავშირიდან გასვლამდე (Gürcüstan tarixi, IV cild, Gürcüstanın anneksiyasından Sovet İttifaqından çıxmasınadək), Tiflis, 2012, s. 9.

[15] Yenə orada, s. 10; Н.А.Бердзенишвили, В.Д.Дондуа,… История Грузии, том I (С древнейших времён до 60-х годов XIX века), Тбилиси, 1962, с. 208.

* Sultanlıqlar adlanan və daha böyük inzibati ərazi vahidlərinin tərkibinə daxil olan bu yarımmüstəqil qurumları irsi hakimiyyətə malik olub "sultan" titulunu daşıyan və rütbəcə "xan"dan aşağıda dayanan feodal hakimlər idarə edirdilər.

də idarəetmə orqanlarına, əsasən, rus zabitləri başçılıq edirdi. Kartli-Kaxetiya çarlığı tərkibində Rusiyaya birləşdirilmiş türk əhalili mahalların və 1805-ci ildə Rusiyanın himayəsini qəbul etmiş Şürəgəl sultanlığının ərazilərində Tiflis qəzasına tabe olan Borçalı, Qazax, Şəmşəddil və Pəmbək-Şürəgəl distansiyaları yaradılmışdı. Distansiyalara irsən rəhbərlik edən gürcü mouravlarını (knyaz-idarəçiləri) zaman etibarilə pristavlar əvəz edir və hər pristavın yanına yerli əhalinin dilini bilən bir tərcüməçi təyin edilirdi. Gürcüstanda rus qoşunlarının sərdarı və baş hakim A.P.Yermolovun 15 iyul 1819-cu il tarixli qərarı ilə pristav vəzifəsinə gürcü knyaz və zadəganlarıyla yanaşı, istefada olan zabitlər də təyin oluna bilərdilər[16]. Borçalı pristavları Ağcaqalada (rus mənbələrində "Serıy Zamok") iqamət edirdilər.

Yeri gəlmişkən, Kartli-Kaxetiya çarlığının ilhaqı ərəfəsində onun ərazisindəki türk elləri və yaşayış məskənlərində mourav vəzifəsini tutan knyazların (zadəganların) adlarını təqdim edək: Dəmirçihasanlıda – Tamaz Orbeliani, Borçalı və Şınıxda – keşikçibaşı David Abaşidze, Baydarda – miskərbaşı Osip Bebutov, Sarvanda – Arqutinski-Dolqorukov, Qırıxlı və Şamalıda – Adam Andronikov, Köhnə Təhlədə – Saima Baratov, Yeni Təhlədə – Paata Abaşidze, Soğanlıqda – Erast Amilaxvarov, Hasanxocalıda – amilaxvar Osip Korqanov, Qızılhacılıda – David və İvan Kobulov, Muğanlıda – Solomon Qabayev, Kolagir, Muğanlı, Qoşakilsə, Axlı, Mamay, Uzunlar və Disiq kəndlərinin köçəri əhalisi üzərində – sərdar knyaz Giorgi Tsitsianov, "Axateldə (Kaxetiya) yaşayan Kəpənəkçi tatarları*" üzərində – Revaz Vaxvaxov, "Kaxetiyada Qaracaladan o tərəfə yaşayan tatarlar" üzərində – Oman Makayev, Qazax türkləri üzərində – həqiqi

[16] Свод законов Российской Империи повелением государя императора Николая Павловича составленный. Свод учреждений государственных и губернских, часть 2-я, СПб., 1833, с. 484.

* tatar – rus və gürcü mənbələrində Azərbaycan türkü *(F.V.)*.

dövlət müşaviri Qarsevan Çavçavadze, Pəmbək türkləri üzərində isə Giorgi Sisianov[17].

Kartli-Kaxetiya çarı Borçalı, Qazax və Şəmşəddil mahallarının hərəsinə yerli türk ağalarından bir nəfər səlahiyyətli nümayəndə – vəkil də təyin edirdi. Vəkillərə irsən "xan" titulu verilirdi. Onların səlahiyyətləri ağalardan xeyli geniş idi və yalnız öz mülkiyyətlərində olan kəndləri deyil, bütün mahalı əhatə edirdi. Borçalı vəkilləri Ağcaqala yaxınlığındakı Araplı kəndində yaşayırdılar. Borçalıda vəkildən başqa böyük səlahiyyətə malik Baydar və Dəmirçihasanlı sultanları da var idi. Bu sultanlar mahalda ayrıca idarəçilikləri altında olan ərazilərə sahib idilər. Vəkillik və sultanlıq nəsildən-nəslə ötürülürdü. Rus hakimiyyəti dönəmində də ata öləndən sonra oğulun "sultan" titulu daşımasına icazə verilirdi. Qeyd edək ki, nədənsə Şəmşəddildə vəkil "sultan" adlandırılırdı[18].

**Cədvəl 1**

"Tatar distansiyaları" adlanan bölgələrin təqribi ərazisi və əhalisi (1830-cu illərin əvvəlləri):[19]

| Distansiyalar | Ərazi (kv. verstlə) | Əhali |
|---|---|---|
| Borçalı | 6000 | 25000 |
| Qazax | 2800 | 33500 |
| Pəmbək və Şürəgəl | 2800 | 22000 |
| Şəmşəddil | 3200 | 16500 |
| *Ümumi* | *14800* | *97000* |

[17] Акты…, т. 1-й, с. 194-195.

[18] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I I: Феодальные отношения и колониальный режим: 1827-1868 гг. Сост.: Н.Г. Богданова, Я.М. Притыкин; Ретропринт, Баку, 2014, с. 462-463.

[19] Евецкий О. С. Статистическое описание Закавказского края, часть 2-я, СПб., 1835, с. 62-63.

“Rusiyanın Qafqaz arxasında mülklərinin icmalı”nda qeyd olunur ki, həmin dövrdə Borçalı distansiyasında yayılmış dillər arasında ən çox Azərbaycan türkcəsindən istifadə olunurdu və distansiya sakinləri aşağıdakı beş sinifə bölünürdülər:

1) Gürcü knyazlarından və “tatar” ağalarından ibarət olan zadəganlar;

2) Ruhanilər (müsəlman, yunan və erməni ruhaniləri; onlardan birincilərə seyidlər və dərvişlər də aiddir);

3) Kəndlilər (dövlət, mülkədar və kilsə kəndliləri);

4) Mədən işçiləri;

5) Sərbəst əkinçilər (alman kolonistləri, Qumaret gürcüləri və yunanların bir hissəsi)[20].

Zənnimizcə, 1-ci sinifə Borçalı ərazisinə XVIII əsrin sonlarında köçürülmüş erməni məlikləri də əlavə olunmalıdır. Borçalı ağalarının 1831-ci ilə aid adbaad siyahısında 233 evli Böyük Şüləver kəndinin həmin ilin 28 avqust tarixində imtiyaz almış məlikləri Haxverdi Kələntərov və Qəhrəman Sərkisovun adları əks olunur[21].

10 aprel 1840-cı ildə Rusiya imperatoru I Nikolay “Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar” adlı qanun layihəsini təsdiq edir. Qanunda inzibati-ərazi bölgüsündə dəyişikliklər də mühüm yer tuturdu. 1 yanvar 1841-ci ildə qüvvəyə minən bu qanun Qafqazın güneyində komendant üsul-idarəsini ləğv edir və Rusiyanın daxili əyalətlərinə xarakterik üçpilləli – 1. ali; 2. quberniya (vilayət); 3. qəza və nahiyə inzibati-ərazi idarəetmə sistemini tətbiq edirdi[22]. Bu qanun əsasında Cənubi Qafqazda iki inzibati-ərazi vahidi – Kaspi vilayəti (mərkəzi: Şamaxı) və Gür-

---

[20] Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, ч. 2-я, СПб, 1836, с. 275-276, 278.

[21] Gürcüstan Mərkəzi Tarix Arxivi (GMTA), fond 2, siyahı 1, iş № 2672.

[22] Полное собрание законов Российской империи (ПСЗ), собрание 2-е, т. XV, отделение 1-ое, СПб., 1841, ст. 13368; А. Балаев. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX вв., Москва, 2012, с. 75.

cüstan-İmeretiya quberniyası (mərkəzi: Tiflis) yaradılır; İrəvan və Naxçıvan xanlıqlarının işğalı nəticəsində tarixi Azərbaycan torpaqlarında yaradılmış Erməni vilayəti ləğv edilərək İrəvan, Naxçıvan və Aleksandropol (Gümrü) qəzaları şəklində Gürcüstan-İmeretiya quberniyasına birləşdirilir, "tatar distansiyaları" nahiyələrə çevrilir; Qazax və Şəmşəddil nahiyələri Gürcüstan-İmeretiya quberniyasının Yelizavetpol (Gəncə) qəzasının, Pəmbək və Şürəgəl nahiyələri Aleksandropol qəzasının, Borçalı nahiyəsi isə əvvəlkitək Tiflis qəzasının tərkibinə verilir[23].

Çox keçmədən 17 dekabr 1844-cü ildə Qafqazda daha effektiv idarəetmənin təmin edilməsi məqsədiylə baş hakimlik ləğv edilir və onun əvəzinə canişinlik yaradılır[24]. M.S.Vorontsov canişin təyin edilir. Qafqazın bütün hərbi və mülki hakimiyyəti yalnız çarın qarşısında hesabatlı olan canişinə məxsus idi. Onun yurisdiksiyası altında olan ərazilər rəsmi olaraq Qafqaz diyarı (inzibati mərkəzi: Tiflis) adlanırdı.

Canişinlik institutunun təsis edilməsindən az müddət sonra, 14 dekabr 1846-cı ildə Cənubi Qafqazda yenidən inzibati-ərazi bölgüsü aparılır və Gürcüstan-İmeretiya quberniyası Tiflis və Kutais quberniyalarına bölünür, Kaspi vilayəti də ləğv olunaraq ərazilərində Şamaxı (1859-cu ildən Bakı) və Dərbənd quberniyaları yaradılır. Tiflis quberniyası Tiflis, Qori, Sığnaq, Telav, Yelizavetpol, İrəvan (Erivan), Naxçıvan və Aleksandropol qəzalarından, Osetin, Dağlı və Tuş-Pşav-Xevsur (sonradan Tionet adlandırılır) dairələrindən ibarət idi. 9 iyun 1849-cu ildə Tiflis quberniyasının İrəvan, Naxçıvan və Aleksandropol qəzalarının (Axalkələk nahiyəsi istisna olmaqla), Şamaxı quberniyasının Mığrı//Meğri nahiyəsinin və Şuşa qəzasının Qapak kəndinin əraziləri hesabına yeni İrəvan quberniyası təşkil edilir[25].

Qafqazın güneyinin inzibati-ərazi bölgüsündə XIX yüzilin ikinci yarısında da vaxtaşırı müəyyən dəyişikliklər edilir. Bu dəyi-

---

[23] ПСЗ, собр. 2-е, т. XV, отд. 1-ое, ст. 13368.
[24] ПСЗ, собр. 2-е, т. XIX, ч. 2-я, СПб., 1844, ст. 18679.
[25] ПСЗ, собр. 2-е, т. XXIV, отд. 2-ое, СПб., 1850, ст. 23303.

şikliklər çərçivəsində "Qafqaz və Zaqafqaziya diyarlarında idarəetmənin dəyişdirilməsi haqqında" 9 dekabr 1867-ci il tarixli çar fərmanı əsasında Yelizavetpol quberniyası yaradılır. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi bu quberniyanın tərkibinə daxil edilir[26].

1880-ci ildə Tiflis qəzasının bir hissəsindən üç pristavlıqdan – Borçalı, Lori və Trialet pristavlıqlarından ibarət ayrıca Borçalı qəzası təşkil edilir[27].

Beləliklə, Çar Rusiyası dövründə Borçalı qarapapaqları* şaquli iyerarxiya üzrə, əsasən, aşağıdakı inzibati-ərazi vahidlərində yaşamışdırlar:

Borçalı distansiyası → Lori qəzası → Gürcüstan quberniyası (1801-1804-cü illər);

Borçalı distansiyası → Tiflis qəzası → Gürcüstan quberniyası (1804-1841-ci illər);

Borçalı nahiyəsi → Tiflis qəzası → Gürcüstan-İmeretiya quberniyası (1841-1847-ci illər);

Borçalı nahiyəsi → Tiflis qəzası → Tiflis quberniyası (1847-1880-cü illər);

Borçalı, Lori və Trialet pristavlıqları → Borçalı qəzası → Tiflis quberniyası (1880-1917-ci illər).

Qeyd edək ki, Borçalı qəzası 1917-ci ildə imperiyanın süqutundan sonra da Tiflis quberniyası tərkibində ayrıca inzibati-ərazi vahidi kimi mövcud olmuşdur.

---

[26] ПСЗ, собр. 2-е, том XLII (42), отд. 2-ое, СПб., 1871, Ст. 45259.

[27] Борчалинский уезд // Энциклопедический словарь Брокгауза и Ефрона, т. IV, СПб., 1891, с. 451-452.

* Qarapapaqlar – Azərbaycan türklərinin subetnik qrupu; tarixən Borçalı mahalında və onun ətrafındakı Axalkələk (Cavaxet), Qaraçöp, Qazax, Loru-Pəmbək, Ağbaba, Göyçə, Dərəçiçək, Çıldır və digər mahallarda, eləcə də Urmiyə gölünün güneyindəki Sulduz mahalında kompakt şəkildə yaşamışdırlar.

## Feodal-kəndli münasibətləri və aqrar islahatlar

Çarizm qəsb etdiyi əyalətlərdə sosial dayaqlarının möhkəmləndirilməsi və yeni ərazilərin iqtisadi cəhətdən mənimsənilməsi üçün inzibati islahatlara paralel olaraq sosial-iqtisadi və aqrar islahatlar da aparırdı. Maliyyə-vergi sistemini qaydaya salmaq üçün mütəmadi olaraq əhalinin kameral təsvirləri keçirilirdi. Eyni zamanda əhalinin bütün təbəqələrini, xüsusən də ictimai təsir imkanlarına malik nüfuzlu zümrələri hər cəhətdən özündən asılı hala salmaq məqsədiylə müvafiq qanunverici baza yaradılırdı. Nəticə etibarilə, yerli feodallar və din xadimləri çar hakimiyyətinə sədaqət prinsipi əsasında imtiyazlarla təmin olunur və ya əvvəlki imtiyazlarından məhrum olunurdular. Sosial təbəqələr arasında mövcud ənənəvi qarşıdurmadan öz məqsədləri naminə faydalanmağa cəhd edən çar hakimiyyəti həyata keçirdiyi kəndli islahatları ilə feodal-kəndli münasibətlərini tənzimləməyə çalışırdı.

Qeyd edək ki, Kartli-Kaxetiya çarlığında feodal münasibətləri kifayət qədər inkişaf etmişdi. Çarlığın tabeliyində olan türk mahallarında vəkillər, sultanlar, knyazlar (tavadlar), məliklər, ağalar və bəylər hakim feodal əyanlar təbəqəsini təşkil edirdilər. Bu feodalların silahlı qulluqçuları olan *tarxanlar (maaflar)* imtiyazlı zümrəyə aid edilib vergi və digər ödənişlərdən azad olunmuşdular[28]. Kəndlilər rəiyyət, elat, rəncbər və xizanlara bölünürdülər. Onların əksəri təhkimçilik hüququ əsasında torpaq sahibkarı olan feodallara − mülkədarlara tabe idilər. *Rəiyyətlər* feodala məxsus torpaqlarda icmalar (camaatlar) halında oturaq həyat tərzi sürür, əkinçiliklə məşğul olurdular və özlərinin təsərrüfatına − istehsal vasitələrinə (iş heyvanları, kənd təsərrüfatı alətləri) malik idilər. Mülkədara vergiləri rəiyyətlər 3 formada − əmək (işləyərək ödəmə), natural (əkib-biçdikləri məhsulun müəyyən hissəsini verməklə) və nəqd pul formaların-

[28]Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I: Феодальные отношения и колониальный режим: 1827-1843 гг., с. 115.

da ödəyirdilər. *Rəncbərlər*in özlərinin təsərrüfatları yox idi və onlar feodalın, əsasən, yardımçı kənd təsərrüfatı işlərində (çoban, bağban, gözətçi və s.) çalışırdılar. Bu qrup təhkimli kəndlilər, adətən, tabeçiliyində olduqları başqa feodalın təzyiqinə tab gətirməyib ondan qaçmış və ya müflisləşmiş rəiyyətlərdən ibarət idi. Rəncbərlər mülkədar üçün biyar formasında çalışaraq, yəni məcburi və müftə mükəlləfiyyətlər icra edərək rəiyyətlərdən daha çox istismara məruz qalırdılar. Təhkimli kəndlilər arasında xüsusi yer tutan *xizanlar* torpaq sahələrinə malik olmayan icarədarlar idi. Onlar mülkədarın şifahi razılığı əsasında onun torpaqlarında məskunlaşıb müəyyən öhdəliklər qarşılığında kənd təsərrüfatı ilə məşğul olurdular. Bəzi feodal təsərrüfatlarında *nökərlər* də var idi. *Elatlar* köçəri və yarımköçəri (tərəkəmə) həyat tərzi sürüb maldarlıqla məşğul olurdular[29]. Onlar rəiyyətlərlə müqayisədə xeyli az vergi ödəyir, ancaq əvəzində hərbi mükəlləfiyyət daşıyırdılar. Bir çox hallarda rəiyyətlər yaşadıqları ərazilərdə elatlara təhkim olunur və onlar tərəfindən qorunurdular.

Çar Rusiyasının istilasından sonra ilk vaxtlar Cənubi Qafqazda mövcud maliyyə-vergi sistemində köklü dəyişikliklər edilməsə də, taxıl məhsulları ilə ödənilən vergilərə xüsusi diqqət yetirilirdi. Bu, aparılan işğalçı hərbi əməliyyatlarla əlaqədar regionda ildən-ilə sayı sürətlə artan rus qoşunlarının ərzaq məhsulları ilə fasiləsiz təmin olunması məqsədini güdürdü. Türk distansiyalarının sakinləri 1805-ci ildən başlayaraq hər il vergi kimi yığılan 9 min pud buğdanı öz at arabalarında ərzaq dükanlarına daşımalı idilər. Eyni zamanda kəndlilərin üzərinə ordunun ehtiyaclarına uyğun taxıl satmaq öhdəliyi qoyulurdu[30]. Ümumilikdə istiladan sonra kəndlilərin istis-

---

[29] И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв., Ленинград, 1949, с. 128.

[30] M.Q.Abdullayev. Çarizmin Azərbaycanda aqrar siyasətinin istismarçı mahiyyəti (XIX yüzilliyin birinci otuz ili) // XIX əsrdə Azərbaycanın aqrar quruluşu (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, 1988, s. 11.

marı daha da artmış, mövcud vergi öhdəliklərinə nəqliyyat və ərzaq ödəmələri də əlavə edilmişdir[31].

Yeni yaradılmış Gürcüstan quberniyasında kəndlilər dövlət (xəzinə), təhkimli və kilsə kəndliləri olmaqla üç qrupa bölünürdülər. Dövlət kəndliləri qrupuna daha əvvəl gürcü çarının və şahzadələrinin birbaşa tabeçiliyində olan, həmçinin, dövlət fonduna qatılmış feodal torpaqlarında yaşayan kəndlilər aid edilirdilər. Onlar vergini dövlət xəzinəsinə ödəyirdilər. Kilsə kəndliləri dini qurumlara (kilsə, monastır və s.) məxsus vəqf adlanan torpaq sahələrini əkib-becərir və vergini də bu qurumlara ödəyirdilər.

Torpaq mülkiyyətinin 2 əsas forması – xəzinə (dövlət) və xüsusi sahibkar torpağı formaları (tiyul, mülk və s.) mövcud idi. Mülk tam, irsi feodal torpaq mülkiyyəti növü idi, satıla və bağışlana bilərdi. Mülkdən fərqli olaraq tiyul barədə yalnız hökumət idarələri sərəncam vermək hüququna malik idilər. Feodallar çarizmə sədaqəti, hərbi və digər xidmətləri qarşılığında tiyuldara çevrilə bilərdilər. Tiyul torpaqları üzərində hüquqi varislik də feodalın sədaqəti və xidmətləri nəzərə alınaraq təmin olunurdu[32].

Çar hökuməti Cənubi Qafqazda öz hakimiyyətinin ilk dönəmlərində yerli feodalları ələ ala bilmək və öz təsiri altında saxlamaq üçün tiyul torpaqlarının daha əvvəl müəyyən edilmiş istifadəsi qaydalarını dəyişməsə də, türk distansiyalarının ağalarının bir çoxunu uzun müddət müsəlman əhalinin ali silk nümayəndələri kimi qəbul etməkdə tərəddüd edirdi. Gürcüstanın baş idarəçisi A.P.Yermolov 1817-ci ildə icra ekspedisiyasına sözügedən distansiyaların ağalarının hüquq və imtiyazları barədə məlumatlar toplamaq barədə göstəriş verir. Ekspedisiyanın əldə etdiyi məlumatlar əsasında belə bir qərara gəlinir ki, ağalar türk-müsəlman kəndləri üzərində polis idarəçiliyini həyata keçirirlər, tabeçiliklərindəki kəndlər və torpaqlar onlara və ya onların ata-babalarına dövlətə xidmətləri qarşılığında verilmişdir, yəni ki, tiyul torpaqları idi, ona görə də irsən keçə bilməzdi və

---

[31] N.Berdzenişvili, V.Dondua,..., göstərilən əsər, s. 222.

[32] ПСЗ, собр. 2-е, т. XXIV, отд. 2-ое, СПб., 1850, ст. 23303; Azərbaycan tarixi, IV cild, Bakı, 2007, s. 85.

dövlətə qaytarılmalıdır. Bu komissiyanın rəyi əsasında Yermolov 1818-ci ilin aprel ayında "Qazax, Şəmşəddil və Borçalı ağalarının hüquq və öhdəlikləri haqqında Əsasnamə" qəbul edir. Əsasnaməyə əsasən, ağaların səlahiyyətləri xeyli azaldılırdı və torpaq sahələri üzərində mülkiyyət hüquqları ləğv edilirdi. Beləliklə, onlar kəndlərin sahibkarından idarəçisinə (o da çarizmə sədaqətlə qulluq müqabilində) çevrilirdilər[33]. Ağalar hökumət qarşısında aşağıdakı öhdəlikləri daşıyırdılar:

a) Kənd sakinlərinin davranış və əmək fəaliyyətlərinə nəzarət etmək; tənbəl, üzərinə düşən işlərin yerinə yetirilməsində itaətsizlik edən, vergi ödəməyən və həyat tərzi pozğun olan sakinlərə əməllərinə mütənasib olaraq bədən cəzası vermək (fiziki cəzalandırmaq);

b) Sakinlərin mühüm əhəmiyyət kəsb etməyən şikayətlərə baxmaq;

c) Oğurluq və avaraçılıqların qarşısını almaq.

Dövlət kəndlilərini idarə etmələri müqabilində ağalar bu üstünlük və təminatlardan yararlanırdılar:

a) Kəndlilər ağaların kənddəki torpaqlarını ildə bir dəfə əkib-şumlamalı, ağalara məxsus tarlalardan məhsul toplamalı idilər; ağaların ayrıca biçin sahələri var idisə, orada müvafiq işlərin gördürülməsi üçün ancaq könüllü-muzdlu insanların xidmətindən faydalana bilərdilər;

b) Rəhbərlik tərəfindən nökərlə təmin olunurdular;

c) Vergilərin kəndxuda və ya koxa tərəfindən yığılmasını təmin etmək məqsədiylə kənd sakinlərinin pul və taxıl vergisinin ⅒-ni özlərinə götürə bilərdilər;

d) Müharibə vaxtı başçılıqları altında döyüşmüş kəndlilərin əldə etdikləri hərbi qənimətin ⅒-ni özlərinə götürə bilərdilər;

e) Rəhbərliyin tapşırığı əsasında edəcəkləri uzaq səfərlər və yaylaq-qışlaq köçləri üçün atlar götürə bilərdilər;

---

[33] С.Эсадзе. Историческая записка об управлении Кавказом, том 1-й, Тифлис, 1907, с. 603; Azərbaycan tarixi, IV cild, s. 86-87.

f) Özləri üçün yaşayış evinin inşası və ya təmiri işlərinin həyata keçirilməsi məqsədiylə işçi qüvvəsi qismində kənd sakinlərini (onları şəxsi təsərrüfat işlərindən ayırmamaq və qida ilə təmin etmək şərti ilə) cəlb edə bilərdilər.

Ağaların qohumları da vergidən azad olunmaqla a) və b) bəndlərində qeyd olunan imkanlardan faydalana bilərdilər[34]. Qeyd edək ki, Əsasnamə qəbul olunan zaman Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların sayı 78 nəfərdən ibarət idi[35].

Çar rəsmiləri Cənubi Qafqaz müsəlmanları barədə daha geniş və sistematik məlumatların toplanmasına 1827-1829-ci illərdə İrəvan və Naxçıvan xanlıqlarının, Axısqa paşalığının ərazilərinin zəbt olunması ilə nəticələnən işğal müharibələri sona yetdikdən sonra başlayırlar. Həmin dövrdə Qafqazdakı rus qoşunlarının baş komandanı qraf İ.Paskeviç çar I Nikolayın əmri ilə Cənubi Qafqaz müsəlmanlarının adət-ənənələrinin, Rusiyanın nəzarətinə keçməzdən əvvəl müsəlman əyalətlərində müxtəlif inzibati işlərin baxılması qaydalarının, feodalların və "mahal starşinaları"nın imtiyazlarının, mülkədar-kəndli münasibətlərinin, müsəlman ruhanilərin hüquq və səlahiyyətlərinin, maliyə-vergi sisteminin, əhali tərkibinin, torpaq bölgüsünün və bir sıra digər məsələlərin öyrənilməsi üçün komitə yaradır. Bu komitə 1837-ci ilə qədər fəaliyyət göstərir və öz işinin nəticəsi olaraq araşdırmalı olduğu sahələr üzrə üç layihə təqdim edir. Onların əsasında isə müsəlman əyalətlərinin idarəolunması haqqında ümumi layihə hazırlanır[36]. Həmin dövrdə (1839-cu ildə) Borçalı, Qazax və Şəmşəddil distansiyalarında 102 kəndin idarəçiliyini həyata keçirən 75 ağa qeydə alınmışdı[37].

---

[34] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I, с. 134-135.
[35] Yenə orada, s. 172.
[36] S.Esadze, göstərilən əsəri, I cild, s. 603-604.
[37] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I, с. 135.

1841-ci ildə imzalanmış reskriptlə* Qazax, Borçalı və Şəmşəddil nahiyələrinin ağalarının torpaqları ümumən müsadirə olunur və onlar kəndlərin idarəçiliyindən də kənarlaşdırılırlar. Əvəzində ağalara dövlət qulluğuna keçmək təklif olunur və ömürlərinin axırına qədər təqaüd (torpaqdan əldə etdikləri gəlir məbləğində) vəd edilir. Bu təklif, onunla razılaşanlar olsa da**, ümumilikdə ciddi narazılıqla qarşılanır. Bu dövrdə ağaların dəstəyi ilə qaçaq hərəkatı yeni vüsət alır[38]. Çar hökuməti geri addım atmağa məcbur olur. 1842 və 1843-cü illərdə Tiflisdə ağaların torpağa mülkiyyət hüquqlarının yenidən araşdırılması və ali müsəlman silkinin müəyyənləşdirilməsi üçün komitələr (bəy komissiyaları) yaradılır. Gürcüstan baş idarəçisinin dəftərxanasında şərq dilləri üzrə mütərcim vəzifəsində çalışan mütəfəkkir-yazar, polkovnik Abbasqulu ağa Bakıxanov bu komitələrin işində yaxından iştirak edir[39]. Əlavə edək ki, Cənub-Şərqi Qafqazda feodal münasibətləri və rus müstəmləkə idarəçiliyi sisteminin mahir tədqiqatçısı İ.P.Petruşevski 1841-ci il reskriptinin yerli türk idarəçilərinin və məmurlarının ruslarla əvəz olunması, eləcə də regionda türk torpaq sahibkarlarının sıxışdırılması və rus dvoryanlarının (zadəganlarının) kök salmasına hədəfləndiyini yazırdı. Onun sözlərinə görə, rus zadəganları Asiya ucqarlarında daimi məskunlaşmaq istəmədikləri üçün belə layihələr icra olunmadan kağız üzərində qalırdı[40].

Beləliklə, Cənubi Qafqaz diyarının mülki işlər üzrə idarə rəisi general-leytenant P.A. Ladinski tərəfindən bəy komissiyalarının rəyi nəzərə alınaraq, bəy və ağaların torpaq hüquqları haqqında layihə hazırlanır. Bu layihə Qafqaz canişini M.S.Vorontsovun 8 mart 1846-cı il tarixli məktubu ilə çar I Nikolaya

---

* reskript - qanun gücündə olan rəsmi dövlət sənədi.

** Borçalı nahiyəsində dövlət xidmətinə keçmiş ağaların siyahısı üçün bax: səh. 80.

[38] S.Esadze, göstərilən əsəri, I cild, s. 74, 77-78, 527-528.

[39] Yenə orada, s. 606, 610.

[40] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I, с. 30, 35.

təqdim olunur[41]. Məsələ ilə bağlı Qafqaz Komitəsinə göndərdiyi məktubuna əlavə qeydində M.Vorontsov yazırdı: “Ağalar polis məmurları deyil, torpaq sahibləri idilər. Bu, ilk növbədə onunla sübut olunur ki, Gürcüstanda baş komandan knyaz Sisianov bu çarlıq (Kartli-Kaxetiya çarlığı – F.V.) üzrə bütün kəndlərdə keçmiş polis hakimiyyətini, daha dəqiq desək, xalq zəliləri adlandırdığı mouravları yox etdi, ağaların hüquqlarına toxunmağı isə nəinki faydalı, həttа mümkün hesab etmədi. İkinci sübut da odur ki, bu ağaların əksəri idarəçilikləri altında olmuş kəndlər üzərində hüquqları ilə bağlı gürcü çarları və İran şahlarının şəhadətnamələrinə malikdirlər. Məsələn, erməni kəndi olan Körpülü, baxmayaraq ki, bu kənddə o zaman da xaçpərəstlər məskunlaşmışdı çar İrakli və çar Georgi tərəfindən ağalar Sadıq bəy Yadigarova hədiyyə edilmişdi; eyni qaydada çarlar tatar kəndlərini xaçpərəstlərə verirdilər və bu kəndlər indiyədək onların mülkiyyətindədir”[42]. Yeri gəlmişkən qeyd edək ki, bu son məsələyə rus publisisti D.Y.Zubaryovun Qafqazın ilk rusdilli mətbu orqanı “Tiflisskiye vedomosti” qəzetində 1830-cu ildə dərc olunmuş «Qırmızı körpü» məqaləsində də toxunulurdu. Sonradan “Kavkaz” qəzetində təkrarən çap olunmuş bu məqalədə Qazax-Borçalının tarixi abidələrindən Sınıq körpünün XVII əsrdə çar Rostom[*] tərəfindən bərpa etdirildiyi və bu məqsədlə İrandan çağırılmış ustaların qala bilməsi üçün onun yaxınlığında erməni kəndi salındığı, sonra isə bu kəndin fəhlələrin nəzarətçisi *H.Yadigarova* (böyük ehtimalla S.Yadigarov olmalıdır – F.V.) hədiyyə edildiyi vurğu-

[41] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II: Феодальные отношения и колониальный режим: 1827-1868 гг.; Ретропринт, Баку, 2014, с. 284-288, 309-319.
[42] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II, с. 337; часть III: Феодальные отношения и колониальный режим: 1843-1868 гг.; Ретропринт, Баку, 2014, с. 240-241.
[*] Rüstəm xan – Səfəvilərin hökmranlığı dönəmində Kartli-Kaxetiya hakimi.

lanır. Məqalədən adı Körpülü olan bu kəndin sakinlərinin sonradan Borçalının dağlıq hissəsinə (Loruya) köçdüyü bəlli olur[43].

Müəyyən müzakirələrdən sonra 1846-cı ilin 6 dekabrında P.Ladinskinin layihəsi əsasında bəy və ağaların hüquqları haqqında reskript imzalanır. Bu reskriptə görə, müsəlman əyalətləri Rusiyaya birləşdirilənə qədər feodallara məxsus olmuş torpaqlar geri özlərinə qaytarılır, bundan əlavə, onların müəyyən şərtlərlə tiyullar üzərində tam irsi hüququ təsdiq edilir, yəni mülk və tiyullar feodal torpaq mülkiyyəti olaraq eyni formada bərabərləşdirilirdi[44].

Reskriptə uyğun olaraq Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahələri ilə təmin olunması üçün xüsusi komissiya yaradılmışdı. Bu komissiya tərəfindən ağaların torpaq üzərində hüququnu təsdiqləyən iki fərqli formada şəhadətnamə hazırlanmış, onlardan birində aşağıdakı müddəalar əks olunmuşdu:

1) Kəndin məskun və qeyri-məskun torpaqları 14 hissəyə bölünür və canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığına müvafiq olaraq müəyyən edilmiş pay bölgüsü ilə kənd ağalarının ömürlük və irsi mülkiyyətinə verilir;

2) Zərif cinsin nümayəndələri, yəni ağanın arvadı və ərə getməmiş qızları torpaq bölgüsü siyahısına salınmayıblar. Onlar bu torpaqlardan əldə olunmuş gəlirlə saxlanılmalıdırlar; bu torpaqların sahibləri onlara ənənəyə uyğun olaraq yaxşı məvacib verməlidirlər;

3) Ağalara verilən torpaq sahələrinə kiminsə mülkiyyətində olan sahələr daxil deyil. Həmin sahələr əvvəlkitək öz sahiblərində qalır. Torpaq mübahisələri yaranarsa, məhkəmə qaydasında həll olunmalıdır;

---

[43] «Тифлисские ведомости» qəz., 1830, 3 sentyabr, № 71; «Кавказ» qəz., 1852, 27 fevral, № 15.

[44] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II, с. 339-341; О.Семин. Великая годовщина. Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе, Киев, 1911, с. 15; S.Esadze, göstərilən əsəri, I cild, s. 528.

4) Ağalara paylanmış torpaqlara otlaqlar və yaylaq yerləri daxil deyil;

5) Ağalara dair 1818-ci il əsasnaməsinə görə, vergilərdən azad olunmuş ağa qohumları həmin imtiyazlarını saxlayırlar, ancaq əlavə torpaq sahəsi almırlar və istifadə etdikləri torpaqlarla kifayətlənməlidirlər;

6) Bu torpaq sahələrinə sahib olan ağalara dövlət xəzinəsindən pul verilməsi dayandırılır. Ağalara xəzinədən məvacib onların idarəçiliyində olan kəndlərdən əldə etdikləri gəlirlərdən məhrum olunmaları qarşılığında təyin edilmişdi;

7) Bu torpaq sahələri ölçülüb sərhədləri müəyyən edildikdən sonra qanuni sahiblərinə veriləcəkdir.[45]

İkinci növ şəhadətnamə isə kəndin 14 hissəyə bölünmüş torpaq sahəsindən müəyyən payın ağaya ömürlük istifadə üçün ayrıldığını təsdiq edirdi. Ancaq bu torpaq irsi mülkiyyətə verilmirdi. Bunun üçün ağanın oğul övladları ober-zabit (kiçik zabit) rütbəsi almalı idilər. Əgər vəfat etmiş ağanın uşaqları azyaşlı idilərsə, onda onun torpaq sahəsi ta oğulları tam yetkinlik yaşına, yəni ober-zabit rütbəsi ala biləcəkləri 21 yaşına çatana kimi ailəsinin ixtiyarında qalırdı. Əks halda ağanın yetkinlik yaşında olan oğullarına ober-zabit rütbəsi almaları üçün 5 il vaxt verilirdi və bu müddətdə torpaqlar onun ailəsinin istifadəsində olurdu. Bu növ şəhadətnamədə digər şəhadətnamənin yuxarıda qeyd olunmuş 3-cü, 4-cü və 7-ci bəndləri öz əksini tapırdı[46].

20 aprel və 28 dekabr 1847-ci ildə qəbul edilmiş "Kəndli əsasnamələri" feodal-kəndli münasibətlərini konkretləşdirirdi. Torpaq sahibkarı 15 yaşından yuxarı kişi cinsindən olan kəndlini 5 desyatin pay torpağı ilə təmin etməli idi[47].

Ağalarla sıx və yaxın münasibətlərin saxlanmasına xüsusi önəm verən Qafqaz canişini M.Vorontsov Axtala mədəninə get-

---

[45] Bax: Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA), fond 923, siyahı 1, iş № 1.

[46] Yenə orada.

[47] S.Esadze, göstərilən əsəri, I cild, s. 531.

mək üçün 1850-ci il aprelin 11-də «Zakavkazski vestnik» qəzetinin redaktoru P. İoseliani, Tiflis Qəza Məhkəməsinin hakimi, eyni zamanda publisist L. İsarlov, Canişinlik Dəftərxanasının direktoru Safonov və həkim Sokolovun müşayiəti ilə Tiflisdən çıxıb Borçalıya yola düşür. Canişini Marabdada praporşik *Əhməd Sultan İsa Sultan oğlu* (Dəmirçihasanlı-Kosalı), *Daşdəmir ağa* (Qasımlı), *Məhəmməd ağa* (Araplı), *İbrahimxəlil ağa* (Sarvan), *Mustafa ağa* (Dəmirçihasanlı-Kəpənəkçi) başçılığında at belində sıraya düzülmüş çoxsaylı Borçalı ağaları qarşılayır. Yolçuluğu Borçalı çökəyinin Sarvan-Sadaxlı və Şüləver-Arıxlı yolu üstündəki qarapapaq kəndlərindən keçən knyaz M.Vorontsovu L.İsarlov Arıxlı kəndinin mülkədarı, keçmişin məşhur qaçağı *Alı ağa Eyyub ağa oğlu* və onun 5 oğlu ilə tanış edir[48]. Bu səfərdən 24 il sonra L.İsarlov mətbuatda Alı ağanın 1818-ci ildə qorili bir gürcü knyazının xanımını əsirlikdən azad etmək üçün həyata keçirdiyi uğurlu əməliyyatını təcəssüm etdirən irihəcmli məqalə ilə çıxış edir[49].

Çar II Aleksandrın təsdiq etdiyi 19 fevral 1861-ci il tarixli "Təhkimçilik asılılığından çıxmış kəndlilər haqqında Əsasnamə" ilə həmin il Rusiya imperiyasında təhkimçilik hüququ ləğv edilir. Kəndlilər şəxsi azadlıq və öz əmlaklarından istifadə etmək hüququ qazanırlar. Mükədarlar isə yenə də torpağın mülkiyyətçisi kimi qalaraq kəndlini daimi həyətyanı sahə və pay torpağı ilə təchiz etməli idilər[50]. Beləliklə, sahibkar kəndliləri torpağa və onun sahibinə (mülkədara) təhkim olunmayıb, sahibkar (mülkədar) torpaqlarında yaşayan dövlət kəndliləri hesab edilirdilər. 1861-ci il əsasnaməsi Tiflis quberniyasında Qafqaz canişininin müəyyən düzəlişləri ilə 1864-cü ildə qüvvəyə minir[51].

Bundan sonra da kəndli islahatlarının aparılmasına davam edilir. 1870-ci ilin may ayının 14-də "Cənubi Qafqaz quberniyaları:

---

[48] «Закавказский вестник» qəz., 1850, 20 aprel, 27 aprel, 4 may, № 16-18.
[49] «Кавказ» qəz., 1874, 20 oktyabr və 23 oktyabr, № 123-124.
[50] Azərbaycan tarixi, IV cild, s. 190.
[51] S.Esadze, göstərilən əsəri, I cild, s. 538.

Yelizavetpol, Bakı, İrəvan və qismən də Tiflis quberniyalarının ali müsəlman silkindən olan şəxslərinin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında Əsasnamə" qəbul edilir. Əsasnaməyə görə, kəndlilər istifadələrində olan torpaqlardan daimi yararlanmaq hüququna sahib olurdular və sahibkarın onu geri almağa ixtiyarı yox idi. Buna görə də kəndli özünün istifadə etdiyi torpaq payını nəslinin davamçısına ötürə bilirdi. Sahibkar kəndlilərinə öz pay torpaqlarını satın almaq hüququ verilsə də, bu, məcburi deyildi[52].

Kəndli islahatlarına paralel olaraq ali silkə aid olan müsəlman feodalların əsil-nəcabətini müəyyənləşdirmək üçün 1864-cü ildə canişin, böyük knyaz Mixail Romanovun əmri ilə Tiflis və İrəvanda, sonrakı illərdə isə Bakı və Şuşa şəhərlərində "bəy komissiyaları" adı altında müvəqqəti komissiyalar yaradılmışdı. Bu komissiyaların yaradılması zərurəti vaxtilə bəzi ailələrin müxtəlif əyri yollar və vasitələrlə özlərini bəy və ağaların siyahısına daxil etdirə bilməsi səbəbindən irəli gəlirdi. Tiflisdə təsis olunmuş bəy komissiyası Gəncə, Şəmşəddil, Borçalı, Qazax və Axalsıx bölgələrində torpaq sahiblərinin hüquqlarını nəzərdən keçirərək, onlardan 184 nəslin ağabəy şərəfini təsdiq etmişdi[53].

A.D.Yeritsovun "Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi həyatının öyrənilməsinə dair materiallar"ından bəlli olur ki, 1885-ci ildə 96 336 nəfər əhalisi olan Borçalı qəzasında 256 yaşayış məntəqəsi mövcud idi. Bu məntəqələrdən 98-ində dövlət kəndliləri yaşayırdı. Belə ki, qəzanın Borçalı pristavlığında 17, Lori pristavlığında 31, Trialet pristavlığında isə 50 dövlət kəndi var idi; bu kəndlərdən 12-sinin əhalisini qarapapaqlar təşkil edirdi[54]. 1873-cü ilin kameral təsvirinə görə, Borçalı qəzası-

---

52 Azərbaycan tarixi, IV cild, s. 196-197.

53 Yenə orada, s. 195; S.Esadze, göstərilən əsəri, I cild, s. 609.

54 Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, том 7-й (исследования А.Д.Ерицова), Тифлис, 1887, s. 389.

nın 36 404 dövlət kəndlisindən 2073-ü (309 ailə), 1885-ci il göstəricilərinə görə isə 45076 dövlət kəndlisindən 2889-u (349 ailə) türk-qarapapaq idi[55].

* * *

1861-ci ildə Qafqazda canişin vəzifəsini müvəqqəti icra edən knyaz general Q.D.Cambakur-Orbelianinin Borçalı, Qazax və Şəmşəddil nahiyələrinin ağalarının kəndlərin idarəçiliyindən uzaqlaşdırılması və onların icra etdikləri polis nəzarətçisi funksiyasının isə zemski (məhəlli) polisinə verilməsi təklifi daha yüksək dairələr tərəfindən dəstəklənir. Bundan sonra adı çəkilən nahiyələrdə bir və ya bir neçə kəndin idarə olunması, xüsusən də kənd sakinləri arasında qayda-qanuna riayət edilməsinə, vergilərin toplanılmasına, kənd infrastrukturuna (yol, körpü, suvarma şəbəkəsi və s.) və yaylaq-qışlaq köçlərinə nəzarət edilməsi kəndlilər arasından seçilən *kəndxudalara* («старшина») və ya *koxalara* («кевха») həvalə edilir[56]. Zəruri məsələlər barədə yerli hakimiyyət orqanlarını vaxtında məlumatlandırmalı olan kəndxuda və koxalar yerli idarəçiliyin ən aşağı pilləsində dayanırdılar və faktiki olaraq eyni vəzifələri icra edirdilər. Borçalıya dair arxiv sənədlərindən bəzən böyük kəndlərdə eyni zamanda həm kəndxuda, həm də koxanın fəaliyyət göstərdiyi bəlli olur. Belə olan halda kəndxuda daha üst mövqedə dururdu və koxa onun köməkçisi sayılırdı. Qeyd edək ki, Kartli-Kaxetiya çarlığı dönəmində baş kəndxuda və ikinci kəndxuda vəzifələri mövcud idi[57]. Həm Kartli-Kaxetiya çarlığında, həm də Rusiya hakimiyyətinin ilk dövrlərində kəndxuda vəzifəsini çox zaman adlı-sanlı ağalar

---

[55] Yenə orada, s. 390.

[56] S.Esadze, göstərilən əsəri, I cild, s. 536-538.

[57] "აღმოსავლეთ საქართველოს მეფეების, ბატონიშვილების და ხანების მიერ გაცემული სპარსული სიგელები" ("Şərqi Gürcüstanın çarları, şahzadələri və xanları tərəfindən verilmiş farsdilli şəhadətnamələr"), tərtibçi: N.Dondua, Tiflis, 2010, s. 12.

icra edirdilər. Onların yanına bəzən yüzbaşı da təhkim olunurdu[58]. Rus yazıçısı və etnoqrafı Orest Yevetski 1835-ci ildə nəşr olunmuş “Zaqafqaziya diyarının statistik təsviri” əsərində yazırdı: “Tatar kəndlərində kəndxudalar ağalar adlanırlar, onlar mülki qubernator tərəfindən təsdiq olunur; onların yanına özləri tərəfindən seçilən və koxa adlanan köməkçilər təyin olunur”[59].

Kəndxudalar (koxalar) kənd icması tərəfindən daşınmaz əmlaka malik olan və mühakimə olunmamış şəxslər arasından üç il müddətinə seçilirdilər. Ancaq qaçaqları gizlədib sığınacaq vermələrinə, tez-tez təkrarlanan oğurluq hadisələrinə və s. səbəblərə görə cəza olaraq bu hüquqdan məhrum edilən kənd icmaları da var idi və onlara hökumət kəndxudası təyin edilirdi. Hökumət kəndxudasından fərqli olaraq seçkili kəndxudalar maaşla təmin olunmasalar da, kəndlilərdən toplanan verginin bir hissəsi onlara çatırdı, hətta bəzən onların sərəncamına məskunlaşmamış torpaqlar və rəncbərlər də verilirdi[60].

XIX əsrin sonlarında Borçalı qəzasında Faxralı, Arıxlı və Qızılhacılı kənd icmalarının kəndxudalarının aldığı məvacib (hərəsi 840 rubl) digərlərindən xeyli çox idi. Bu kəndxudalar qəza idarəsinin sabiq dövlət qulluqçuları arasından seçilərək hökumət tərəfindən təyin olunmuşdular[61].

---

[58] Ш.С. Гусейнов. Русская официальная статистика о податной системе в Азербайджане в первой четверти XIX века // XIX əsrdə Azərbaycanın aqrar quruluşu (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, 1988, s. 30.

[59] O.Yevetski, göstərilən əsəri, s. 140.

[60] Azərbaycan tarixi, IV cild, s. 103.

[61] Район Тифлисско-Карсско-Эриванской железной дороги в экономическом и коммерческом отношениях (Исслед. А.М. Аргутинского-Долгорукова , В.П. Бочкарева и Р.И. Даниловича), Тифлис, 1897, с. 181.

## Çarizmin Cənubi Qafqazda dini siyasəti və müsəlman ruhanilər

Çar Rusiyası Cənubi Qafqazda dini siyasətə xüsusi önəm verirdi. Müsəlman ruhanilər üzərində Osmanlı və Qacariyyənin təsirinin azaldılması bu siyasətin əsas istiqamətlərindən idi. Bunun üçün müsəlman ruhani idarələrinin yaradılması təşəbbüsü irəli sürülmüş, bu və digər yönlərdə ilk addımlar A.Yermolovun Qafqazda sərdarlığı dövründə atılmışdı. A.Yermolovun yerli müsəlman din xadimlərinin kənar təsirlərə düşməsinin qarşısını almaq bəhanəsiylə onlara qarşı bir sıra sərt məhdudlaşdırıcı tədbirləri, hətta imperatora müsəlmanların Həcc ziyarətinə getməsinin qadağan edilməsi təklifini irəli sürməsi sonuncularla hakimiyyət arasında etimadsızlıq mühitinin yaranmasına və qarşıdurmanın artmasına səbəb olmuşdu. Nəticədə Quzey Qafqazda rus hökmranlığına qarşı müridizm hərəkatı baş qaldırmış və qazavat elan olunmuşdu[62].

1823-cü ildə Zaqafqaziya//Transqafqaz şiələrinə dini rəhbərlik etmək üçün şeyxülislam vəzifəsi, bundan 9 il sonra isə (1832-ci ildə) regionun sünni müsəlmanlarının dini başçısı – müfti vəzifəsi təsis edilmişdi[63]. Hər iki məzhəbin dini rəhbəri Tiflis şəhərində yaşayıb fərdi qaydada təlimatlar əsasında fəaliyyət göstərirdi, çünki müsəlman ruhanilərin səlahiyyət-fəaliyyət çərçivəsini müəyyən edən zəruri hüquqi-normativ baza mövcud deyildi.

A.Yermolovdan sonra Qafqazı idarə etmiş İ.Paskeviçin, Q.Rozenin və Y.Qolovinin sərdarlıqları dövründə müsəlman ruhanilərin hüquq və öhdəliklərini müəyyən edən dörd əsasnamə layihəsi hazırlansa da, onların heç biri hökumətin tələblərinə cavab verməyir[64]. Knyaz M.Vorontsovun canişinliyi za-

---

[62] S.Esadze, göstərilən əsəri, I cild, s. 35-52.

[63]http://qafqazislam.com/index.php?lang=az&sectionid=100&id=163 (Qafqaz Müsəlmanları İdarəsinin rəsmi saytı).

[64] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть I, с. 165-168.

manında məsələdə önəmli irəliləyiş əldə olunur. 1847-ci ildə Tiflisdə şiə icması üçün Əliyyə, 1849-cu ildə isə sünni icması üçün Öməriyyə məktəbləri açılır[65]. M.Vorontsov nəzərdə tutulan yeni əsasnamə layihəsi üçün statistik məlumatlar toplamaq və müsəlman ruhanilərin problemləri ilə yerində tanış olmaq məqsədi ilə 1848-ci ildə canişinlikdə çalışan şərqşünas N.Xanıkovu Cənubi Qafqazın müsəlmanlar yaşayan bütün bölgələrinə, eləcə də Qacar İranı və Osmanlı Türkiyəsinə ezam edir. Ezamiyyətdən qayıdan Xanıkov müəyyən edir ki, müsəlman din xadimlərini narahat edən əsas problemlər onların cəmiyyətdə əvvəlki önəmli mövqelərini itirmələri, maddi durumları və verilmiş bəzi qərarların şəriətə görə batil olması ilə əlaqəlidir. Beləliklə, o, qeyd olunanları nəzərə alaraq 1849-cu ildə əsasnamə layihəsi hazırlayıb təqdim edir. Layihədə müsəlman ruhani idarələrinin yaradılması və onların Tiflisdə mərkəzləşdirilməsi, ruhani iyerarxiyası üzvlərinin seçilmə üsullarını müəyyən etməklə onlar arasında səlahiyyətlərin bölünməsi, dini məhkəmələrin və mədrəsələrin fəaliyyətləri ilə bağlı məsələlərə yer ayrılır. Fəqət 1853-cü ildə alovlanmış osmanlılarla müharibə başladılmış işi tam sona çatdırmağa imkan vermir[66].

Göründüyü kimi, İslam dininin ehkamları və şəriət qanunları Rusiya imperiyasının qanunvericiliyinə uyğunlaşdırılaraq bir neçə əsasnamə layihəsi hazırlansa da, onların bəzilərinin bəyənilməyərək geri qaytarılması, eləcə də bir sıra digər amillər − yerli əhalinin rus hakimiyyətinə qarşı düşmən mövqeyi, xüsusən də Şimali Qafqaz xalqlarının uzun sürən milli azadlıq mücadiləsi, 1853-1856-cı illər Rusiya-Osmanlı müharibəsi və s. müsəlman ruhanilərinin vəzifələrini, hüquq və imtiyazlarını, dünyəvi hakimiyyətlə münasibətlərini tənzimləyən hüquqi sənədin qəbul edilməsini ləngidirdi. Dini

---

[65] Bax: GMTA, f. 3, s. 1, iş № 348; GMTA, f. 3, s. 2, iş № 173; GMTA, f. 4, s. 3, iş № 33,

[66] С.Эсадзе. Историческая записка об управлении Кавказом, т. 2-й, Тифлис, 1907, с. 133-135.

idarəçilik məsələlərində hökm sürən qeyri-müəyyənlik nəinki İslam hümmətinin ən savadlı kəsimi hesab olunan ruhanilərin, bütövlükdə müsəlman dindarların haqlı narazılığına səbəb olurdu.

Çar II Aleksandrın qardaşı, böyük knyaz M.N.Romanov Qafqaza canişin vəzifəsinə təyin olunduqdan sonra qeyd olunan məsələ yenidən aktuallaşır. 1864-cü ildə canişinliyin ümumi işlər üzrə baş idarəsinin vitse-direktoru, eyni zamanda Yelizavetpol qubernatoru F.Bulatovun sədrliyi ilə xüsusi komissiya yaradılır. Tərkibi Zaqafqaziya şeyxülislamı *Əhməd Hüseynzadə* və müftisi *Məmməd Əfəndi Müftizadə*, “dövlət müşaviri, qraf, polkovnik” *İsrafil bəy Yadigarov*, mayor *Fətəli Axundov* və kargüzar N.Qoqentorndan ibarət bu komissiya bir neçə il fəaliyyət göstərib, region müsəlmanlarının hər iki məzhəbinin ruhanilərinin fəaliyyətini tənzimləyən əsasnamə layihələri tərtib edir[67].

Uzun müddət ali dövlət strukturlarında müzakirə olunduqdan sonra nəhayət, 5 aprel 1872-ci ildə hər biri 7 fəsildən ibarət “Zaqafqaziya şiə müsəlmanlarının ruhani idarəsi haqqında Əsasnamə” və “Zaqafqaziya sünni müsəlmanlarının ruhani idarəsi haqqında Əsasnamə” Dövlət Şurasının təqdimatı ilə Rusiya çarı II Aleksandr tərəfindən təsdiq edilir[68]. Bu əsasnamələrə əsasən şeyxülislamın rəhbərlik etdiyi idarənin nəzdində şiə, müftinin rəhbərlik etdiyi idarənin nəzdində isə sünni ruhani idarələri təsis edilir və 2 yanvar 1873-cü ildə Tiflis şəhərində bu təsisatların təntənəli açılış mərasimi keçirilir[69].

Qəbul olunmuş əsasnamələrə görə, Cənubi Qafqazın müsəlman dini-inzibati strukturu üçpilləli sistemdən ibarət idi. Ali pilləyə şiə və sünni ruhani idarələri aid edilirdi. Müvafiq olaraq şeyxülislam və müftinin rəhbərlik etdiyi bu idarələrin hər biri üç üzvdən təşkil olunmuşdu və onları Qafqaz canişini təyin edirdi. Şeyxülislamla müftinin özü isə canişininin təqdimatı ilə bilavasitə imperator tərəfindən təyin edilir və birbaşa daxili işlər nazi-

---

[67] S.Esadze, göstərilən əsəri, II cild, s. 137, 167.
[68] GMTA, f. 13, s. 24, iş № 145, vərəqlər 1-56.
[69] «Кавказ» qəz., 1873, 12 (24) yanvar, № 5.

rinə tabe olurdular. Orta pillədə qubernatorun təyin etdiyi üç nəfər üzvdən ibarət quberniya ruhani məclisi dayanırdı. Məclisə onun üzvlərindən biri olan qazi sədrlik edirdi. Mollaların rəhbərlik etdiyi yerli məscidlər (prixodlar) dini idarəçiliyin aşağı pilləsində qərar tuturdu.

Müsəlman din xadimlərinin özləri də iki zümrəyə bölünürdü – *şeyxülislam, müfti*, şiə və sünni ruhani idarələrinin, quberniya məclislərinin üzvləri ali, *məscid (prixod) mollaları (axund, əfəndi, imam-xətib və s.)* isə aşağı dini zümrənin nümayəndələri hesab olunurdular.

Sözügedən əsasnamələrin hər ikisinin 24-cü bəndinə əsasən mollalar məscidlərin camaatı tərəfindən seçilir və sonradan qubernator tərəfindən təsdiq olunurdu, 25-ci bəndinə görə isə, hər bir prixod camaatı üçün cəmi 1 molla nəzərdə tutulur, fəqət böyük məscidlərə (Cümə məscidlərinə) bir neçə molla vəzifəsi (150-200 ailəyə bir molla olmaqla) ayrılırdı; onlardan biri baş molla hesab olunurdu. Ümumilikdə məscidlərdə ən çoxu 5 molla çalışa bilərdi[70]. Məscid mollaları dini ibadətlər və ayinlər keçirmək, məscid nəzdində fəaliyyət göstərən mədrəsədə İslam dininin əsaslarını və digər ibtidai fənləri tədris etmək, bunlardan əlavə, yerli əhalinin doğum və nigah qeydiyyatını aparmaq səlahiyyətinə sahib idilər[71].

Çar Rusiyasında əvvəlki dövrlərdə olduğu kimi, ruhanilər vergi və mükəlləfiyyətlərdən azad olunmuşdular[72].

Qafqaz canişini dəftərxanasının tərtib etdiyi "Qafqaz təqvimi" illik məcmuəsinin XIX yüzildə müxtəlif illərə aid buraxılışlarından orta pilləli dini-inzibati strukturlarda təmsil olunan və Tiflis quberniyasının qarapapaqları ilə birbaşa işfəaliyyət bağlılığı olan ali dini zümrənin nümayəndələrinin adlarını dəqiqləşdirmək mümkündür. Belə din xadimlərindən məcmuənin 1867-ci il üzrə buraxılışında − Axund Molla

[70] GMTA, f. 13, s. 24, iş № 145.
[71] S.Esadze, göstərilən əsəri, II cild, s. 157.
[72] Ş.Hüseynov, göstərilən əsəri, s. 30.

Mehdi Sadıq oğlu Axundov (Borçalı nahiyəsinin şiə məzhəbi üzrə qazisi), Axund Molla Həsən xan Hüseyn oğlu (Sərticala nahiyəsinin şiə məzhəbi qazisi), Nəbi Əfəndi (Borçalı və Trialet nahiyələrinin sünni məzhəbi üzrə qazisi, əslən Dəmirçihasanlı elindən olub) və Əli Əfəndinin (Sığnaq qəzasının sünni məzhəbi üzrə qazisi)[73]; 1878-ci il üzrə buraxılışında − Tiflis-Kutais qubeniya şiə məclisinin üzvləri Axund Hacıbaba Həsənzadə (məclisin sədri − qazi), Axund Molla Mustafa Süleyman oğlu Talıbzadə (əslən Borçalı mahalının Sarvan kəndindən idi, məşhur yazar-pedaqoq Abdulla Şaiqin atası) və Axund Molla İsmayıl Yusufzadənin (XIX əsrin 90-cı illərində Borçalı qəzası şiələrinin qazisi olub), Sığnaq qəzasının və Sərticala nahiyəsinin şiə məzhəbi üzrə qazisi Axund Molla Ələsgər Məmmədəlizadənin (əslən Faxralı kəndindən olub), Tiflis-Kutais sünni quberniya məclisinin üzvləri Əbdülqədir Əfəndi Mahmud Əfəndi-Zadə (sədr – Tiflis, Sığnaq və Telav qəzalarının sünni məzhəbi üzrə qazisi), Əli Əfəndi Süleymanzadə və Rəhim əfəndi Rəhimzadənin, Axalkələk qəzasının qazisi Arif Əfəndi Coşğun Əfəndi-Zadənin[74]; 1895-ci il üzrə buraxılışında − Tiflis-Kutais quberniya şiə məclisinin üzvləri Axund Mirzə Pişnamazzadə (sədr), Axund Mirzə Cəfər Axundzadə və Axund Mirzə Əbdül Cabbar Həsənzadənin, Tiflis-Kutais quberniya sünni məclisinin üzvləri Ələddin Əfəndi Sübhanquliyev (sədr - Tiflis, Sığnaq və Telav qəzalarının sünni məzhəbi üzrə qazisi), Əli Əfəndi Akif Əfəndi-Zadə və Səlim Əfəndi Əhməd Əfəndi-Zadənin, Borçalı qəzası sünnilərinin qazisi Hacı Süleyman Əfəndi Molla Kərim oğlu (Katarinenfeld//Yekaterinenfeld* koloniyasında iqamət edib) və Axalsıx-Axalkələk

---

[73] Кавказский календарь на 1865 год, отделение 4-ое, Тифлис, 1866, с. 43-44.

[74] Кавказский календарь на 1878 год, отд. 2-ое, ч. 2-я, Тифлис, 1877, с. 76-77.

* Katarinenfeld//Yekaterinenfeld koloniyası – indiki Bolnis şəhəri.

qəza qazisi Həmid Əfəndi İzzət Əfəndi-Zadənin (Axalsıx şəhərində iqamət edib) adlarına rast gəlinir[75].

Zaqafqaziya sünni və şiə ruhani idarələri siyasi rəhbərliyə mütəmadi olaraq yazılı hesabatlar təqdim edirdilər. Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan belə hesabatlarda, eləcə də adı çəkilən dini idarələrin rəsmi yazışmalarında XIX əsrin sonlarında Cənubi Qafqazın müsəlman icmaları, o sıradan Tiflis və Borçalı müsəlmanları haqqında gərəkli bilgilər əks olunur.

Zaqafqaziya şiə ruhani idarəsinin 1899-cu ilə aid hesabatından həmin dövrdə Axund Məmmədhəsən Mövlazadənin Tiflis-Sığnaq qəzasının qazisi olduğu, Borçalı qəzasının şiə təriqətinin qazisinin Sarvan kəndində iqamət etdiyi, İrəvan qubernatorunun 1 iyun 1898-ci il tarixli 1473 saylı qərarı ilə Borçalının Ağaməmmədli kəndinin sakini *Axund Molla Həsən Qazizadənin* İrəvan quberniya şiə məclisinin üzvü təyin olunduğu, Cənubi Qafqazın şiə məscidləri içərisində ən çox Tiflis Şah Abbas məscidinə vəqf pulu yığıldığı barədə məlumatlar diqqəti cəlb edir[76].

Tiflisdə şiə məscidi ilə bərabər sünni məscidi də fəaliyyət göstərirdi. Zaqafqaziya müftisi praporşik Məmməd Əfəndi Müftizadənin Tiflis sünni məscidinin durumu ilə bağlı 1863-cü ildə Qafqaz canişininin baş idarə rəisi A.F.Kruzenşternə ünvanladığı məktub maraq doğurur. Məktubda məscidə məxsus məscidətrafı ərazilərdə fərdi şəxslərin icazəsiz tikinti işləri apardığını qeyd edən müfti həmin ərazilərin ibadət ocağına qaytarılmasının və yaxud da yeni məscidin inşası üçün başqa torpaq sahəsinin ayrılmasının zəruriliyini dilə gətirirdi. O, həmçinin Tiflisdə vaxtilə 12 türk məscidinin fəaliyyət göstərdiyini vurğulayaraq, onlardan ikisinin binasının indi də mövcud olduğunu bildirirdi. Müfti həmin binalardan birində duz mağazasının fəaliyyət göstərdiyinə, "Xlebnaya" (Çörək) meydanında yerləşən digərinin isə əvvəllər dövlət ərzağının sax-

---

[75] Кавказский календарь на 1895 год, адрес-календарь, Тифлис, 1894, с. 344-347.

[76] GMTA, f. 12, s. 7, iş № 2400.

landığı anbar kimi istifadə olunduğuna və sonradan qeyri-müəyyən şəkildə özəl mülkiyyətə keçərək balıq anbarına çevrildiyinə diqqəti çəkirdi[77].

Zaqafqaziya müftiliyinin idarə heyətinin sədri Hüseyn Əfəndi Qayıbov tərəfindən Qafqazda mülki hissə üzrə baş rəisin dəftərxanasına göndərilmiş sorğuya cavab və hesabat məktublarında 1 yanvar 1889-cu və 1892-ci illərdə Zaqafqaziya diyarında sünni əhalinin sayı, ibadətxanalar və din xadimləri barədə statistik göstəricilər cədvəl şəklində təqdim edilirdi.

**Cədvəl 2**

Tiflis quberniyasının sünni icması barədə qəzalar üzrə məlumat[78]:

| *Şəhər və qəzanın adı* | *Prixodların (dini icmanın) sayı* | | *Məscidin sayı* | | *Vəzifədə olan prixod mollalarının sayı* | | *Sünni ailələrin sayı* | | *Sünni əhalinin sayı* | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Şəhər:* | 1889 | 1892 | 1889 | 1892 | 1889 | 1892 | 1889 | 1892 | 1889 | 1892 |
| Tiflis şəh. | 1 | 1 | 1 | 1 | 1 | 2 | 113 | 103 | 506 | 484 |
| *Qəzalar:* | | | | | | | | | | |
| Tiflis | 3 | 3 | - | - | 3 | 3 | 340 | 342 | 2590 | 2645 |
| Borçalı | 29 | 26 | 8 | 11 | 29 | 26 | 2224 | 2241 | 17962 | 17837 |
| Sığnaq | 5 | 4 | 2 | 2 | 5 | 4 | 370 | 373 | 2596 | 2541 |
| Telav | 3 | 3 | 1 | 1 | 3 | 3 | 355 | 355 | 1893 | 1877 |
| Axalkələk | 9 | 9 | 3 | 3 | 9 | 9 | 893 | 892 | 7742 | 8663 |
| Axalsıx | 35 | 35 | 59 | 58 | 35 | 35 | 3949 | 3972 | 33342 | 33842 |
| *Cəmi* | 85 | 81 | 74 | 76 | 85 | 82 | 8244 | 8278 | 66631 | 67889 |

[77] GMTA, f. 8, s. 1, iş № 3647.
[78] GMTA, f. 12, s. 7, iş № 929 və GMTA, f. 12, s. 7, iş № 979.

Müqayisə üçün qeyd edək ki, "1892-ci ilə dair Qafqaz təqvimi"ndə dərc olunan statistik göstəricilərə görə, 1876-cı ildə Tiflis şəhərində 4337 şiə müsəlmanı, 1886-cı ildə Tiflis qəzasında 6427 (5783 sünni, 644 şiə), Borçalı qəzasında 33191 (16551 sünni, 16640 şiə), Sığnaq qəzasında 3523 (2369 sünni, 1154 şiə), Telav qəzasında 1848 (hamısı sünni), Tionet qəzasında 1697 (hamısı sünni), Axalkələk qəzasında 6806 (hamısı sünni) və Axalsıx qəzasında 31754 (hamısı sünni) müsəlman qeydə alınmışdır[79]. Bu göstəricilərdən XX əsrin sonlarında Tiflis quberniyasında 100 min civarında müsəlmanın yaşadığı aydın olur.

## Müharibələr və kütləvi hərəkatlarda qarapapaqlar

Rusiya imperiyasının Cənubi Qafqazda yürütdüyü işğalçılıq və müstəmləkəçilik siyasəti xalq hərəkatları, üsyanlar və qiyamlar, qonşu ölkələrlə dağıdıcı müharibələr (1804-1813, 1826-1828-ci illər Rusiya-Qacariyyə və 1806-1812, 1828-1829, 1853-1856, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibələri) və kütləvi miqrasiyalarla müşayiət olunurdu. Bütün bu proseslərdə Borçalının və onun ətrafındakı digər mahalların türk-qarapapaq əhalisinin imtiyazlı təbəqələrinin, xüsusən də sultanların, ağaların və bəylərin daha fəal iştirakı ilə bağlı faktlar tarixi mənbələrdə özünü geniş şəkildə biruzə verir.

Rusiyanın Gürcüstanda ilk idarəçisi və ordu birliklərinin komandanı general-mayor İ.P.Lazarevin rəsmi yazışmalarından bəlli olur ki, qarapapaqlar Rusiyanın hakimiyyətini qəbul etmək istəmirdilər. Lazarev Qafqazda rus qoşunlarının sərdarı və çarın səlahiyyətli nümayəndəsi general-leytenant K.F.Knorrinqə 18 yanvar 1801-ci il tarixli raportunda yazırdı: "Borçalı tatarlarına və qazaxlılara güvənmək olmaz, xüsusən də şahzadə Aleksandrın onların yanında olduğu indiki zamanda..."[80]. Knorrinqə ün-

---

[79] Кавказский календарь на 1892 год, Тифлис, 1891, с. 206-207.
[80] Акты…, т. 1-й, 231-232.

vanladığı 20 iyul 1802-ci il tarixli daha bir raportunda isə o bildirirdi: "Qazaxlılar, borçalılar və ümumilikdə tatarlar bizə heç cür sadiq deyillər, kiçik bir dəyişiklik olsa bizə qarşı çıxacaqlar, onlara Gəncə xanı da qoşulacaq... Şahzadə David də çoxdan müşahidə olunduğu kimi onların cərgəsinə qoşulub və onlara öz köməkliyini edir. Bu günlərdə o, təmiz hava udmaq və sağlamlığına qovuşmaq bəhanəsiylə dağlara, Borçalı tatarlarının yanına gedib. Hazırda Borçalı tatarları ilə bir yerdə yaşayır və yəqin ki, oradan heç vaxt qayıtmayacaq"[81]. Qeyd edək ki, İ. Lazarev bu son məktubundan bir il əvvəl − 1801-ci il iyulun 23-də Borçalı-Dəmirçihasanlı və Qazax bölgələrinə gedərək, əmiləri kimi Rusiyanın hökmranlığını tanımaq istəməyən şahzadə Davidin tabeliyindəki ağaların çoxuna imperatora sadiqlik andnaməsi qəbul etdirmişdi[82].

İstilanın ilk illərində Pəmbək mahalında Rusiya hakimiyyətinin bərqərar olunması digər "tatar distansiyaları" ilə müqayisədə daha böyük çətinliklərlə üzləşirdi. Qafqazda tarixən maraqları olan Osmanlı Türkiyəsi və Qacar İranı kimi böyük dövlətlər mövcud narazılıqlardan istifadə edərək, bu mahalda yaşayan döyüşkən qarapapaqları öz tərəfinə çəkmək və yaxud nəzarət etdikləri ərazilərə köçürmək istəyirdilər. Rusiya imperiyası da öz növbəsində bölgəyə kənar təsirlərin qarşısını almaq və yerli əhalini sadiq təbəələrə çevirmək üçün ciddi səylər göstərirdi. Nəticə etibarilə, sərbəst həyat tərzinə alışmış Pəmbək qarapapaqları bəzən müəyyən şirnikləndirici vədlərə inanaraq, bəzən də öz təhlükəsizliklərini təmin etmək üçün regional güclər arasında manevrlər etmək məcburiyyətində qalırdılar. Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı sənədlərdən məlum olur ki, 1801-ci ilin yayında "tatar məmuru" *Ağa bəy* Gürcüstandan İrəvan xanlığına keçərək tabeliyindəki silahlı dəstəsi ilə Qacarların hakimiyyəti altında olan Şürəgəl mahalında yerləşmiş, eyni zamanda

---

[81] Yenə orada, c. 359-360.
[82] Yenə orada, s. 592.

Pəmbək mahalından 5-6 min əhalisi olan 14 türk-qarapapaq kəndini nüfuzlu ağalarla birlikdə Şürəgələ köçürməyə müvəffəq olmuşdu[83]. Yüksək rütbəli məmurların yazışmalarından Ağa bəyin Borçalı əsilli sultanlardan olduğu, hələ gürcü çarı XII Georginin dövründə İrəvan xanının himayəsinə keçdiyi, xan tərəfindən ona Pəmbək mahalına nəzarət etmək səlahiyyəti verildiyi və buna görə də tez-tez oraya yürüşlər etdiyi məlum olur[84]. Baydar sultanlarından olduğu ehtimal edilən *Ağabəy Sultan* Şürəgələ köçürdüyü pəmbəklilərin geri qayıtmamaları üçün onların nüfuzlu ağalarından Rəhim bəy və Səid bəy qardaşlarını girov qismində İrəvan qalasına Məhəmməd xanın hüzuruna göndərir, Əhməd ağa Məmməd oğlunu isə öz yanında saxlayır. Sənədlərdən məlum olur ki, Şürəgələ köçən məşhur Pəmbək ağalarından biri − *Nağı bəy Mehdi bəy oğlu* gizlənərək girovluqdan yaxasını qurtara bilir. O, ruslardan geri qayıdacağı təqdirdə incidilməyəcəyinə dair zəmanət istəyir. Bu zəmanəti aldıqdan sonra Nağı bəy Gürcüstana gəlib hərbi qüvvələrin rəisi general-mayor İ.Lazarevlə görüşür və sonuncunun xahişini yerinə yetirərək pəmbəkliləri İrəvan xanlığından öz yurdlarına dönməyə razı salmağa böyük əmək sərf edir. Onların hamısı, o cümlədən Rəhim bəy və Səid bəy Məmmədəli oğulları geri qayıdırlar[85].

Gürcüstanda baş komandan vəzifəsinə qəddarlığı ilə seçilən general-leytenant, knyaz P.D. Sisianov təyin edildikdən sonra Nağı bəyin və digər Pəmbək ağalarının rusların Qafqaz komandanlığı ilə yaranmış normal münasibətləri yenidən kəskinləşir. Bu dövrdə Sisianovun sərt müstəmləkəçilik siyasəti, xüsusilə də ordunun ərzaq təminatını yerli mülkədarların və kəndlilərin hesabına həyata keçirmək istəyi digər bölgələrdə olduğu kimi, Pəmbək mahalında da əhalinin müqaviməti ilə üzləşir. Taxılçılıqda məhsuldarlıq aşağı olduğu üçün Pəmbək ağaları 1803-cü ilin sonlarında Sisianova müraciət edərək məhsul vergisindən

[83] Yenə orada, s. 599.
[84] Yenə orada, s. 602.
[85] Yenə orada, s. 220, 602.

azad olunmalarını xahiş edirlər. Müraciətə cavab olaraq Sisianov onları yalan danışmaqda və İrəvan xanı ilə əlaqə qurmaqda ittiham edir, vergini ödəməyəcəkləri təqdirdə isə bir alay əsgər göndərib öz torpaqlarından qovacağı ilə hədələyir[86]. Bundan sonra tərəflər arasında qarşılıqlı etimadsızlıq və nifrət hissi daha da güclənir. Bəzi kəndlərin əhalisi tamamilə Rusiya imperiyasından üz döndərib, Osmanlının nəzarəti altında olan Qars paşalığına köçür.

* * *

Çar Rusiyasının Cənubi Qafqazdakı Azərbaycan-türk xanlıqlarının zorən ələ keçirilməsinə yönəlmiş işğalçılıq siyasəti, xüsusən də P.Sisianovun başçılığı altında rus qoşunlarının 1804-cü ilin iyun ayında İrəvan xanlığına yürüşü birinci Rusiya-Qacariyyə müharibəsinin (1804-1813-cü illər) başlanmasına rəvac verir. Bu müharibədə tarixin yaddaşına gömülmüş gürcü dövlətçiliyini bərpa etmək uğrunda mübarizə aparan II İraklinin övladları da boş dayanmayaraq öz keçmiş təbəələri ilə irtibata keçirlər. Gürcü taxt-tacına iddia edən Aleksandr Mirzə Borçalı ağalarına, kəndxudalarına və nəsil ağsaqqallarına müraciət edərək, onları qacar şahına sədaqətlə xidmət etməyə səsləyir[87]. Həmin dövrdə Pəmbək və Şürəgəl kəndxudaları Aleksandr Mirzəyə yazırdılar: "Parnavaz Mirzənin (Aleksandr Mirzənin qardaşı – F.V.) ləzgilərə, borçalılara və digər tayfalara ünvanlanmış intibahnamələrini aldıq... Borçalılar öz rus idarəçilərini (pristavı – F.V.) qarət edib, arvadını əlindən alıblar və pəmbəklilərlə birləşiblər. İndi şahın fərmanını və sizin əmrinizi gözləyirlər"[88]. Qacariyyə taxt-tacının vəliəhdi Abbas Mirzə Məhəmməd bəy Bor-

---

[86] Акты…, т. 2-й, Тифлис, 1868, с. 579.
[87] GMTA, f. 1452, iş № 560 və № 587.
[88] Акты…, т. 2-й, с. 579.

çalını sədaqətlə xidmət etdiyinə görə 1807-ci ilin yayında Ağca-qala, Lori//Loru və Pəmbək elbəyisi təyin etmişdi[89].

Birinci Rusiya-Qacariyyə müharibəsinin gedişində rus qoşunları *Nağı bəy Mehdi bəy oğlunun* başçılığındakı Pəmbək süvarilərinin ciddi müqaviməti ilə qarşılaşırdılar[90]. P.Sisianovun İrəvan kampaniyasının uğursuzluğunda qarapapaqların müstəsna rolu olmuşdu. Gürcü şahzadələrinin fəaliyyəti də təsirsiz ötüşməmişdi. Rusiya qoşunları İrəvan qalasını mühasirəyə aldığı bir vaxtda Şərqi Gürcüstanı çar rejiminin istibdadına qarşı kəndli çıxışları və iğtişaşlar bürümüşdü. 1804-cü ilin yayında Pəmbək, Borçalı, Qazax və Şəmşəddil mahallarına yayılan üsyan nəticəsində Tiflis ilə İrəvan arasında rabitə və ərzaq daşınmaları kəsilmiş, nəticə etibarilə İrəvan xanlığındakı rus qoşunları çıxılmaz vəziyyətə düşmüşdü[91]. Bundan sonra P.Sisianov Borçalı ağalarını təzyiq altında saxlaya bilməsi üçün onların ailə üzvlərindən "amanatlar" (girovlar) götürüb Tiflis məscidində saxlamağa başlamışdı[92].

Qacar İranı ilə müharibə davam edərkən Rusiya 1806-cı ildən osmanlılarla da savaşa girişmişdi. XIX əsrin digər Rusiya-Osmanlı müharibələrində olduğu kimi, ilk Rusiya-Osmanlı müharibəsində də (1806-1812-ci illər) hərbi əməliyyatlar iki cəbhədə − Balkan və Qafqaz cəbhələrində aparılırdı. Eyni zamanda iki dövlətə qarşı savaşın doğurduğu ərzaq problemləri səbəbindən Qafqazda öz hərbi qüvvələrini azuqəylə təmin etməkdə çətinlik çəkən rus komandanlığı yerli əhalini amansız istismara məruz qoyurdu. Müharibələr boyunca kəndlilərin ödəyə bilmədiyi ağır vergilər və məmur özbaşınalığı Gürcüstan quberniyasında vəziy-

---

89 Тбилисская коллекция персидских фирманов (составители: М.Тодуа, И.Шамс), том 2-й, Тбилиси, 1989, с. 143-144.

90 Bax: F.Valehoğlu. *Pəmbəkli Nağı bəy - Çıldırlı Nağı bəy - Qarapapaq Nağı xan: tarixi faktlar, təxminlər və fərziyyələr*, "Qarapapaqlar" dərgisi, 2012, № 11 (63), s. 6-12; № 12 (64), s. 8-14.

91 Bax: Акты…, т. 2-й, с. 581-584.

92 Yenə orada, s. 570-571.

yəti dözülməz həddə çatdırmışdı. Quberniyanın türk-müsəlman mahalları ilə yanaşı, Kaxetiya bölgəsində də vəziyyət gərginləşmişdi. Əsas etibarilə üzümçülüklə məşğul olan Kaxetiya əhalisi vergini taxılla ödəməli idi ki, bu da problemlər yaradırdı. Hakim dairələrin vergi yığımında sərt cəza tədbirlərinə əl atmaları xalq arasında narazılığın artmasına gətirib çıxarırdı. Rus əsgərlərinin özbaşınalıqları hüdud tanımırdı. Qız-qadınlarının əsgərlər tərəfindən təhqir edilməsinə dair kaxetiyalılar tərəfindən rəsmi qurumlara çox sayda müraciətlər daxil olurdu. Bir tərəfdən də şahzadə Aleksandrın tərəfdarları olan knyazlar camaat arasında rus hakimiyyəti əleyhinə güclü təbliğat aparırdılar.

Qeyd olunanların təsiri nəticəsində 31 yanvar 1812-ci ildə Kaxetiyanın Axmeta kəndində üsyan baş qaldırır və çox keçmədən sürətlə bütün bölgəni bürüyür[93]. Hər yanda hərbi kazarmalar dağıdılır, xalqın qəzəbinə tuş gələn rus əsgərləri döyülür və öldürülür. Kaxetiyalılar qonşu bölgələrin əhalisindən yardım istəyir[94]. Tezliklə üsyan Ananur qəzasına və Osetiyaya yayılır. Sığnaq qəzasının hərbi rəisi təyin olunmuş knyaz mayor İvan Orbeliani Qazax və Borçalı türklərinə müraciət edib onlardan Hərbi-Gürcüstan yolu üzərində yaşayan əhalini "sakitləşdirmək" üçün 500 süvari göndərmələrini xahiş edir. O, "qarətlərə meylli" qarapapaqları hücumları və soyğunları ilə yollarda təhlükə yaradan dağlılara qarşı istifadə etmək istəsə də, Qazax və Borçalı distansiyalarından gözlənilən kömək gəlməyir[95].

Kaxetiya, Xevsuretiya və Tuşetiya knyazları və koxaları Qazax ağaları vasitəsilə İrəvanda olan şahzadə Aleksandrı üsyana rəhbərlik etməyə çağırırlar[96]. Bunun üçün Kizix zadəganlarının rəhbərliyi altında İrəvana xüsusi heyət də göndərilir. Nəha-

---

[93] Н.Ф. Дубровин. История войны и владычества русских на Кавказе, т. 5-й. СПб., 1887, с. 464.

[94] N. Dubrovin, göstərilən əsəri, s. 473; О.П. Маркова. Восстание в Кахетии 1812 г., М., 1951, s. 61, 68-69.

[95] O. Markova, göstərilən əsəri, s. 127.

[96] Yenə orada, s. 70-71.

yət, şahzadə Aleksandr üsyançıların dəvətini qəbul edir və Ahısqa paşalığı üzərindən Kaxetiyaya keçərək dağlıq Tionet bölgəsində möhkəmlənir.

Kaxetiyada yerləşən rus qoşunları baş verənlərin qarşısını almaq iqtidarında olmur. Ona görə Tiflisdən və Kartlidən əlavə qoşun növləri göndərilir və üsyan amansızlıqla yatırılır.

Tarixçi-yazar Aleksandr Cambakur-Orbelianinin (II İraklinin nəvəsi) xatirələrindən bəlli olur ki, şahzadə Aleksandr Ahısqada olarkən orada sığınacaq tapmış Borçalı qarapapaqları onun hüzuruna gəlib, sidq ürəklə xidmət etmək istədiklərini ərz edirlər. Şahzadə şükranla borçalıların istəyini qəbul edir. Bundan sonra Borçalı *Təhməzqulu ağa* 200 "qarapapaq igidi" seçir və onlar Ahısqadan Məngilisə gəlirlər. Buradan Kaxetiyaya keçmək üçün Diğom tərəfə enirlər. Ancaq yaz fəsli olduğu üçün Kür çayı bolsulu olur və onlar uzun müddət çayı keçə bilməyib şahzadə ilə birlikdə Məngilisdə gözləyirlər[97].

Qeyd edək ki, Təhməzqulu ağanın adına rus məmurlarının 1810-cu ilə aid rəsmi yazışmalarında da rast gəlinir. Belə yazışmalardan birindən 1810-cu ilin avqust ayında «məşhur qaçaq» (известный беглец») Təhməzqulunun (Təhmasibqulunun) başçılığı altında 89 nəfərdən ibarət qarapapağın Axısqadan Borçalıya qayıdarkən yeger (nişançı) alayının əsgərləri ilə atışdığı məlum olur. Məsələ ilə bağlı Qafqazda rus qoşunlarının baş komandanı general A.P. Tormasov Gürcüstanın qubernatoru general-mayor F.İ. Axverdova məktub yazaraq, atışmada iştirak edən 89 nəfərin hamısının tutulub cəzalandırılmasını əmr edir. Lakin tezliklə fikrini dəyişən baş komandan növbəti məktubunda hələlik yalnız bu işin əsas təşkilatçısı olan Təhməzqulunun hərbi məhkəməyə verilməsi məqsədiylə ləngimədən tutulub Tiflis komendantlığına təhvil verilməsini tələb edir; digər iştirakçılara

[97] მოგონება ალექსანდრე ორბელიანის თავის მამის ვახტანგ ორბელიანის შესახებ (Aleksandr Orbelianinin öz atası Vaxtanq Orbeliani haqqında xatirəsi), Tiflis, 1914, s. 24-25.

gəldikdə isə, başqa ailələr ilə birlikdə öz yurdlarını tərk edə biləcəklərindən ehtiyat etdiyindən müvəqqəti olaraq onlara toxunmamağı tapşırır[98]. Eyni məsələ ilə bağlı polkovnik K.F. Stala yazdığı 21 yanvar 1811-ci il tarixli məktubunda isə baş komandan artıq məqamın yetişdiyini, borçalıların öz daimi yaşayış yerlərinə qayıtdığını qeyd edərək, 89 nəfərin hamısı olmasa da, kəndxudaları və əsas günahkarları həbs etmək barədə təlimat verir[99]. Görünən odur ki, Stal bu təlimatın yerinə yetirilməsinə müyəssər olmur. Çünki Təhməzqulu ağanın sorağı ətrafındakı digər borçalılarla birlikdə 1812-ci ildə Ahısqadan gəlir.

* * *

Qarapapaq mahallarında sosial qarşıdurmanın və çarizmə qarşı azadlıq uğrunda mübarizənin ilk və ən geniş yayılmış forması qaçaq hərəkatı idi[100]. XIX əsrin ortalarında Gürcüstana səyahət etmiş baron[*] Avqust fon-Qakstqauzen də qarapapaqların yaşadığı bölgələrdə qaçaqlığın geniş yayıldığını vurğulayaraq yazırdı: «Tiflis ətrafına yarımca saatlığa belə gəzintiyə çıxmaq istəsən silahlı olmalısan. Xalq qaçaqlar haqqında böyük həvəslə danışır»[101].

Borçalı mahalının sakinlərindən *Təhməzqulu ağa* (Faxralı kəndindən olduğunu təxmin edirik), *Arıxlı Alı ağa, Bolnis-Kəpənəkçi Bayram Emin oğlu* və *Emin ağa Acalov (Hacıalıoğlu), Saraçlı Molla Əhməd Xeyirxəbər oğlu, Abdallı Kor İsmayıl, Mığırlı İsgəndər, Həşimoğlu* (Ratevan kəndindən olduğunu ehtimal edirik), *Darvazlı Mehralı,* qaçaqlara himayədarlıq edən Qasımlı Daşdəmir ağanın övladları *Səməd ağa, Astan ağa* və *Paşa ağa, Təhləli Kərim, Qızılhacılı Halay bəy Mursaqulov, Sarvanlı Ha-*

---

[98] Акты ... , т. 4-й, Тифлис, 1870, с. 480.
[99] Yenə orada, s. 482.
[100] V.Hacılar. XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı, Tiflis, 2003, s. 6.
[*] baron – Qərbi Avropada fəxri zadəgan titulu.
[101] А.Гакстгаузен. Закавказский край, СПб, 1857, с. 76.

*cıxəlil ağa Bayramov* və b. adıbəlli qaçaqlardan idilər. Qeyd edək ki, qaçaqlardan bəziləri sonradan dövlət qulluğuna keçərək özlərinin sabiq məsləkdaşlarına qarşı mübarizə aparmağa başlamış, eləcə də yaşadıqları dövrdə baş vermiş müharibələrdə iştirak edib döyüş meydanlarında igidliklər və qəhrəmanlıqlar göstərmişdilər.

Osmanlıda daldalanan qaçaqların və qarapapaqlar arasında böyük nüfuza malik üsyankar şahzadə Aleksandrın Rusiya tabeliyindəki ərazilərə keçməsinin qarşısını almaq üçün XIX əsrin əvvəllərindən Gürcüstanda rus qoşunlarının baş komandanlığı tərəfindən Borçalı və Qazax ağalarının başçılığı altında xüsusi sərhəd-gözətçi süvari dəstələri yaradılmışdı. Axısqa paşalığına sığınmış qarapapaq qaçaqları ilə gözətçi qarapapaqlar arasında ilk ciddi toqquşma 1808-ci ilin yayında Borçalı-Cavaxetiya sərhədində baş vermişdi. Bu toqquşmada gözətçilərdən Borçalı sakini *Əmirxan ağa* və qazaxlı *Mustafa ağa* fərqlənmiş, qaçaqlardan Baydar sultanının 1788-ci ildən Ahısqada yaşayan *Əhməd ağa* adlı qardaşı həbs olunmuşdu[102].

1811-ci ildə Qafqazda rus qoşunlarının baş komandanı markiz[*] F.O. Pauluççi Borçalı mouravı Mirmanoz Eristova Borçalıda soyğunçuluqların qarşısını almaq üçün Faxralı və Cinsqar kəndlərində etibarlı ağaların rəhbərliyi altında yaxşı silahlanmış 20 qarapapaq atlısından ibarət iki qarovul (gözətçi) postu yaratmağı əmr edirdi[103].

Borçalıda fəaliyyət göstərən gözətçi süvari dəstələrinin birinin başçısı Bolnis-Kəpənəkçi kəndinin ağası *Ağakişi bəy* idi və onun xidmət sahəsi öz kəndinin ətrafındakı əraziləri əhatə edirdi. Rus ordusunun Əlahiddə Gürcüstan Korpusunun generalı A.Velyaminov 1818-ci ildə çarın Qafqazdakı səlahiyyətli nümayəndəsi general A.Yermolova ünvanladığı raportunda Ağakişi bəyin

---

[102] Акты…, т. 3-й, Тифлис, 1869, s. 589.

[*] markiz – Qərbi Avropada hersoq və qraf titulları arasında yer alan zadəgan titulu.

[103] Акты …, т. 5-й, Тифлис, 1873, с. 111.

öz gözətçi dəstəsi ilə birgə Bolnis dərəsində gizlicə İrəvana getməkdə, həmçinin, şahzadə Aleksandrın qacar vəliəhdi Abbas Mirzəyə və digər İran məmurlarına məktublarını çatdırmaqda ittiham olunan üç nəfəri − Dəmirçihasanlı sakini Xəlil Şəkərəli oğlunu, gorarxılı Əli Hümmət oğlunu və Dağıstanın Kusuri kəndinin sakini Həsən Murtuzəli oğlunu ələ keçirdiyini xəbər verib bunları əlavə edirdi: "Bu xidmətinə görə Ağakişi bəyə pul mükafatı təklif etdim. Amma o qürurla puldan imtina edib dedi ki, mükafat kimi ona ya rütbə, yaxud da ki, üstündə imperator həzrətlərinin şəkli olan medal verilsə, yaxşı olardı"[104]. Yermolov Velyaminovun raportunu diqqətdən kənarda qoymur və Ağakişi bəyə ünvanladığı 22 iyun 1818-ci il tarixli məktubunda ona göstərdiyi sədaqətə və igidliyə görə minnətdarlıq ifadə edib, üstündə imperatorun şəkli olan qırmızı lentli qızıl medalla təltif olunduğunu bildirirdi[105].

Barmaqsızla Axalkələk sərhədində mövqe tutan gözətçi süvari dəstəsinə Borçalının Sarvan kəndinin ağalarından yüzbaşı *Qasım Şərif oğlu* başçılıq edirdi[106].

Rəsmi yazışmalardan bəlli olur ki, rus hərbi dairələri qarapapaq gözətçi dəstələrinə çox da güvənmirdi. 1818-ci ilin sentyabrında general-leytenant A.Velyaminov Başkeçiddə olan polkovnik P.Ladinskiyə yazırdı: «Mənə çatan şayələrə görə, 100 nəfər tatar atlısı ilə Toparvana kəndi (Cavaxetiyada yerləşir – F.V.) yaxınlığında gözətçi mövqedə duran Baydar sultanı ondan 100 sajen məsafədən keçmiş şahzadəni (Aleksandr Mirzəni – F.V.) öz dəstəsiylə bərabər görüb və bilə-bilə ki, bu, şahzadədir onun ələ keçirilməsi üçün heç bir cəhd göstərməyib. Mən sizə sultanın bu hərəkətini ədalətlə araşdırmağı və mənə məlumat vermənizi tapşırıram». Ladinski isə cavab raportunda bildirirdi ki, Baydar sultanı *Almas sultan* bəlkə də tək və ya 5-6 adamla

---

[104] Акты ... , т. 4-й, с. 296.

[105] Акты …, т. 6-й, ч. 1-я,Тифлис, 1874, с. 696.

[106] М.Е. Коцебу. Описание вторжения персиян в Грузию в 1826 г., «Кавказский сборник», т. 22. Тифлис, 1901, с. 148-150.

olub şahzadəni görsə idi, onu təqib etməzdi, ancaq onun yanında öz adamlarından başqa general-mayor Sısoyevin alayından 3 kazak və 2 "tatar" kəndxudası – Qaracalar kəndxudası *Mirzalı ağa* ilə knyaz Aqotişvilini həbs etmiş *Alı ağa Eyyub ağa oğlu* da var idi və əgər Almas sultan şahzadəni təqib etmək istəməsə belə, kazaklar və bu türk kəndxudaları onu izləyərdilər[107].

* * *

İkinci Rusiya-Qacariyyə müharibəsi (1826-1828-ci illər) də əvvəlki müharibətək "tatar distansiyaları"nda üsyanlarla müşayiət olunurdu. Qafqaz qrenadyor (seçmə əsgər) alayının komandanı qraf, podpolkovnik İ.Simoniç bu üsyanların başvermə səbəbini Əlahiddə Qafqaz Korpusunun baş komandanı A.Yermolovun vaxtsız inzibati islahatları ilə izah edirdi. O, yazırdı:

"Gürcü çarları zamanında tatar distansiyalarında idarəçi və ya mourav vəzifələri knyaz nəsillərinə aid idi və irsən ötürülürdü. General Yermolovun sələfləri qaydaları dəyişmirdi. Qarışıqlıq və hərbi təhlükə vaxtı nüfuzlu nəsillərin yardımı onlara tabe olmağa alışmış əhalini sakitlikdə saxlamaq üçün zəruri idi.

General Yermolov diyarda hakimiyyətə gəlib inzibati idarəetmədə yeni qayda yaratmaq vaxtının çatdığını hesab etdi və yeniliklərə gürcü idarəçilərini rus məmurları ilə əvəz etməklə başladı. Sonra o, yaxın gələcəkdə kəndlilərə tam azadlıq verməyi təxmin edərək, ağaların öz kəndliləri üzərindəki zülmkar hakimiyyətini məhdudlaşdırdı. General Yermolov tezliklə başa düşməli idi ki, bu islahatlar düzgünlüyə əsaslansa da, vaxtından qabaq həyata keçirilirdi. İş orasındadır ki, yerli əhali iranlıların distansiyalarda (üç tatar dairəsi: Borçalı, Qazax və Şəmşəddil distansiya adlanır) göründüyü elə ilk gündəncə üsyan etdi.

Kəndli o dərəcədə inkişaf etməmişdi ki, əldə etdiyi rifahın səbəbini anlamış olsun. Ona görə də o, hakimiyyətə heç bir bağ-

[107] Акты …, т. 5-й, с. 305-308.

lılıq və heç bir minnətdarlıq duyğusunda bulunmurdu, əksinə ağalara tabe olmağı öz borcu hesab edirdi və onların təlqininə kortəbii tabe olurdu. Məgər uzaq olmayan gələcəkdə özünün mülki və ictimai mövqeyini itirməkdən qorxan ağalar bizə sadiq qala bilərdilərmi?

Distansiyaları heç olmazsa bir azca itaətdə saxlamaq üçün general Yermolov əvvəlki qaydalara qayıtmağı lazımi hesab etdi: rus məmurları gürcü knyazları ilə əvəz olundu...”[108]

Yermolovun apardığı islahatlara etiraz edən şəmşəddilli mayor Nəsib sultan və qazaxlı mayor Mustafa ağa (şair Mustafa ağa Arif Şıxlinski) erməni əsilli general V.Mədətov tərəfindən həbs edilərək 1819-cu ildə Rusiyanın daxili quberniyalarına sürgün edilmişdilər. Çox keçmədən Nəsib sultan Voronejdə dünyasını dəyişmişdi[109]. Yerli ağalardan birinin xəyanəti səbəbindən 14 il Sibirdə sürgün həyatı yaşayan Mustafa ağa Arif (1774-1845) “Ağlaram” rədifli qoşmasında Borçalı bəylərinin mərdliklərini iftixarla öyərək yazırdı:

Qaldı payidar Borçalının bəyləri*,
Meydan günü bir-birindən yegləri,
Mehman qarşısına mərd gəlməkləri,
Yadıma düşəndə onlar, ağlaram!

Hanı Qazax? Mehribanlıq gedibdir,
Ağalıq, sultanlıq, xanlıq gedibdir,
Nücabadan alışanlıq gedibdir,
İtibdir şövkəti-şanlar, ağlaram![110]

---

[108] M.Kotsebu, göstərilən əsəri, c. 13-15.

[109] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II, с. 378.

* Bəzi mənbələrdə bu misra “Qaldı Baydar-Borçalının bəyləri” kimi əks olunur *(F. V.).*

[110] Ş.Nəzirli. Güllələnmiş Azərbaycan generalları, Bakı, 2016, s. 139.

Rus hakimiyyətini qəbul etmədiyi üçün A.Yermolovun 4 mart 1822-ci il tarixli əmriylə Tiflis şəhərinin axundu *Tanrıverdi* də sürgünə göndərilmişdi[111]. Yeri gəlmişkən qeyd edək ki, Kartli-Kaxetiya çarı II İrakli tərəfindən farsca verilmiş bəzi əmrlər Molla (Mirzə) Tanrıverdi tərəfindən tərtib edilmiş və gürcücəyə tərcümə olunmuşdu[112]. Buradan belə qənaətə gəlmək olar ki, axund Tanrıverdi, həm də gürcü çarının sarayında tərcüməçi vəzifəsini icra etmişdir.

1826-1828-ci illər Rusiya-Qacariyyə müharibəsi zamanı əvvəlki uğursuzluqlarından ibrət almış rusların Qafqaz komandanlığı növbəti İrəvan yürüşü ərəfəsində müəyyən ehtiyat tədbirləri görmüşdü. İlk növbədə Borçalı ağalarının və bəylərinin düşmən tərəfinə keçməsinin qarşısını almaq məqsədiylə onların uşaqları "amanat" (girov) olaraq Tiflisə aparılmış, bu uşaqlar üçün ayrıca məktəb təsis olunmuşdu[113].

Buna baxmayaraq, yarımköçəri tayfalar, xüsusilə də *Nağı xanın* başçılığı altındakı qarapapaqlar rus qoşunlarının İrəvan üzərinə irəliləməsində başlıca maneələrdən olub, onlara ciddi ziyan yetirmişdilər[114]. Bu qarapapaqlar İrəvan xanlığı ərazisində kompakt şəkildə birinci Rusiya-Qacariyyə müharibəsindən sonra yerləşmişdilər. Borçalının Tərkavün//Tərkivan, Canəhmədli, Ulaşlı, Saral, Araplı və digər kəndlərindən kütləvi şəkildə qarapapaq ailələri qacarlar tərəfindən xan (sərhəd xanı) rütbəsinə la-

---

111 Акты ..., т. 6, ч. 1, с. 481.

112 Bax: ირაკლი II–ის მიერ გაცემული საბუთები (1736-1797 წლები) (II İrakli tərəfindən verilmiş sənədlər (1736-1797-ci illər)), tərtibçi: M.Cumburidze, Tiflis, 2008, s. 111, 213.

113 «Тифлисские ведомости» qəz., 1828, 19 sentyabr, № 12; GMTA, f. 1105, s. 1, iş № 100.

114 Bax: F.Valehoğlu. *Qacar ordusunun Borçalı əsilli sərkərdələri: Nağı xan və İsmayıl xan*, "AMEA Tarix İnstitutunun elmi əsərləri" (xüsusi buraxılış – "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" beynəlxalq elmi konfransının materialları), 2013, № 44-47, s. 416-423; F.Valehoğlu. *Azərbaycan tarixi yazılı mənbələrdə: Borçalı Nağı xan və oğulları*, "Strateji təhlil", 2014, № 4 (11), s. 213-220.

yiq görülmüş *Nağı ağa* və *İsmayıl ağanın* başçılığı altında 1814-cü ildə müəyyən imtiyazların və öhdəliklərin qarşılığında Rusiyanın təbəəliyindən çıxıb Göyçə və Dərəçiçək mahallarında məskunlaşmışdılar[115]. İrəvan xanlığının Rusiya imperiyası ilə Gülüstan müqaviləsi nəticəsində yeni yaranmış sərhədlərinin Gəncəbasar və Qarabağ istiqamətindən müdafiəsi *Nağı xana*, Qazax və Pəmbək mahalları istiqamətindən isə *İsmayıl xanla* oğlu *Mərdan xana* həvalə olunmuşdu[116].

Göyçə mahalında və Dərəçiçək mahalının 28 kəndində yurd salmış Borçalı qarapapaqları pul və taxıl vergilərindən azad edilmişdilər. Onlar yalnız əkib-becərdikləri məhsulun $\frac{1}{10}$ hissəsini öz ağalarına verməli (bəhrə vergisi) və ehtiyac duyulduqda süvari döyüşçülər (Göyçə qarapapaqları – 1000, Dərəçiçək qarapapaqları isə - 600 süvari döyüşçü) ilə İrəvan xanının hüzurunda hazır dayanmalı idilər[117].

Nağı xan qacar vəliəhdi Abbas Mirzənin ən yaxın çevrəsinə daxil olan sərkərdələrdən sayılırdı. O, İrəvanın Şəhər məhəlləsində 2 əkin günü ərazisinə və 250 batman meyvə bağına sahib idi[118]. İrəvan xanlığı rus qoşunları tərəfindən işğal olunduqdan sonra Nağı xan və qarapapaqların əksəri xanlıq ərazisini tərk edib, qacarların və osmanlıların nəzarəti altında olan bölgələrə köçürlər. Onların böyük hissəsi (təqribən 800 ailə) Nağı xanın böyük oğlu Mehdi xanın başçılığında Urmiyə gölünün cənub sahillərində münbit ərazilərdə (Sulduz mahalında) özlərinə daimi yurd salırlar[119]. Ancaq Göyçədə qalan və sonradan Rusiya təbəəliyini qəbul edib geri qayıdan qarapapaq ailələri də çox olur. Kameral təsvirlərdən 1828-ci il Türkmənçay müqaviləsindən sonra

---

[115] M.Kotsebu, göstərilən əsəri, s. 27; И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, СПб., 1852, с. 446.

[116] İ.Şopen, göstərilən əsəri, s. 523-524.

[117] М.Еганян. О мульке и мулькадарском праве в Армении // Известия АН Армянской ССР. Серия общественных наук, 1958, № 11, с. 71.

[118] İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin kameral təsviri (tərtibçi: N.Əhmədli), Bakı, 2018, s. 77.

[119] Mirzə Bala. Kara-Papak, İslam Ansiklopedisi, VI cilt, İstanbul, s. 331.

600-ə yaxın qarapapaq ailəsinin Göyçə mahalında *Bığlı Hüseyn (Saraçlı), Zeynalağa, Rəhman, Ağqala, Əyrivəng, Qızılvəng, Qızılcıq (Abul), Yellicə-Qaraqoyunlu, Mədinə, Daşkənd, Daşkeyti-Hüseynquluağalı, Daşkeyti-Qayabaşı, Böyük Məzrə, Kiçik Məzrə, Tatulqışlaq, Zarzebil, Zod, Ağyoxuş, Şorcalı, Oğruca, Kəsəmən, Cil, Ardanış, Adatəpə, Şorəli, Ağbulaq, Toxluca, Ağkilsə, Kərkibaşı, İnəkdağı, Sultanəli qışlağı, Başkənd, Zağalı, Qızılxaraba, Yarpızlı, Qızılbulaq, Qoşabulaq, Alçalı, Hacımuxan, Ağzıbir, Qanlı Allahverdi* və *Şişqaya* kəndlərində yaşadığı aydınlaşır[120].

Rusiyanın Təbriz şəhərindəki baş konsulu N.A.Aniçkovun ölkəsinin Qacariyyədəki səlahiyyətli naziri D.İ.Dolqorukova yazdığı 17 mart 1849-cu il tarixli, 196 saylı məruzəsindən *Qarapapaq Nağı xanın* 16 il əvvəl, yəni 1833-cü ildə Tehranda vəfat etdiyi bəlli olur[121].

Sulduz qarapapaqlarının Adıgözəlli tayfasından H.İ. Nəbiyar müəllifi olduğu «Azərbaycan və Sulduz» əsərində Nağı xanın 5 oğlu barədə məlumat verir[122]. Rus mənbələrindən Nağı xanın oğullarından birinin 1827-ci il iyunun 21-də Hamamlı yaxınlığındakı Baş Abaran düzündə baş vermiş döyüşdə öldürüldüyü məlum olur[123]. Göyçə mahalının 1831-ci ilə aid kameral təsvirlərində Nağı xanın 22 yaşlı oğlu *Kazım xanın* arvadı və anası ilə birlikdə həmin dövrdə bu mahalın Rəhman kəndində yaşadığı və praporşik rütbəsini daşıdığı qeyd olunur[124]. Tədqiqatçı-alim Nazir Əhmədli haqlı olaraq belə bir qənaətə gəlir ki, Kazım xanın

---

[120] Bax: Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər (tərtibçi: N.Əhmədli), Bakı, 2017.

[121] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II, с. 384.

[122] H.İ.Nəbiyar. Sulduz qarapapaqları haqqında, "Qarapapaqlar" dərgisi, Tiflis, 2005, sayı 1, s. 15.

[123] В.Потто. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, том 3-й, Персидская война 1826-1828 гг., вып. 2, СПб, 1887, с. 339.

[124] Göyçə mahalının kameral təsviri, s. 45.

praporşik rütbəsini daşıması onun rus hakimiyyətinin xidməti altına keçməsi ilə bağlıdır[125]. Kazım xanın atası və qardaşlarından fərqli olaraq işğal olunmuş İrəvan xanlığının ərazisini tərk etməməsinin və Göyçədə qalmasının səbəbi də bu idi. Göyçənin 1842-ci ilə dair kameral təsvirlərində nə Rəhman kəndində, nə də mahalın digər kəndlərində Kazım xanın adına rastlanmaması, bundan əlavə, adının sulduzlu tədqiqatçıların əsərlərində Nağı xanın Sulduzda məskunlaşmış oğulları sırasında çəkilməsi onun Rusiya təbəəliyində çox yaşaya bilmədiyini və digər ailə üzvlərinin yanına köçdüyünü göstərir.

H. Nəbiyarın əsərindən Nağı xanın Sulduzda məskən salan 4 oğlunun − Mehdi xan, Kazım xan, Həsən xan və İsgəndər xanın törəmələrinin şəcərəsini müəyyən etmək mümkündür:

1. *Mehdi xanın* oğlu: Nəcəfqulu xan → onun oğlu: Əsədullah xan (Hacı Əmir Tuman kimi tanınıb) → onun oğlu: Xosrov xan → onun oğlu: Qulamrza;

2. *Kazım xanın* oğlu: Paşa xan → onun oğulları: 1. Elxanlı xan, 2. Həsənli xan Əmir Tuman – Həsənli xanın oğlu: Məhəmməd xan Sərtib* → onun oğulları: 1. Hüseynpaşa xan Əmir Fəllah, 2. Hüseynqulu xan, 3. Mehdiqulu xan Əmir Fəllah;

3. *Həsən xan Sərtibin* oğlu: Məhəmmədəli xan → onun oğulları: 1. Hüseyn xan, 2. Cəfər xan;

4. *İsgəndər xanın* oğulları: 1. Rzaqulu xan (Rəşid əs-Səltənətə), 2. Əliqulu xan (Əfxəm əs-Səltənətə) – Rzaqulu xanın oğlu: Nəqi (Nağı) xan Bozçəli → onun oğulları: 1. Maşallah xan Bozçəli, 2. İnşallah xan Bozçəli – Əliqulu xanın oğlu: İsgəndər xan (İntizar əs-Səltənətə)[126].

İrəvanın işğalından sonra qacar ordusunun digər nüfuzlu qarapapaq sərkərdəsi *İsmayıl xanın* taleyi Nağı xanınkından fərqli olur. 1827-ci ilin noyabr-dekabr aylarına aid arxiv sənəd-

---

[125] Yenə orada, s. 33.

* sərtib - qacar ordusunda ali zabit hərbi rütbəsi.

[126] H.İ.Nəbiyar, göstərilən əsəri, s. 15.

lərindən məlum olur ki, Tiflis hərbi qubernatoru general-adyutant N.Sipyagin Borçalı pristavı knyaz, kapitan T.Orbelianova İsmayıl ağanı Rusiyanın nəzarətindəki ərazilərə köçməyə razı salması barədə tapşırıq verir. Borçalı pristavı da öz növbəsində ona tapşırılan məsələni həll etmək üçün Nəbi ağa adlı şəxs vasitəsilə İsmayıl ağaya müvafiq məktub göndərir. Orbelianova cavab məktubunda İsmayıl ağa Rusiya təbəəliyini qəbul etməsi müqabilində bir sıra şərtlər irəli sürür. Belə ki, o, Dərəçiçəkdə yaşayarkən qacarlar tərəfdən qarapapaqlara vəkil təyin edilib vəzifəsinə görə İrəvan pulu ilə 2000 rubl aldığını, oğlunun isə xan titulunda olduğunu vurğulayır və geri qayıtmaq üçün rus hökumətinin rəsmi dəvət kağızını, yenidən Dərəçiçəkdə məskunlaşdırılmasını, həmçinin, imtiyazlarının bərpasını tələb edir. Eyni zamanda İsmayıl ağa onun tabeliyindəki qarapapaqların Qars paşalığına səpələndiyini və onları bir yerə yığmaq üçün yaz fəslini − 1828-ci il mart ayının 10-nu gözləməyin lazım gəldiyini bildirir və əlavə edir ki, əgər onun təcili Rusiyaya keçməsi istənilirsə, rus hökuməti ona tabe olan qarapapaqların yazda geri dönməsinə şərait yaradacağı barədə zəmanət verməlidir[127].

N.Sipyaginin qeyd olunan təşəbbüsü Qafqaz Əlahiddə Korpusunun komandiri general İ.Paskeviç tərəfindən hiddətlə qarşılanır. O, "Zati-Alilərinin (Rusiya imperatorunun – F.V.) yeni alınmış əraziləri müsəlmanlardan azad edərək, xristianlarla məskunlaşdırmaq göstərişini" verdiyini deyir və artıq qayıdış bileti verilmiş qarapapaq ailələrinə ermənilərin köçürülməsi üçün yararlı ola biləcək ərazilərə heç bir vəchlə yerləşmək imkanının verilməməsini əmr edir[128].

Nəticə etibarilə, İsmayıl xan və oğlu Mərdan xanın cəmi 40 ailə ilə birlikdə İrəvan xanlığı ərazisində yeni yaradılmış Erməni vilayətində, əvvəlcə digər yarımköçəri türk tayfalarının, o cümlədən qarapapaqların da yaşadığı Göyçə gölü tərəfdə məs-

[127] GMTA, f. 2, s. 1, iş № 1969.
[128] GMTA, f. 2, s. 1, iş № 2236.

kunlaşması məqbul bilinir. Ancaq sonradan oraya Osmanlının Bəyazid bölgəsindən ermənilərin köçürülməsinə qərar verildiyi üçün onlara qonşu mahalın xarabaya dönmüş Məlikkəndi və Azumbəy kəndlərinin yerləşdiyi ərazilər təklif olunur[129]. N.Əhmədlinin üzə çıxardığı arxiv bilgilərindən bəlli olur ki, İsmayıl xan və oğlu Mərdan xan Dərəçiçək mahalının Qaraqala kəndində məskunlaşırlar. Belə ki, bu mahalın 1831-ci ilə aid kameral təsvirində onların adlarına Qaraqala kəndinin sakinləri arasında aşağıdakı şəkildə rast gəlinir:

*Mərdan xan İsmayıl ağa oğlu* - 40 yaş (onun arvadı və 4 qızı);

oğulları: Araz – 20 yaş, Cəfər- 8 yaş, Düşmən – 1 yaş;

qardaşları: Məhəmməd – 35 yaş (onun iki arvadı, qızı və oğlu Mədət – 1 yaş), Əhməd  20 yaş;

atası İsmayıl ağa Əli ağa oğlu – 80 yaş (onun iki arvadı və qızı)[130].

Beləliklə, bu mənbədən 1826-1828-ci illər Rusiya-Qacariyyə müharibəsində qacar ordusunun qarapapaq sərkərdələrindən olmuş *İsmayıl xan Əli ağa oğlunun* təqribən 1751-ci ildə doğulduğu, adı rus hərb tarixi qaynaqlarında keçən Mərdan xandan başqa, Məhəmməd və Əhməd ağa adlı oğullarının da olduğu bəlli olur.

Son rus-qacar müharibəsindən sonra 200-ə yaxın qarapapaq ailəsi Dərəçiçək mahalının *Qaraqala, Təkəlik, Ulaşıq, Qorçulu, Dəli Paşa, Alapars, Bicni, Çopur Əli, Rövzənlər, Sarıncan, Qoruqgüney, Dədə Qışlağı, Gümüş, Sollak və Tsaxkunq* (ermənilərlə qarışıq) kəndlərində yaşamağa davam edirdi. Mahalın qarapapaq kəndlərindən demək olar ki, yarısını (*Böyük Ördəkli, Kiçik Ördəkli, Şəkərbəyli, Alapapaq, Barat, Eşşəkquduran, Çobangöl, Maman, Qonaqgör, Keçaç, Sutökülən, Çerçer, Tsamakabird* və d. kəndlər) əhali  tamamən tərk etmişdi[131].

---

[129] Yenə orada.

[130] İrəvan əyalətinin kameral təsviri. IV cild. Göyçə və Dərəçiçək mahalları (tərtibçi: N.Əhmədli), Bakı, 2021, s. 325-326.

[131] Bax: Yenə orada, s. 290-424.

Qacarlara sığınıb İrəvan xanlığı ərazisinə köçən və daha sonra Sulduza məskunlaşanlar arasında Borçalı qarapapaqları ilə yanaşı, sürgündə vəfat etmiş məşhur Nəsib sultanın övladları *Yusuf xan, Məsih (və ya Məsim) xan, Əliskəndər bəy* və *Mehdi xan* başçılığı altında şəmşəddillilər də var idi. Onlar İrəvan xanlığına 1826-cı ildə üz tutmuşdular. 1846-cı ildə bəy və ağaların hüquqları haqqında reskript qəbul olunduqdan sonra Nəsib sultanın adı çəkilən oğulları, nəvələri Şahnəzər xan (Yusuf xanın oğlu) və Müseyib xan (Məsih xanın oğlu), qohumlarından İsmayıl bəy və Qasım ağa qardaşları, Kərim bəy və digərləri Qafqaz canişini M.Vorontsova ünvanladıqları müraciətlə öz yaxınları (50 ailə) ilə birlikdə Şəmşəddilə dönmək istəklərini dilə gətirirlər. Bununla bağlı, 1847-1850-ci illərdə Rusiya və Qacariyyə rəsmiləri arasında yazışmalar aparılır. Canişin M.Vorontsov Qafqaz komitəsinin sədri A.İ.Çernışevə yazdığı məktubda vaxtilə 500 evli Əmirli kəndində yaşayan, bu kənddən savayı Öysüzlü, Bozalqanlı və digər Şəmşəddil kəndlərinin də sahibi olan Nəsib sultanın P.Sisianovun Gəncə yürüşü zamanı xidmətlərini xatırladır, onun A.Yermolovun dövründə Gəncəbasarda böyük təsir gücünə malik olmasından ehtiyatlanıldığı üçün sürgünə göndərildiyi ehtimalını irəli sürür, övladlarının və qohum-əqrəbasının rus hakim dairələrindən incik düşdükləri üçün Qacariyyəyə üz tutduqlarını, ancaq buna rəğmən, indiyədək Rusiyaya qarşı heç bir düşmən mövqe sərgiləmədiklərini bildirirdi. Bölgədə böyük hörmətə malik Nəsib sultanın ailəsinin və nəslinin öz yurdlarına dönməsinin yerli əhali arasında rus hökumətinə etimadı artıracağını vurğulayan M.Vorontsov onların irsi mülklərinin qaytarılmasının mümkün olmayacağı təqdirdə Şəmşəddil nahiyəsində boş dövlət torpaqlarında məskunlaşdırılmasını mümkün hesab edirdi. Qacariyyə dövləti də öz növbəsində şəmşəddillilərin onlara verilmiş imtiyazlardan, tiyul torpaqlarından imtina və hamiliyə qəbul olunduqları gündən etibarən aldıqları yüksək məvacibin tamamının geri ödənməsi müqabilində Rusiyaya dönmələrinə etiraz etmir. Nəticə etibarilə, yalnız *Şahnəzər xana* 1850-ci ildə öz ailəsi və qulluqçuları ilə Rusiyada məskunlaşma izni verilir. Həmin dövrdə Nəsib sul-

tanın övladlarından Yusuf xan və Məsih xan artıq dünyalarını dəyişmişdilər, Mehdi xan isə hələ Abbas Mirzənin dövründə Arazın şimalına keçmişdi[132]. Şəmşəddil nahiyəsinin 1860-cı ilə aid kameral təsvirindən həmin dövrdə həyatda olmayan Mehdi xanın övladlarından 25 yaşlı Nəsib bəy Sultanovun Ayrım kəndinin koxası olduğu, 20 yaşlı Əsəd bəyin də qardaşı ilə bərabər Ayrımda yaşadığı bəlli olur[133]. Qeyd olunan mənbədə Şahnəzər xanın adına rast gəlinmir.

* * *

Müharibədə rus ordusuna güclü müqavimət göstərmiş qarapapaqlara qarşı İ.Paskeviçin planları onların öz yurdlarına dönmələrinin qarşısını almaqla məhdudlaşmırdı. Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan *"Qarapapaqların Rusiyada yerləşdirilməsinə dair daxili işlər naziri və Əlahiddə Qafqaz Korpusu qərargahının idarəsi ilə yazışma"* başlıqlı sənədlər toplusundan məlum olur ki, qarapapaq amilindən birdəfəlik "yaxa qurtarmaq" üçün qraf İ. Paskeviç bu cəsur türk boyunun Rusiyanın daxili bölgələrinə sürgün edilməsi məsələsini gündəmə gətirirdi[134]. O, Baş Qərargah rəisi qraf İ. Dibiçə yazdığı 24 avqust 1828-ci il tarixli raportunda köçəri, çılğın və qaçaqlığa meylli olduqlarından qarapapaqları tabeçilikdə saxlamağın çətin olduğunu vurğulayır və onların Rusiyanın daxili ərazilərində Volqa boyu, ya da digər bölgələrdə məskunlaşdırılmasını təklif edirdi. Qraf Dibiçin 25 sentyabr 1828-ci il tarixli cavab məktubunda qarapapaqların konkret olaraq Rusiyanın hansı bölgələrində yerləşdirilməsi imkanlarının araşdırılması tapşırılırdı[135].

---

[132] Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, часть II, с. 377-386.

[133] Şəmşəddil nahiyəsinin kameral təsviri.1860-cı il (tərtibçi: N.Əhmədli), Bakı, 2019, s. 192.

[134] GMTA, f. 2, s. 1, iş № 2167.

[135] Yenə orada

Məsələ ilə bağlı Rusiyanın daxili işlər naziri general A. Zakrevski 7 fevral 1829-cu il tarixli məktubu ilə Qafqaz vilayəti, Həştərxan quberniyası və Gürcüstanın sərhədyanı və mülki işləri üzrə baş idarə rəhbərinə köçürüləcəkləri təqdirdə qarapapaqların daxili quberniyalarda hansı işlərlə məşğul ola biləcəyini və bir sıra digər məqamları araşdırmağı həvalə edirdi. Eyni zamanda nazir qarapapaqların Saratov və Orenburq quberniyalarına köçürülməsinin əlverişli və xəzinəyə faydalı olduğunu, göstərilən quberniyalar üçün isə ziyanlı olmayacağını vurğulayırdı. Daxili işlər nazirinə yazılan cavabda köçürülməsi nəzərdə tutulan qarapapaqların Erməni vilayətində yaşadıqları və 1000 ailəyə qədər olduqları, Rusiyada əkinçilik və maldarlıqla məşğul ola biləcəkləri barədə məlumat verilirdi[136].

Baş Qərargah rəisinin köməkçisi general A.İ. Çernışevin 1829-cu il avqustun 7-də qraf İ.F. Paskeviçə yazdığı məktubunda qarapapaqların Orenburqa köçürülməsi məqsədəuyğun hesab edilirdi. General Çernışevin 1829-cu il noyabrın 29-da qraf Paskeviçə növbəti məktubunda isə imperatorun göstərişinə əsasən qarapapaqların köçürülməsi prosesinin Osmanlı ilə müharibə sona yetənə qədər təxirə salındığı, habelə bu planın Rusiya ilə pis münasibətdə olan Şimali Qafqaz dağlılarına qarşı ekspedisiya təşkil olunduqdan sonra həyata keçiriləcəyi qeyd olunurdu[137].

1831-ci ildə qarapapaqların Erməni vilayətindən Rusiyanın daxili bölgələrinə köçürülməsi məsələsi ilə bağlı yenidən məxfi yazışmalar aparılsa da, müəyyən səbəblərdən bu məkrli planı həyata keçirmək mümkün olmur. Belə olan təqdirdə köçəri tayfaları imperiyanın sadiq təbəələrinə çevirmək məqsədiylə bəzi şirnikləndirici addımlar atılır. Müharibədən zərər görmüş tayfalar kimi şadlı, qarapapaq və qaraçorlu tayfaları üç il müddətinə vergilərdən azad edilir[138].

1836-cı ildə isə Erməni vilayəti idarəsinin rəisi general knyaz V.O. Bebutov tərəfindən 1836-cı ildə *"Erməni vilayətində*

---

[136] Yenə orada.
[137] Yenə orada.
[138] GMTA, f. 1452, iş № 404.

*yaşayan Qarapapaq ağalarının, müxtəlif adlı köçəri tayfaların başçılarının təminatı üsulları barədə Əsasnamə"* tərtib edilir. Bu əsasnaməyə görə, ağaların və tayfa başçılarının tabeçiliyində olanlar onların qarşısında müəyyən məişət və təsərrüfat səciyyəli mükəlləfiyyətlər yerinə yetirməli, o cümlədən hərbi əməliyyatlar zamanı əldə etdikləri hərbi qənimətin ⅒ hissəsini (onların rəhbərliyi altında döyüşüblərsə) verməli idilər[139].

* * *

Rusiya imperiyası 1804-1813 və 1826-1828-ci illər rus-qacar müharibələrində olduğu kimi, 1806-1812 və 1828-1829-cu illər rus-türk müharibələrindən də qalib ayrılmışdı. Qeyd edək ki, bu müharibələrdə Osmanlı qarapapaqları etibarlı və cəsur sərhədçi rolunu oynayaraq 1806-1812-ci illər müharibəsində öndərləri − Xatunoğulları soyundan Qars paşası Məmməd paşanın qardaşı Qara bəyin (mağazberdli Qara Mahmud bəyin), 1828-1829-cu illər müharibəsi zamanı isə yenə Xatunoğullarından Mağazberd kəndxudası Şərif ağanın başçılığı altında döyüşmüş və sərhədi keçən düşmən qoşunlarına ilk zərbələri endirmişdilər[140].

Üst-üstə dörd müharibədə qazanılmış qələbə Rusiya imperiyasının Cənubi Qafqazda mövqeyini önəmli dərəcədə gücləndirsə belə, bundan sonrakı dinc dövrdə də çarizmin bu regionda müstəmləkəçilik siyasəti yerli əhalinin ciddi müqaviməti ilə üzləşirdi. Gürcü cəmiyyətinin zadəgan və ziyalı təbəqəsi yaranmış real durumla heç cür barışmaq istəmirdi. Dekabristlər üsyanından və Cənubi Qafqazın müxtəlif bölgələrində baş verən

---

[139] Н. Богданова. К вопросу о феодальной эксплуатации кочевников в Закавказском крае в первой трети 19-го в., «Исторический архив», М., 1939, с. 229-230.

[140] Bax: F. Valehoğlu. *1806-1812-ci illər türk-rus müharibəsi və qarapapaqlar* // "Tarix və onun problemləri", Bakı, 2013, № 3, s. 38-42; F. Valehoğlu. *1828-1829 Osmanlı-Rus Savaşı`ndan Bir Kesit: Serhattaki Türk Boyu Karapapaklar (Rus Tarih Kaynaklarına Göre)* // "Modern Türklük Araştırmaları Dergisi", Ankara, 2014, Haziran, Cilt 11, Sayı 2, s. 45-51.

kəndli çıxışlarından ilhamlanan bəzi gürcü knyazları 1831-ci ildə gizli təşkilat yaradıb qiyam hazırlıqlarına başlayırlar. Onlar məktub vasitəsilə Aleksandr Mirzəyə müraciət edib, onu hazırlanan qiyama rəhbərlik etmək üçün Kaxetiyaya dəvət edirlər. Bu məktubu qacarların himayəsində Səlmas şəhərində yaşayıb, buradakı erməni əhalisinin idarəçisi vəzifəsini icra edən şahzadəyə qiyamın təşkilatçılarından biri olan knyaz A.Orbelianinin təhkimli kəndlisi, Borçalı mahalının Hasanxocalı kəndinin 25 yaşlı sakini *Molla Zaman* çatdırır və cavab gətirir ki, Aleksandr Mirzə həm yaşlandığı, həm də artıq "öz gürcülərinə" inanmadığı üçün onların istəyini yerinə yetirə bilməyəcək[141]. Yeri gəlmişkən qeyd edək ki, İrəvan şəhərinin 1831-ci ilə aid kameral təsvirindən həmin dövrdə şahzadə Aleksandrın 25 yaşlı arvadı Mayanın 3 yaşlı oğlu İrakli və 30 yaşlı dul gəlin Zarma ilə İrəvanın Təpəbaşı məhəlləsində yaşadığı bəlli olur[142].

Qafqaz Arxeoqrafiya Komissiyasının tərtib etdiyi sənədlərdən məlum olur ki, knyaz A. Orbeliani "hər zaman çılğınlığa hazır olan borçalıları" qiyama qaldırmağı Molla Zamana həvalə edibmiş[143]. Molla Zaman bununla əlaqədar çıldırlı Kosa Mustafanı, Borçalı sakinləri Qədim Nağdəli oğlunu (əslən Sarvan kəndindən idi; Qızılhacılı kənd sakini Əliqulu Baba oğlu ilə birlikdə Telav qəzasının bələdçilərini qarət etdiyi üçün 1827-ci ildən qaçaq düşmüşdü)[144] və Vəli Əli Emin oğlunu knyazın yanına gətiribmiş.

Gizli təşkilatın mövcud olması 1832-ci ilin 9 dekabrında knyaz İase Palavandovun xəyanəti nəticəsində aşkar edilir, onun üzvləri həbs edilir və qiyam planı alt-üst olur. Tutulanlar arasında Molla Zaman və onun adlarını qeyd etdiyimiz üç qarapapaq məsləkdaşı da olur. 1833-cü ildə Molla Zaman və qiyamın təşkilində günahlandırılanlardan seminarist Taliyev saxlanıldıqları Avlabar zabit kazarmasından qaçırlar, ancaq çox keçmədən Bor-

---

141 Акты…, т. 8, Тифлис, 1881, с. 401.
142 İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin kameral təsviri, s. 266.
143 Акты…, т. 8, с. 406-407.
144 GMTA, f. 2, siyahı 1, iş № 2765.

çalı-Dəmirçihasanlı poruçik Paşa bəy Eminov tərəfindən yenidən tutulurlar. Bu xidmətinə görə 1834-cü ildə Paşa bəy Eminova Gürcüstanda baş idarəçi baron Q. Rozenin təqdimatı əsasında ştabs-kapitan rütbəsi verilir[145].

Məhkəmənin qərarı nəticəsində, qiyamda təqsirləndirilən qarapapaqlardan Qədim Nağdəli oğlu hərbi xidmətə göndərilir, Kosa Mustafa verdiyi ifadələrdəki səmimiliyinə görə bir müddət Gürcüstanda icbari əmək cəzası çəkdikdən sonra məmləkəti Çıldıra yola salınır. Vəli Əli Emin oğlu əvvəlcə Sibirə, oradan da Saratov quberniyasına sürgün edilir. Molla Zamanın cəzası isə həbsdən qaçdığı üçün ağır olur. O, jandarmanın müşayiəti ilə 1834-cü il iyunun 12-də Novoçerkasska, oradan da daxili mühafizə batalyonunda xidmət etmək üçün Arxangelskə aparılır[146].

Tarixşünaslığa "1832-ci il sui-qəsdi kimi" düşmüş bu uğursuz qiyam cəhdi faktiki olaraq, istiladan sonra vaxtaşırı özlərində güc tapıb səfərbər olmağı bacaran Gürcüstanın vətənpərvər zadəganlarının XIX əsrdə rus çarının istibdadına qarşı müqavimət hərəkatının, daha dəqiq ifadə etsək, gürcü dövlətçiliyinin bərpası uğrunda milli istiqlal mücadiləsinin demək olar ki, sonuncu çırpıntılarından idi.

Əlavə edək ki, "Gürcüstanda daxili sabitsizlik və qiyamlar zamanı ermənilər həmişə Rusiya hökumətinə sadiq idilər; bunun səbəbi onların mülkiyyətlərinin bundan əvvəl heç zaman olmayan toxunulmazlıq təminatı və gürcülərlə düşmənçilik idi"[147].

* * *

---

145 Акты…, т. 8, с. 414.

146 Yenə orada, s. 410, 412-413, 422.

147 O.Yevetski, göstərilən əsəri, s. 40.

Türkmənçay sülh müqaviləsindən sonra Qacar İranı Cənubi Qafqazın hərbi-siyasi rəqabət səhnəsindən çəkilsə də, Rusiya və Osmanlı arasında çəkişmələr davam edir. XIX əsrin ikinci yarısında daha genişmiqyaslı iki (1853-1856 və 1877-1878-ci illər) Rusiya-Osmanlı müharibəsi baş verir. Bu müharibələrdə bəzi Borçalı və Qazax qaçaqları rus ordusunda xidmət etmələri qarşılığında əfv olunmalarına baxmayaraq, Osmanlı ordusu sıralarında öz qan qardaşları ilə birlikdə döyüşməyi üstün tuturlar. 1853-1856-cı illər müharibəsində Borçalı sakini *Həşimoğlu* və Qazax mahalının Qarapapaq kəndindən qaçaq *Dəli ağa*, 1877-1878-ci illər müharibəsində isə Borçalı mahalının Darvaz kəndinin sakini, qarapapaqlardan ibarət könüllü süvari dəstəsinə komandanlıq edib miralay rütbəsinə yüksəlmiş əfsanəvi sərkərdə *Mehralı bəy* igidlikləri və qəhrəmanlıqları ilə fərqlənmiş belə qaçaqlardan idilər[148].

Rus-qacar müharibələrində olduğu kimi, rus-osmanlı müharibələri zamanı da döyüşkən qarapapaqları, xüsusən də tanınmış Borçalı-Qazax ağalarını və qaçaqlarını öz tərəflərində çəkmək üçün səy və imkanlarını əsirgəməyən rus ordu komandanlığı hərb tarixinə dair materiallardan görünür ki, qismən buna nail olurdu.

XIX əsrin ilk 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsində borçalıların bir hissəsi Sarvan kəndinin kəndxudası *İlyas ağanın* başçılığı altında polkovnik F.Peçyorskinin komandiri olduğu 15-ci yeger alayında, digər hissəsi isə Borçalı mouravı general-mayor T.Orbelianinin dəstəsində, əsasən, sərhədin Barmaqsız-Axalkələk istiqamətində döyüş mövqeyi tuturdular[149]. Qeyd edək ki, bu müharibə başlayanda Osmanlı rəsmiləri də Borçalı ağalarını öz tə-

---

[148] Ətraflı bax: V.Hacılar. *Borçalı Mehralı bəy tarixi həqiqətlərdə*, Tiflis, 2001, 160 s.; F.Valehoğlu. *Qarapapaqlar və onların XIX əsr hərb tarixi*, Bakı, 2005, s. 120-195; F.Valehoğlu. *Kırım Savaşında Osmanlı Ordusundakı Karapapaklar. Kars Gazisi − Borçalılı Heşimoğlu* // "Gazi Kars şehrengizi" uluslararası simpoziumunun bildiriləri, Ankara, 2011, s. 219-227.

[149] Акты …, т. 4, с. 959.

rəflərinə çəkmək üçün cəhdlər etmişdilər. Gürcüstan Mərkəzi Tarix Arxivində Trabzon və Ərzurum valisi Yusuf Paşanın bununla bağlı Borçalı ağalarından *İlyas ağa* və *Uğurluxan ağaya*[150], "Kaxet sancağının" ağalarından *Pirqasım ağa*, *Ələddin ağa*, *Əli ağa* və Qaracala ağası *Mirzalı ağaya* məktubları mühafizə olunur[151].

Nüfuzlu Borçalı ağalarından poruçik *Paşa ağa Vəli bəy oğlu Yadigarov* və *Məmməd ağa Abdulla ağa oğlu Acalov* 1826-1828-ci illər rus-qacar müharibəsində Gürcüstan knyaz və zadəganlarının süvari dəstəsinin tərkibində göstərdikləri şücaətə görə İ.F.Paskeviç tərəfindən təltif olunmuşdular[152].

1828-1829-cu illər rus-osmanlı müharibəsi zamanı rus ordusunun tərkibində Borçalı, Qazax və Şəmşəddil mahallarının ağalarından və onların rəiyyətlərindən ibarət 500 nəfərlik III süvari-müsəlman alayı təşkil edilmişdi. 1853-1856-cı illər rus-osmanlı müharibəsində də borçalılar, qazaxlılar və şəmşəddillilərdən ibarət yenə də III süvari-müsəlman alayı adlanan ayrıca hərbi birlik döyüşürdü. Əlahiddə Qafqaz Korpusunun baş komandanının 16 mart 1830-cu il tarixli əmri ilə 1828-1829-cu illər savaşında göstərdikləri cəsarət və mərdliyə görə III atlı-müsəlman alayının döyüşçülərindən sultan podporuçik *Əbdül ağa Kəlbəli bəy oğluna*, naib podporuçik *Əli ağa Abdul ağa oğluna*, naib praporşik *Usub ağa Müssəli oğluna*, naib praporşik *Mehralı ağa Təhməzqulu oğluna*, *Əli ağa Baba bəy oğluna*, *Əsədulla bəy Ləl Vəli ağa oğluna* və bu alaya ezam olunmuş könüllü praporşik Məmməd oğluna üzərində "igidliyə görə" yazısı olan IV dərəcəli Müqəddəs Anna ordeni verilmişdi[153]. Krım (1853-1856-cı illər) savaşında vuruşan III süvari-müsəlman alayına gəldikdə isə, Əlahiddə Qafqaz Korpusunun komandanı N.Muravyovun 1855-ci ildə imzaladığı əmrlərlə bu alayın Borçalı bəy yüzlüyünün başçısının müavini *Mansur ağa Əli bəy oğlu* və vəkilləri baydarlı *Məmməd ağa Sultanov*, qaçağanlı *Süleyman ağa Məmmədhəsən oğlu Topçu-*

---

[150] GMTA, f.1453, iş № 182 və iş № 188.
[151] GMTA, f.1453, iş № 183 və iş № 189.
[152] GMTA, f. 254, s. 1, iş № 1254; Ş.Nəzirli. göstərilən əsəri, s.133.
[153] «Тифлисские ведомости» qəz., 1830, 10 aprel, № 29.

*yev*, sarvanlı *İlyas ağanın oğulları İbrahimxəlil ağa* və *Əlisgəndər ağa*, Qızılhacılı kəndindən *Əli ağa Əliqulu ağa oğlu, Əli Qayıb oğlu* göstərdikləri igidliklərə görə təltif olunmuşdular[154]. Krım savaşında rus ordusu sıralarında Qasımlı kəndinin praporşik rütbəli ağası *Daşdəmir ağanın* başçılığı altında borçalılardan ibarət 300 nəfərlik könüllü dəstə də fərqlənmişdi. Döyüşlərdə göstərdiyi şücaətlərə görə Daşdəmir ağa III dərəcəli Müqəddəs Anna ordeni, üzərində "igidliyə görə" yazısı olan gümüş medal və podporuçik rütbəsi ilə, müavini olan əmisi oğlu podporuçik *Osman ağa* isə poruçik rütbəsi ilə mükafatlandırılmışdılar. Daşdəmir ağanın könüllü dəstəsinin vəkili *Ağabəy Şahqulu ağa oğlu,* süvariləri *Məmməd ağa Minasazov* və *Abdulla Dünyamalı oğlunun* igidlikləri də ordu rəhbərliyinin diqqətindən kənarda qalmamış, onlar müxtəlif təltiflərə layiq görülmüşdülər[155].

Daşdəmir ağanın oğlu *Səməd ağa* da başına topladığı 30 nəfərlik könüllülər ("oxotnik"lər) dəstəsi ilə XIX əsrin son 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsində rus ordusu sıralarında döyüşmüşdü. O, bu müharibədə fərqləndiyinə görə milis praporşiki və podporuçiki rütbəsi, IV dərəcəli hərbi döş nişanı, Stanislav və III dərəcəli Anna ordenləri ilə mükafatlandırılmışdı[156]. Daşdəmir ağanın digər oğlu, qaçaqlıqla məşhurlaşmış Astan ağa da qardaşının könüllü süvariləri arasında yer alırdı[157]. Qeyd edək ki, Səməd ağa 1877-1878-ci illər müharibəsindən sonra rus hərbi birləşmələrinin Türkmənistanda apardığı hərbi əməliyyatlarda iştirak etmiş, Axaltəkə ekspedisiyasına qatılmışdır[158].

Borçalı qarapapaqlarının hərb tarixində peşəkar zabitlər nəsli

---

[154] «Кавказ» qəz., 1855, 24 sentyabr, № 75; «Кавказ» qəz., 1855, 8 oktyabr, № 79; «Закавказский вестник» qəz., 1855, 17 noyabr, № 46.

[155] «Кавказ» qəz., 1855, 20 aprel, № 30; «Закавказский вестник» qəz., 1855, 15 avqust, № 32; «Кавказ» qəz., 1855, 8 oktyabr, № 79; «Кавказ» qəz., 1855, 19 noyabr, № 91.

[156] А.Ржевуский. От Тифлиса до Денгиль-Тепе (Из записок участника), «Военный сборник», 1884, № 6.

[157] GMTA, f.17, s.1, iş № 3344, vv. 4-6.

[158] A.Rjevuski, göstərilən əsəri.

olan Yadigaroğullarının xüsusi yeri var. Bu nəslin nümayəndələrindən *İsrafil bəy* və oğlu *Həsən bəy*, *Əsədulla bəy* və *Davud bəy Yadigarovlar* general rütbəsinə yüksəlməyə müvəffəq olmuşdular. İsrafil bəy Yadigarov Krım müharibəsinin Qafqaz cəbhəsində 500 atlıdan ibarət II Şirvan süvari-müsəlman alayına komandanlıq etmişdi. Əsədulla bəy Yadigarov 1877-1878-ci illər rus-osmanlı müharibəsində Balkan cəbhəsində döyüşmüşdü.

* * *

Çar Rusiyası XIX əsrin birinci qərinəsində Cənubi Qafqazda ələ keçirdiyi Azərbaycan-türk mahallarında intensiv köçürmə siyasəti həyata keçirirdi. Bu, çarizmin müstəmləkəçilik siyasətinin başlıca prioritetlərindən idi. Yeni ələ keçirilmiş sərhədyanı ərazilərin xristianlaşdırılması üçün bütün mümkün vasitələrə əl atılırdı. Erməni, yunan, alman, duxobor-molokan kimi Qafqaz coğrafiyasına və təfəkkürünə yad xristian etnosları cənub qonşuları Osmanlı və Qacarlarla yeni formalaşmış strateji sərhəd ərazilərində planlı şəkildə yerləşdirməklə Çar Rusiyası həm özünün təbəəliyində olan türk-müsəlman əhalinin etnik sərhədlərini daraldıb təsir gücünü zəiflətmiş olur, həm də qonşu türk dövlətləri ilə öz ərazisi daxilindəki türk mahalları arasında etibarlılığına güvənə biləcəyi əhali qruplarından ibarət kompakt etnik zolaqlar yaradırdı.

Kütləvi köçürmələr nəticəsində Cənubi Qafqazın digər türk-müsəlman bölgələri ilə yanaşı, qarapapaq mahalları da ciddi demoqrafik ekspansiyaya məruz qalırdı. Baş verən müharibələr bu prosesin daha aktiv həyata keçirilməsinə təkan verirdi. Artıq regionda baş vermiş ilk 1804-1813-cü illər rus-qacar müharibəsi ilə Pəmbək mahalında türk-müsəlman etnik dominantlığı ermənilərə təslim edilmişdi. Belə ki, Pəmbək mahalının 1804-cü ildə, bu müharibə başlamazdan az əvvəl tərtib olunmuş kameral təsvirində 2832 türk, 1303 erməni kişi xeylağı qeydə alınmışdır-

sa[159], müharibənin gedişatı zamanı yerli türklərin öz yurdlarını kütləvi şəkildə tərk edib İrəvan xanlığının və Qars paşalığının ərazilərinə köçməsi, onların yerinə isə ermənilərin yerləşdirilməsi mahalın etnik xəritəsini dəyişməsinə səbəb olmuşdu.

Çar hakimiyyəti tərəfindən Borçalı qəzasında, əsasən də qəzanın cənub kəsimində (Loru bölgəsi) aparılmış sürətli erməniləşdirmə siyasəti nəticəsində XIX əsrin sonlarında ermənilər burada əhalinin say tərkibində üstün mövqeyə sahib olmuşdular. Əgər 1832-ci ilin kameral təsvirlərinə görə, 145 kənddən ibarət olan Borçalı distansiyasında 4092 ailədə 13862 kişi cinsinin nümayəndəsi yaşayırdısa və onlardan 8479 nəfəri (61,16 %) türk-qarapapaq, 3634 nəfəri (26,21 %) erməni, 767 nəfəri (5,53 %) yunan, 669 nəfəri (4,82 %) gürcü və 313 nəfəri (2,25 %) alman idisə[160], 1897-ci ildə keçirilmiş ümumrusiya əhali siyahıyaalınmasında 5938,5 kv.verst əraziyə sahib Borçalı qəzasının əhalisi 128 587 nəfərdən ibarət olmuşdur; onlardan ermənilər - 47 423 (36,88 %), türk-qarapapaqlar - 37 742 (29,35 %), yunanlar – 21 393 (16,63 %), ruslar 8 089 (6,29 %), gürcülər 7 840 (6,09 %) nəfəri təşkil etmişdirlər[161]. Göründüyü kimi, türklərin say artımı digər etnoslarla müqayisədə xeyli aşağı səviyyədə idi. Bunun başlıca səbəbi onların etnik sıxışdırmaya məruz qalmaları nəticəsində kompakt şəkildə öz yurdlarını tərk edib, qonşu ölkələrin ərazilərində məskunlaşmalarından qaynaqlanırdı.

Ermənilər Güney Qafqazda yeni məskunlaşdıqları bölgələrdə, o cümlədən Borçalıda çox keçmədən müxtəlif hiyləgər üsullardan və vasitələrdən istifadə edərək məqsədli şəkildə türk ağalarına-bəylərinə və gürcü knyazlarına məxsus iri

---

[159] Акты…, т. 3-й, s. 228.

[160] Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, ч. 2-я, СПб, 1836, с. 275, 278.

[161] Вах: Первая Всеобщая перепись населения Российской империи 1897 г. (под ред. [и с предисл.] Н.А. Тройницкого), выпуск 7, СПб, 1905, с. 33.

torpaq sahələrinə sahiblənirdilər[162]. Qafqazın gəlmə sakinlərinin rus məmur havadarlarının dəstəyilə tezliklə iri mülkədarlara və kapitalistlərə çevrilmələri köklü əhali tərəfindən narazılıqla qarşılanır, bəzən onlar arasında münaqişələrə və məhkəmə çəkişmələrinə səbəb olurdu. Borçalının Bolnis-Kəpənəkçi kəndinin dövlət kəndlilərinin onların torpaqlarını ələ keçirmələri ilə bağlı erməni mülkədarları Meliksedek və Bağdasar Piradovlarla 1854-cü ildə hüquqi müstəvidə mübarizələri də belə çəkişmələrdən idi[163].

Erməni mülkədarlarının Tiflis qəzasının Qarayazı nahiyəsində və Borçalı qəzasında əldə etdikləri torpaqlarda yaratdıqları xutorlar*, fermalar və digər maddi gəlir mənbələri 1905-ci ilin noyabr ayında mütəşəkkil daşnak silahlı dəstələrinin Tiflisdə şəhərin türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlara qarşı Borçalıda baş qaldırmış xalq hərəkatının iştirakçılarının əsas hədəfinə çevrilmişdi. General-leytenant İsrafil bəy Yadigarovun oğlu general-mayor *Həsən bəy Yadigarovun* başçılıq etdiyi xalq hərəkatında Borçalı ağalarından *Emin ağa Acalov (Bolnis-Kəpənəkçi), Vəli bəy Topçuyev (Qaçağan), Sadıx bəy Abbasəli bəy oğlu Yadigarov (Təkəli), Allahverdi bəy və Rəhim bəy Sofuyevlər (Qaracalar), Əmirxan ağa Almas ağa oğlu Sultanov (Baydar), Abdul ağa İrzaqulu ağa oğlu Mursaqulov (Böyük Muğanlı), Mehdi ağa və Şahismayıl ağa Mursaqulovlar (Qızılhacılı), Məmməd ağa Bayramov (Sarvan), Yaradanqulu ağanın övladları (Salamməlik),* eləcə də *Cücəkənd kəndxudası Alı Qara Qurban oğlu, Darvaz kəndxudası Səməd Murad oğlu, Molla Ömər Abbas oğlu* və digərləri fəal iştirak edirdilər. Həsən bəyin əkiz qardaşı poruçik *Hüseyn bəy Yadigarov* 1905-ci il qırğınları zamanı Tiflis mü-

---

162 И.К. Канадпев. Очерки Закавказской жизни, том 1-й, СПб., 1902, с. 76-77; В.Л. Величко. Кавказ. Русское дело и междуплеменные вопросы. С.-Пб., 1904, с. 113-114.

163 «Закавказский вестник» qəz., 1854, 13 may.

* xutor – içərisində sahibinin evi və təsərrüfatı olan ayrıca mülk.

səlmanlarının özünümüdafiə dəstələrinə başçılıq edirdi[164].

1906-cı ildə Rusiya imperiyası Dövlət Dumasına seçkilər üzrə quberniya və vilayət seçki məclislərinin formalaşdırılmasına qərar verilmişdi. Borçalı qəzasının kənd icmalarının həmin ilin may ayında keçirilmiş toplantısında Tiflis quberniyasının seçki məclisinə seçici qismində Kosalı kəndinin 45 yaşlı kəndxudası *Osman Uğurlu oğlu Sadıqov* və Şulaver kəndinin erməni əsilli kəndxudası V.M.Mehrabovun adlarının salınması uyğun bilinmişdi[165].

Tarixi mənbələr göstərir ki, Borçalı ağaları, kəndxudaları və ruhaniləri XX əsrin əvvəllərində də istər Çar Rusiyası təbəəliyində olarkən, istərsə də Cənubi Qafqazda müstəqil milli demokratik respublikaların mövcud olduğu dönəmdə (1918-1821-ci illər) və Sovet hakimiyyətinin ilk illərində yaşadıqları regionda baş vermiş hərbi-siyasi proseslərdə, 1905-ci il olaylarında olduğu kimi, təmsilçisi olduqları toplumun ön sıralarında dayanmışlar.

* * *

Beləliklə, yuxarıda əks olunan məlumatlardan göründüyü kimi, Borçalı mahalının türk-qarapapaq əhalisinin imtiyazlı zümrələri (ağalar//bəylər, ruhanilər, kəndxudalar//koxalar və s.) XIX-XX əsrin əvvəllərində cərəyan edən tarixi proseslərdə mühüm rol oynayaraq siyasi-ictimai fəallıqları ilə seçilmişdirlər. Kitabda Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan XIX əsr kameral təsvirlərinə (vergi-maliyyə və ya təhrir siyahılarına) və digər rəsmi siyahıyaalınmalara istinadən bu

---

[164] Bax: F. Valehoğlu. *Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları*, Bakı, 2013-cü il, 240 s.; F.Valehoğlu. *Borçalıda 1905-ci il xalq hərəkatı: səbəbi və nəticələri*, "Tarix və onun problemləri", 2014, № 3, s. 49-54.

[165] «Кавказ» qəz., 1906, 9 may, № 106, s. 3.

mahala dair cədvəl şəklində təqdim olunan məlumatlar, eləcə də onlara tərəfimizdən əlavə olunmuş qeydlər həm sözügedən əhali qrupunun törəmələrinin öz ulularının kimliyini və nəsil şəcərələrini müəyyən etməsi, həm də ondan ziyadə qarapapaq ellərinin tarixində fərqlənmiş şəxslərin tərcümeyi-halının dəqiqləşdirilməsi üçün əvəzolunmaz qaynaqdır.

Onu da qeyd edək ki, müəyyən səbəblərdən kameral təsvirlərdən kənarda qalanlar da olurdu. Eyni zamanda hələ ki, faydalanma imkanımız məhdud olan mənbə sayının az olmadığını təxmin edirik. Ona görə də təqdim olunan siyahıların Borçalı əhalisinin imtiyazlı təbəqələrini tam və dolğun şəkildə əks etdirmədiyini söyləməliyik. Hələlik bu kitabın örnəyində ilk addımı ataraq, gələcəkdə müvafiq yöndə araşdırmalarımızı davam etdirmək fikrindəyik.

Kitabı istifadə edərkən aşağıdakı özəllikləri nəzərə almaq lazımdır:

- Kameral təsvirlərdə yalnız ailənin kişiləri (cüzi istisnalar olmaqla) adbaad qeydiyyata alınır, çox hallarda onların malik olduqları hərbi, mülki və ya dini rütbələri göstərilirdi;
- O dövrdə doğum şəhadətnamələri olmadığı üçün təsvirlərdə şəxslərin yaş hədləri çox zaman təqribi − ya özlərinin və yaxın qohum-əqrəbalarının sözlərinə əsasən, ya da ki, xarici görkəmlərinə uyğun olaraq qeyd olunurdu;
- Kameral təsvirlər əlyazmalar şəklindədir. Əlyazmalarda ya siyahıları tərtib edən məmurların xəttinin çətin oxunması, ya da mənbənin naqis olması səbəbindən bəzi şəxs adlarının oxunuşunda şərtiliyə yol vermişik. Belə antroponimlərin, eləcə də dəqiqliyinə şübhə etdiyimiz xüsusi isimlərin qarşısında mötərizədə sual (?) işarəsi qoymuşuq;
- Bəzi şəxs adlarının yazılışının əlyazmada olduğu kimi, yerli şivədə deyiliş tərzinə uyğunluğunu saxlamışıq (məs.: Usub, Söyün, Eyif və s.).

İnanırıq ki, təqdim olunan kitab Borçalı və ətraf bölgələrin tarixini araşdıran tədqiqatçılar üçün faydalı mənbə olacaqdır.

Kitabın ərsəyə gəlməsində dəyərli məsləhətlərinə və göstərdikləri dəstəyə görə elmi redaktor, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Prof.Dr. Kərim Şükürova, rəyçilər – Prof.Dr. İkram Ağasıyevə və Dr. Nazir Əhmədliyə, Valeh Hacılar Uluslararası Elmi-Mədəni Araşdırmalar Vəqfinin başqanı Prof.Dr. Cengiz Alyılmaza, Azərbaycan Memarlıq və İnşaat Universitetinin müəllimi Dr. Valeh Şərifova, "Soydaş" İctimai Birliyinin sədri Kamran Ramazanlıya, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Namiq Valehoğlu-Hacılara təşəkkürümüzü bildiririk.

## BORÇALI DİSTANSİYASININ KƏNDXUDALARI VƏ KOXALARI – 1817-ci il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 479)*

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Kosalı-Dəmirçihasanlı | Sultan İsa Əhməd Sultan oğlu (Əli ağa adında qardaşı var) |
| Nazarlı | Əbdul ağa Molla Baba oğlu |
| Kəpənəkçi (Dəmirçihasanlı) | Barxudar ağa Qasım ağa oğlu |
| İlməzli (Dəmirçihasanlı) | İlməz oğlu Osman |
| Keşəli | Nəbi ağa Vəli bəy oğlu |
| Qaracalar | Musa ağa oğlu İmirzalı ağa |
| Təhlə | Bayram ağa Xəlifəqulu oğlu |
| Qaratəklə | Naman (?) oğlu Abdulla |
| Ləmbəli | Nəbi Qara Məmməd oğlu |
| Qullar | Vəli ağa |

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Aşağı Şeytanlı* | Əli oğlu Cəlil |
| Yuxarı Şeytanlı | Zaman oğlu İsmayıl |
| Sadaxlı | koxa Haxverdi;<br>Səlim bəy oğlu Məmməd |
| Çələbili | Amad (?) ağa |
| Aşağı Saral | Axund Molla Məmməd |
| Yuxarı Saral | koxa İmamverdi |
| Ulaşlı | Cabbar ağa |
| Ağməmmədli | İbrahim ağa |
| Mahmudlu | İmirzəxan oğlu Mustafa |
| Baraxlı | Əmircan ağa |
| Araplı | İlyaz (Elyaz) xan |

* Aşağı və Yuxarı Şeytanlı kəndləri Katarinenfeld koloniyası və Ratevan kəndi yaxınlığında bir-birinin qonşuluğunda yerləşib; XIX əsrin ortalarında Şeytanlı sakinlərinin əksəri Zol-Göyəc, Aşağı Güləver və Babakişilər kəndinə köçüblər. Hazırda Zol-Göyəc kəndinin məhəllələrindən biri Şeytanlı adlanır. XIX əsrə aid statistik göstəricilərdə Şeytanlı kəndi ilə yanaşı, Şeytanlı-Təpəbaşı kəndi də qeydə alınmışdır (bax: Кавказский календарь на 1854 год, Тифлис, 1855, с. 521) - *(F.V.)*.

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Seyidqocalı | Molla Qərib oğlu Molla Məmmədcəfər |
| Qaçağan | Məmmədhasan ağa Topçu oğlu |
| Qırıxlı* | koxa Adıgözəl |
| Şamalı | koxa Məsi oğlu Bayram |
| Xancığazlı | Molla Rəhim oğlu Yolçu ağa |
| Gültəpə** | koxa Hüseyn Məmməd oğlu |
| Polkovnikli*** | koxa Hasan Murad oğlu |
| Faxralı | Məmməd Əli oğlu Əhməd ağa |
| Qarapərili**** | Qara Pəri oğlu Nəbi |
| Sarvan | Poruçik İlyaz ağa |
| Qızılhacılı | İsmayıl ağa |
| Arıxlı | İbrahimxəlil ağa |
| Hallavar | Oruc oğlu Usub |

* Əlyazmada Qaraxlı («Карахли») kimi göstərilib *(F.V.)*.
** Bu kənd hazırda Böyük Muğanlının məhəlləsidir *(F.V.)*.
*** Bu kənd Daşdıqulların yaxınlığında olub *(F.V.)*.
**** Bu kənd Faxralının yaxınlığında olub və sonradan Faxralıya birləşib *(F.V.)*.

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Bəylər | Sultan oğlu Ağa |
| Qullar | Veysəl oğlu Mahmud |
| Baydar | Almas Sultan (Rəhim adlı oğlu var) |
| Gorarxı | koxa Hasan |
| Böyük Muğanlı | İsmayıl ağa |
| Lecbəddin | Əli bəy |
| Kiçik Şüləver | Sultan oğlu Paşa |
| Qəmərli | Qul (Gül) Məhəmməd oğlu Məhəmməd |
| Saraclı | İbrahim Xəlil ağa |
| Daşdıqullar | Molla Şıxı oğlu Hüseyn |
| Bolnis-Kəpənəkçi | İsmayıl ağa |
| Hasanxocalı | Ağa Məmməd |
| İmirhasan | Göyüş oğlu Haxverdi |
| Ratevan | Eşim (? - Həşim) oğlu Allahverdi |

**Qeyd***. 1823-cü ilə aid kameral təsvirdə öncəki cədvəldə təqdim olunan bəzi kəndxuda və ya koxaların ailə üzvləri və həmkəndliləri barədə aşağıdakı məlumatlar verilir:

1) Qaracalar kəndinin kəndxudası:
Mirzalı ağa Musa ağa oğlu – 70 yaş;
*arvadı* Murasxanım – 40 yaş;
*oğlu* Mirastan ağa – 8 yaş;
*qızları:* 1. Xanım – 10 yaş,
2. Nənəxanım – 8 yaş,
3. Həvvaxanım – 4 yaş;
*qardaşı:* Paşa ağa – 35 yaş[166].

2) İlməzli kəndinin dövlət kəndliləri:
Süleyman ağa İlməz oğlu – 60 yaş;
*arvadı* Fatma- 50 yaş;
*oğulları*: 1. Ağakişi – 40 yaş,
2. Məmməd – 35 yaş,
3. Əhməd – 30 yaş,
4. Vəli – 25 yaş[167].

3) Gorarxı kəndinin dövlət kəndliləri:
İrzaqulu bəy Sultan oğlu – 60 yaş;
*arvadı* Tomar xanım – 40 yaş;
*oğlu* Knyaz – 20 yaş;
*Knyazın arvadı* Səyalı – 20 yaş.[168]

---

* **Burada və bundan sonra cədvəl xaricindəki qeydlər müəllifə aiddir** *(F.V.)*.
166 GMTA, f. 254, s. 1, iş № 811, v. 207.
167 Yenə orada, v. 147
168 Yenə orada, v. 111.

## KƏNDXUDALAR//KOXALAR – 1821-ci il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 686)*

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Sadaxlı | koxa Rövşən Adıgözəl oğlu |
| Qaçağan | kəndxuda Məmmədhasan Topçu oğlu |
| Baydar | Almas Sultan<br>(*oğulları*: Ağa, Qəhrəman, Bala, Əmirqulu, Murtuza) |
| Bolnis-Kəpənəkçi | kəndxuda Ağakişi bəy Molla Ağakişi oğlu<br>(*oğulları:* Qəhrəman, Alı, Nağı, Musa) |
| | koxa Yolçu Talıb oğlu<br>(*oğulları*: Oruc, Qurban, İsmayıl) |
| Arıxlı | koxa Qara İbrahim İbrahimxəlil oğlu<br>(*qardaşları*: Əli, Əhməd, Eyif, İmirzalı) |
| Faxralı | koxa Məmməd Əhməd oğlu<br>(*oğulları*: Məmmədalı, Məmməd, Pirməmməd) |
| Saraçlı | koxa İbrahimxəlil İsmayıl oğlu<br>(*oğlu* İsmayıl) |

| Kəndin adı | Kəndxudanın//koxanın adı |
|---|---|
| Qoçulu | koxa Allahverdi Bayram oğlu<br>(*oğlu* Məmməd) |
| Ratevan | koxa Eşim oğlu Allahverdi<br>(*oğulları*: Nəbi, Qurban, Hüseyn, Hasan, Bəkir, Ömər) |
| Hasanxocalı | koxa Kazım Kərim oğlu |

**Qeyd:** 1823-cü ilə aid kameral təsvirdən həmin dövrdə də Baydar kəndinə kəndxudalıq edən Almas Sultanın təxminən 45 yaşında olduğunu müəyyən etmək və ailəsinin qadın üzvləri barədə aşağıdakı bilgiləri əldə etmək mümkündür:

arvadı Zəhra xanım - 20 yaş, qızı Xanım - 13 yaş[169].

[169] Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 811, vərəq 86.

## BORÇALI NAHİYƏSİNİN RUHANİLƏRİ – 1843-cü il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2049)*

| Kəndin adı | Ruhaninin ailəsindəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| Kosalı | 1. Mustafa Əfəndi Şeyxülislam | 72 |
| | *oğulları:* | |
| | 1. praporşik Məmməd ağa | 36 |
| | 2. Molla Abdulla | 32 |
| | 3. Alı Əfəndi | 30 |
| | 4.Hasan ağa | 22 |
| | 2. Hacı Şəfi Molla Abdulla oğlu | 50 |
| | *qardaşı* Hacı İbrahim | 35 |
| | 3. Nəbi Əfəndi Vəli oğlu | - |
| | 4. Molla Məmməd Əhməd oğlu | 50 |
| Nazarlı | 1. Molla Məmməd | 45 |
| | 2. Molla Qasım Kərim oğlu | 32 |
| Tüllər* | Molla Rüstəm İmam oğlu | 26 |
| Keşəli | 1. Molla Mahmud Molla Nəbi oğlu | 31 |
| | 2. Molla Əli Yadigar oğlu | 43 |

* Qayaqocalı kəndinin yaxınlığında vaxtilə bu adda kənd mövcud olub *(F.V.)*.

| Kəndin adı | Ruhaninin ailəsindəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| Qarakeşəli | Molla Süleyman Süleyman oğlu | 45 |
| İlməzli | 1. Molla Əbdülkərim Molla İsa oğlu<br>2. Molla İbrahim Molla Musa oğlu | 35<br>71 |
| Dəmirçihasanlı-Kəpənəkçi | 1. Molla İsmayıl Qoca oğlu<br>2. Molla Kərim | 63<br>35 |
| Böyük Muğanlı | Molla Əli Hüseyn Məmili oğlu | 45 |
| Qoşakilsə | Hacı Molla Xəlil Əfəndi | 50 |
| Axlı Mahmudlu | Seyid İrza Seyid Həsən oğlu | 25 |
| Araplı | 1. Axund Molla Bayram oğlu<br>2. Məşədi Molla Tağı | 70<br>40 |
| Baydar | Molla Bayram Allahverdi oğlu | 27 |
| Baraxlı | 1. Molla Əhməd Bayram oğlu<br>2. Seyid Mir Heydər oğlu | 26<br>50 |
| Ağməmmədli | Molla Ayvaz Allahverdi oğlu | 31 |
| Ulaşlı | 1. Molla Şıxı Molla İmam oğlu<br>2. Məşədi Hüseyn | 50<br>45 |
| Betarafçı | Hacalı Əfəndi Musa oğlu | 40 |

| Kəndin adı | Ruhaninin ailəsindəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| Aşağı Saral | Axund Molla Ağa Məmməd | 48 |
| Yuxarı Saral | 1. Molla Aşur Babacan oğlu<br>2. Seyid Mirdaud (?) ağa<br>3. Molla Məmməd | 27<br>66<br>40 |
| Tərkivan | Molla Rüstəm İmam oğlu | 22 |
| Mamay | 1. Seyid Əli Seyid Məmməd oğlu<br>2. Seyid Hüseyn Seyid Əhməd oğlu | 40<br>30 |
| Bolnis-Kəpənəkçi | Molla Əhməd Baba oğlu | 32 |
| Arıxlı | Molla Hasan Molla Əli oğlu | 35 |
| Bala Muğanlı | Molla İrza Qulu | 47 |
| Kiçik Bəylər | Molla Allahverdi Əli oğlu | 25 |
| Qəmərli | Molla Yusuf Molla Abdulla oğlu<br>*oğulları*:<br>1. Molla Abdulla<br>2.Molla Məhəmməd<br>3. Molla Mustafa | 45<br><br>10<br>8<br>6 |
| Aşağı Hamamlı | Molla Nəsib Səfər oğlu | 60 |
| Baş Hamamlı | Molla Məmməd Qədir oğlu | 55 |

| Kəndin adı | Ruhaninin ailəsindəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| Qızılhacılı | Məhəmməd Molla Mehdi Molla Cəfər oğlu | 46 |
| Sarvan | 1. Molla Qurban İsmayıl oğlu<br>2. Molla Hümmət Sadıq oğlu<br>3. Süleyman Talıb oğlu | 60<br>47<br>21 |
| Kürtlər | 1. Mustafa Əfəndi Məmməd oğlu<br>2. Molla Hacı İsa Molla Məmməd oğlu | 70<br>39 |
| Gorarxı | Abdulla Əfəndi Şıxı oğlu | 62 |
| Qaçağan | Molla Hasan Mustafa oğlu | 48 |
| Quşçu | Molla Hasan Hacı Bağır oğlu | 40 |
| Darvaz | Seyid Əli Əfəndi Kaqa (?) oğlu<br>*oğulları:*<br>1. Molla Mustafa<br>2.Əbdürrəhman<br>3. Məhəmməd Zərif<br>*qardaşı* Molla Vəli<br>*onun oğulları*:<br>1. Abdulla<br>2.Əhməd | 42<br><br>20<br>12<br>6<br>30<br><br>7<br>4 |

| Kəndin adı | Ruhaninin ailəsindəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| Qaçağan | Seyid Məmməd Həsən Seyid Məmməd Əli oğlu | 50 |
| Böyük Bəylər | Molla Məmməd İsa Əfəndi oğlu | 50 |

**Qeyd 1.** Cənubi Qafqazın müsəlman icması ilə bağlı GMTA-da saxlanılan rəsmi yazışmalardan bəlli olur ki, Kosalı kəndinin ruhanilərindən *Mustafa Əfəndi* 1843-cü ildə Borçalı nahiyəsinin qazisi vəzifəsini daşıyıb. Kameral siyahıyaalınmada onun adının qarşısına səhvən "şeyxülislam" yazılmasına da çox güman ki, bu amil təsir edibdir. 1845-ci ilin sonlarında Mustafa Əfəndi canişin M.S.Vorontsovun təqdimatı ilə Rusiya imperatoru I Nikolay tərəfindən Zaqafqaziya müftisi vəzifəsinə təyin olunur və ömrünün sonunadək (1858-ci illədək) bu vəzifədə çalışır. Büdcədən ona 250 rubl aylıq məvacib, 250 rubl da əlavə ev kirayəsi haqqı ayrılır[170]. Müfti Mustafa Əfəndinin törəmələrinin sonradan Müftiyev (Müftizadə) soyadını daşımaları və 1886-cı il kameral siyahılarında Dəmirçihasanlı-Kosalı ağalarının sırasında bu soyadla qeydə alınmaları onun bu ali dini vəzifəni tutması ilə əlaqəlidir. Mustafa Əfəndinin Tiflisdə məscid yaxınlığında özünə ev tikdiyi və bu evin varisləri tərəfindən satıldığı da arxiv mənbələrinin soraq verdiyi bilgilərdəndir[171].

[170] GMTA, f. 4, s. 3, iş № 2.
[171] GMTA, f. 8, s. 1, iş № 3647; GMTA, f. 4, s. 3, iş № 121.

**Qeyd 2.** Yerli müsəlman icmasının müraciəti nəzərə alınaraq Borçalı nahiyəsinin sünni təriqətinin qazisi vəzifəsinə 1846-cı ilin əvvəlində Zaqafqaziya müftisi Mustafa Əfəndinin oğlu *Alı Əfəndi* təyin edilir[172]. Mustafa Əfəndidən sonra müfti vəzifəsini tutan praporşik Məmməd Əfəndi Müftizadə (Mustafa Əfəndidən qabaq Zaqafqaziya müftisi olmuş Osman Əfəndi Vəlizadənin oğlu, görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin nəvəsi) 21 yanvar 1861-ci il tarixli, 25 saylı məxfi qrifli məktubla Tiflis mülki qubernatoruna müraciət ünvanlayıb Borçalı qazisi Alı Əfəndinin bəzi məsələlərdə öz səlahiyyətlərini aşdığı üçün, xüsusən də Bolnis-Kəpənəkçi kəndinə onun rəyini nəzərə almadan imam təyin etdiyi və şəriət məsələlərinin həllində xətalara yol verdiyi üçün vəzifəsindən azad olunmasını xahiş edir, eyni zamanda onun yerinə Kosalı kəndinin baş imamı (daha əvvəl Keşəli kəndinin kəndxudası olub) Nəbi Əfəndi Vəli oğlunun təyin olunması barədə vəsatət qaldırır. Mülki qubernator 10 gün sonra müftinin bu müraciətini onda qaldırılan məsələlərə münasibət bildirilməsi üçün Tiflis qəza rəisinə göndərir[173]. Nəticə etibarilə, Kosalının baş imamı Nəbi Əfəndi Vəli oğlu Borçalı və Trialet nahiyələrinin sünni məzhəbi üzrə qazisi təyin olunur.

**Qeyd 3.** Aşağı Saral kəndinin ruhanisi *Axund Molla Ağa Məmməd* XIX əsrin ortalarında Borçalı nahiyəsinin baş axundu hesab olunurdu[174].

**Qeyd 4.** Kartli-Kaxetiya çarı XII Georginin hicri təqvimi ilə 1214-cü ilin cəmaziləvvəl ayında (miladi təqvimi ilə 1799-cu ilin oktyabrı) imzaladığı əmr ilə *Molla Məhəmməd* adlı din xadimi həmin dövrdə Borçalının şeyxülislamı vəzifəsinə təyin olunmuşdu[175].

---

[172] GMTA, f. 4, s. 3, iş № 87.
[173] GMTA, f. 8, s. 1, iş № 1759.
[174] GMTA, f. 4, s. 3, iş № 87.
[175] GMTA, f. 1452, iş № 759.

**Qeyd 5.** Təqdim olunan cədvəldə Sarvan kəndinin ruhaniləri sırasında adı keçən Süleyman Talıb oğlunun (təqribi təvəllüd tarixi: 1822-ci il) 1842-ci ildə dünyaya göz açmış oğlu *Mustafa Talıbzadə* dövrünün məşhur din və maarif xadimlərindən olmuşdur. O, Təbrizdə "Hacı Səfərəli ali ruhani mədrəsəsi" adlı ürfan ocağında dini təhsil almışdır. Bundan sonra M.S.Talıbzadəyə Zaqafqaziya Şiə Ruhani İdarəsi tərəfindən axund şəhadətnaməsi (12 dekabr 1873-cü il tarixli) verilmişdir. Tiflis qubernatorunun 1 mart 1874-cü il tarixli qərarı ilə Axund Molla Mustafa Talıbzadə Tiflis-Kutais Şiə Məclisi İdarəsinə üzv təyin olunmuşdur. Məclis üzvü kimi onun əsas fəaliyyət sahəsi təhsil məsələləri ilə bağlı idi. M.Talıbzadə oxu və dərs kitablarının tərtibi və tərcüməsi ilə də məşğul olurdu.

1882-ci il martın 6-da Zaqafqaziya Şiə Ruhani İdarəsinin üzvü, bundan bir neçə ay sonra isə Tiflis Əliyyə məktəbinin müəllimi vəzifələrini icra etməyə başlayan axund Mustafa 1900-cu ildə tutduğu vəzifələrdən azad edilmişdir. O, 1903-cü ildə dünyasını dəyişmiş, Tiflis müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

M.S.Talıbzadə böyük ailə sahibi olmuşdur. Onun birinci arvadı Mehri xanım Cəfər qızı ilə izdivacından Yusif, Abdulla və Ruqiyə adlı övladları, ikinci arvadı sarvanlı Mina Xudaverdi qızından isə 7 övladı dünyaya gəlmişdir[176].

*Axund Molla Mustafa Süleyman oğlu Talıbzadənin* böyük oğlu *Yusif Ziya* (1877-1923) tanınmış pedaqoq, siyasətçi, diplomat və general-mayor rütbəli hərbçi olmuş, ikinci oğlu − Azərbaycan uşaq ədəbiyyatının banilərindən *Abdulla Şaiq* (1881-1959) isə çoxşaxəli ədəbi yaradıcılığı ilə fərqlənərək şair, yazıçı, dramaturq, publisist, ədəbiyyatşünas, tərcüməçi və pedaqoq kimi məhsuldar fəaliyyət göstərmişdir.

---

[176] N.Nəsrəddinov. Maarif fədaisi – Axund Molla Mustafa Süleyman oğlu Talıbzadə, https://modern.az/az/news/18830

Talıbzadələr ailəsi Tiflisdə tez-tez yaşayış ünvanlarını dəyişmiş, müxtəlif zamanlarda şəhər sakinlərindən Hacı Rzanın (Vorontsov küç.), Kəblə Lətifin, Allahverdi bəy Yadigarovun (Vorontsov küç.) evlərində məskən salmışdırlar. Bu barədə Abdula Şaiq yazırdı: "Biz tez-tez bir mənzildən başqa mənzilə köçürdük. Bu mənzillərin hamısından çox xoşuma gələni sonuncu dəfə köçdüyümüz, Vorontsov küçəsində olan Allahverdi bəy Yadigarovun idi. Bu Mirzəyevin bez fabrikinə bitişik üç mərtəbəli ev idi. Üçüncü qatda biz yaşayırdıq..."[177]. A.Şaiqin xatirələrindən o da bəlli olur ki, onlar Hacı Rzanın evində yaşayarkən həmin dövrdə şeyxülislam olan Mirzə Həsən Tahirov və həmkəndliləri Minasazovlarla qonşu olmuşdurlar: "Bakıda uzun müddət müəllimlik edən Abbas Minasazov, Bakı və Tiflisdə nəşr edilən rus qəzetlərində çıxan məqalələri ilə şöhrət qazanmış Şahhüseyn Minasazov bizimlə qapı-qapıya qonşu idi. Şahhüseyn mənimlə yaşıd və sinif arqadaşım idi. Onun bacısı Gülsüm kiçik bacım Ruqiyyə ilə yaşıd idi..."[178].

---

[177] A.Şaiq. Xatirələrim, Bakı; retroprint, 2015, s. 82.
[178] Yenə orada, s. 15, 22.

## BORÇALI NAHİYƏSİNDƏ XİDMƏTDƏ OLAN AĞA-MƏMURLARIN SİYAHISI - 1843-cü il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, № 2048)*

| Kəndi | Məmurun adı, atasının adı və soyadı (varsa) | Yaşı | Rütbəsi |
|---|---|---|---|
| Qırıxlı | Molla Mirzə Xəlil Kərimov | 35 | *Praporşik* |
| Nazarlı | Kazım ağa Hacı Mahmud ağa oğlu | 45 | *Praporşik* |
| Keşəli | 1. Əli bəy Nəbi ağa oğlu Eminov<br>2. Paşa ağa Eminov<br>3. Məmməd ağa Paşa ağa oğlu Eminov | 31<br>60<br>28 | *Poruçik*<br>*Kapitan*<br>*Praporşik* |
| Dəmirçihasanlı-Kəpənəkçi | Ömər ağa Əhməd ağa oğlu | 40 | *Praporşik* |
| Bolnis-Kəpənəkçi | Musa ağa Ağakişi bəy oğlu<br>*qardaşı* Ağa | 30<br>20 | |
| Yuxarı Saral | Babakişi ağa Pirverdi oğlu | 28 | *Praporşik* |
| Sarvan | 1. Xəlil ağa İlyas ağa oğlu<br>2. Əli ağa Məmməd ağa oğlu<br>3. Qasım ağa<br>4. İlyas ağa Məmməd ağa oğlu Məmmədqulu ağa | 40<br>37<br>50<br>50 | *Podporuçik*<br>*Praporşik*<br>*Praporşik*<br>*Praporşik* |

| Kəndi | Məmurun adı, atasının adı və soyadı (varsa) | Yaşı | Rütbəsi |
|---|---|---|---|
| Araplı | Uğurluxan ağa oğlu Vəkilov | 38 | *Praporşik* |
| Arıxlı | Alı ağa | 58 | *Praporşik* |
| Qaçağan | Məmməd Hasan ağa Topçiyev | 50 | *Podporuçik* |
| Böyük Muğanlı | Əli bəy İrzaqulu ağa oğlu | 55 | *Praporşik* |
| Seyidqocalı | Məmmədhasan ağa Yüzbaşı oğlu | 54 | *Praporşik* |
| Qasımlı | Osman ağa Qasım ağa oğlu | 30 | *Praporşik* |
| Qızılhacılı | 1. Əli ağa Əliqulu ağa oğlu | 32 | *Praporşik* |
| | 2. Şahqulu ağa Əliqulu ağa oğlu | 46 | *Praporşik* |
| | 3. Tanrıverdi | 56 | *Praporşik* |
| Baydar | 1. Almas Sultan | 70 | *Praporşik* |
| | *oğulları:* | | |
| | 1. Abdula Sultan | 40 | *Praporşik* |
| | *onun oğulları*: | | |
| | 1. Allahverdi | 8 | |
| | 2.Vəli ağa | 5 | |
| | 2. Əmir bəy | 30 | *Praporşik* |
| | 3. Qara bəy | 25 | |
| | 4. Bala bəy | 35 | |
| | *onun oğulları*: | | |
| | 1. Qəhrəman | 8 | |

| Kəndi | Məmurun adı, atasının adı və soyadı (varsa) | Yaşı | Rütbəsi |
|---|---|---|---|
| | 2.Murtuz ağa<br>3. İsmayıl ağa<br><br>2. Məmməd ağa Allahverdi ağa oğlu | 6<br>2<br><br>- | *Praporşik* |

**Qeyd 1.** 1843-cü ildə Borçalı nahiyəsində dövlət qulluğunda olan ağalardan bir çoxu ailələrinin digər üzvləri ilə birlikdə Krım müharibəsində iştirak etmiş, 3-cü atlı-müsəlman alayında və Daşdəmir ağanın başçılıq etdiyi könüllülər dəstəsində vuruşmuşdurlar. Müharibədə fərqləndiklərinə görə rus ordu komandanlığı tərəfindən Daşdəmir ağanın könüllülərindən dəstə başçısının müavini və əmisi oğlu Osman ağa Qasım ağa oğluna poruçik rütbəsi, dəstənin süvarilərindən Əli ağa Əliqulu ağa oğluna (Qızılhacılı) praporşik, qardaşı Şahqulu ağanın oğlu Ağabəyə isə gümüş temlyak gəzdirmək hüququnda yunker rütbəsi verilmiş; podporuçik Məmmədhasan ağa Topçiyevin 3-cü alayda döyüşən oğlu Süleyman ağa üstündə "igidliyə görə" yazısı olan gümüş medalla təltif olunmuşdur[179].

**Qeyd 2.** Keşəli kəndindən poruçik *Paşa ağa Eminov* XIX əsrin 30-cu illərinin başlanğıcında rus hakimiyyətinə qarşı qiyam hazırlıqlarının təşkilinə köməklik göstərməkdə ittiham olunaraq göz altına alınmış, ancaq saxlanıldıqları kazarmadan qaça bilmiş Borçalının Hasanxocalı kəndinin sakini Molla Zamanı və Taliyev soyadlı şəxsi yenidən həbs etməyə müvəffəq olmuşdu. Bu xidmətinə görə ona ştabs-kapitan rütbəsi verilmişdi[180].

---

[179] Daha ətraflı bax: F.Valehoğlu. Qarapapaqlar və onların XIX əsr hərb tarixi, s. 122, 131, 140-141, 144-145, 150.
[180] Акты…, т. 8, с. 414.

## LORİ PRİSTAVLIĞINDA XİDMƏTDƏ OLAN AĞA-MƏMURLARIN SİYAHISI - 1873-cü il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, № 1000, vərəqlər 54-58)*

| № | Məmurun ailəsindəki kişilərin siyahısı | Yaş | Rütbə |
|---|---|---|---|
| | ***Qasımlıdan:*** | | |
| 1 | Daşdəmir ağa Məmməd ağa oğlu | 73 | *Poruçik* |
| | *oğulları*: | | |
| | 1. Səməd ağa | 26 | |
| | 2. Astan ağa | 22 | |
| | 3. Əli ağa | 16 | |
| | 4. Pənah ağa | 9 | |
| | *qohumu* Məmməd ağanın oğulları: | | |
| | 1. Əsgər ağa | 8 | |
| | 2. Təmraz ağa | 6 | |
| 2 | Osman ağa Qasım ağa oğlu | 63 | *Praporşik* |
| | *oğulları:* | | |
| | 1. Qasım ağa | 38 | |
| | *onun oğlu* Əsəd ağa | 9 | |
| | 2. Mansur ağa | 31 | |
| | ***Arıxlıdan:*** | | |
| 3 | Emin ağa Eyyub ağa oğlu | 43 | *Praporşik* |
| | *oğlu* Böyük ağa | 8 | |

| № | Məmurun ailəsindəki kişilərin siyahısı | Yaş | Rütbə |
|---|---|---|---|
| 4 | Mustafa ağa Alı ağa oğlu<br>*oğlu* Alı ağa | 53<br>20 | *Ştabs*-*kapitan* |
| | ***Qızılhacılıdan:*** | | |
| 5 | Hacı Şahqulu ağa Əliqulu ağa oğlu<br>*oğlu* Həsən ağa<br>*onun oğulları*:<br>1. Əsgər ağa<br>2. Şah İsmayıl<br>3. Uğurlu bəy | 79<br>44<br><br>20<br>16<br>8 | *Praporşik* |
| | ***Sarvandan:*** | | |
| 6 | Məmmədəli ağa Qasım ağa oğlu<br>*oğlu* Qasım ağa | 53<br>12 | *Kollec registratoru** |
| | ***Baydardan:*** | | |
| 7 | Abbas bəy Allahverdi bəy oğlu<br>*oğulları*:<br>1. Mutu bəy<br>2. Böyük ağa | 63<br><br>16<br>7 | *Praporşik* |

* kollec registratoru – Çar Rusiyasında ən aşağı dərəcəli mülki rütbə *(F.V.)*

| № | Məmurun ailəsindəki kişilərin siyahısı | Yaş | Rütbə |
|---|---|---|---|
| 8 | İbrahim bəy Əlibəy oğlu<br>*oğlu* Hüseyn bəy | 43<br>1 | *Podporuçik* |
| | ***Aşağı Saraldan:*** | | |
| 9 | Hacı Ələkbər ağa Axundov | 56 | *Kollec registratoru* |
| | *oğlu* Məmməd Həsən ağa | 24 | *Milis praporşiki* |
| | ***Qaçağandan:*** | | |
| 10 | Vəli bəy Topçuyev | 29 | *Ştabs-kapitan* |
| 11 | Nəsib ağa Topçuyev<br>*oğlu* Şərif bəy | 38<br>7 | *Praporşik* |
| | ***Ağməmmədlidən:*** | | |
| 12 | Mustafa ağa İbrahim ağa oğlu<br>*oğulları*: 1. Hasan ağa<br>2. Hüseyn ağa<br>3. İbrahim ağa<br>4. Əlipaşa ağa | 53<br>22<br>20<br>18<br>14 | *Kollec registra-toru* |

## GÜRCÜSTANIN KNYAZ VƏ ZADƏGANLARININ ƏYAL (AİLƏBAŞI) SİYAHISINDA TÜRK-MÜSƏLMAN AİLƏLƏR – 1850-ci il[181]

| Ailənin qeydiyyat nömrəsi | Ailə üzvlərinin siyahısı | Qeydlər |
|---|---|---|
| | ***QİYAS-VƏZİROVLAR:*** | |
| 1152 | Cəlal bəy Mirzə İsmayıl oğlu<br>*arvadı* Əsmət xanım<br>*oğulları*:<br>1. İsmayıl bəy<br>2. Rüstəm bəy<br>*qardaşları:*<br>1. Əsyabkar bəy<br>2. Mirzə Mehdi bəy<br>3. Məmməd Hüseyn bəy | <br><br><br><br><br><br>*poruçik*<br>*qvardiya poru-çiki* |
| 1153 | Hacı Qiyas bəy Ağababa bəy oğlu<br>*arvadları:*<br>1. Tükəzban xanım<br>2. Fatimə xanım<br>*oğulları:*<br>1. Əmrulla bəy<br>2. Əsədulla bəy<br>3. Fərəculla bəy | *praporşik* |

[181] ქართლ–კახეთის თავადები და აზნაურები (Kartli-Kaxetiyanın knyaz və zadəganları), Tiflis, 2005, s. 209, 223-224.

| Ailənin qeydiyyat nömrəsi | Ailə üzvlərinin siyahısı | Qeydlər |
|---|---|---|
| | ***YADİGAROVLAR:*** | |
| 1154 | İsmayıl bəy Məmmədcan oğlu<br>*arvadı* Qızxanım<br>*oğlu* Məmmədcan bəy<br>*onun arvadları:*<br>1. Nisə xanım<br>2. Xeyransa xanım<br>*onun oğulları:*<br>1. Əsədulla bəy<br>2. Allahverdi bəy<br>*onun qızları:*<br>1. Xanım<br>2. Xanımcan | *poruçik*<br><br>*praporşik* |
| 1155 | Sadıq bəy Abbas Əli bəy oğlu | |
| 1156 | İsrafil Mustafa bəy oğlu<br>*arvadı* Seyidxanım (Səidə xanım)<br>*oğlu* Rəhim bəy<br>*qızları*<br>1. Atmam xanım (? – Əsmət)<br>2. Sənin xanım (Səkinə)<br>3. Şükav xanım (? - Şükufə) | *kornet* |
| 1157 | Ağa bəy Mustafa bəy oğlu | |

| Ailənin qeydiyyat nömrəsi | Ailə üzvlərinin siyahısı | Qeydlər |
|---|---|---|
| | ***MUSTAFAYEVLƏR:*** | |
| 1248 | Məhəmməd Kazım bəy Mirzə Məmməd Sadıx bəy oğlu<br>*arvadı* Sənəm xanım<br>*oğulları:*<br>1. Məhəmməd bəy<br>2. Abdulla bəy | |
| 1249 | Vəfat etmiş Mirzə Cəfər Mustafa oğlunun dul arvadı Zevarx (? – Gövhər və ya Cəvahir) xanım<br>*onun oğlu* Bağır bəy | |
| | ***AĞALAROVLAR:*** | |
| 1251 | Hacı Mirzə Məhəmməd<br>*arvadı* Nənəxanım<br>*oğulları:*<br>1. Abbasqulu bəy<br>2. Mehdiqulu bəy<br>3. Mirzəqulu bəy<br>*qızı* Səkinə xanım | *titulyar müşavir* |
| 1252 | Bəxtiyar bəy<br>*arvadı* Fatimə xanım<br>*oğulları:*<br>1. Əbülfət bəy | *praporşik* |

| Ailənin qeydiyyat nömrəsi | Ailə üzvlərinin siyahısı | Qeydlər |
|---|---|---|
| | 2. İdris bəy<br><br>*qızları:*<br>1. Səltənət xanım<br>2. Kiçikxanım<br>3. Raziyə xanım<br>4. Sufiyə xanım<br>5. Böyükxanım | |
| 1253 | Həsən bəy<br>*bacısı* Həvva xanım | *mayor* |
| 1254 | İbrahim bəy<br>*arvadı* Fatimə xanım<br>*qızı* Balqız xanım | *poruçik* |
| 1255 | Ələsgər bəy<br>*arvadı* Fəəri (?) xanım<br>*qızları:*<br>1. Xeyransa xanım<br>2. Mərziyə xanım | *poruçik* |
| 1256 | Əlyar bəy<br>*bacısı* Töybə xanım | *praporşik* |
| 1257 | İsak Məmməd Hüseyn oğlu | |

**Qeyd 1.** Kartli-Kaxetiya və İmeretiyanın (sonradan Quriya da əlavə olunur) tavad-aznaurlarının (knyaz-zadəganlarının) siyahısının hazırlanması məqsədi ilə Qafqaz canişini M.Vorontsov tərəfindən 30 mart 1846-cı ildə Tiflis və Kutaisdə müvəqqəti komissiya yaradılır. Bu komissiya 2 il ərzində fəaliyyət göstərir və eyni məqsədlə daha əvvəl (1831-ci ildə) yaradılmış komissiyadan fərqli olaraq öz işinin öhdəsindən gələ bilir. Komissiyanın tərtib etdiyi siyahı yerli-məhəlli qurumlarda da baxılıb araşdırıldıqdan sonra təsdiq üçün Sankt-Peterburqa göndərilir. Nəticə etibarilə, 1273 ailəni əhatə edən yekun siyahı 6 dekabr 1850-ci ildə Rusiya imperatoru I Nikolay tərəfindən təsdiq olunur. İmperatorun 24 iyul 1856-cı il tarixli qərarı ilə Gürcüstanın daha 77 knyaz-zadəgan ailəsinin siyahısı 1850-ci il siyahısına əlavə edilir.

**Qeyd 2.** Borçalı əsilli *Yadigaroğulları (Yadigarovlar)* Kaxetiya (1762-ci ildən Kartli-Kaxetiya) çarlığında ali, zadəgan silkin nümayəndələri hesab olunurdular. VI Vaxtanqın 1707-1709-cu illərdə tərtib etdiyi "Dəstür-ül-əməl"dən[*] 4 türk-müsəlmanın − *Yadigarın oğlu*, *Topçubaşının*[**] oğlu ağa[***], *Səfərəhmədin qardaşı* və *Xəlilin* XVII əsrin sonları - XVIII əsrin əvvəllərində Kartli çarının sarayında yasavulbaşı[****] vəzifəsində çalışdığı bəlirlənir[182].

---

[*] "Dəstür-ül-əməl" (gürcücə "Dasturlamali") XVII əsrin sonları və XVIII əsrin əvvəllərində Kartli çarlığında qəbul olunmuş hüquqi-normativ aktlar (dövlət idarəçiliyi ilə bağlı qanun, qərar, qayda və təlimatlar) toplusudur. Çar və çariça dəstür-ül-əməlləri olmaqla iki hissədən ibarətdir. İlk dəfə 1683-1689-cu illərdə Kartli çarı XI Georgi tərəfindən tərtib olunmuş, sonradan onun qardaşı oğlu VI Vaxtanq (1711-ci ildə Kartli çarı olub) tərəfindən əlavələr edilərək yenilənmişdir.

[**] Görkəmli siyasi xadim və mütəfəkkir Əlimərdan bəy Topçubaşovun ulu babası.

[***] Zənnimcə, "ağa" sözü mənbədə şəxs adı kimi deyil, müsəlman feodal əyana məxsus titul mənasında işlədilibdir.

[****] VI Vaxtanqın qanunlarına görə, çar sarayında yasavullar iki hissəyə bölünürdülər: onlardan bir hissəsi qərarların icraçısı, digərləri isə müstəntiq funksiyalarını yerinə yetirirdi.

Professor Şurəddin Məmmədli yazır ki, Yadigaroğullarının 1701-ci ildə I İrakli (Nəzərəli xan), 1707-ci ildə II David (İmamqulu xan), sonra Anna (Bəhrican) bəyim, Konstantin (Məhəmmədqulu xan) və II Teymurazdan ağalıq imtiyaznamələri vardı; Nəzərəli xanın ağalıq kağızı verdiyi *Mirzə Bağır bəy Yadigaroğlu* onun sarayında mustofi (xəzinədar) vəzifəsində olub[183]. *Bahadır bəy Yadigaroğlu* XVIII əsrin 30-cu illərində gürcü valisi Məhəmmədqulu xanın sarayında naib-eşikağasıbaşı (mühafizə xidmətinin rəisinin və baş təşrifat məmurunun müavini) vəzifəsini tuturdu[184].

Yadigaroğullarından Sadıq bəy gürcü çar sarayında xüsusi nüfuza və hörmətə malik idi. Tarixçi-ədib Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində yazırdı: "İrakli xan Sadıq bəy Yadigaroğluyu səfir sifətilə Fətəli xanın yanına göndərdi. ...Səfir Sadıq bəy Nuxada xanın hüzuruna gəlib, hədsiz lütf və mərhəmətə nail oldu"[185].

Kartli-Kaxetiya çarı II İraklinin 27 dekabr 1776-cı il tarixli əmri ilə *Sadıq bəy Yadigar oğluna* Tiflisin Xarpux məhəlləsində, dağ ətəyində yerləşən Qorçaqalanın altında bağ salınması üçün torpaq sahəsi verilmişdi[186]. Çarın 30 may 1780-ci il tarixli daha bir əmriylə Sadıq bəyə və onun oğulları Ağacan (Məmmədcan) bəy, Mustafa bəy və Allahverdi bəyə Tiflisin Şeytanbazar məhəlləsində, məscidin yanında beş dükan bağışlanmışdı[187]. II İraklinin 13 aprel 1797-ci il tarixli əmri ilə isə Sınıq körpü yaxınlığında yerləşən kəndlər Sadıq bəyə və övladlarına verilmişdi[188].

---

[182] დასტურლამალი მეფის ვახტანგ მეექვსისა (VI Vaxtanqın Dəstür-üləməli (redaktoru: P.Umikaşvili)), Tiflis, 1886, s. 5.
[183] Ş.Məmmədli. Alın yazımız, Tiflis, 1997, s. 52-53.
[184] Акты…, VI cild, I hissə, s. 128.
[185] Qarabağnamələr. II kitab (tərtibçi: N.Axundov), Bakı, 1991, s. 374.
[186] GMTA f. 1450, kitab 11, iş № 114.
[187] GMTA f. 1450, kitab 11, iş № 115.
[188] GMTA f. 1450, kitab 11, iş № 116.

Sonuncu Kartli-Kaxetiya çarı XII Georgi də atası II İrakli kimi Yadigaroğullarına mehriban münasibət bəsləmişdir. Onun 14 sentyabr 1798-ci il tarixli fərmanı ilə Sadıq bəy Yadigar oğluna 4 kəndli ailəsi bağışlanmışdır[189]. Sadıq bəyin və övladlarının keçmişdə tabeçiliklərində olan erməni rəiyyətini Xivalu kəndində məskunlaşdırmaları məqsədiylə bu kəndin ərazilərinin onlara verilməsi xahişi də XII Georgi tərəfindən yerə salınmamışdır. Bu barədə çarın ayrıca fərmanı dərc olunmuş və onun yerinə yetirilməsinə nəzarət edilməsi vəkil Kərim ağaya (II Iraklinin dövründə Sadaxlının kəndxudası idi) və Borçalının digər ağalarına həvalə olunmuşdur[190].

Sadıq bəyin oğulları *Allahverdi bəy* və *Ağacan bəy* 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Tiflis üzərinə yürüşü zamanı baş vermiş məşhur Krtsanis döyüşündə qəhrəmanlıqlar göstərmiş, 150 Borçalı qarapapağının canı və qanı bahasına mühasirədən çıxmağa müəffəq olmuş çar II İrakliyə Araqvi çayına qədər bələdçilik etmişdilər[191]. Böyük gürcü şairi Akaki Tsereteli "Kavkaz" qəzetinin 27 yanvar 1906-cı il tarixli 22-ci sayında çap olunmuş "Gürcülərlə müsəlmanların qarşılıqlı münasibəti" sərlövhəli məqaləsində yazırdı: "1795–ci ildə Ağa Məhəmməd xan Tiflisi mühasirəyə alanda və gürcü çarı İrakli yalnız Tiflis məliklərinin deyil, öz yaxın sərkərdələrinin satqınlığı nəticəsində çox böyük İran qoşununun qarşısına yalnız 8000–lik qoşunla çıxmağa məcbur olanda döyüşən gürcülərin arasında qazax – borçalılar da var idi. Bu tatarlar (türklər – F.V.) ... vətənləri kimi Gürcüstan uğrunda hətta öz dindaşlarına qarşı vuruşub başlarını qoyurdular. Tiflisdən qaçan çariçanı (çar arvadını) Yadigarovla-

---

[189] Акты…, VI cild, I hissə, s. 128.

[190] GMTA, f. 1450, kitab 57, № 30.

[191] GMTA f. 1450, kitab 11, iş № 116; ა. ჯამბაკურ-ორბელიანი. აღა-მაჰმად-ხანის შემოსვლა ქ. თბილისში, (A.Cambakur-Orbeliani. Ağa Məhəmməd xanın Tiflis şəhərinə girməsi), "Moambe" aylıq dərgisi, № 8, Tiflis, 1895, s. 147, 157; И.Хонели (И.Л.Бахтадзе). К 100 летию Крцанисской битвы, Тифлис, 1896, с. 27, 39-40.

rın ailəsindən olan bir qadının (Allahverdi bəyin arvadı Nabat xanımın – F.V.) başçılığı altında silahlı tatar (türk – F.V.) qadınları müşayiət edirdilər...” .

**Qeyd 3.** 1825-ci ildə *Mustafa* və *Ağacan Sadıq bəy oğlu Yadigarov* qardaşları zadəgan titullarının bərpa edilməsi üçün rəsmi dairələrə müraciət ünvanlayırlar. Qafqazda rus qoşunlarının sərdarı general A.Yermolov Geraldiya üzrə Ali Senata bununla bağlı 26 iyun 1825-ci il tarixli, 2198 saylı raportunda yazırdı:

“Tiflis sakinləri Ağacan və Mustafa bəy Yadigarovlar onların zadəganlıq ləyaqətinin təsdiqlənməsini xahiş etmişdirlər.

Özlərinin mənşəyinin sübutu kimi onlar hökmdarların fərmanlarını – 1) Məmməd-Qulu (gürcü adı Konstantin – F.V.) xanın naib-eşikağabaşı Bahadur bəyin adına qanovların (arxların) onun idarəsinə verilməsi barədə 1135-ci il tarixli (hicri təqvimi ilə − F.V.); 2) Qatexilixidi (Sınıq körpü) sakinlərinin öz mülkləri ilə Sadıq bəy Yadigara-şviliyə (Yadigaroğluna) və oğullarına bağışlanması barədə İraklinin 13 aprel 1797-ci il tarixli; 3) Yadigaroğluna Çabaisdə (çox güman ki, Çələbili – F.V.) 4 kəndli ailəsinin bağışlanması barədə Georginin 14 sentyabr 1798-ci il tarixli fərmanlarını təqdim etdilər.

12 xeyirxah gürcü şahidlik etdi ki, Ağacan və Mustafa Yadigarovlar öz qardaşı və bacısı uşaqları ilə çar şəhadətnamələrində qeyd olunan insanlar təbəqəsinə aiddirlər və onlar həqiqi zadəgandırlar.

Gürcüstan Ali Hökumətinin ümumi məclisinin gürcü üzvləri rəy verdilər ki, Yadigarovların ulu babalarının daşıdığı eşikağabaşının naibi rütbəsi canişinin general-adyutantı rütbəsinə uyğundur və bu rütbə knyazlara və zadəganlara verilirdi.

Qeyd olunan şahid sözləri və təqdim olunan sənədlərə əsaslanaraq Gürcüstan Zadəgan Nümayəndələri Məclisi, sonra da Gürcüstan Ali Hökumətinin ümumi məclisi Yadigarovların

zadəgan rütbəsini tanıdı və onları zadəganların şəcərə kitabının 5-ci hissəsini daxil etməyə qərar verdi.

Yadigarovların mənşəyi barədə sənədləri Gürcüstan Ali Hökumətinin ümumi məclisinin qərarı ilə birlikdə Ali Senata təqdim edərək, aşağıdakıları əlavə etmək istəyirəm:

Yadigarovlar familiyası çar İraklinin Rusiya çar sarayı ilə 1783-cü il traktatının qoşmasındakı Gürcüstan zadəganlarının siyahısına daxil edilməmişdir. Bu, canişinin general-adyutantı rütbəsi əhəmiyyət kəsb etsə, baş verə bilməzdi. Çünki onda o, saray məmurları sırasında olardı və çar tərəfindən unudula bilməzdi.

Gürcü zadəganlarının və knyazlarının şəhadətnamələri çox asan yolla əldə olunur. Buna mən bir çox hallarda əmin olmuşam. Ona görə də daha dəqiq başqa sübutlar yoxdursa, onların rəyinə əsaslanmağı qeyri-mümkün hesab edirəm. Təkəbbürlü şəkildə təqdim olunan canişinin general-adyutantı bəlağətli adı hökmdarların özləri tərəfindən verilməyə bilərdi və sənəddə Bahadur bəyin hökmdardan bu rütbəni yox, yalnız idarə etmək üçün qanovları aldığı qeyd olunur.

Naib və ya canişin rütbəsi Gürcüstana birləşdirilmiş müsəlman dairələrində adi adamlara verilirdi və indi də bu rütbələr mövcuddur. İndiyədək xanlıqlar olan müsəlman əyalətlərində isə müqayisə üçün daha önəmli olan naib rütbələri indiyədək nadir olmayan hallarda adi insanlara məxsusdur, baxmayaraq ki, onların idarəsinə yalnız canişinin general-adyutantı Yadigarovun nəzarətinə verilmiş qanovlar deyil, əhalisi çox olan vilayətlər etibar edilirdi.

Kəndlilərə sahib olmaq Gürcüstanda knyaz və zadəganların fərqləndirici üstünlüyü hesab olunmurdu. Mokalake (vətəndaş – F.V.) və ya vətəndaşlar, eləcə də kəndlilər öz torpaqlarında təhkimli kəndlilərə sahib idilər. Bu, diyarın Rusiya İmperatorluğuna birləşməsindən sonra uzun müddət, rəhbərliyin sərəncamları ilə zadəgan olmayanlara kəndliləri almaq qadağan olunana qədər davam edirdi.

Bütün bu səbəblərə görə, mən sanıram ki, Yadigarovlara zadəgan rütbəsinin verilməsinə imtina edilməlidir"[192].

A.Yermolovun bu raportu əsas götürülərək 1825-ci ildə Mustafa və Ağacan (Məmmədcan) Yadigarovların zadəganlıq ləyaqətinin bərpa olunmasının qarşısı alınsa da, onların övladlarının, ailə üzvlərinin adı Qafqaz canişini M.Vorontsovun vəsatəti ilə bundan 25 il sonra − 1850-ci ildə çar I Nikolay tərəfindən təsdiqlənmiş Gürcüstanın knyaz və zadəganları siyahısına (1154-1157-ci sıralarda) daxil edilir. GMTA-da 1850-ci ildə İsrafil bəy Yadigarovun zadəganlıq ləyaqətinin təsdiq olunması barədə yazışmaları əks etdirən sənədlər toplusu mövcuddur[193].

**Qeyd 4.** Tiflis şəhərinin 1823-cü ilə aid kameral təsvirində belə bir qeydə rastlanır:

> *"Mustafa bəy Sadıx bəy oğlu Yadigaroğlu*
> *ailə üzvlərinin sayı – 4*
> *(Bildirmişdir ki, zadəgandır, sənədləri nümayəndələr məclisindədir)"*[194].

Borçalı distansiyasının 1817-ci ilə aid kameral təsvirində Sınıq körpüyə yaxın Körpülü kəndində *Mustafa Yadigarovun* kəndlilərinin yaşadığı barədə qeyd var[195]. 1821-ci ilə aid kameral təsvirlərdə Borçalı çökəyinin Çələbili kəndində *Məmməd ağa Yadigarovun* oğulları *Əli ağa* və *Mustafa ağanın*, eləcə də *Qasım Bayram oğlu Yadigarovun* adları əks olunur. Həmin dövrdə Çələbilidə 10 ailə Mustafa Yadigarovun təhkimli kəndlisi idi (bax: səh. 155). Çələbili kəndinin 1832-ci il kameral siyahısında bu kənddən 1 ailənin quberniya katibi *Mirzə İsmayıl bəy Yadigarovun* təhkimlisi olduğu göstərilir[196]. Çələbili-Yadi-

---

[192] Акты ..., т. 6, ч. 1, с. 128-129.
[193] Bax: GMTA, f. 4, s. 7, iş № 1696.
[194] GMTA, f. 254, s. 1, iş № 793, v. 83.
[195] GMTA, f. 254, s. 1, iş № 479.
[196] GMTA, f. 254, s. 1, iş № 1329, v. 100.

garov (Yadigarovun Çələbilisi) kəndinin 1860-cı ilə dair kameral siyahısında bu kənddə 14 ailənin Mustafa bəyin oğlu *İsrafil bəyin* təhkimli kəndlisi olduğu bəlli olur[197]

**Qeyd 5.** Borçalı distansiyasının Təkəli kəndində 15.12.1815-ci ildə dünyaya göz açmış Yadigaroğulları nəslinin ilk generalı *İsrafil bəy Mustafa bəy oğlu Yadigarov* (Gürcüstan zadəganlarının 1850-ci il siyahısında 1156-cı sırada qeydə alınıb) hərbi xidmətə Zaqafqaziya süvari-müsəlman alayında başlayaraq, təqribən 25 yaşında kornet* rütbəsində Sankt-Peterburqda, əmisi poruçik *Məmmədcan bəy Yadigarov* ilə birlikdə imperatorun konvoyunda (yanca gedən mühafizə dəstəsində) davam etmişdir.

Konvoyda xidmət müddəti 4 il idi. Onun nəzdindəki Cənubi Qafqaz süvarilərindən ibarət taqımın yarı tərkibi 2 ildən bir dəyişərək, Zaqafqaziya süvari-müsəlman alayından yeniləri ilə əvəz olunurdu. Konvoyda müəyyən olunmuş qaydada 4 il xidmət keçənə müvafiq zabit rütbəsi verilir və o, Gürcüstana kavaleriya hissələrinə göndərilirdi[198].

Məmmədcan bəy imperatorun konvoyunda ağır xidmət şəraitinə dözməyərək həyatdan köçmüş, qardaşı oğlu İsrafil bəy isə ordu sıralarında hərbi qulluğunu uğurla davam etdirmişdir[199]. İ.Yadigarov 1853-1856-cı illər Rusiya-Osmanlı savaşında rus ordusu tərkibində Şəki və Şirvan türklərindən təşkil olunmuş 2 saylı süvari-müsəlman alayına əvvəlcə podpolkovnik, 1855-ci ilin 17 yanvarından isə polkovnik rütbəsində komandanlıq etmişdir. Ona 06.11.1866-cı il tarixində general-mayor (Qafqaz

---

[197] GMTA, f. 254, s. 2, iş № 234, v. 337.

* kornet – kavaleriyada (süvari qoşunlarında) əsilzadələr üçün ilkin zabit rütbəsi.

[198] Н.В. Галушкин. Собственный Его Императорского Величества Конвой, Сан-Франциско, 1961, с. 40.

[199] Э. Исмаилов Азербайджанцы в конвое российских императоров, “İrs - Heritage” dərgisi, 2016, № 2 (80), s. 32.

ordusunda xidmətdə olanda), 14.04.1883-cü ildə isə general-leytenant rütbəsi verilmişdir[200].

İ.Yadigarov Qafqaz canişininin əmrilə Tiflis qəzasında əvvəlcə II şöbənin, 1 may 1871-ci ildən etibarən isə I şöbənin barışdırıcı hakimi vəzifəsinə təyin olunmuşdur[201].

İsrafil bəy həm də xeyriyyəçiliyi ilə seçilmiş, kimsəsizlərə hamilik etmişdir. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə ilə yaxın dostluq və qonşuluq münasibətində olmuşdur. Onların hər ikisinin, eləcə də təqdim olunan cədvəldə adları göstərilən Hacı Qiyas bəy Vəzirov (qeydiyyat nömrəsi: 1153) və İbrahim bəy Ağalarovun (qeydiyyat nömrəsi: 1254) təkidi ilə 1868-ci ildən Tiflis klassik gimnaziyasında tatar dili (Azərbaycan türkcəsi) və şəriət dərsləri tədris edilmişdir[202].

6 fevral 1884-cü ildə dünyasını dəyişən İ.Yadigarov Tiflis müsəlman məzarlığında dəfn olunmuşdur.

Əsmət (?) xanım, Səkinə xanım (27.03.1843-cü il təvəllüdlü), Rəhim bəy (10.10.1845-ci il təv.), Şükufə (?) xanım, Xeyransa xanım (23.12.1850-ci il təv.), Kərim bəy (21.01.1854-cü il təv.), Məmməd bəy (25.08.1855-ci il təv.), Həsən bəy və Hüseyn bəy (əkiz olublar, 08.10.1856-cı il təv.) adlı 9 övlad atası olan İsrafil bəyin həyat yoldaşı rotmistr* *İsmayıl bəy Vəzirovun* qızı Səidə xanım (yuxarıdakı cədvəldə 1152-ci qeydiyyat nömrəsi ilə adı birinci sırada əks olunmuş Cəlal bəyin bacısı) idi.

Əlavə edək ki, İsrafil bəy Yadigarovun qayını Cəlal bəy Vəzirovun 19.04.1850-ci ildə dünyaya gəlmiş oğlu Firudin bəy Azərbaycan Xalq Cümhuriyyətinin general-mayor rütbəli hərbi xadimlərindən olmuş, 1919-cu ildə Bakı şəhərinin komendantı

---

[200] Ş.Nəzirli, göstərilən əsəri, s. 130-132; «Кавказ» qəz., 1866, 18 dekabr, № 99; «Кавказский календарь», на 1869 г., Тифлис, 1868, с. 93.

[201] «Кавказ» qəz., 1871, 28 may, № 61.

[202] Ə. Paşayev, N. Bayramov, G. Qocayeva-Məmmədova. Gürcüstanda Azərbaycan məktəbləri, Tiflis, 2012, s. 200-201.

* rotmistr – süvari qoşunlarında yüksək ober-zabit rütbəsi.

vəzifəsinə təyin olunmuşdur. Firudin bəy Vəzirov 1925-ci ildə həbs olunaraq güllələnmişdir[203].

**Qeyd 6.** General-leytenant İ.Yadigarovun oğul övladlarının beşi də hərbi rütbə daşımışdır. Böyük oğul rotmistr *Rəhim bəy Yadigarov* 1894-cü ildə 3 il müddətinə Tiflis quberniyasının knyaz-zadəganlarının Borçalı qəzası üzrə təmsilçisi seçilmişdi[204]. 13 fevral 1898-ci ildə Tiflis dairə məhkəməsi mərhum rotmistr Rəhim bəy Yadigarova məxsus Təkəli-Baraxlı daçasının (iri torpaq sahəsinin) $^{8}/_{28}$ hissəsinin general-mayor Korqanovun dul arvadı Annaya ödəniləsi borc müqabilində ictimai satışa (hərraca) çıxarıldığını elan edirdi. Satışa çıxarılan daşınmaz əmlak calada (çay qırağında) meşə zolağından, əkin və otlaq sahələrindən, meyvə və üzüm bağlarından, 4 daşı və özəl su arxı olan dəyirmandan, daşdan tikilmiş evdən, at tövləsindən, daş anbar və digər təsərrüfat yönümlü tikililərdən ibarət 153 desyatin ərazini əhatə edirdi və 2100 rubl məbləğində qiymətləndirilirdi[205].

17-ci Nijeqorod (Nijnı Novqorod) draqun alayının korneti *Kərim bəy Yadigarov* və Gürcüstan süvari alayının korneti *Məmməd bəy Yadigarov* I Dünya müharibəsində ön cəbhədə döyüşərək, müxtəlif ordenlərlə təltif olunmuşdurlar. Məmməd bəy 1914-cü ildə Tver kavaleriya məktəbini bitirmiş, ştabs-rotmistr** rütbəsində Krım süvari alayında xidmət etmişdir. O, 1-ci Krım-Tatar alayının adyutantı vəzifəsində 1917-ci ilin dekabr ayında Krım yarımadasında bolşeviklərə qarşı döyüşlərdə iştirak etmişdir[206].

---

[203] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild, Bakı, 2005, s. 428-429.

[204] “ივერია” (“İveriya”) qəz., 1894, 3 iyul, № 140, s. 2.

[205] «Кавказ» qəz., 1897, 21 noyabr, № 309.

** ştabs-rotmistr – poruçik və rotmistr arasında qərar tutan zabit rütbəsi.

[206] Сопротивление большевизму. 1917-1918 гг. (Сост.: С.В.Волкова), М., 2001, с. 366, 593.

*Həsən bəy Yadigarov* 1877-78-ci illər rus-türk və I Dünya müharibələrində döyüşmüş, Qafqaz piyada alaylarından birinə başçılıq etmişdir. O, 1903-cü ildə general-mayor rütbəsinə yüksəlmişdir. Uzun müddət Borçalı qəzasının zadəganlar məclisinə sədrlik edən Həsən bəy qardaşı poruçik *Hüseyn bəy Yadigarov* və əmisi Abbasəli bəyin oğlu Sadıx bəylə birlikdə 1905-ci ildə Tiflis quberniyasında baş vermiş türk-erməni toqquşmaları zamanı yerli türk-qarapapaq əhalinin səfərbər olunmasında və düşmənə qarşı müqavimətinin təşkilində aparıcı rol oynamış, Borçalı xalq hərəkatına başçılıq etmişdir.

Həsən bəy Yadigarovun öz atasının adını verdiyi oğlu *İsrafil bəy Yadigar (Yadigarov)* da peşəkar hərbçi olmuşdur. O, Tiflis kadetlər korpusunda oxumuş, 17 saylı Nijeqorod draqun alayında kornet[207], podporuçik, poruçik və kapitan rütbələrində xidmət etmişdir. 1911-1918-ci illərdə Ahıskanın məşhur əsilzadələrindən Ədilə xanım Atabəyova-Kobliyanskaya (Kobliyanlı) ilə evli olmuş, bu izdivacdan Ənvər adlı övladları dünyaya gəlmişdir[208]. Ailə Tiflisdə Kiroçnaya (indiki K.Marcanişvili) küçəsi 33 ünvanında yaşamışdır[209].

Poruçik İ.Yadigarov I Dünya savaşına qatılmış və 1914-cü ilin noyabr ayında döyüşlərdə yaralanmışdır[210]. Müalicə olunduqdan sonra (1915-ci ildə) 17 saylı Nijeqorod draqun alayının poruçiki qismində general-leytenant N.N.Baratovun komandanlıq etdiyi Əlahiddə ekspedisiya korpusunun (Qafqaz süvari korpusunun) İran-Qacariyyə yürüşünə qatılmışdır[211]. Qısa müddət sonra yenidən I Dünya müharibəsi cəbhələrinə dönərək, burada

[207] «Кавказский календарь», на 1912 год, Тифлис, 1911, с. 517.
[208] N.Yaqublu. Polşa ordusundakı azərbaycanlı zabitlər, "Qarapapaqlar", 2007, № 5, s. 18.
[209] Справочная книга по городу Тифлису, Тифлис, 1912.
[210] «Разведчик» hərbi-ədəbi jurnalı, 1914, 18 noyabr, № 1255, jurnala əlavə, s. 805.
[211] П.Н.Стрелянов (Калабухов). Казаки в Персии. 1909-1918 гг., М., 2007, с. 339.

“Vəhşi diviziya”nın “Tatar” süvari alayının zabit heyətində yer almış, düşmənə qarşı əməliyyatlarda fərqləndiyinə görə qılınclı və bantlı, apostola bərabər IV dərəcəli knyaz Vladimir ordeni ilə təltif olunmuş[212], ardıcıllıqla ştabs-rotmistr (1915), rotmistr (1916), podpolkovnik (1917, yanvar) rütbələrinə layiq görülmüşdür. 1917-ci ilin sonunda ordudan tərxis olunub öz məmləkətinə − Borçalıya qayıtmışdır. 1918-ci ilin dekabrında Gürcüstan Demokratik Respublikasının ordusu sıralarında Borçalı və Axalkələk qəzaları uğrunda Ermənistan-Gürcüstan müharibəsində iştirak etmişdir[213].

1919-cu ildə gürcü ordusundan tərxis olunan İsrafil bəy həmin il Gürcüstan Respublikasının daxili işlər nazirinin 20.05.1919 tarixli, 52 saylı əmri ilə Borçalı qəzasının yaylaq müdiri təyin edilmişdir[214]. 1920-ci ildə sovet işğalına qarşı Gəncə üsyanında fəal iştirak etmişdir. 1921-ci ilin fevral ayında Gürcüstan bolşevik işğalına məruz qalarkən başçılığındakı Borçalı qarapapaqlarından ibarət könüllülər dəstəsi ilə gürcü ordusu sıralarında döyüşmüşdür. Gürcüstan Demokratik Respublikası süqut edəndən sonra (1921-ci ilin martında) İstanbula, 1922-ci ilin noyabrında isə Polşaya yerləşmişdir.

İsrafil bəy Yadigar Polşada hərbi təhsil aldıqdan sonra polyak ordusunda mayor, sonra isə podpolkovnik rütbəsində xidmət etmişdir. II Dünya müharibəsi zamanı o, Azərbaycan milli komitəsinə rəhbərlik etmiş, eyni zamanda Azərbaycan legionunun komandanlarından olub sovetlərə qarşı döyüşlərdə fərqlənmişdir.

**Qeyd 7.** XIX əsrin 60-cı illərində Borçalı mahalının güney kəsimində − Loru düzündə yerləşən Uzunlar erməni kəndinin

---

[212] «Разведчик» jurn., 1915, 24 fevral, № 1268, jurnala əlavə, s. 64.
[213] N.Yaqublu, göstərilən əsər; С.Ахмедов. Азербайджанцы на фронтах Первой Мировой войны: Татарский конный полк, Баку, 2014, s. 43-44.
[214] “საქართველოს რესპუბლიკა” (“Sakartvelos Respublika”) qəz.,1919, 5 iyun, № 121, s. 1.

sakinləri ilə general-mayor İsrafil bəy Mustafa bəy oğlu Yadigarov arasında torpaq sahələri üstündə məhkəmə işi sonuncunun xeyrinə nəticələnir. Məhkəmə uzunlarlıların illərlə dövlət torpaqları kimi istifadə etdikləri otlaq sahələrinin İsrafil bəyə məxsus olmasını təsdiqləyir, eyni zamanda bu torpaqlardan əvvəlki istifadə üçün maddi cəza kəsir. Bundan sonra sözügedən kəndin maldarları həmin otlaqlardan icarə müqabilində yararlanırlar. Məhkəmə məğlubiyyətinin səbəbini Uzunlar sakinləri bəzi həmkəndlilərinin iddiaçının (İ.Yadigarovun) xeyrinə verdikləri ifadələrlə əlaqələndirirdilər[215]. Lorudakı Dərəkənd, Seydibağdı, Yeni Uzunlar və Tsater erməni kəndlərinin maldarları da çox vaxt İ.Yadigarova məxsus qışlaqları icarəyə götürürdülər[216].

**Qeyd 8.** Arxiv sənədlərindən bəlli olur ki, 1776-cı ildə Kartli-Kaxetiya çarı tərəfindən Yadigaroğlu Sadıq bəyə Tiflisin Xarpux məhəlləsindəki Qorçaqala yaxınlığında ayrılmış torpaq sahəsi onun nəvəsi İsmayıl bəy Məmmədcan oğlu (yuxarıda təqdim olunan siyahıda qeydiyyat nömrəsi: 1154) ilə sözügedən məhəllənin bəzi sakinləri arasında mübahisə predmetinə çevrilir. Belə ki, xarpuxlu İ.Vardzequlov, P.Martirosov, Q.Tamazov və Arakel Muradov Gürcüstanda baş idarəçi general-adyutant Q.Rozenə 15 noyabr 1835-ci ildə şikayət ərizəsi yazaraq bildirirlər ki, əslən Borçalıdan olan Tiflis sakini, poruçik *Mirzə İsmayıl bəy Yadigarov* 1825-ci ildən onlara məxsus olan və Tiflisin şəhərətrafı ərazisi hesab olunan Xarpuxda dağın ətəyində yerləşən bağın ətrafındakı bütün torpaqlara iddia etməyə başlayıbdır.

İsmayıl Yadigarov öz növbəsində məsələ ilə bağlı Q.Rozenə göndərdiyi 24 aprel 1836-cı il tarixli məktubunda qeyd olunan ərazinin Qorçaqalanın altında yerləşdiyini və bu sahənin ona çarın sənədləri əsasında irsi qaydada verildiyini yazır. O, müvafiq təsdiqləyici sənədlərin əslinin 24 iyun 1826-cı il tarixində

---

[215] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, том 7-ой, с. 455, 501.
[216] Yenə orada, s. 458-460.

Tiflis şəhər polis idarəsinə bu qurumun istəyi əsasında verildiyini və elə polis tərəfindən də itirildiyini yazır. İsmayıl bəy daha sonra məktubunda aşağıdakı tələbləri irəli sürür:

1. Xarpuxdakı ərazinin ona məxsusluğunu təsdiqləyən sənədin orijinalı tapılsın;
2. İşlə bağlı qarşı tərəfinki kimi onun da şahidləri dindirilsin;
3. İcra ekspedisiyasının bu işlə məşğul olan məmuru başqası ilə əvəz olunsun;
4. Torpaq sahəsindən istifadə edən xarpuxlular yenidən ona vergi versin;
5. Xarpuxluların ona məxsus olan ərazidə tikinti işləri aparmasına qadağa qoyulsun.

Gürcüstan Ali Hökümətinin icra ekspedisiyasının general Rozenə ünvanlanmış 24.06.1836-cı il tarixli təqdimat-məktubunda İ.Yadigarovun 1-ci və 2-ci tələblərinin yerinə yetirilməsi məqbul, 3-cü tələbinin yerinə yetirilməsi isə qəbulolunmaz hesab edilir. Eyni zamanda təqdimatda 4-cü və 5-ci tələblərin iş sona çatdırılana kimi icrası mümkün hesab olunur[217].

**Qeyd 9.** Arxiv mənbələrdən İsmayıl bəy Yadigarovun əmisi oğlu İsrafil bəylə mülk bölgüsündən narazı qaldığı aşkar olur. Belə ki, İsmayıl bəy 1843-cü ildə Cənubi Qafqaz diyarının baş idarəçisi general A.İ.Neydhartın adına yazdığı məktubunda İsrafil bəy Yadigarovla özünün könüllü şəkildə imzaladığı sülalə mülkünün bölünməsi aktının ləğv olunmasını tələb edir. Ancaq onun bu tələbi rədd edilir.

İsmayıl bəyin Neydharta məktubundan Yadigarovların Tiflis və Borçalıdakı sülalə mülklərini 1830-cu ilin avqust ayına qədər (vəbadan xəstələnib vəfat edənədək) onun kiçik əmisi Mustafa bəyin idarə etdiyi, həmçinin, Mustafa bəyin o vaxta artıq dünyadan köçmüş poruçik rütbəli Ağa bəy, 1842-ci ilin may

[217] GMTA, f. 2, s. 1, iş № 3909.

ayında Sankt-Peterburqdan Tiflisə qayıtmış kornet İsrafil bəy və Allahverdi bəy adlı 3 oğul atası olduğu aydınlaşır[218].

Əlavə edək ki, GMTA-da İsmayıl bəy Yadigarovun mülkiyyət işləri ilə bağlı 1846-cı ilə aid "poruçik İsmayıl bəy Yadigarovun sahibi olduğu Candar kəndlilərinin dövlətin xeyrinə onun əlindən alınması işi barədə"[219] və 1846-1854-cü illərə aid "İki xahiş barədə − birinci, Baraxlı və Təkəli kəndlərinin sakinlərinin müvəkkilləri və ikinci, poruçik İsmayıl Yadigarov və praporşik Zurab Abaşidze tərəfindən dövlət mülkiyyətləri palatasının onlar arasında mübahisəli torpaqla bağlı bir daha təhqiqat aparılması qərarına şikayətlə bağlı"[220] başlıqlı dosyelər də saxlanılır.

**Qeyd 10.** İsmayıl bəy Məmmədcan bəy oğlu Yadigarovun nəvəsi *Əsədulla bəy Yadigarov* Yadigaroğullarının general rütbəsinə yüksəlmiş ikinci təmsilçisidir. Hərb tarixi tədqiqatçısı Şəmistan Nəzirlinin araşdırmalarından məlum olur ki, 20 dekabr 1844-cü ildə Borçalı nahiyəsinin Təkəli kəndində anadan olmuş Əsədulla bəy 1863-cü ildə Sankt-Peterburqda Pavlov kadet korpusunu kornet rütbəsində müvəffəqiyyətlə bitirdikdən sonra Əlahiddə Qafqaz Ordusunun piyada qoşunlarında xidmətə başlamış, 1865-ci ildə poruçik, 1866-cı ildə ştabs-rotmistr zabit rütbəsi almışdır. 1873-cü ildə Əsədulla bəy şəxsi raportu ilə ordudan uzaqlaşıb mülki xidmətə keçmiş, ancaq 4 il sonra 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin başlanması ilə əlaqədar yenidən orduya çağırılmış, podpolkovnik rütbəsində Balkan cəbhəsindəki hərbi əməliyyatlarda fəal iştirak etmişdir[221]. Qars ruslar tərəfindən işğal olunduqdan sonra yeni yaradılmış Qars vilayəti-

---

[218] GMTA, f. 2, s. 1, iş № 8995.
[219] GMTA, f. 4, s. 3, iş № 861.
[220] GMTA, f. 4, s. 1, iş № 321.
[221] Ş.Nəzirli, göstərilən əsəri, s. 140-141.

nin ("oblast"ının) rəis müavini vəzifəsində (01.11.1877 - 15.08.1878-ci illərdə) çalışmışdır[222].

Ə.Yadigarov 1881-ci ildə Qafqaz hərbi teleqraf parkının, 1883-cü ildə 2-ci Qafqaz sanitar batalyonunun (polkovnik rütbəsində), 1889-cu ildə isə Əlahiddə Qafqaz Ordusunun 78-ci Navahı alayının komandiri təyin olunmuşdur. 1895-ci ildə ona general-mayor rütbəsi verilmişdir. Əsədulla bəy bir sıra ordenlərlə, o cümlədən 6 dekabr 1898-ci ildə I dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif olunmuşdur[223]. 1897-ci ildə Tiflis quberniyasının knyaz-zadəganlarının mülkləri üzrə icra komissiyasının 6 seçilmiş üzvündən biri olmuşdur[224].

Əsədulla bəy Məmmədcan bəy oğlu Yadigarov ömrünün son illərini Tiflis şəhərində Nikolayevskaya (indiki İ.Cavaxişvili) küçəsi, ev № 88 ünvanında özünün şəxsi mənzilində yaşamışdır. O, 29 iyun 1903-cü ildə Tiflisdə vəfat etmiş və səhəri gün şəhərin müsəlman qəbiristanlığında dəfn olunmuşdur[225]. Əsədulla bəyin qızı *Nisə xanım* "Kavkaz" qəzetinin 18 iyul 1903-cü il tarixli sayında atasının xatirəsini yad edənlərə və ona başsağlığı verənlərə öz minnətdarlığını bildirirdi[226].

"Kavkaz"ın 1871-ci ildə çap olunmuş 70-ci sayında 21 iyun 1871-ci ildə Tiflis dairə məhkəməsində kornet *Allahverdi bəy Yadigarov*, ştabs-kapitan *Əsədulla bəy Yadigarov* və yunker* *İmran bəy Yadigarovun* müraciətləri əsasında onların mərhum İsmayıl bəy Məmmədcan bəy oğlu Yadigarovun mülkü

---

[222] Губернии Российской империи. История и руководители. 1708-1917, М., 2003, с. 380.

[223] «Кавказский календарь», на 1896 г., Тифлис, 1895, с. 381; Ş. Nəzirli, göstərilən əsəri, s. 141.

[224] "ივერია" ("İveriya") qəz., 1897, 1 iyun, № 106, s. 2.

[225] «Кавказ» qəz., 1903, 30 iyun, № 171, s. 1.

[226] «Кавказ» qəz., 1903, 18 iyul, № 189, s. 1.

* yunker – Çar Rusiyasının ordusunda unter-zabit və ober-zabit arasında keçici rütbə və ya hərbi məktəb müdavimi.

üzərində varislik hüquqlarının təsdiq edilməsi işinə baxılacağı barədə məlumat yayımlanmışdı[227].

**Qeyd 11.** Mənbələrdən general rütbəsinə yüksəlmiş Yadigarovlardan İsrafil bəy və Əsədulla bəyin Qacar xanədanları ilə mehriban münasibətdə olduqları bəlli olur.

Krım müharibəsi zamanı − 1855-ci ilin oktyabrında İran-Qacariyyə şahının özəl məktubunu Əlahiddə Qafqaz Korpusunun komandanı N.N. Muravyova çatdırmaq üçün cəbhə bölgəsinə yollanan Qasım xan xüsusi olaraq Qarsın Hacıvəli kəndində II atlı-müsəlman alayının komandanı polkovnik İsrafil bəy Yadigarovu ziyarət etmişdi. İsrafil bəy qonağın şərəfinə süfrə açmışdı[228].

1873-cü ildə Avropaya ilk səfəri zamanı Cənubi Qafqazdan keçən İran-Qacariyyə şahı Nəsrəddin Qacar öz səfəri haqqında ayrıca kitab yazmış və yol qeydlərində Əsədulla bəy Yadigarovu məhəbbətlə yada salmışdır: “Gecədən yarım saat keçmiş Dilicana yetişdik... Dilican meşəliklər içərisindədir, çox gözəl yerdədir. Polkovnik Əsədulla bəy Yadigarovun evi Dilicanda bizim mənzilimiz oldu. Əsədulla bəy Dilican alayının rəisidir. Tiflis müsəlmanlarındandır, alay komandiridir. Polkovnik Əsədulla bəy Yadigarovun xoş təsir bağışlayan gözəl imarəti, kiçik-kiçik bəzəkli otaqları vardır...”[229].

1889-cu ildə II Qafqaz sanitar batalyonunun polkovniki Əsədulla bəy Yadigarov Nəsirəddin şah Qacar tərəfindən “Şiri-Xurşid” (“Şir və Günəş”) ordeni ilə təltif edilmiş, orden Əsədulla bəyə çatdırılması üçün İranın Tiflis konsulu Mirzə Məmmədəli xana göndərilmişdi[230].

**Qeyd 12.** *Sadıq bəy Abbasəli bəy oğlu Yadigarov* (siyahıda qeydiyyat nömrəsi: 1155) yarı gürcü, yarı Polşa tatarı Olqa

---

[227] «Кавказ» qəz., 1871, 18 (30) iyun, № 70, s. 1.
[228] «Военный сборник», СПб., 1863, январь, т. 28; февраль, т. 29, с. 435.
[229] Ş.Nəzirli, göstərilən əsəri, s. 142.
[230] «Кавказ» qəz., 1889, 4 iyun, № 144, s. 2.

Rusiya-Korçibaşeva ilə ailə həyatı qurmuşdu. Onların Abbasəli bəy, Davud bəy, Vəli bəy və Arçil (Ərçil) bəy adlı oğulları olub. Davud bəy (1881-ci il təvəllüdlü) və Vəli bəy (1898-ci il təvəllüdlü) hərbi təhsil alaraq peşəkar zabit qismində öncə Çar Rusiyasının, daha sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin ordusu sıralarında xidmət etmişdirlər.

*Davud bəy Yadigarov* 1903-cü ildə Peterburq yaxınlığında paj korpusunu* kornet rütbəsində bitirmişdir. Tiflisdə dislokasiya olunan 17-ci Nijeqorod draqun alayının ştab-rotmistri olmuşdur. Bu alayın rotmistri rütbəsində Əlahiddə ekspedisiya korpusunun İran-Qacariyyə yürüşündə (1915-1918-ci illər) iştirak etmişdir[231]. 1918-ci ildə Azərbaycan ordusunda polkovnik rütbəsində II Qarabağ süvari alayının komandiri və süvari diviziyasının komandir müavini olmuş, eyni zamanda bir müddət Xankəndi qarnizonunun rəisi vəzifəsini icra etmişdir. 1919-cu ildə Zəngəzurda erməni silahlı quldur dəstələrinə qarşı aparılan uğurlu döyüş əməliyyatlarına rəhbərlik edənlərdən biri olmuşdur. Cümhuriyyətin hərbi naziri S.Mehmandarovun 23 oktyabr 1919-cu il tarixli, 492 saylı əmri ilə ona general-mayor rütbəsi verilmişdir[232].

Davud bəy Yadigarov Tiflisdə Nikolayevsk (indiki İ.Cavaxişvili) küçəsi 83 ünvanında yaşamışdır[233].

*Vəli bəy Yadigar* ilk hərbi təhsilini 1909-1915-ci illərdə Tiflis hərbi gimnaziyasında almış, 1916-cı ildə kornet rütbəsində Əlahiddə Qafqaz Ordusunun korpusunda xidmətə başlamışdır. I Dünya müharibəsi zamanı cəbhəyə göndərilmişdir. Bir müddət 1-ci Dağıstan süvari alayında xidmət etdikdən sonra Sankt-Peterburqa Artilleriya Zabit Məktəbinə göndərilmişdir. 1918-ci ilin sentyabrında Azərbaycana gəlmiş və Azərbaycan Xalq Cümhu-

---

* paj korpusu – xüsusi imtiyazlı zadəgan hərbi təhsil müəssisəsi.

231 P.N.Strelyanov (Kalabuxov), göstərilən əsəri, s. 338.

232 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II c., Bakı, 2005, s. 434.

233 Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f. 897, s. 1, iş № 103, v. 9.

riyyəti ordusunda korpus komandirinin yanında eskadron komandiri təyin olunmuşdur. 1920-ci ilin mart ayında Qarabağda erməni silahlılarına qarşı döyüşlərdə fərqlənmişdir. Həmin ilin may ayında Gəncə üsyanında iştirak etmiş, 3-cü Şəki süvari alayının pərakəndə dəstəsiylə vuruşa-vuruşa Gürcüstan ərazisinə çəkilmişdir. 1921-ci ilin fevralında Tiflis şəhərini mühasirəyə almış bolşeviklərə qarşı igidliklə vuruşmuşdur[234].

Sadıq bəy Yadigarovun oğullarının hamısı və əmisi nəvəsi polkovnik İsrafil bəy Yadigar 1921-ci ilin mart ayında (Gürcüstan sovetləşəndən sonra) Türkiyəyə, oradan da Polşaya keçib mühacirətdə sovet rejiminə qarşı mübarizələrini davam etdirmişdirlər.

Vəli bəy Yadigar Polşada 7-ci ulan alayının zabiti qismində müqavilə əsasında polyak ordusunun sıralarına daxil olmuş, eyni zamanda hərbi təhsilini davam etdirmişdir. Qruzdendə süvari məktəbini və 1932-ci ildə Varşavada Polşa Silahlı Qüvvələrinin Ali Hərbi Akademiyasını bitirdikdən sonra 7-ci alayın komandir müavini təyin edilmişdir. İkinci Dünya müharibəsində "Armiya Krayova" xalq ordusunda süvari briqadasının qərargah rəisi, Lyubetsk süvari alayının və 10-cu süvari atıcılar əlahiddə diviziyasının komandiri olmuş, hərbi əməliyyatlarda iştirak etmiş, polkovnik rütbəsi almışdır. Milliyyətcə polyak olan Vanda Eminoviç ilə evlənmişdir. Sovet qoşunları Polşaya daxil olduqdan sonra polkovnik Vəli bəy Yadigar əvvəlcə Avropanın bir sıra ölkələrinə, sonda isə 1949-cu ildə Argentinaya mühacirət etmiş, burada Xalq Ordusu döyüşçüləri mühacirət hərəkatının başçısı olmuşdur. V.Yadigar 1971-ci il dekabrın 13-də Buenos-Ay-

---

[234] N.Yaqublu. Polşa ordusundakı azərbaycanlı zabitlər, "Qarapapaqlar", 2007, № 5, s. 18; Ş.Nəzirli, göstərilən əsəri, s. 144; F.Valehoğlu-Hacılar. *Gürcüstan azərbaycanlıları Gürcüstan Demokratik Respublikasının ərazi bütövlüyünün və müstəqilliyinin müdafiəsində*, "Gürcüstan" qəz., 2019, 10 may, № 35-36 (№ 12797), s. 6; F. Valehoğlu-Hacılar. *Gürcüstanın sovetləşməsinə qarşı müqavimət hərəkatında borçalılar*, "Təzadlar" qəz., 2021, 2 mart, № 08 (2293), s. 9, 11.

resdə vəfat etmişdir. Vəsiyyətinə əsasən onun nəşi 1990-cı ildə Polşaya gətirilərək müsəlman adət-ənənəsinə uyğun və hərbi protokol qaydalarına əsasən yenidən Varşavadakı tatar qəbiristanlığında dəfn edilmişdir. Dəfn mərasimində mərhumun İspaniyada yaşayan qızı Züleyxa Yadigarova-Kalinovskaya da iştirak etmişdir[235].

Sovet İttifaqının xüsusi xidmət orqanlarının sənədlərindən Türkiyə və Avropada yaşayan mühacirlərin, o cümlədən Yadigaroğullarının fəaliyyətinin sovet kəşfiyyatı tərəfindən diqqətlə izlənildiyi məlum olur. SSRİ Xalq Daxili İşlər Komissarlığı (NKVD) nəzdində Dövlət Siyasi İdarəsinin (QPU) xarici şöbəsinin İstanbul rezidenti Türkiyədə emiqrant antisovet təşkilatlarının fəaliyyəti barədə Moskvaya göndərdiyi 1923-cü il aprel-may tarixli yazılı məlumatında *Arçil bəy Yadigarovun* da adını çəkirdi:

"Yadigarov Arçil – keçmiş rejimin dövründə Kiyevdə polis agenti olub. Fevral inqilabından sonra Bakıda polismeyster idi... İndi isə onu "öz adamı" hesab edən Vneştorqa[*] açıq şəkildə gülür. O, ingilis əks-kəşfiyyatında məlumatçı kimi xidmətdədir. Özünü Yüzbaşovun (Vneştorqun nümayəndəsi – F.V.) dostu hesab edir. Yadigarov hətta "sovet hakimiyyəti dağılacağı halda bəzi əməkdaşlarla geri çəkilməni öncədən təmin edir". Məsələn, o, sinəsinə emaye ulduz taxılmış qara pencək geyinən, tez-tez "səfir" (çar) kilsəsinə gedən və xeyli səxavətli davranan bizimki ilə – yenə əməkdaşla (Vneştorqun əməkdaşı – F.V.) artıq razılığa gəlibdir. Bizim Vneştorq bax belə şəxslərlə əhatə olunubdur"[236].

Sözügedən kəşfiyyat sənədinin surəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Mərkəzi Arxivində (fond 2, siyahı 1, iş № 442, vv. 60-72) saxlanılır. Həmin arxivdə qoru-

---

[235] Ş.Nəzirli, göstərilən əsəri, s. 144-145, 148; N.Yaqublu, göstərilən əsər, s. 18.

[*] Sovet Rusiyasının Xarici Ticarət Xalq Komissarlığının İstanbul şöbəsi nəzərdə tutulur – *F.V.*

[236] Русская военная эмиграция 20-40-х годов. Документы и материалы, том 2. Несбывшие надежды… 1923, М., 2001, с. 186.

nan daha bir sənəddə Yadigarovların adı hallanır. SSRİ Xalq Daxili İşlər Komissarlığının Azərbaycan və Gürcüstan SSR xalq daxili işlər komissarlarına "Türkiyə ərazisindəki Azərbaycan və dağlı mühacirlərin təxribatçı fəaliyyətinin qarşısının alınmasına dair" 41/1060 saylı təlimatını özündə ehtiva edən 2 sentyabr 1941-ci il tarixli bu sənəddə Almaniyanın Sovet İttifaqına qarşı hərbi əməliyyatlara başlamasından sonra Türkiyədə qafqazlı əksinqilabçı mühacirlərin aktivləşdiyi barədə məlumat verilir, təsdiqləyici faktlar nümunə gətirilirdi. Həmin faktlar sırasında aşağıdakı da var idi:

"İstanbuldakı Azərbaycan mühacirətinin rəhbərləri Azərbaycanda gizli əksinqilabi fəaliyyətin təşkili üçün emissarlar qismində SSRİ-yə göndərilməsi nəzərdə tutulan 30 mühacirin siyahısını tərtib ediblər. Əldə olan məlumatlara görə, Sovet ərazisinə göndərilmələr üçün Tomtiyev qardaşlarının, Qurban Bayramovun (qarayazılı Qurban Hacıbayramlı – F.V.), Qiyas bəy Şıxlinski və Yadigarovların bandelementlərindən (cinayətkar dəstə üzvlərindən) istifadə olunacaqdır"[237]. Təlimatı imzalayan SSRİ xalq daxili işlər komissarının müavini Boqdan Kobulov antisovet fəaliyyətlərinin vaxtında qarşısının alınması məqsədiylə sərhəd dəstələrinə praktiki göstərişlərin verilməsi və görülən tədbirlər barədə NKVD-nin 3-cü idarəsinin məlumatlandırılması zərurətini ifadə edirdi. Sənədin çap olunduğu topluda Yadigarovlar barədə belə bir qeyd verilmişdir:

"Yadigarov David bəy (1883-?) – çar ordusunun polkovniki. 1919-cu ildə Azərbaycan ordusunun süvari diviziyasının komandiri təyin olunmuş və general rütbəsi verilmişdir.

Yadigarov İsrafil bəy (1888-?) – Polşa ordusunda xidmət etmişdir, mayor rütbəsində idi.

Yadigarov Arçil bəy (1889-?) – Polşa ordusunda xidmət etmişdir, mayor rütbəsinə sahib idi, 1930-cu ildə istefaya çıxmışdır.

---

[237] Органы государственной безопасности СССР в годы Великой Отечественной Войны. Сборник документов, том 2, книга вторая (1 сентября – 31 декабря 1941 года), М., 2000, документ № 552, с. 7-9.

Yadigarov Vəli bəy – (1897-?) – 1938-ci ilin sonunadək Polşa ordusunda xidmət etmişdir, mayor rütbəsində idi”[238].

Beləliklə, Sovetlər Birliyinin xüsusi xidmət orqanlarının yuxarıda haqqında bəhs edilən sənədlərindən, eləcə də Çar Rusiyasının hərb tarixinə dair qaynaqlardan və gürcü mənbələrindən Arçil bəyin həyat və fəaliyyəti ilə bağlı aşağıda qeyd olunan məqamlara aydınlıq gətirə bilirik:

*Arçil bəy Yadigarov* 1889-cu ildə doğulmuşdur. Dağıstan süvari alayının tərkibində kiçik vəkil (kiçik uryadnik) unter-zabit rütbəsində I Dünya savaşına qatılmış və döyüşlərdə fərqləndiyinə görə IV dərəcəli (təltif № 196417)[239] və III dərəcəli Georgi xaçı (təltif № 29342)[240] ilə təltif olunmuşdur. 29 avqust 1915-ci ildə səkkiz atlıdan ibarət süvari patrulunun rəisi qismində könüllü surətdə “təhlükəli və faydalı” bir əməliyyat həyata keçirərək II dərəcəli Georgi xaçına və praporşik rütbəsinə layiq görülmüşdür[241]. Bu əməliyyat sırasında o, Brest vilayətinin Svarin kəndində möhkəmləndirilmiş alman zastavasından bir taqımı geri çəkilməyə məcbur etmiş, bununla da 2-ci kəşfiyyat yüzlüyünün maneəsiz geri çəkilməsini təmin etmiş, eyni zamanda Svarin kəndini ələ keçirməklə sözügedən yüzlüyün Zareçka və Lyaxoviçi kəndlərinin dərinliyində dəqiq və dolğun kəşfiyyat işləri aparmasına zəmin yaratmışdır.

A.S.Yadigarov I Dünya savaşından sonra Çar Rusiyasının polis-təhlükəsizlik sistemində çalışmış, Kiyevdə polis agenti olmuş, 1917-ci ilin fevral inqilabından sonra isə Bakı şəhərində polis rəisi vəzifəsini tutmuşdur. 1921-ci ilin fevral ayında Tiflis

---

[238] Yenə orada, s. 9.

[239] Rusiya Dövlət Tarix Arxivi (RDTA), f. 496, s. 3, iş № 906 (v. 69 ob) və iş № 908 (v. 65); С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (IV степень, №№ 100001-200000), М., 2012, с. 950.

[240] С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (III степень, №№ 1-120000), М., 2015, с. 302.

[241] С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (I степень, №№ 1-42480; II степень, №№ 1-85030), М., 2015, с. 316.

çevrəsində Qızıl orduya qarşı vuruşmuşdur. Həmin döyüşlərdə iştirak etmiş gürcü yunker (hərbi təhsil müəssisəsinin müdavimi) Mixeil Dadiani xatirələrində yazırdı:

"Polkovnik Cxeidze məni mayor Elizbar Şarvaşidzeyə yazılı əmrin çatdırılması üçün 4-cü minliyə (alaya) göndərəndə zil qaranlıq idi. Yolun yarısını getmişdik ki, atların ayaq səslərini eşitdim. Öz atımı saxladım, azacıq həyəcanlandım. Düşündüm: "Bəlkə ruslardır?". Ancaq çox zamanımız yox idi. Atamın hədiyyə verdiyi tüfəngi tuşlayıb rusca səsləndim: - "Kto idyot?" ("Kimdir gələn?"). Cavab aldım: - "Borçalintsı" ("Borçalılar"). Bu, A.Yadigarovun başçılığı altında Borçalı tatarlarının (türklərinin – F.V.) iyirmi nəfərlik süvari dəstəsi idi. O, general Andronikaşvilinin qərargahının yerini soruşdu. Mən başa saldım və bir-birimizdən ayrıldıq[242]".

Arçil bəy Gürcüstan paytaxtı işğal olunduqdan sonra qardaşları ilə bərabər Türkiyəyə keçmiş, bir müddət İstanbulda yaşamış, daha sonra Polşada məskunlaşmağa məcbur olmuşdur. Mühacirətdə antisovet fəaliyyəti ilə məşğul olmuşdur. İstanbulda olarkən sovet kəşfiyyat strukturlarının diqqət mərkəzinə düşmüş, davranışları Böyük Britaniya kəşfiyyatına işləməsinə dair şübhələr yaratmışdır.

Arçil bəy Yadigarov mayor rütbəsində Polşa silahlı qüvvələrində xidmət etmiş və 1930-cu ildə ordudan tərxis olunmuşdur. II Dünya savaşında qardaşları və digər qafqazlı mühacirlərlə eyni səfdə dayanmışdır.

**Qeyd 13.** *Ağa bəy Mustafa bəy oğlu Yadigarov* (siyahıda qeydiyyat nömrəsi: 1157) Sankt-Peterburq Universitetinin məzunu olan ilk Azərbaycan türküdür. O, 1823-cü ildə anadan olmuş, 1837-1844-cü illərdə Peterburqda gimnaziya tədris-tərbiyəsi görmüşdür. Ağa bəy 1844-1848-ci illərdə atasının bacısı

---

[242] იუნკერ მიხეილ დადიანის მოგონებები 1918-1921 წლების საქართველოს არმიაზე (1918-1921-ci illər Gürcüstan ordusu haqqında yunker Mixeil Dadianinin xatirələri), təqdim edəni: Q.Mamuliya, www.gmas.ge (09.04.2015).

oğlu Mirzə Cəfər Topçubaşovun professoru olduğu Peterburq Universitetinin şərq şöbəsində ali təhsil aldıqdan sonra Tiflisdə Qafqaz canişininin dəftərxanasında əmək fəaliyyətinə başlamış, Rusiya imperiyasının Qafqazdakı bu baş dövlət qurumunda təqribən 33 il (canişinlik ləğv olunana qədər) müxtəlif kiçik vəzifələrdə çalışmışdır. O, 1892-ci ildə dünyasını dəyişmişdir[243].

Bir neçə dildə sərbəst danışan, şərq ədəbiyyatı və mədəniyyətinə dərindən bələd olan Ağa bəy Yadigarov əlifba islahatının aparılması üçün Mirzə Fətəli Axundzadə ilə çiyin-çiyinə mübarizə aparmışdır. Tiflisdə rus dilində nəşr olunan "Kavkaz" qəzetinin 25 mart 1881-ci il tarixli sayında dərc olunmuş "Şərq sivilizasiyasının durğunluq səbəbləri" başlıqlı məqalədə yazılırdı: "...Əlifbanın (ərəb əlifbasının – F.V.) özü hərflərin bir-birindən ayırd edilməsi, nöqtələrin qoyulması və s. üçün ikiqat səy göstərməyə məcbur etməklə yazışma aparanların işini xeyli çətinləşdirir. Bu məsələ bəzi İran və Türkiyə alimləri tərəfindən qaldırılsa da, hansıların ki, sıralarına mərhum Mirzə Fətəli Axundov və cənab Ağa bəy Yadigarov da daxil edilməlidir, hələ ki, heç kəs ərəb sillabik (heca) əlifbasının Avropa əlifbasına dəyişdirilməsi ilə bağlı belə bir çətin məsələ barədə açıq fikir yürütməyi öz üzərinə götürməmişdir"[244].

Ağa bəyin qızı Məsumə xanım Yadigarova Zaqafqaziya Qadın Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. O, 1888-ci ildə general-mayor Mirkazım bəy Talışxanovla ailə həyatı qurmuşdur.

**Qeyd 14.** Tarixi mənbələri incələdikdə Mustafa bəy Sadıq bəy oğlu Yadigarovun bundan əvvəlki qeyddə haqqında bəhs etdiyimiz Ağa bəydən başqa eyni adı daşıyan daha bir oğlunun olduğu müəyyən edilir. Belə ki, İsmayıl bəy Yadigarov Cənubi Qafqazda baş idarəçi general A.Neydharta 1843-cü ildə ünvanla-

---

[243] Н.Таирзаде. Ага бек Едигаров: Первый азербайджанец – воспитанник Петербургского университета, "İrs" («Наследие»), 2010, № 3 (45), с. 5-9.
[244] «Кавказ» qəz., 1881, 25 mart, № 67, s. 2.

dığı məktubunda Mustafa bəyin poruçik Ağa bəy (həmin vaxt artıq dünyadan köçmüş), Allahverdi bəy və İsrafil bəy adlı övladlarının adını çəkir (bax: qeyd 9, səh. 102). Ş.Nəzirli: “”On üçüncü Leyb-qvardiya İrəvan alayının tarixi” kitabında (1895-ci il nəşri) unter-zabit Ağa bəy Yadigarovun döyüş şücaətindən bəhs olunur. Orada yazılır ki, Ağa bəy döyüş başlayanda həmişə əsgərlərin önündə gedirdi. Bu qorxubilməz zabit düşmənə qarşı ruh yüksəkliyi ilə vuruşurdu. Təəssüf ki, cəsur zabit Ağa bəy Yadigarov 1830-cu il iyunun 17-də poruçik rütbəsində ailə vəziyyətinə görə istefaya çıxmalı oldu”[245]. Mümkündür ki, Sankt-Peterburq universitetinin məzunu olan 1823-cü il doğumlu Ağa bəyin əvvəl başqa adı olub və böyük qardaşı poruçik Ağa bəy vəfat edəndən sonra onun adını rəhmətliyin şərəfinə dəyişiblər.

Mustafa bəy Yadigarovun Allahverdi bəy adlı oğlunun isə 1845-1849-cu illər arası vəfat etdiyini, ondan sonra İsmayıl bəy Yadigarovun bu adı nəvəsinə (Məmmədcan bəyin oğluna) qoyduğunu təxmin edirik.

**Qeyd 15.** Tiflisdə gürcü dilində nəşr olunan “İveriya” qəzeti 2 aprel 1877-ci il tarixli sayında Tiflis quberniyasının knyaz və zadəganlarının keçirilməsi nəzərdə tutulan böyük yığıncağında qərar qəbuletmədə iştirak və seçim hüququna malik zadəganların siyahısını dərc edirdi. Həmin siyahıda Borçalı qəzasının yeganə türk zadəgan təmsilçiləri Yadigarovların aşağıdakı nümayəndələrinin adları əks olunurdu:

- Borçalı qəzasının knyaz və zadəganlarının başçısı vəzifə sinin icraçısı, milis praporşiki *Həsən bəy İsrafil bəy oğlu Yadigarov;*
- general-mayor *Əsədulla bəy* (qəzetdə səhvən Həsən bəy yazılıb) *Məmmədcan bəy oğlu Yadigarov;*

[245] Ş.Nəzirli, göstərilən əsəri, s. 133.

- podporuçik *Hüseyn bəy İsrafil bəy oğlu Yadigarov;*
- *Əli bəy Allahverdi bəy oğlu Yadigarov;*
- *Nadir bəy Ağa bəy oğlu Yadigarov;*
- *Sadıx bəy Abbasəli bəy oğlu Yadigarov;*
- zadəganların arvad və qızlarından dul qadın *Sitarə xanım Mirzəbaba bəy qızı Yadigarova, Məsumə xanım Ağa bəy qızı Yadigarova, Rüxsarə xanım Abbasəli bəy qızı Yadigarova və Qızxanım Ağa bəy qızı Yadigarova*[246].

Əlavə edək ki, *Mehdi bəy Yadigarovun* dul arvadı Sitarə xanım Yadigarova və onun övladları general-leytenant İsrafil bəy Yadigarovun himayəsində idilər[247].

Gürcü mətbuatının dərc etdiyi xəbərlərdən 1897-ci ildə kornet Həsən bəy Yadigarovun gürcü knyazı Q.D.Abxazi ilə birlikdə Borçalı qəzasının knyaz-zadəganlarının başçısı seçildiyi[248] (həmin vəzifəni tutan mərhum Rəhim bəy Yadigarovun yerinə), Tiflis quberniyasının knyaz-zadəganlarının 7-8 iyun 1909-cu il tarixli toplantısında isə həmin vəzifəyə yalnız A.[Ə.] İ.Yadigarovun uyğun görüldüyü bəlli olur. Bu toplantıda Sadıq bəy Abbasəli bəy oğlu Yadigarov knyaz-zadəganların ərazi-mülk bankının səlahiyyətli nümayəndəsi seçilmişdi[249].

**Qeyd 16.** Moskvada rus dilində nəşr olunan "Şahmat icmalı" ("Şaxmatnoye obozreniye") aylıq dərgisi 1892-ci ildən etibarən Tiflisdə rəsmi şahmat turnirlərinin təşkil olunmağa başlandığını yazırdı. Yerli şahmatsevərlər tərəfindən böyük maraqla qarşılanan bu turnirlərdə *Nadir bəy Ağa bəy oğlu Yadigarov* da oyunçu qismində iştirak edirdi[250]. Tiflisdə Velikoknyajeskaya (indiki D.Uznadze) küç. № 111 ünvanında yaşayan[251] Nadir bəy

[246] "ივერია" ("İveriya") qəz., 1877, 2 aprel, № 74.
[247] «Тифлисский вестник» qəz., 1875, 10 may, № 50, s. 4.
[248] "ივერია" ("İveriya") qəz., 1897, 4 iyun, № 107, s. 1.
[249] "დროება" ("Droeba") qəz., 1909, 10 iyun, № 126, s. 2-3.
[250] «Шахматное обозрение», 1892, fevral, № 8; mart, № 9; may, № 11.
[251] Справочная книга по городу Тифлису, Тифлис, 1912.

həm də siyasi-ictimai fəallığı ilə fərqlənirdi. O, Tiflis şəhər dumasına 1 iyun 1897-ci ildə keçirilən təkrar qlasnı (deputat) seçimlərində namizədliyini irəli sürsə də, sonradan geri götürmüş, həmin seçimlərdə namizəd olaraq yerli türk-qarapapaq bəylərindən *Abbasqulu bəy Sofiyev** iştirak etmiş və lehinə - 277, əleyhinə isə 311 səs toplamaqla şəhər dumasında təmsilçilik hüququnu qazana bilməmişdir[252].

Nadir bəy 1905-ci ildə Cənubi Qafqazın bir sıra şəhər və bölgələrində tüğyan etmiş türk-erməni qırğınlarının Tiflisə yayılmasının qarşısının alınması üçün həmin ilin noyabr ayında Tiflisin müsəlman ziyalıları tərəfindən yaradılmış komissiyanın üzvü idi[253]. Praporşik N.Yadigarovun adı, həmçinin, 1906-cı ildə rus çarının Qafqazdakı canişini tərəfindən regionun müsəlman əhalisini ən çox narahat edən təhsil probleminin həlli məqsədiylə yaradılmış xüsusi komissiyanın üzvləri siyahısında təsdiq olunmuşdu[254].

"Qafqaz təqimi" illik məcmuəsinin 1912-ci ilə aid buraxılışında həmin dövrdə milis podporuçiki N.Yadigarovun Qafqaz canişinliyində 7-ci dərəcəli xüsusi tapşırıqlar üzrə məmur, milis podporuçiki *Əli bəy Allahverdi bəy oğlu Yadigarovun* isə Aşağı Acarıstanda Kintriş polis nahiyəsinin rəisi vəzifəsini tutduğu qeyd edilir[255]. Rusiya imperatorunun 6 dekabr 1914-cü il tarixli əmriylə Qafqaz canişinliyində tapşırıqlar üzrə ştab-ofiser vəzifəsini icra edən milis poruçiki Nadir bəy Yadigarov III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdi.

---

* 1912-ci ildə Tiflis quberniyasının jandarm idarəsinin adyutant-poruçiki, I Dünya müharibəsində "Vəhşi diviziya"nın "Tatar" süvari alayının ştabs-kapitanı, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun polkovniki Nuh bəy Sofiyevin atası.

[252] "ივერია" ("İveriya") qəz., 1897, 4 iyun, № 107, s. 3.

[253] "ივერია" ("İveriya") qəz., 1905, 23 noyabr, № 212; «Тифлисский листок» qəz., 1905, 27 noyabr, № 236.

[254] «Тифлисский листок» qəz., 1906, 14 aprel, № 80.

[255] «Кавказский календарь», на 1912 г., с. 28, 118.

Yadigarovlardan Davud bəy və Vəli bəydən başqa daha altı zabitin – poruçik Nadir bəy Yadigarov, kornet Rəhim bəy Yadigarov, poruçik Abuzər bəy Yadigarov, ştab-rotmistr Məmməd bəy Yadigarov, rotmistr Daniyal (Daniyel) bəy Yadigarov və praporşik Adil bəy Yadigarovun Azərbaycan Xalq Cümhuriyyəti ordusunda xidmət etdiyi məlumdur. *Adil bəy Yadigarov* 17-ci Nijeqorod draqun alayının tərkibində könüllü olaraq I Dünya savaşına qatılmış, fərqləndiyinə görə IV dərəcəli Georgi xaçı (təltif № 142633) ilə təltif olunmuşdu[256].

Tiflisdə gürcücə yayımlanan “Amirani” qəzetinin 1908-ci il saylarının birində Tiflis general qubernatorunun qərarı ilə *İbrahim Yadigarov* adlı şəxsin “hərbi rejim aradan qaldırılmamış müəyyən olunmuş məcburi qaydaları pozduğu üçün” general-qubernatorluqdan sürgün edildiyi bildirilirdi[257].

Əlavə edək ki, Yadigaroğullarının bir qolu hazırda Qaraçöp mahalında yaşamaqdadır.

**Qeyd 17.** XIX əsrin sonu - XX əsrin əvvəlinə aid dövri mətbuat və arxiv qaynaqlarından həmin dövrdə Tiflis şəhərində və Borçalı qəzasında Yadigarovlara və digər bəy ailələrinə məxsus mülklər barədə müəyyən məlumat əldə etmək mümkündür. “İveriya” qəzeti 1897-ci ildə işıq üzü görmüş saylarının birində bildirirdi ki, Tiflis knyaz-zadəgan ərazi-mülk bankının idarə heyəti 17 fevral 1881-ci ildə qəbul olunmuş nizamnaməsinin 15-ci paraqrafına əsaslanaraq, 1897-ci ilin iyun ayında girov qoyulmuş daşınmaz əmlakın açıq satışını həyata keçirir. Satışa çıxarılan mülklər arasında *Sayat (çox güman ki, Səidə - F.V.) xanım Yadigarovanın* Tiflisin VI sahəsində (Ortacala və Şeytanbazar məhəllələrini əhatə edirdi), Vorontsov (indiki V.Qorqasali) küçəsində yerləşən mülkü də var idi. Bu mülk iki mərtəbəli zirzə-

---

[256] RDTA, f. 496, s. 3, iş № 908 (v. 61); С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (IV степень, №№ 100001-200000), М., 2012, с. 424.

[257] “ამირანი” (“Amirani”) qəz., 1908, 3 oktyabr, № 172.

mili evdən + iki mərtəbəli zirzəmili artırmadan, 254 kv.sajen torpaq sahəsindən ibarət idi və ümumilikdə cəmlənmiş 10713 rub. 95 qəp. borc müqabilində satılırdı[258]. Tiflis şəhəri kredit cəmiyyətinin idarə heyətinin 1906-cı ilin may ayında yaydığı girov daşınmaz əmlakların siyahısında da *Sayat (Səidə) xanım Yadigarovaya* məxsus iki mülk var idi. Həmin mülklər şəhərin VI (Vorontsov küçəsində) və X sahələrində (Novo-Mixaylovskaya və Yelizavetinskaya (indiki M.Tsinamdzğvrişvili) küçələrinin kəsişməsində) yerləşirdi[259].

1908-ci ildə uzunmüddətli kredit qarşılığında girov qoyulmuş daşınmaz əmlak sahiblərinin "Droeba" qəzetinin həmin ildəki ilk sayında çap olunmuş siyahısında *Səidə xanım Yadigarova* (18525 rubl 88 qəp kredit müqabilində Tiflisin Vorontsov küçəsində içərisində tikili olan ərazi və Borçalı qəzasında Cala-Qullarda, Çələbili yaylaqlarında və digər yerlərdə 273 desyatin 718 sajen ərazi), *Kiçikxanım Bəxtiyar bəy qızı Ağalarova* və *Cahan xanım Abbasqulu bəy qızı Mursaqulova* (5266 rubl 97 qəpik kredit müqabilində Tiflisin VI hissəsində, Seyidabad yoxuşunda və kar dalanda 296 sajen 9 arşın ölçülü ərazi və tikili), *Böyükxanım Kazım bəy qızı Həsənova* (28175 rubl 8 qəp. kredit müqabilində Tiflisin Vorontsov küçəsində içərisində tikili olan ərazi), *Qızxanım Topçiyeva* (3012,45 rubl kredit qarşılığında Borçalı qəzasının Seyidxocalı kəndində 197 desyatin 1500 sajen torpaq sahəsi) və d. türk mülkiyyət sahiblərinin adlarına rast gəlinir[260].

"Sakartvelos respublika" qəzetinin 1918-ci ilin noyabr saylarında çap olunmuş uzunmüddətli kredit müqabilində girov qoyulan Tiflis şəhərindəki mülklərin siyahısında *Sayat (Səidə) xanım Yadigarovanın* Vorontsov küçəsi 47 (245,79 kv.saj. ölçüdə) və 50 (112 kv.saj. ölçüdə) ünvanlarında,

---

[258] "ივერია" ("İveriya") qəz., 1897, 21 may, № 97, s. 6.

[259] «Кавказ» qəz., 1906, 9 may, № 106, s. 5.

[260] "დროება" ("Droeba") qəz., 1908, 18 noyabr, № 1.

Axalkələk qəzasının məşhur qarapapaq bəylərindən sağamoy-lu *Həsənov Dursun bəy Bala bəy oğlunun* Vorontsov küç. 29-da (250 kv.saj.) və "İran Şahzadəsi Gövhər Mirzənin" (Zaqafqaziya Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri olmuş *Gövhər xanım Qacar*) IV məhəllədə Solomonov (indiki Pxovi) küçəsində (üç mərtəbəli, 102 kv. saj. və 6 arşın kv. ölçülü) yerləşən mülkləri də olur[261].

1920-ci ilin aprel ayında Mixail zadəgan ərazi-mülk bankı qaytarıla bilməyən borc qarşılığında bəzi girov torpaq sahələrinin və mülklərin ictimai satışını elan edir və bununla bağlı mətbuatda müvafiq siyahı dərc etdirir. Siyahıda aşağıdakı məlumatlar diqqəti cəlb edir:

- *Səidə xanım Yadigarova* (Tiflis şəhəri, Xarpux küç., 361 sajen, torpaq borcu: 3050 man. 19 qəpik, vergi borcu: 185 man. 93 qəpik);
- *Fərrux bəyim Qacar*, şahzadənin arvadı (Qunib döngəsi, 118,5 sajen, torpaq borcu: 20950 man. 43 qəpik, vergi borcu: 1906 man. 95 qəpik);
- *Rəhim bəy Axundov* (Qocor kəndi, Udzovı küç., 9080 sajen, torpaq borcu: 10210 man. 71 qəpik, vergi borcu: 568 man. 65 qəpik)[262].

Əlavə edək ki, ixtisasca mühəndis olan Rəhim bəy Axundov 1906-cı ildə Tiflis şəhər dumasının deputatı olmuşdur. Fərrux (Faruq) bəyim Ələsgər qızı Qacar (1879-cu il doğumlu) isə Tiflisdə Qızlar İnstitutunu və Peterburqda xarici dillər üzrə ali kursları bitirmiş, Tiflis təhsil müəssisələrində fransız dili və nəğmə müəllimi işləmişdir[263]. Həmin dövrdə Qacarlardan *Məhəmməd Mirzənin* evi Tiflis şəhərində Batum döngəsi № 4 ünvanında yerləşirdi[264], Səyavuş Mirzənin (5-ci Kuban plastun batalyonu-

---

[261] "საქართველოს რესპუბლიკა" ("Sakartvelos respublika") qəz., 1918, 7 noyabr, № 85, s. 4-5 və 19 noyabr, № 95, s. 6.
[262] "Sakartvelos respublika" qəz., 1920, 23 aprel, № 89, s. 5-6.
[263] Ə. Paşayev, N. Bayramov, G. Qocayeva-Məmmədova, göstərilən əsər, s. 255.
[264] "Sakartvelos respublika" qəz., 1920, 18 yanvar, № 13, s. 4.

nun yüzbaşısı) evi Artsruni (indiki Xoştariya) küç. № 23 ünvanında, Əmir Kazım Mirzənin (müsəlman xeyriyyə cəmiyyətinin üzvü) evi isə Kazbeqi və Kiroçnaya küçələrinin kəsişməsində yerləşirdi[265].

Tiflis şəhəri kredit cəmiyyətinin idarə heyəti 1920-ci ilin may ayında 1963 man. 46 qəp. torpaq borcu və 999 man. 33 qəp. vergi borcu müqabilində *İsmayıl bəy, Əli bəy, Daniyel bəy, Qızxanım, Aliyə xanım və Nisə xanım Yadigarovların* şəhərin Dəmir cərgəsində yerləşən 5 kv.sajen və 5 arşın kvadratlıq iki mərtəbəli evini hərraca çıxarır[266]. Tiflisin X sahəsində yerləşən bu mülk 14 il əvvəl (1906-cı ildə) də ictimai satışda idi[267].

*Qızxanım Ağa bəy qızı Yadigarova* Tiflisdə Tatyaninskaya (Tatyana) küçəsi 4/1 (indiki Q.Tovstonoqov küç.) ünvanında dörd otaqlı mənzildə yaşayırdı. Q.Yadigarovanın bu mənzilindən 10 dekabr 1918-ci ildə oğurluq edilmiş, 23990 man. pul və qiymətli əşyalar aparılmışdı[268].

Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstandakı diplomatik nümayəndəliyinin yazışmalarından bəlli olur ki, Tiflis şəhər idarəsinin mənzil şöbəsi şəhərin X sahəsinin komissarına Qızxanım Yadigarovanın Tatyaninskaya küç. № 4 ünvanındakı mənzilindən iki otaq ayrılmasını və oraya polkovnik Mağalovun arvadı ilə birgə köçürülməsini təklif edir. Bununla bağlı diplomatik nümayəndəlikdən Tiflis şəhər başçısına məktub ünvanlanır. 19 noyabr 1919-cu il tarixli bu məktubda Qızxanım Yadigarovanın oğlunun Azərbaycan Respublikasının ordusunun zabiti olduğuna və Tiflisə xidməti ezamiyyətə gələndə həmin mənzildə yaşadığına diqqət çəkilərək, Q.Yadigarovanın patriarxal müsəlman ailəsində böyüyüb, dini ənənələr üzərində tərbiyə olunduğu vurğulanır. Eyni zamanda bildirilir ki, 4 otaqlı mənzilin daxili

---

265 Справочная книга по городу Тифлису, Тифлис, 1912.

266 “Sakartvelos respublika” qəz., 1920, 23 may, № 113, s. 4.

267 «Кавказ» qəz., 1906, 9 may, № 106, s. 6.

268 «Кавказское слово» qəz., 1918, 14 (1) dekabr, № 270.

quruluşu onu iki hissəyə bölüb rahat yaşamaq üçün uyğun deyil. Diplomatik nümayəndəlik Q.Yadigarovanın istəyi xaricində onun mənzilinə kənar şəxslərin məskunlaşdırılmasının qeyd olunan səbəblərdən ev sahibinin şəxsi azadlığını və öz mənzilində sərbəst hərəkət imkanlarını məhdudlaşdıracağını əsas gətirərək, Tiflis şəhər rəhbərliyindən zorən köçürülmənin qarşısının alınmasını xahiş edir[269].

Cümhuriyyətin Gürcüstandakı diplomatik missiyasında qeydiyyatdan keçmiş daha bir sənəddən Qızxanım Yadigarovanın qonşuluğunda, Tatyaninskaya küçəsi, ev 4, mənzil 7 ünvanında onun yaxın qohumu *Sofiya (Səfiyyə) xanım Yadigarovanın* yaşadığı aydın olur[270].

1919-cu ildə Tiflisdə 14 hamam fəaliyyət göstərirdi; Yadigarova (181,5 kv saj. ölçülü) və Mursaqulova (296 kv.saj. ölçülü) məxsus hamamlar da onların sırasında idi[271]

**Qeyd 18.** Yadigaroğullarına qohum *Topçubaşılar* da Tiflisin köklü* sayıla biləcək türk əsilzadələrindən idilər. "Qeyd 2"-də (səh. 90) vurğuladığımız kimi, VI Vaxtanqın "Dəstür-üləməl"indən *Topçubaşının oğlunun Yadigarın oğlu* ilə bərabər XVII əsrin sonu - XVIII əsrin əvvəlində Kaxetiya çarının saray məmuriyyətində yasavulbaşı vəzifəsində təmsil olunduğu aşkarlanır. Gürcü şahzadələri David, Parnavaz, İoann, Baqrat və Teymuraz tərəfindən 1818-ci ilin oktyabr ayında imzalanmış şəhadətnamədə Topçubaşıların zadəgan əsilli olduqları qeyd edilirdi. Professor Ədalət Tahirzadənin Tiflis arxivindən üzə çıxardığı,

---

[269] ARDA, f. 897, s. 1, iş № 26, v. 516.

[270] ARDA, f. 897, s. 1, iş № 26, vv. 379-380.

[271] "საქართველოს რესპუბლიკა" ("Sakartvelos respublika") qəz., 1919, 23 mart, № 66, s. 2 və 7 may, № 98, s. 2.

* Çar Rusiyası dövründə Tiflis uzun müddət Qafqazın inzibati, siyasi, iqtisadi və mədəni mərkəzi rolunu oynadığı üçün nüfuzlu Azərbaycan-türk bəyzadələrinin bir çoxu ailələri ilə birlikdə bu şəhərdə yaşamağa və işləməyə üstünlük verirdilər.

gürcücədən rus dilinə tərcüməsi 1837-ci ildə təsdiq edilmiş şəhadətnamənin mətni:

"İndi Əlimərdan bəy Əliəkbər bəy oğlu, onun oğlu Mirzə Cəfər və onun əmisi oğlanları Ağaməhəmməd və Ağahəsən bizdən onların zadəgan əsil-nəsəbi haqqında şəhadətnamə istədiklərinə görə biz, aşağıda qol çəkənlər bu doğru şəhadətnaməni veririk ki, onların əcdadlarını İran şahları Xarəzmdən (görünür, gürcücədən ruscaya tərcümədə yanlışlığa yol verilib - əslində "Xorasan" olmalıdır. − Ə.T.) Tiflisə qalalı ("tsixeli") deyilənlərlə birlikdə köçürüblər, ancaq gürcü çarları onların əcdadlarını köçürülənlər üzərində başçı qoyublar və onlar başqaları qarşısında imtiyazlardan yararlanıblar. Türklər Tiflisi tutan zaman isə Əlimərdan bəyin atası Əliəkbər bəy yenidən Xorasana qayıdıb, ancaq sonra rəhmətlik çar İrakli orada bulunduğu zaman onu yenidən Tiflisə gətirib və Əliəkbər bəy topçuluğu bildiyinə görə topçubaşı vəzifəsinə təyin edilib; həmin vəzifəyə Gürcüstanda əsil-nəcabətli zadəganlardan başqa heç kim təyin edilmirdi. Sonra çar İrakli Azqur adlı yerdə Türklərə qələbə çaldıqda həmin Əliəkbər döyüşdə onun qarşısında həlak olub*. Həmin topçubaşı Əliəkbər bəy həlak olduqdan sonra çar İrakli onun yetim qalmış oğullarını: Əlimərdan bəyi, Hacıağa və Ağahüseyni öz sarayına qəbul edib, onlar çar qulluqçuları, yəni pajlarla birgə tərbiyə olunublar. Ağaməhəmməd xan Tiflisi aldıqda isə həmin Əlimərdan bəy bütün ailəsiylə birgə əsir götürülüb. Gəncəli Cavad xan onları pulla ondan (Ağaməhəmməd şah Qacardan - Ə.T.) alıb, özü də onunla (Əlimərdan bəylə - Ə.T.) qohum olub, yəni onun qızı ilə evlənib, ona fəxri nazir rütbəsi verib. Yuxarıda yazılanlara

---

* Güman ki, 1770-ci ildə baş vermiş Aspindza döyüşü nəzərdə tutulur. Bu döyüşdə Yadigaroğullarından olması ehtimalı irəli sürülən Xudu Borçalı fərqlənir (Bu barədə ətraflı bax: F. Valehoğlu *Borçalıların və ermənilərin gürcü dövlətçiliyinə fərqli münasibətlərinə dair*, "Qarapapaqlar", 2007, № 6, s. 22-24; F. Valehoğlu-Hacılar *Gürcüstanın iki əsas etnik qrupu: dövlətçilik anlayışı, fərqli baxışlar, tarixi reallıqlar*, "Varlıq" qəz., 2009, № 7-8) – *F.V.*

görə biz Əlimərdan bəyin, onun oğlu Mirzə Cəfərin və onun əmisi uşaqlarının (adları yuxarıda yazılıb) zadəgan olduğuna şəhadət edirik və bu haqda öz qolumuzu çəkməklə gerbli möhürümüzü basırıq"[272].

Şəhadətnamədə adı çəkilən *Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov* (1790-1869) Sankt-Peterburq Universitetinin şərq şöbəsində fars filologiyası kafedrasının müdiri, Rusiya Xarici İşlər Naziriliyinin (XİN) Asiya idarəsində kollec müşaviri və onun nəzdindəki Şərq Dilləri İnstitutunda ekstraordinar (fövqəladə) professor vəzifələrini tutmuşdur. O, 1848-ci ildə bu sənədi sonuncu gürcü çarı XII Georgi tərəfindən atası Əlimərdan bəyə 1799-cu ildə verilmiş fərmanla birlikdə XİN-də çalışdığı idarəyə təqdim edib zadəgan mənşəyinin təsdiq olunmasını xahiş etmişdir. Məsələni araşdıran komissiya Mirzə Cəfər bəyin zadəgan deyil, "Zaqafqaziyanın müsəlman bəylərindən" olduğu haqqında qərar çıxarmışdır[273].

Gürcü şahzadələrinin sözügedən şəhadətnaməsi əsasında Topçubaşıların Tiflisdə yerləşmə tarixinə və nəsil şəcərəsinə dair aşağıdakı dəqiqləşdirmələri aparmaq mümkündür:

Nəslin ulularından *Əliəkbər bəy* Nəzərəli xanın (I İrakli) Gürcüstanda valiliyi dönəmində (XVII əsrin ikinci yarısı, Səfəvilərin hakimiyyəti dövrü) Xorasandan Tiflisə köçüb şəhər qalası ətrafındakı məhəllədə məskunlaşmış, gürcü valilərindən imtiyazlar almış, 1723-cü ildə Tiflis Osmanlı nəzarətinə keçdikdən sonra Xorasana dönmüş, II İraklinin Kaxetiyada çarlığı zamanı (1744-cü ildən sonra) isə yenidən Tiflisə gəlib onun ordusunda topçubaşı vəzifəsinə təyin olunmuşdur. Əliəkbər bəy Ahısqa bölgəsində osmanlılarla döyüşdə həlak olmuşdur. Onun *Əlimərdan bəy, Hacıağa və Ağahüseyn* adlı üç oğlu olmuşdur.

---

[272] Ə. Tahirzadə. Peterburqda oxumuş tələbələrimiz (Sankt-Peterburq Mərkəzi Tarix Arxivinin materialları əsasında), "Azərbaycan müəllimi" qəz., 2012, 16 mart, s. 4.

[273] Yenə orada.

Ə.Tahirzadənin fikrincə, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Əlimərdan bəy Topçubaşovun atası podporuçik Ələkbər bəy Ağahüseynin oğludur, Hacıağa isə sonralar İrəvana gedib və akademik Mustafa bəy Ağa bəy oğlu Topçubaşovun (1885-1981) da təmsilçisi olduğu Topçubaşovların yeni qolunu yaradıb[274].

Beləliklə, tiflisli Topçubaşıların soy ağacı üç şəhərdə şaxələnir; onların bir budağı Tiflisdə (Ağahüseyn bəyin törəmələri timsalında) baba yurdlarında, digər iki budağı isə Gəncədə (Əlimərdan bəyin törəmələri timsalında) və İrəvanda (Hacıağanın törəmələri timsalında) boy verir.

Tiflisdə Topçubaşovlar ulularının məskunlaşdığı məhəllədə (Narınqalanın yamaclarında) yaşamağa davam ediblər. Gürcüstan Milli Tarix Arxivində Tiflis quberniyasının jandarm idarəsinin fondunda saxlanılan "“Daşnaksutyun” inqilabi partiyasının Şərq bürosu haqqında (1907-1912-ci illər)" («О Восточном бюро революционной партии «Дашнакцутюн» (1907-1912 гг)») adlı qovluqdan Cümhuriyyət xadimi *Əlimərdan bəy Topçubaşovun* evinin Narınqalanın girəcəyində, Petxain küçəsi 28 (indiki Betlem küçəsi) ünvanında yerləşdiyi aşkar olur[275]. Həmin ev 1905-ci ilin noyabr ayında erməni millətçiləri tərəfindən yandırılmışdı[276].

Əlimərdan bəyin atası *Ələkbər bəy Topçubaşov* (1820-1868) hərbçi idi. O, 3 may 1843-cü ildə Zaqafqaziya atlı müsəlman alayının Əlahəzrət konvoyundakı taqımında vəkil rütbəsində xidmətə başlamışdır. 1849-cu ildə kornet rütbəsi almışdır. 1851-ci ildə dağlılara qarşı hərbi yürüşdə və 1853-1856-cı illər

---

[274] Yenə orada.

[275]GMTA, f. 153, s. 1, iş № 1060, v 25.

[276] Bax: F.Valehoğlu. *Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları*, Bakı, 2013, s. 206; F.Valehoğlu-Hacılar. *Tiflisin 1905-1919-cu illər gürcüdilli və rusdilli mətbuatı Ə.Topçubaşovun siyasi-ictimai fəaliyyətinə dair*, AMEA Tarix İnstitutunun elmi əsərləri, 2018, № 74-76, s. 498-597.

Osmanlı-Rusiya müharibəsində iştirak etmiş, müharibənin Qafqaz cəbhəsindəki ilk döyüşlərdə (4 noyabr 1853-cü ildə) fərqləndiyinə görə podporuçik rütbəsinə layiq görülmüşdür. 7 oktyabr 1858-ci ildə Qafqaz ordusuna təyin edilmişdir[277].

Ələkbər bəy Qazax mahalının Salahlı kəndinin məşhur Vəkilov (Kosalı//Kosaoğlu) ağa nəslinin Tiflisdə yaşayan nümayəndələrindən Məhəmmədhəsən bəyin qızı Sevər xanımla ailə həyatı qurmuşdu.

Pedaqoji kursları birinci dərəcəylə bitirib, 1 oktyabr 1920-ci ildə Tiflis ikisinifli məktəbində müəllim işləmiş *Əsgər Topçubaşov* tiflisli Topçubaşıların ziyalı nümayəndələrindən idi[278].

**Qeyd 19.** Siyahıda 1251-ci qeydiyyat nömrəli titulyar müşavir *Mirzə Məhəmməd Əbülfət oğlu Ağalarov* Gürcüstanda baş idarəçi yanında şərq dilləri üzrə tərcüməçi vəzifəsində 25 illik qüsursuz xidmətinə görə 1837-ci ildə fərqlənmə nişanı[279] və 450 rubl gümüş pulla təltif olunmuşdu[280].

M.Ə.Ağalarovun oğullarından Mirzəqulu bəy polkovnik rütbəsini daşımışdır. 15.11.1897-ci il tarixində Tiflis Zadəgan Deputatları Məclisi Mirzəqulu bəyə arayış verir ki, onun zadəganlıq ləyaqəti Gürcüstanın knyaz və zadəgan soylarına aid olan şəxslərin adbaad ümumailə siyahısında 1251-ci sırada təsdiqlənmişdir və sözügedən məclisin 19.11.1854-cü il tarixli toplantısında onun adının zadəgan şəcərə kitabına salınması haqqında protokol tərtib edilmişdir.

*Mirzəqulu bəy Ağalarov* Bibihənifə xanım Nemətulla bəy qızı ilə evli olmuşdur. Onların 1895-ci ildə doğulmuş oğlu Davud bəy 1914-cü ildə Tiflis I Aleksandr gimnaziyasının 8 siniflik tam kursunu bitirmiş, həmin il Moskva Kommersiya İnstitutunun iqtisadi bölməsinə qəbul olmuşdur.

---

[277] Ə.Tahirzadə, göstərilən əsəri.

[278] Ə. Paşayev, N. Bayramov, G. Qocayeva-Məmmədova, göstərilən əsər, s. 266.

[279] GMTA, f. 2, siyahı 1, iş № 4716.

[280] GMTA, f. 2, siyahı 1, iş № 5178.

1915-ci ilin 20 fevralında D.Ağalarov Tiflisdən [ünvan: Semyonov (indiki Vartsixe) küçəsi, ev № 4, mənzil 10] institutа ərizə yazıb bütün sənədlərinin ona geri qaytarılmasını xahiş edərək, Moskvada təhsilini yarımçıq qoymuşdur[281]. Bunun səbəbini Davud bəyin bir çox digər ailə üzvləri kimi hərbi sahəyə meylli olması ilə əlaqələndiririk. Tarixi mənbələrdə onun adına Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti qismində rast gəlinir. Cümhuriyyətin hərbi nazirinin 13 mart 1920-ci il tarixli, 153 saylı əmri ilə podpuruçik *Davud bəy Ağalarov* Gürcüstandakı diplomatik nümayəndəlikdə hərbi attaşenin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinə təyin olunmuşdu.

Həmin dövrdə (1920-1921-ci illərdə) Tiflisdəki Nizami adına yüksək və Sədi adına Xarpux aşağı pillə ibtidai məktəblərində Tiflis 1 saylı ruhani kişi gizmnaziyasının və Sankt-Peterburq artilleriya məktəbinin məzunu olan Davud Ağalarov adlı şəxsin rus dili, fransız dili və əl işi dərslərini tədris etdiyi məlumdur[282]. Əgər zabit Davud bəylə pedaqoq Davud bəy eyni şəxslərdirsə, onda aydın olur ki, D.Ağalarovun Moskvada ali təhsilini yarımçıq qoymasının səbəbi onun Peterburqda ali hərbi təhsil almaq istəyi ilə bağlı olmuşdur.

"Droeba" qəzetinin 1908-1909-cu il saylarında çap olunmuş elanlardan Mirzəqulu bəy Ağalarovun 4013 rubl 25 qəpik kredit qarşılığında Tiflisin müsəlman məhəlləsində (VI sahə), Abano (Hamamlar) küçəsində 22 kv. sajen 2 arşın ölçüdə torpaq sahəsi və tikililərdən ibarət mülkünü girov qoyduğu bəlli olur[283].

---

[281] Bax: M. Mərdanov, Ə. Tahirzadə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. (Ensiklopedik soraq kitabı), I cild, Bakı, 2018, s. 137.

[282] Ə. Paşayev, N. Bayramov, G. Qocayeva-Məmmədova, göstərilən əsər, s. 238, 255.

[283] "დროება" ("Droeba") qəz., 18.11.1908, № 1; 10.06.1909, № 126.

**Qeyd 20.** GMTA-da gürcü çarları, şahzadələri və xanları tərəfindən imzalanmış farsdilli şəhadətnamələrin saxlanıldığı sənədlər kolleksiyasındakı bəzi sənədlərin mətnləri 1820-ci ildə *Mirzə Məhəmməd Ağalarov* və digərləri tərəfindən əslə uyğun olaraq köçürülmüşdür. Belə köçürülmə surətlərin bəzilərinin sonunda onların *Mustafa bəy Yadigarov* və ya *İsmayıl bəy Yadigarov* tərəfindən qəbul edildiyi barədə adları çəkilən şəxslərin özləri tərəfindən yazılmış qeydlər var.

**Qeyd 21.** 10.11.1868-ci il təvəllüdlü polkovnik *Fərhad bəy Əbülfət bəy oğlu Ağalarov* peşəkar hərbçi olmuşdur. O, I Dünya müharibəsində iştirak etmiş, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda 1-ci Azərbaycan süvari alayına (1919-cu ildə) komandanlıq etmiş, Bakıda qarnizon rəisi olmuşdur. Sultan Turan xanım Bəhmən Mirzə qızı Qacarla ailə qurmuş Fərhad bəyin bu evlilikdən Ziya xanım adlı qızı, Tamerlan bəy, Abbas bəy, İdris bəy adlı oğlanları dünyaya gəlmişdir. Ailə Tiflisdə Tsxneti küçəsi 34 (indiki P.Melikişvili küçəsi) ünvanında yaşamış [284], sonradan Bakıya köçmüşdür.

Fərhad bəyin atası kornet *Əbülfət bət Ağalarov* (siyahıda 1252-ci sıradakı ailə) Tiflis komendant idarəsində şərq dilləri üzrə tərcüməçi vəzifəsində çalışmışdır[285] və Arsenalnaya yoxuşu 7 (indiki T.Abakeliya küç.) ünvanında yaşamışdır[286].

**Qeyd 22.** Siyahıda 1253-cü sırada qeydə alınmış *Həsən bəy Ağalarov* Tiflisdə anadan olmuş və bu şəhərdə gimnaziyanı bitirmişdir. 1834-cü ildə Zaqafqaziya süvari-müsəlman alayına hərbi xidmətə daxil olmuş, 1852-ci ildə isə polkovnik rütbəsində ona komandanlıq etmişdir. Bu alayın tərkibində 1848-1849-cu illər Macar inqilabının yatırılmasında iştirak etmiş, Debretsen

---

[284] ARDA, f. 897, s. 1, iş № 103, v. 1
[285] «Кавказский календарь», на 1912 г., с. 540.
[286] Справочная книга по городу Тифлису, Тифлис, 1912.

şəhəri uğrunda döyüşlərdə fərqləndiyinə görə 28.08.1849-cu ildə IV dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif edilmişdir. H.Ağalarov 1853-1856-cı illər və 1877-1878-ci illər rus-türk müharibələrində də rus ordusu tərkibində vuruşmuş, 17.04.1857-ci ildə general-mayor, 08.11.1877-ci ildə general-leytenant rütbəsinə layiq görülmüşdür. Əhməd xan Cavanşirin qızı Bikə-ağa ilə ailə həyatı qurmuş Həsən bəyin bu izdivacdan Davud ağa adlı oğlu, Mariya xanım adlı qızı olmuşdur.

## BORÇALI KƏNDLƏRİ ÜZRƏ ƏHALİNİN İMTİYAZLI TƏBƏQƏLƏRİ

### ABDALLI* kəndinin ağaları – 1831-ci il

*(Mənbə: Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 173;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş** | Qeydlər |
|---|---|---|---|
| 1 | Məhəmməd ağa Abdulla (Abdal) ağa oğlu<br><br>*qardaşı* Qulu ağa | 25<br><br>- | *1830-cu ildə Qazax distansiyasından köçüb, ağalıq imtiyazına atası öləndən sonra irsən sahib olub.*<br><br>*Kənd 12 evdən ibarət olub.* |

* Abdallı toponimi XIX əsrə dair kameral təsvirlərdə çox zaman "Haceli" ("Hacıeli") kimi göstərilib.

** Kameral təsvirlərdə siyahıya alınan şəxslərin yaşı təxmini qeyd olunurdu *(F.V.).*

## ABDALLI kəndinin ağaları – 1843-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2048, vərəq 10)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məhəmməd ağa Abdulla ağa oğlu<br>*oğulları*:<br><br>1. İbrahim<br>2. Abdulla<br><br>*qardaşı* Qulu ağa | 36<br><br><br>3<br>1<br><br>20 | |

**AĞAMƏMMƏDLİ kəndinin ağaları* – 1860-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 229, vərəq 34)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***SAİLOVLAR*** | |
| 1 | Ələsgər ağa Əhməd ağa oğlu | 55 |
| | *oğulları:* | |
| | 1. Hacı ağa | 30 |
| | 2. Əmiraslan ağa | 20 |
| | 3. Sail ağa | 14 |
| | 4. Həsən ağa | 10 |
| | 5. Vəli ağa | 8 |
| | 6. Əhməd ağa | 1 |
| 2 | Süleyman ağa Hüseyn ağa oğlu | 45 |
| | *oğlu* Ələsgər ağa | 8 |
| | *qardaşı* Bədəl ağa | 34 |
| | *onun oğulları:* | |
| | 1. Rəsul ağa | 12 |
| | 2. Bəxtiyar ağa | 8 |
| | 3. Əsgər ağa | 6 |
| | 4. Zülfüqar aga | 1 |

* Bu siyahı Ağaməmmədli kəndinin 1860-cı il kameral təsvirinə sonradan əlavə olunmuşdur və həmin dövrdə qeydə alınmış kənd ağalarını tam əhatə etmir.

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***NƏBİYEVLƏR*** | |
| 3 | Ramazan ağa İsmayıl ağa oğlu | 55 |
| | *oğulları:* | |
| | 1. Sadıq ağa | 25 |
| | 2. Məmmədqulu ağa | 12 |
| | 3. Hüseynqulu ağa | 10 |
| | 4. Salman ağa | 5 |
| | 5. Abbasqulu ağa | 1 |
| | *qardaşı* Qəhrəman ağa | 45 |
| | *onun oğulları:* | |
| | 1. Mansur ağa | 12 |
| | 2. Əsgər ağa | 5 |
| | 3. İsmayıl ağa | 3 |
| 4 | Əli ağa Vəli ağa oğlu | 20 |
| 5 | Atakişi ağa Sadıq ağa oğlu | 20 |
| | *əmisi oğlu* Hüseyn ağa İsa ağa oğlu | 12 |
| | *onun qardaşı* Musa ağa | 5 |

## ARAPLI kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 242; fond 2, siyahı 1, iş № 2672)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1459 | Hüseynqulu ağa Qəhrəman ağa oğlu | 18 |
| | *qardaşı* Mirzalı ağa | 5 |
| 1460 | Kərim ağa Əlipaşa ağa oğlu | 23 |
| | *qardaşları*: | |
| | 1. Xannar ağa | 13 |
| | 2. Alisgəndər ağa | 7 |
| 1461 | Uruşan ağa İlyasxan (Əlləzxan) ağa oğlu | 42 |
| | *oğulları*: | |
| | 1. Abbas ağa | 15 |
| | 2. Nağı (?) ağa | 11 |
| | 3. İmirzə xan | 9 |
| | *qardaşları*: | |
| | 1. Allahverdi | 31 |
| | 2. Tanrıverdi | 19 |
| | 3. Rəhim | 16 |
| 1462 | Haxverdi ağa İrzə xan oğlu | 18 |
| | *qardaşları*: | |
| | 1. İmamverdi | 14 |
| | 2. Allahverdi | 9 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***Ağa hesab olunurlar:*** | |
| 1498 | Hacı Alı ağa İsmayıl oğlu | 50 |
| | *oğlu* İsmayıl | 5 |
| | *qohumları*: | |
| | 1. Mehdi Nəbi oğlu | 28 |
| | 2. Şıxalı | 25 |
| | 3. Nəsib | - |
| 1499 | Hasan ağa İsa oğlu | 41 |
| | *oğlu* Allahyar | - |
| 1501 | Məmmədəli ağa Qasım oğlu | 24 |
| | *qardaşı* Musa | - |
| 1502 | Hasan ağa Hümbət oğlu | 40 |
| | *oğulları*: | |
| | 1. Qurban | 9 |
| | 2. İrzə | 3 |
| 1503 | Mustafa ağa Kişi ağa oğlu | 15 |
| 1504 | Hümbət ağa Hümbət ağa oğlu | 22 |

**Qeyd 1.** Mənbədə siyahıda 1459-1462-ci sıralarda təqdim olunan ailələrə Kartli-Kaxetiya çarı tərəfindən ağalıq imtiyazını təsdiq edən çox sayda şəhadətnamə verildiyi barədə qeyd var.

**Qeyd 2.** Kartli-Kaxetiya çarı XII Georginin 1793-cü il tarixli təliqə-qərarı ilə Ağcaqalada vergi, cərimə və digər rüsum yığımlarını toplamaq hüququ Ağcaqala vəkili (çarın Ağcaqala üzrə səlahiyyətli nümayəndəsi) *İlyas xana* həvalə olunmuşdu[287].

1817-ci ilə dair kameral təsvirlərdən bəlli olur ki, həmin dövrdə İlyas xan Araplı kəndinin kəndxudası vəzifəsini tutmuşdur (bax: səh 65). Onun oğullarından Uruşan (Rövşən) ağanın adı yuxarıda təqdim olunan siyahıda əks olunub.

"Borçalı ağalarının adbaad siyahısı (1831-ci il)" başlıqlı arxiv sənədində praporşik rütbəli oğlu Məmmədqulu ağa ilə birlikdə Araplının qonşuluğundakı Mahmudlu kəndinin ağası kimi qeydə alınmış "Borçalı vəkili *Uğurluxan ağanın"* İlyas xanın qardaşı olduğunu təxmin edirik. Həmin sənəddə *podporuçik Qəhrəman ağa Uğurluxan ağa oğlunun* (yuxarıdakı cədvəldə qeydiyyat №-si 1459 olan Hüseynqulu ağanın atası) 33 evli Araplı kəndinin ağası olduğu və 1826-cı ildən ağalıq imtiyazına sahibləndiyi vurğulanır[288].

Araplı ağalarının bir çoxu sonradan babalarının icra etdiyi Borçalı və ya Ağcaqala vəkili vəzifəsinin adı ilə uyğunlaşan Vəkilov soyadını daşımışdırlar.

---

[287] GMTA, f. 1452, iş № 757.

[288] GMTA, f. 2, s. 1, iş № 2672.

**ARAPLI kəndinin ağaları – 1860-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, № 234, vərəqlər 41-42)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Hüseyn ağa Əliqulu ağa oğlu<br>*oğlu* Qəmbərxan<br>*qardaşları*:<br>1. İsmayıl<br>2. Məmmədqulu | 30<br>2<br><br>25<br>20 | |
| 2 | Məmmədqulu ağa Hasanpaşa ağa oğlu | 7 | |
| 3 | Mirzəli ağa Qəhrəman ağa oğlu | 35 | |
| 4 | Böyük ağa Vəkilov<br>*qardaşı* Məmmədqulu | 22<br>5 | |
| 5 | Mehdi ağa Nağı ağa oğlu<br>*qardaşları*:<br>1. Nəsib<br>2. Qurban | 50<br><br>40<br>15 | |
| 6 | İsmayıl ağa Nağı ağa oğlu | 25 | |
| 7 | Mustafa ağa Ağakişi bəy oğlu<br>*oğlu* Ağakişi | 40<br>2 | |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 8 | Ələsgər ağa Mirzə ağa oğlu | 30 | |
| | *oğulları*: | | |
| | 1. Məmməd ağa | 15 | |
| | 2. İsmayıl ağa | 10 | |
| 9 | Musa ağa Kazım ağa oğlu | 40 | |
| | *oğlu* Kazım | 1 | |
| | *qardaşları*: | | |
| | 1. Şamil | 15 | |
| | 2. Ələkbər | 5 | |
| 10 | Kəlam Hümbət ağa oğlu | 15 | |
| 11 | İsa Həsən ağa oğlu | 20 | |
| | *qardaşları*: | | |
| | 1. Əskər | 10 | |
| | 2. Məmməd | 8 | |
| 12 | Məmməd(yar) ağa Hasan ağa oğlu | 8 | |
| 13 | Ələsgər ağa Bayram ağa oğlu | 8 | |
| 14 | Haxverdi ağa İrzaxan ağa oğlu | 50 | |
| | *oğlu* İrzaxan | 20 | |
| | *qardaşı* İmamverdi | 30 | |
| 15 | Bayramqulu ağa İrzaxan ağa oğlu | 20 | |

## ARIXLI kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 147; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Alı ağa Eyyub ağa oğlu* | - | *praporşik; Arıxlı kəndi 15 ildən çoxdur ki, irsən Alı ağanın idarəçiliyindədir.* |
| 2 | Eyyub ağa Alı ağa oğlu | 16 | |
| | *qardaşları*: | | |
| | 1. Mustafa | 12 | |
| | 2. Məmməd | 10 | |
| | 3. Emin | 6 | |
| | Mirzalı ağa İbrahimxəlil ağa oğlu | 26 | |
| | *qardaşları:* | | |
| | 1. Alı | 20 | |
| | 2. Eyyub | 18 | |
| | 3. Allahverdi | 12 | |
| | 4. Mahmud | 8 | |
| | | | *Kənd 37 evdən ibarətdir.* |

* Alı ağa barədə ətraflı bax: F.Valehoğlu. *Qarapapaqlar və onların XIX əsr hərb tarixi*, Bakı, 2005, s. 35-40; F.Valehoğlu. *Arıxlı Alı ağa*, “Qarapapaqlar” dərgisi, 2008, № 16, s. 8-11 *(F.V.)*.

**ARIXLI kəndinin ağaları – 1843-cü il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2048, vərəq 26)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Alı ağa Eyyub ağa oğlu<br>*oğulları*: 1. Eyyub ağa<br>2. Mustafa ağa<br>3. Məmməd ağa<br>4. Emin ağa<br>5. Abdulla ağa<br>6. Məmmədalı ağa<br>7. Süleyman ağa | 58<br>28<br>24<br>22<br>18<br>15<br>10<br>5 | *“praporşik” rütbəsində olub* |
| 2 | Mirzalı ağa İbrahimxəlil ağa oğlu<br>*oğlu* Əhməd | 38<br>5 | *ağaların qohumu** |
| 3 | Alı ağa İbrahimxəlil ağa oğlu<br>*oğlu* Vəli<br>*qardaşları* 1. Allahverdi ağa<br>2. Mahmud | 34<br>3<br>24<br>20 | |
| 4 | Eyyub ağa İbrahimxəlil ağa oğlu<br>*oğulları:* 1. İsa<br>2. Musa | 30<br>6<br>2 | |

---

* Böyük ehtimalla bu qeyddə Mirzalı ağanın Alı ağa Eyyub ağa oğlu ilə qohum olmasına vurğu edilir *(F.V.)*.

**ARIXLI kəndinin ağaları, ruhaniləri və maafları* – 1860-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 234, vərəq 346)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| | ***Ağalar:*** | | |
| 1 | Eyyub ağa Alı ağa oğlu | 45 | |
| | *oğulları*: | | |
| | 1. Uğurlu ağa | 15 | |
| | 2. İsa ağa | 6 | |
| | 3. Cəmil | 4 | |
| | 4. Kərim | 2 | |
| | *qardaşı* Abdulla ağa | 30 | |
| | *onun oğlu* Xəlil ağa | 4 | |
| 2 | Mustafa ağa Alı ağa oğlu | 40 | |
| | *oğulları:* | | |
| | 1. Alı ağa | 7 | |
| | 2. Adil | 5 | |
| 3 | Məmməd ağa Alı ağa oğlu | 35 | |
| | *oğulları*: | | |
| | 1. Rüstəm | 7 | |
| | 2. İsmayıl | 6 | |

* maaf – hər cür vergi və mükəlləfiyyətdən muaf tutulan (azad olan) kəndli.

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| | *qardaşı* Emin ağa | 30 | |
| 4 | Məmmədalı ağa Alı ağa oğlu | 25 | |
| | *oğulları:* | | |
| | 1. Musa ağa | 5 | |
| | 2. Şamxal ağa | 2 | |
| | *qardaşı* Süleyman | 20 | |
| 5 | Mirzalı ağa İbrahimxəlil ağa oğlu | 50 | |
| | *oğulları*: | | |
| | 1. Əhməd | 25 | |
| | 2. Usub | 10 | |
| | 3. İbrahim | 5 | |
| 6 | Eyyub ağa İbrahimxəlil ağa oğlu | 55 | |
| | *oğulları*: | | |
| | 1. Musa | 20 | |
| | 2. İsa | 25 | |
| | 3. Bayram | 7 | |
| | 4. Mustafa | 5 | |
| 7 | Allahverdi ağa İbrahimxəlil ağa oğlu | 40 | |
| 8 | İbrahimxəlil ağa Alı ağa oğlu | 12 | |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| | ***Maaflar:*** | | |
| 9 | Mustafa ağa Musa ağa oğlu | 30 | |
| | *qardaşları*: | | |
| | 1. Əli | 25 | |
| | 2. Şirin | 20 | |
| | *əmisi oğlanları*: | | |
| | 1. Yəhya ağa | 15 | |
| | 2. Allahverdi | 25 | |
| | 3. Qara ağa | 15 | |
| | ***Ruhanilər:*** | | |
| 10 | Molla Hasan Molla Nəbi oğlu | 52 | |
| | *oğulları*: | | |
| | 1. Əbdürrəhman | 10 | |
| | 2. Əbdülhəmid | 5 | |
| | *qardaşı* Molla Kazım | 20 | |

**Qeyd 1.** Mətbuat xəbərlərindən: 20 fevral 1852-ci ildə günorta saat 2-də Tiflisdə Nəftluqda At yarışması həvəskarları cəmiyyətinin təsis etdiyi gümüş bardaqdan ibarət mükafat uğrunda at yarışı keçirilir. Yarışda 8 at, o cümlədən yuxarıda təqdim olunan cədvəldə 3-cü qeydiyyat nömrəli *Məmməd ağa Arıxlının* ("Арухнинский") "Dovşan" adlı boz ayğırı iştirak edir [289].

[289] "Kavkaz" qəz., 1852, 23 fevral, № 14.

**Qeyd 2.** 1843-cü ilə aid arxiv sənədlərindən: Bolnis-Kəpənəkçi kəndindən praporşik Usub (Yusuf) ağa Hümbət ağa oğlu Arıxlı sakini, praporşik Eyyub oğlunun (Alı ağanın) onu evinə hücum edərək döyüb-yaraladığı barədə şikayət ərizəsi yazır və Eyyub oğluyla Borçalı nahiyə iclasçısı («участковый заседатель» – sahə hakimi) Melikovun dost olduqlarını əsas gətirib işə başqasının baxmasını xahiş edir. Atalar arasındakı münaqişə onların oğullarına da sirayət edir; Alı ağanın oğlu Emin ağa (cədvəldə 3-cü qeydiyyat nömrəli ailə) ilə Usub ağanın oğlu Qurban arasında dava düşür və sonuncu Emin ağanı yaralayır[290].

Qeyd edək ki, nahiyə iclasçısı vəzifəsi 1841-ci ildə təsis olunmuşdu. Həmin vəzifənin sahibi məhkəmə sərəncamlarının yerinə yetirilməsinə nəzarət etməli, o cümlədən daha əvvəl ağaların və bəylərin icra etdikləri məhəlli hakimlik funksiyasını həyata keçirməli idi. Knyaz Melikov Borçalı nahiyəsinə iclasçı vəzifəsinə 1842-ci ildə təyin olunmuşdu[291]; ilkin olaraq Mirzə Vəli Mulisov, 18 may 1842-ci ildən etibarən isə Borçalı vəkili Uğurluxan ağanın oğlu Qulu ağa onun köməkçisi vəzifəsini tutmuşdu[292].

**Qeyd 3.** 1852-ci ilə aid arxiv sənədlərindən: Çıldır sakini Molla Mahmud ağa 1852-ci ilin oktyabr ayında Tiflisdəki türk konsuluna şikayət edir ki, Eyyub ağa Alı ağa oğlu (cədvəldə 1-ci qeydiyyat nömrəli) ondan ümumi dəyəri 140 tüməndən (1 tümən = 1400 gümüş rubl) 549 qoyun alıb, 15 gün ərzində bunun ödənişini edəcəyinə söz versə də, sözünə əməl etməyib. Şikayət ərizəsində şahidlər qismində Qərib ağa, Molla Mustafa və Xəlil Qara Xəlil oğlu adlı şəxslər göstərilirdi[293].

---

[290] GMTA, f. 11, iş № 1332; GMTA, f. 2, s. 1, iş № 9853.

[291] GMTA, f. 2, s. 1, iş № 8700.

[292] GMTA, f. 2, s. 1, iş № 8699.

[293] GMTA, f. 11, iş № 2541.

## AVLAD* kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 277)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Yaqub ağa Əhməd oğlu<br>*oğulları*:<br>1. Məmməd<br>2. Rüstəm<br>3. İsmayıl | 52<br><br>20<br>13<br>6 |
| 2 | Molla Vəli ağa Əhməd oğlu<br>*oğulları:*<br>1. Hüseyn<br>2. Qasım<br>3. Usub<br>4. Nəsib | 46<br><br>19<br>17<br>14<br>6 |

* Bu adda kənd vaxtilə Trialet (Barmaqsız) bölgəsində Qızılkilsə kəndinin yaxınlığında yerləşib.

**AXILMAHMUDLU kəndinin ağa və koxası – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəq 250)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Əliqulu ağa Qəmər oğlu | 25 | |
| | *oğulları*: | | |
| | 1. Qəmər | 3 | |
| | 2. Mustafa | 2 | |
| | *qardaşları*: | | |
| | 1. İrzəqulu | 15 | |
| | 2. Həsən | 11 | |
| 2 | Mehdixan İsgəndər oğlu | 30 | *koxa* |
| | *oğlu* İsmayıl | 1 | |

**BARAXLI[*] kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 194; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Musa ağa Həsən ağa oğlu<br>*oğulları:*<br>1. Məhərrəm bəy<br>2. Əbdürrəhman | 60<br><br>20<br>1 | *1827-ci ildən etibarən (qardaşı öləndən sonra) ağalıq imtiyazına sahib olmuşdur* |
| 2 | Məhəmməd ağa Musa ağa oğlu<br>*qardaşı* Ağa bəy | 34<br>26 | *Georgi lentli gümüş medala sahib olub* |
| 3 | Hüseyn ağa Abbas ağa oğlu<br>*oğulları*:<br>1. Mansur<br>2. Əmirhasan<br>3. Abbas | 42<br><br>8<br>4<br>- | |
| 4 | Əhməd ağa Əli ağa oğlu<br>*oğlu* Əlipaşa<br>*onun oğlu* Allahyar<br>*qardaşı oğlu* Sədul | 61<br>27<br>2<br>10 | } *hamısı ölüb* |

[*] Bu kənd Qaçağan və Xancığazlı kəndləri yaxınlığında olub.

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 5 | Əsgər ağa Əli ağa oğlu | 36 | |
| 6 | Ağacan ağa İsmayıl ağa oğlu | 22 | *aşağı çınli “ober-zabit” (“ober-ofiser”) rütbəsini daşıyıb* |
| | *qardaşları*:<br>1. Əlimirzə<br>2. Qurban | <br>18<br>12 | |
| | | | *Kənd 12 evdən ibarətdir* |

**Qeyd.** Baraxlı ağalarının bir hissəsi sonralar *Abbasov* soyadını qəbul etmişdir. 1860-cı il kameral təsvirlərinə əlavə olunmuş siyahıda Baraxlı ağalarından Bayram ağa Mirzə ağa oğlu Abbasovun (25 yaşlı) və onun qardaşı Mə(hə)mməd ağanın (16 yaşlı) adları əks olunur[294].

---

[294] GMTA, f. 254, s. 2, iş № 229, v. 34-35.

**BAYDAR kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəq 92;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Almas Sultan Abdulla Sultan oğlu* | - | *praporşik; gürcü çarları vaxtından ağa imtiyazı var* |
| 2 | Ağa bəy Almas Sultan oğlu | - | *praporşik* |
| 3 | Bala bəy Almas Sultan oğlu | 17 | |
| | *qardaşları*: | | |
| | 1. Əmirqulu bəy | 14 | |
| | 2. Qərib (Qara bəy) | 10 | |
| 4 | Rəhim bəy Allahverdi bəy oğlu | 25 | |
| | *qardaşları*: | | |
| | 1. Məhəmməd | 20 | |
| | 2. Məmməd Emin | 15 | |
| | 3. Abbas | 13 | |

* Baydar sultanları barədə ətraflı bax: F.Valehoğlu. *Dəmirçihasanlı və Baydar sultanları tarixi mənbələrdə*, "Qarapapaqlar" dərgisi, 2010, № 10 (40), s. 9-14. – *(F.V.).*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 5 | Astan Mehdi bəy oğlu<br>*oğlu* Allahyar | 32<br>3 | |
| 6 | Əlibəy İrzaqulu oğlu | 9 | |
| | | | *Baydar, Kürtlər və Bəylər kəndləri birlikdə 101 evdən ibarətdir* |

**Qeyd 1.** Sankt-Peterburq Mərkəzi Dövlət Tarix Arxivində Nadir şah Əfşarın baydarlı *Məmməd-Emin Sultana* torpaq və kəndlərin verilməsi haqqında 1735-ci il (hicri təqvimi ilə 1148-ci il) tarixli fərmanı saxlanılır[295].

**Qeyd 2.** Arxiv sənədlərindən bəlli olur ki, XVIII əsrin sonlarında Baydar sultanı *Nəbi ağa* ilə erməni (və ya alban) əsilli Yenikolopovlar arasında Borçalı mahalının Hallavar kəndinin torpaqları üstündə uzun sürən mübahisə baş verir. Nəticədə Kartli-Kaxetiya çarı XII Georgi şəxsən işə qarışmalı olur və 1798-ci ildə məsələ ilə bağlı xüsusi bir əmr imzalayır. Əmrdə Hallavarın Mirzə Qurqen Yenikolopova məxsus olduğu vurğulanır və Nəbi ağaya bu kəndə getməyə icazə verilmir[296]. Həmin il XII Georgi məsələ ilə bağlı daha bir neçə təliqə-qərar imzalayır.

---

295 А.А.Салам-заде. К вопросу о феодально-крепостнических отношениях в Азербайджане первой половины XIX века. В кн. «Колониальная политика русского царизма в Азербайджане в 20-60-х гг. XIX века, ч. III, 2014, с. 240.

296 GMTA, f. 254, s. 1, iş № 1190.

Mirzə İbrahim və Mirzə Rostom Yenikolopovlara ünvanlanmış belə sənədlərdən birində Hallavar kəndinin müsəlman və erməni əhalisinin onların sərəncamına verildiyi qeyd edilirdi[297]. Eyni məzmunlu təliqə Hallavar ermənilərinə də ünvanlanır[298]. Çar tərəfindən Nəbi ağaya göndərilmiş təliqədə isə onun Hallavarda yaşayan Mirzə Qurqenin övladlarını bundan sonra da narahat edəcəyi təqdirdə cəzalandırılacağı bildirilirdi[299]. Həmin dövrdə Mirzə Qurqenin Hallavarda dəyirmanı var imiş[300].

Baydar sultanları ilə Yenikolopovlar arasında Baydar-Hallavar torpaqları üstündə qarşıdurma sonrakı dövrlərdə də davam etmişdir. Arxiv materiallarından Almaz Sultanın və onun 1824-cü ildə vəfat etmiş kapitan rütbəli qardaşı *İvan Sultanın* övladlarının təqribən 1830-cu ildə Baydar-Hallavar torpaqlarını Mirzə Yenikolopovdan geri tələb etdikləri məlum olur. Mənbələrdə İvan Sultanın Solomon və Zaxari adlı övladlarının adları hallanır[301].

Onu da əlavə edək ki, 1800-cü ildə çar XII Georgi tərəfindən Nəbi ağa və qaçağanlı Topçu ağaya xasadarlıq (torpaq mülkiyyətçiliyi) verilmişdi[302].

**Qeyd 3.** Baydar ağalarının (sultanlarının) törəmələri sonradan ulularının titulları ilə səsləşən *Sultanov* soyadını daşıyıblar. Onlardan bəzilərinin adına qonşu Kürtlər kəndinin 1886-cı ilə dair kameral təsvirlərində rast gəlinir (bax: səh. 203).

**Qeyd 4.** Baydarlı Sultanovlardan Nadir bəy Nəbi ağa oğlu (25 yaş) xanımı və körpə oğlu Osman ağa (1 yaş) ilə 1873-cü ildə Böyük Bəylər kəndində məskunlaşmışdı[303].

---

[297] GMTA, f. 1450, kitab 57, iş № 21 və iş № 83.
[298] GMTA, f. 1452, iş № 556.
[299] GMTA, f. 1450, kitab 57, iş № 20; GMTA, f. 1452, iş № 500 və iş № 312.
[300] GMTA, f. 2, s. 1, iş 4369.
[301] GMTA, f. 254, s. 1, iş № 1190.
[302] GMTA, f. 1452, iş № 763.

## **BÖYÜK BƏYLƏR kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 99)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Əsəd bəy Ağa bəy oğlu<br>*qardaşları*:<br>1. İbrahim<br>2. Hüseyn | 42<br><br>30<br>22 |
| 2 | Nəbi bəy Ağa bəy oğlu<br>*qardaşları*:<br>1. Osman bəy<br>2. Süleyman | 21<br><br>15<br>10 |
| 3 | Əsgər ağa Məmmədhüseyn oğlu<br>*qardaşı* Məmmədhasan | 32<br>15 |
| 4 | Allahyar bəy Nəbi bəy oğlu<br>*əmisi oğlanları*:<br>1. Məmməd<br>2. Abbas | 15<br><br>10<br>7 |

[303] GMTA, f. 254, s. 2, iş № 229, v. 34-35.

## KİÇİK BƏYLƏR kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 99)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Paşa bəy Ağakişi oğlu<br>*oğulları*: 1. Mustafa<br>2. Abay (?) | 52<br>20<br>15 |
| 2 | Pənah bəy Ağakişi bəy oğlu | 42 |
| 3 | Allahverdi bəy Ağakişi bəy oğlu<br>*oğulları*: 1. Usub bəy<br>2. Nəsib bəy | 32<br>7<br>3 |

## CANƏHMƏDLİ* kəndinin ağası – 1831-ci il

*(GMTA, f. 254, s. 1, iş № 1254, v. 224)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Mustafa ağa Zeynal ağa oğlu<br>*oğulları*: 1. Zeynal<br>2. Hasan<br>3. Hüseyn | 40<br>5<br>3<br>3 | } *əkizlər* (2. Hasan, 3. Hüseyn) |

* Bu kənd Baytallı və Betarafçı (Bəytərəfçi) kəndləri yaxınlığında olub.

## CULUXLU* kəndinin ağası – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 278)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Əhməd ağa Şərif ağa oğlu<br>*oğulları*:<br>1. Məhəmməd<br>2. Qurban<br>3. Hasan<br>4. İsmayıl<br>5. Məhərrəm | 60<br><br>22<br>18<br>16<br>12<br>2 |

**Qeyd 1.** Polkovnik N.Muravyovun qeydlərindən məlum olur ki, 1826-cı ilin iyun ayında Məngilis meşəsində qarovulda dayanmış gürcülər 9 ləzgi (dağıstanlı) soyğunçunu görüb onlara atəş açıblar, amma heç birini yaralaya bilməyiblər. Bundan sonra ləzgiləri təqib etsələr də, izlərini itirib geri qayıdıblar. Muravyov soyğunçuların tutulması üçün göstəriş verir, ancaq bundan heç bir nəticə hasil olmur. İki gün sonra Borçalı distansiyasının sakini, Barmaqsız yaxınlığındakı gözətçi dəstənin başçısı yüzbaşı *Qasım Şərif oğlu* ona Barmaqsız qalasında yerləşən alayın komandanı ştabs-kapitan Antonovun raportunu çatdırır. Raportda dağıstanlıların Barmaqsız

* Əlyazmada "Tecis kəndi" kimi göstərilib.

yaxınlığında dəyələr qurmuş Qazax sakini Çamazbi Sosiaşvilinin 6 atını Axısqanın Getala kəndi istiqamətində apardıqları bildirilirdi. Muravyov Qasım Şərif oğluna soyğunçuların adlarını müəyyən etməyi tapşırır. Verilən tapşırığı yerinə yetirmək üçün yüzbaşı Qasım Şərif oğlu həmin dövrdə Axısqa paşalığında olan qardaşı *Əhmədin* (adı yuxarıdakı cədvəldə əks olunur) yanına gedir və öyrənir ki, dağıstanlılar atın birini Getala kəndinin sakini İsmayıl Paşa oğluna satıblar.

Bu arada Muravyov xırtızlı Mustafa bəyin məktubunu alır. Məktubda Barmaqsızda yaylaqda olanların və qarapapaq qarovul dəstələrinin onlar tərəfə, yəni Axısqa paşalığının ərazisinə keçməsinə qadağa qoyulması xahiş olunurdu. Muravyov cavab məktubu yazaraq Rusiya təbəəliyində olan sakinlərin sərhədi keçmədiyini və əgər keçsələr belə, qarapapaq qarovul dəstələri tərəfindən dərhal geri qaytarıldığını bildirir. O, bu məktubu Qasım Şərif oğlu vasitəsilə Xırtıza (Xertvisə) göndərir.

Antonovun Muravyova 1826-cı ilin 8 iyulunda göndərdiyi başqa bir raportundan aydın olur ki, soyğunçular Borçalı yaylaqlarından 20 at aparmağa cəhd etsələr də, tez bir araya toplanmış qarapapaq gözətçiləri yubanmadan onları təqib etmiş və atları qaytarmağa müvəffəq olmuşlar[304].

*Qasım ağa Şərif oğlu* (≈1793-cü il təvəllüdlü) 1843-cü ildə praporşik rütbəsi ilə Borçalı nahiyəsində dövlət qulluğunda olmuşdur (bax: səh. 80).

**Qeyd 2.** Əhməd ağa və Qasım ağa Şərif oğullarının qardaşları *Gülməmməd ağa* 1831-ci ildə Sarvan kəndində yaşayırdı (bax: səh. 243).

**Qeyd 3.** Culuxluda məskunlaşmış Şəriflilərdən *Ağa Bəy oğlu Şərifov* 1919-cu ildə Gürcüstan Demokratik Respublikası-

---

[304] М.Е. Коцебу. Описание вторжения персиян в Грузию в 1826 г., «Кавказский сборник», т. 22. Тифлис, 1901, с. 148-150.

nın yerli özünüidarəetmə orqanlarına keçirilmiş seçkilərdə Tsalka (Barmaqsız) dairəsindən deputat seçilmişdir[305]. Onun oğlu *Ziyad bəy Şərifov* (1881-1961) 1 sentyabr 1895-ci ildə Qori seminariyasına qəbul olmuş, seminariyanın pedaqoji şurasının 7 iyun 1900-cü il tarixli qərarı ilə ibtidai xalq müəllimi şəhadətnaməsi almışdır. Ziyad bəy pedaqoji fəaliyyətə Borçalının 1877-ci ildə Qızılhacılı kəndində əsası qoyulmuş ilk türk (Azərbaycan) məktəbində başlamış, bəlli bir dövrdə Tiflisin Ortacala məhəlləsindəki 95 saylı türk (Azərbaycan) məktəbinə rəhbərlik etmişdir[306]. 1 noyabr 1912-ci ildə açılmış Culuxlu (Tecis) məktəbi onun adı ilə bağlıdır[307]. Ömrünün sonuna qədər (ümumilikdə 61 il) müəllimlik etmiş Z.Şərifov Gürcüstan SSR Əməkdar müəllimi fəxri adına layiq görülmüşdü.

---

[305] "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1919, 19 iyun, № 132, s. 3.

[306] G.Qocayeva-Məmmədova. Gürcüstan azərbaycanlılarının təhsili tarixi. I hissə. 100 yaşlı məktəblər: Tiflis, Qızılhacılı, Qaracala, Sarvan, Arıxlı, Sadaxlı, Tiflis, 2002, s. 20, 35.

[307] Ə.Paşayev, N.Bayramov, G.Qocayeva-Məmmədova. Gürcüstanda Azərbaycan məktəbləri, Tiflis, 2012, s. 138, 248.

## ÇƏLƏBİLİ* kəndinin ağaları – 1821-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, № 234, vərəq 337)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı |
|---|---|
| 2338 | Əli ağa Məmməd ağa oğlu Yadigarov<br>*oğlu* Yahya (?)<br>*qardaşı* Mustafa |
| 2339 | Qasım Bayram [oğlu] Yadigarov |

**Qeyd 1.** Əlyazmada Yadigarovlara mənsub yuxarıda göstərilən 2 ailədən başqa *Mustafa Yadigarovun* təhkimli kəndliləri olan 10 ailənin siyahısı verilir. "Borçalı distansiyasının kameral təsviri (1817-ci il)" başlıqlı arxiv sənədindən həmin dövrdə Körpülü kəndində də *Mustafa Yadigarovun* təhkimli kəndlilərinin yaşadığı bəlli olur[308].

**Qeyd 2.** Arxiv bəlgələrindən bəlli olur ki, Cənubi Qafqazda Baş idarəçinin Diplomatik Dəftərxanasının tərcüməçisi *Əli bəy Yadigarov* 1843-cü ildə rəsmi sənədlərlə Tiflisdən Təbrizə

---

* Bu kənd Təkəli və Qaçağan kəndləri yaxınlığında olub.
[308] GMTA, f. 254, s. 1, № 479.

ezam olunmuşdur. Baş idarəçi general-adyutant A.İ.Neydhartın xəzinədara 14 fevral 1843-cü il tarixli təlimatı ilə yol xərci üçün Əli bəyə 52 rub. gümüş pul və 20 çervon nəqd pul verilir[309]. Poruçik Ə.Yadigarov Müştəhid Ağa Mir Fəttaha ünvanlanmış məktubun Rusiyanın Təbrizdəki baş konsulluğuna çatdırılması üçün (sonradan konsulluq tərəfindən aidiyyəti üzrə göndərilməsi məqsədiylə) 1849-cu ildə bir daha Təbriz şəhərinə ezam edilir[310].

309 GMTA, f. 11, iş № 1332.
310 GMTA, f. 11, iş № 1933.

**DARVAZ kəndinin ağaları – 1843-cü il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, s 1, iş № 2048, vərəq 16)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Xələf ağa Rəfi ağa oğlu<br>*oğulları:*<br>1. Rəfi ağa<br>2. Hacalı ağa | 50<br><br>20<br>8 | |
| 2 | Süleyman ağa Rəfi ağa oğlu<br>*oğulları:*<br>1. İdris ağa<br>2. Bayram ağa | 44<br><br>16<br>11 | |
| 3 | Bayram ağa Rəfi ağa oğlu<br>*oğlu* Gülməmməd ağa | 30<br>6 | |
| 4 | İsmayıl ağa Abdulla ağa oğlu<br>*oğulları:*<br>1. Abdulla ağa<br>*onun oğlu* Ağacan<br>2. Eyyub ağa | 60<br><br>30<br>1<br>20 | |

**Qeyd 1.** *Süleyman ağa Rəfi oğlu* və *İsmayıl ağa Abdulla oğlunun* ailələri Darvaz kəndinin 1831-ci ilə aid kameral təsvirində dövlət kəndliləri olaraq ilk iki sırada qeydə alınmışdılar[311].

---

[311] V.Hacılar. Ulu baban kim olub? (Darvaz kəndi – XIX yüzil), II kitab, Tiflis, 2006, s. 7.

**Qeyd 2.** Borçalı baş pristavı mayor Qoryainov Gürcüstan mülki qubernatoru knyaz Nikoloz Palavandova Ağcaqaladan (Serıy Zamok) yazdığı 25 aprel 1837-ci il tarixli, 531 saylı raportunda Darvaz kəndinin ağası *Xəlif (Xələf) ağa Rəfi ağa oğlunun* Meqrel (Minqrel) yeger alayından fərarilik etmiş polyak əsilli əsgər Feliks Domanskini ona təhvil verdiyini məruzə edirdi. Raportdan Feliksin fərari əsgər yoldaşı Yemelyanla birlikdə 24 aprel 1837-ci ildə Darvaz meşəsində darvazlı Yolçu Yolçu oğlu və Güləhməd Rüstəm oğlu ilə qarşılaşdıqları, əsgərlərin sakinlərə atəş açdığı, nəticədə sonuncuların heç bir yara almadan əsgərlərin üstünə cumub Feliksi tutduqları, Yemelyanın isə qaçıb gizlənə bildiyi məlum olur[312].

[312] GMTA, f. 16, iş № 5410, v. 7.

**DARVAZ kəndinin ağaları, ruhanisi və kəndxudası – 1860-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 229, vərəqlər 530-535)*

***AĞALAR:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Rəfi ağa Xələf ağa oğlu | 40 | *1871-ci ilin siyahısında Rəfi ağanın 3 yaşında Paşa ağa adlı oğlu olduğu göstərilir.* |
| | *oğulları:* | | |
| | 1. Hacıməmməd ağa | 15 | |
| | 2. Hacıxəlil ağa | 12 | |
| | 3. Alı ağa | 9 | |
| | 4. Qəhrəman ağa | 7 | |
| | 5. Oruc ağa | 4 | |
| | *qardaşı* Hacıalı ağa | - | |
| 2 | İdris ağa Süleyman ağa oğlu | 30 | |
| | *oğlu* Süleyman | 4 | |
| | *qardaşı* Bayram ağa | 26 | |
| 3 | Bayram ağa Rəfi ağa oğlu | 50 | |
| | *oğulları:* | | |
| | 1. Gülməmməd ağa | 20 | |
| | 2. Alməmməd ağa | 10 | |
| | 3. Pirməmməd ağa | 5 | |

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 4 | Cəfər ağa Kazım ağa oğlu<br>*qardaşları:* 1. Musa ağa<br>2. Ağakişi<br>*onun oğlu*<br>Sərdar ağa | 56<br>32<br>27<br><br>10 | |

***KƏNDXUDA:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Eyyub Alı oğlu<br>*qardaşı* Musa<br>*onun oğulları:* 1. Mahmud<br>2.Əlləz | 35<br>25<br>17<br>9 |

***İMTİYAZLI RUHANİ AİLƏSİ:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Molla Məhəmməd Qulu oğlu<br>*oğulları:* 1. Mustafa<br>2. Qulu<br>3. Səfər<br>4. İsmayıl | 50<br>12<br>8<br>4<br>2 |

**Qeyd 1.** Darvaz kəndinin imtiyazlı ruhanisi *Molla Məhəmməd Qulu oğlu* yaşadığı dövrdə Həcc ziyarətinə gedib, "hacı" titulunu qazanmış nadir borçalılardan idi. Bu səbəbdən Darvaz kəndində onun mənsub olduğu nəsil *Hacıöyü (Hacı evi)* adı ilə tanınır və bu nəslin nümayəndələri çoxluq etibarilə *Hacıyev* soyadını daşıyırlar.

**Qeyd 2.** 1859-cu ilə dair arxiv sənədində *Hacı Molla Məhəmmədin* 1850-ci ildə Örmeşəndən Darvaza köçməsi göstərilir[313]. 1874-cü ilin kameral təsvirində isə onun Örmeşənə qayıtmasına dair qeyd var[314].

**Qeyd 3.** *Hacı Molla Məhəmmədin* 1845-ci ildə Qafqaz canişini qraf Mixail Vorontsova öz xətti ilə fars dilində yazıb Örmeşən kənd icmasının 18 üzvü adından imzaladığı müraciətini və bu müraciət-məktubun Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində şərq dilləri mütərcimi vəzifəsində çalışıb həmin dövrdə praporşik rütbəsini daşıyan görkəmli mütəfəkkirimiz Mirzə Fətəli Axundzadə tərəfindən rus dilinə tərcüməsini üzə çıxarmağa müvəffəq olduq[*]. Müraciətdə qarətdə və ölkə sərhədlərini qanunsuz tərk etməkdə suçlu bilinib Sibirə sürgün edilmiş Örmeşən sakinləri Nəbi Ocaqqulu oğlu və Abdulla Alı oğlunun əfv edilməsi xahiş olunur[315].

Arxiv sənədlərinə istinadən deyə bilərik ki, adı çəkilən örmeşənlilərin ittiham olunub sürülməsinə Cavaxetiyada, Rodionovka duxobor kəndinin yaxınlığında baş vermiş bu hadisə səbəb olur: 1843-cü ilin 10 may tarixində dörd naməlum "tatar" Rodionovkanın 6 verstliyində Məngilisdən qayıdan üç rodionov-

---

[313] Bax: GMTA, f. 254, s. 2, iş № 233, v. 482.

[314] Bax: GMTA, f. 254, s. 3, iş № 114.

[*] Əsli Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan məktubun surəti, rus dilinə tərcüməsinin surəti və Azərbaycan türkcəsində tam məzmunu üçün bax: *Əlavə 1* (səh. 268-271).

[315] GMTA, f. 4, s. 1, iş № 3027, vv. 27-30 об.

kalı duxoborun – İ.Poznyakov, İ.Obedkov və İ.Zenovyevin əl-qolunu bağlayıb 6 rubl gümüş pullarını əllərindən alır. Həmin gün gecə bu "tatar"lar Rodionovka kəndindən 8 at aparırlar. 25 mayda isə Ahısqanın Xertvis nahiyəsində dörd naməlum "tatar" iki kürd çobanına hücum edir, onlardan Abdo adında biri Samsar meşəsinə qaçmaq istəyərkən öldürülür.

Eyni zamanda o da məlum olur ki, yuxarıda bəhs edilən hadisələrdən bir neçə ay əvvəl, 1842-ci ilin dekabrında 2-ci Gürcüstan xətti batalyonunun sıraviləri H.Sidorov və M.Mojaveyski qarovul postuna gedəndə yolda altı silahlı "tatar" tərəfindən hücuma məruz qalaraq qarət ediliblər; onların birindən 7 rubl 20 qəp, o birindən isə 1 çervon (böyük qızıl sikkə) alınıbdır.

Bu yuxarıda qeyd olunan işlərlə bağlı adları aşağıda göstərilən altı Borçalı tərəkəməsi (hamısı təhkimli kəndli) günahlandırılaraq həbs olunur:

1. Nəbi Ocaqqulu oğlu (40 yaş) – Örmeşən kəndinin sakini;
2. Abdulla Alı oğlu (28 yaş) – Örmeşən sakini;
3. Çıraq Qurban oğlu (30 yaş) – Örmeşən sakini;
4. Bayram Qurban oğlu – Örmeşən sakini;
5. Əmirqulu Haqverdi oğlu (18 yaş) – Dağ-Qızılhacılı kəndinin sakini;
6. Ocaq (digər adı Oruc) Allahverdi oğlu (28 yaş) – Dağ-Qızılhacılı sakini.

Onlardan ilk ikisi – Nəbi Ocaqqulu oğlu və Abdulla Alı oğlu Sibirə sürgünə göndərilir[316].

**Qeyd 4.** Hacı Məhəmmədin oğlu Molla Qulu və nəvəsi Molla Camal da Darvaz kəndində dini fəaliyyət göstərmiş, kəndin mollası olmuşdurlar.

[316] GMTA, f. 4, s. 1, iş № 3027.

## DARVAZ kəndinin ruhanisi – 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1547)*

### *Prixod (məscid icmasının) mollası:*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Molla Qulu Hacı (Məhəmməd) oğlu<br>*oğulları:*<br>1. Səfər<br>2. Camal<br>3. Veyis<br>*qadınların sayı* – 4 | 38<br><br>10<br>5<br>2 |

**Qeyd 1.** *Molla Qulu Hacı Məhəmməd oğlundan* (≈ 1848-ci il təvəllüdlü) sonra Darvaz kəndinin prixod (məscid icması-nın) mollası vəzifəsini onun oğlu *Molla Camal* tutmuşdur. GMTA-da, Tiflis Quberniyasının Jandarm İdarəsinin arxiv qovluğunda Molla Camalın həmkəndlisi Yolçu Nəsib oğlunun doğum tarixinə dair ərəb əlifbası ilə Azərbaycan türkcəsində yazdığı 30 iyun 1916-cı il tarixli arayışı və bu arayışın rus dilinə Kveş (Göyəc) kəndxudası tərəfindən təsdiq olunmuş tərcüməsi saxlanılır[317*].

Qovluqda cəmləşmiş 1916-cı ilin 13 iyun-30 sentyabr tarixlərinə aid sənədlərdən o da bəlli olur ki, arayışın verilməsinə səbəb Yolçu Nəsib oğlunun rus ordusunda xidmət etmənin əksinə təbliğat aparmaqda ittiham olunması idi. Belə ki, 31 mart

[317] GMTA, f. 153, s. 2, iş № 476, v. 4.

[*] Arayışın özünün və rus dilinə tərcüməsinin surəti, Azərbaycan türkcəsində məzmunu üçün bax: *Əlavə 2* (səh. 272-273).

1916-cı ildə “Vəhşi diviziya”nın “Tatar” alayının süvarisi darvazlı Məhəmməd Abbas oğlu öz həmkəndlisi Yolçu Nəsib oğlu barədə şikayət ərizəsi yazır. Ərizədə o, sol ayağından yaralandığı üçün “Tatar” alayının komandirinin əmri ilə hərbi xidmətdən tərxis olunub doğma kəndinə qayıtdığını vurğulayır və burada Yolçu Nəsib oğlunun ona niyə  müsəlman olduğu üçün Türkiyəyə yox, Rusiyaya xidmət etdiyini irad bildirərək hücum etdiyini ifadələyir. Y.Nəsib oğlunun bu əməlinin qarşısının həmkəndliləri tərəfindən alındığını qeyd edən ərizəçi şahid qismində Zol-Göyəc kənd sakini Məmmədhəsən Süleyman oğlunun Katarinenfeld koloniyasında yaşayan oğlu İsmayıl Məmmədhəsən oğlunu və Süleyman Abbas oğlunu göstərir.

Yolçu Nəsib oğlu isə məsələ ilə bağlı öz izahatında bildirir ki, Məhəmməd Abbas oğlu ondan qardaşı Hümbəti darvazlı Novruz Arıx oğlunun inək və danasını oğurlamaqda ittiham etməməsini xahiş etmişdir. Y.Nəsib oğlu cavabında kəndxuda vəzifəsini tutduğu üçün cinayətkarı yaxalamağa borclu olduğunu, ona görə də xahişi yerinə yetirə bilməyəcəyini demişdir. Bundan sonra M.Abbas oğlu onu başına oyun açmaqla hədələmiş və yuxarıda qeyd olunan şikayət ərizəsini yazmışdır. Y.Nəsib oğlu öz izahat yazısına M.Abbas oğlu ilə aralarında olan söhbəti Faxralı kəndinin sakini Söyün Qurban oğlu, Qoçulu sakini Söyün Çıraq oğlu, sacalı Ayvaz Yolçu oğlu və İsmayıl Gülməmməd oğlunun da eşitdiklərini əlavə edir.

Məsələ araşdırıldıqdan sonra məlum olur ki, Məhəmməd Abbas oğlu fərarididir, Yolçu Nəsib oğlu isə onun qardaşı Hümbət Abbas oğluna qarşı öz həmkəndlisinin malını oğurlaması ittihamı ilə açılmış cinayət işində şahid qismində iştirak edirmiş[318].

**Qeyd 2.** *Molla Camal Molla Qulu oğlu* Stalin repressiyasına məruz qalaraq sürgün olunmuş və sürgündə də vəfat etmişdir.

[318] GMTA, f. 153, s. 2, iş № 476.

**FAXRALI kəndinin ruhaniləri və kəndxudası – 31 dekabr 1859-cu il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, № 229, vərəq 529-530)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***Ruhanilər:*** | |
| 1 | Molla Cəfər Yəhya oğlu | 54 |
| | *oğulları*: | |
| | 1. Molla Hasan | 22 |
| | 2. Hüseyn | 19 |
| | 3. Məmmədalı | 16 |
| | 4. Məmməd Bağır | 14 |
| | 5. Əli | 7 |
| | 6. Mustafa | 2 |
| 2 | Molla Yusuf Molla Məmməd oğlu | 36 |
| | *oğulları*: | |
| | 1. Əli | 2 |
| | 2. Məmməd | 1 |
| | ***Kəndxuda:*** | |
| 71 | Nuru Daşdəmir oğlu | 60 |
| | *oğulları:* | |
| | 1. Ələkbər | 15 |
| | 2. Ələsgər | 12 |
| | 3. Məhərrəm | 6 |

## HAMAMLI kəndinin ağaları* – 1860-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2,*
*iş № 229, vərəq 35)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***HÜMBƏTOVLAR*** | |
| 1 | Abdulla ağa Süleyman ağa oğlu | 50 |
| | *oğulları:* | |
| | 1. Paşa ağa | 15 |
| | 2. Almaz ağa | 7 |
| | 3. Alxan ağa | 6 |
| | *qardaşları:* | |
| | 1. Ağakişi ağa | 30 |
| | *onun oğlanları:* | |
| | 1. Süleyman ağa | 10 |
| | 2. İdris ağa | 7 |
| | 3. Ömər ağa | 3 |
| | 4. Adna (?) ağa | 2 |
| | 5. İsa ağa | 1 |
| | 2. Mansur ağa | 26 |
| | *onun oğlu* Emin ağa | 3 |

* Bu siyahı Hamamlı kəndinin 1860-cı il kameral təsvirinə sonradan əlavə olunmuşdur və həmin dövrdə qeydə alınmış kənd ağalarını tam əhatə etmir.

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | 3. İsmayıl ağa | 24 |
| | 4. Mə(hə)mməd ağa | 20 |
| 2 | Hüseyn ağa Rəsul ağa oğlu | 58 |
| | *oğlanları:* | |
| | 1. Hümbət ağa | 22 |
| | 2. Əhməd ağa | 15 |
| | 3. Rəsul ağa | 4 |
| 3 | Alı ağa Hasan ağa oğlu | 30 |
| | *qardaşları:* | |
| | 1. Osman ağa | 20 |
| | 2. Mahmud ağa | 18 |
| 4 | Qurban ağa Usub ağa oğlu | 40 |
| | *oğlanları:* | |
| | 1. Alməmməd ağa | 15 |
| | 2. Ələsgər ağa | 9 |
| | 3. Vəliməmməd ağa | 6 |

**DƏMİRÇİHASANLI-İLMƏZLİ kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 28)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Məhəmməd Hasan ağa Haxverdi ağa oğlu | 41 |
| | *qardaşı oğlu* Hacı Məhəmməd ağa | 15 |
| 2 | Ağakişi ağa Süleyman ağa oğlu | 50 |
| | *oğulları*: | |
| | 1. Nəsib ağa | 11 |
| | 2. Usub ağa | 6 |
| | *qardaşları*: | |
| | 1. Molla Vəli ağa | 31 |
| | 2. Əhməd ağa | 25 |
| | *onun oğlu* Hasan ağa | 3 |
| 3 | Məhəmməd ağa Süleyman ağa oğlu | 41 |
| | *oğlu* Paşa ağa | 3 |
| 4 | Musa ağa Usub ağa oğlu | 61 |
| | *oğulları*: | |
| | 1. Usub ağa | 35 |
| | *onun oğulları*: | |
| | 1. Eyyub ağa | 8 |
| | 2. Məmməd ağa | 3 |
| | 2. Nəsib ağa | 31 |
| | 3. Hasan ağa | 25 |

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 5 | Mustafa ağa Usub ağa oğlu<br>*qohumları*:<br>1. Alı ağa<br>2. Hüseyn ağa | 51<br><br>21<br>15 |

**Qeyd 1.** Mənbədə yuxarıdakı cədvəldə göstərilən ailələrin hamısına çar II İrakli tərəfindən 1769-cu ildə ağalıq şəhadətnamələri verildiyi vurğulanır.

**Qeyd 2.** Arxiv sənədlərində İlməzli ağaları sırasında Osman ağa İlməz oğlunun (1817-ci ildə kəndin kəndxudası olub) da adı hallanır[319].

[319] Bax: GMTA, f. 2, s. 1, iş № 2989.

**DƏMİRÇİHASANLI-KEŞƏLİ kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəqlər 5-6;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Nəbi ağa Vəli bəy oğlu | 53 | *kəndxuda;* |
| | *oğulları*: | | *25 ildən* |
| | 1. Vəli ağa | 22 | *çoxdur* |
| | 2. Alı ağa | 18 | *ağalıq* |
| | | | *imtiyazına* |
| 2 | Kərim ağa Vəli bəy oğlu | 56 | *sahibdirlər* |
| | *oğulları*: | | |
| | 1. Eynəl Ağa | 16 | |
| | 2. İsmayıl ağa | 12 | |
| | 3. Ağacan ağa | 7 | |
| | 4. İmirzə ağa | 3 | |
| | *qardaşları* | | |
| | 1. Paşa ağa | - | *podporuçik* |
| | 2. Ağakişi ağa | 31 | |
| | *onun oğlu* Astan ağa | 3 | |
| | *qohumu* Məmməd ağa | 16 | |
| 3 | Süleyman Məmməd bəy oğlu | 65 | |
| | *oğulları*: | | |
| | 1. Vəli ağa | 25 | |
| | 2. Alı ağa | 12 | |

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 4 | İsmayıl ağa Məmməd bəy oğlu<br>*oğulları*:<br>1. Əhməd ağa<br>*onun oğlu* İbrahim<br>2. Eyib ağa | 75<br><br>30<br>1<br>18 | |
| 5 | Ağabəy Alı ağa oğlu<br>*oğlu* Balı (?) ağa | 30<br>3 | |
| 6 | Mansur ağa Ağarza bəy oğlu<br>*oğulları*: 1. Ağarza<br>2. Xəlil ağa<br>3. Təhməz ağa<br>4. Kiçik ağa<br>*qardaşı* Hacı Salah | 38<br>15<br>10<br>6<br>3<br>30 | |
| 7 | Aslan ağa Kazım ağa oğlu<br>*oğulları*: 1. Xəlil ağa<br>2. Kazım ağa | 30<br>10<br>5 | |
| 8 | Əli ağa Hasan ağa oğlu<br>*oğlu* Kərim<br>*qardaşı* Əsgər ağa<br>*qardaşı oğlanları*: 1. Hüseyn ağa<br>2. Hasan ağa | 40<br>1<br>30<br>7<br>4 | *Kənd 102 evdən ibarətdir* |

**Qeyd 1.** Uzun müddət Keşəli kəndində kəndxudalıq etmiş *Nəbi ağa Vəli bəy oğlu* sonralar dini sahədə fəaliyyət göstərərək qonşu Kosalı kəndinin baş imamı, Borçalı və Trialet nahiyələrinin sünni məzhəbi üzrə qazisi vəzifələrini tutmuşdur[320].

Keşəlinin 1823-cü ilə aid kameral təsvirlərdən Nəbi ağanın 1793-cü il təvəllüdlü Kiçikxanımla evli olduğu məlum olur[321].

**Qeyd 2.** Növbəti illərə aid kameral təsvirlərdə və digər rəsmi sənədlərdə Keşəli ağalarının *Eminov* soyadını daşıdığını görürük.

---

[320] Кавказский календарь на 1865 год, отделение 4-ое, Тифлис, 1866, с. 43-44.

[321] GMTA, f. 254, s. 1, iş № 811.

## DƏMİRÇİHASANLI-KEŞƏLİ kəndinin ağaları – 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 38-43)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Əli ağa Ağabəy oğlu Eminov | 40 |
| | *oğulları*: | |
| | 1. Kərəm | 6 |
| | 2. Ağa | 1 |
| 2 | Məmməd ağa Ağabəy oğlu Eminov | 30 |
| 3 | Bala ağa Əhədxan Sultan oğlu Eminov | 50 |
| | *oğulları*: | |
| | 1. Zəfər ağa | 12 |
| | 2. Əbdüləziz ağa | 9 |
| 4 | Şamxal Əhədxan Sultan oğlu | 45 |
| | *oğulları*: | |
| | 1. Hasan | 25 |
| | 2. Şeytan (?) | 18 |
| | 3. Məmməd | 7 |
| | 4. İsa | 4 |
| | 5. Musa | 1 |
| 5 | İbrahimxəlil ağa | 15 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 6 | Məmməd ağa Vəli bəy oğlu Eminov | 30 |
| | *oğlu* Vəlibəy | 4 |
| 7 | Nəbi ağa Qəhrəman ağa oğlu Eminov | 20 |
| | *qardaşları*: | |
| | 1. İsmayıl ağa | 10 |
| | 2. Sədrəddin | 8 |
| | 3. Əlipaşa | 3 |
| 8 | Emin ağa Paşa ağa oğlu Eminov | 50 |
| | *oğulları*: | |
| | 1. Halay | 12 |
| | 2. Musa | 7 |
| | 3. İsa | 4 |
| 9 | Paşa ağa Qədir bəy oğlu Eminov | 30 |
| | *oğlu* Qədir bəy | 1 |
| | *qardaşları*: | |
| | 1. Kazım ağa | 18 |
| | 2. Həmid ağa | 10 |
| 10 | Qərib ağa Məmməd ağa oğlu Eminov | 35 |
| | *oğulları*: | |
| | 1. Məmməd ağa | 5 |
| | 2. Əmir ağa | 1 |
| | *qardaşları*: | |
| | 1. Nəsib ağa | 12 |
| | 2. Şərif ağa | 10 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 11 | Zeynal ağa Kərim ağa oğlu Eminov | 70 |
| | *oğulları*: | |
| | 1. Yusuf ağa | 40 |
| | *onun oğulları*: | |
| | 1. Əli bəy | 10 |
| | 2. Vəli bəy | 6 |
| | 3. Mirzə | 2 |
| | 2. Əhməd ağa | 30 |
| | 3. Ömər ağa | 15 |
| | 4. Osman ağa | 18 |
| | 5. Abbas ağa | 12 |
| | *nəvələri*: | |
| | 1. İsmayıl ağa | 10 |
| | 2. Əlləz | 6 |
| 12 | Qərib ağa Ağacan bəy oğlu Eminov | 25 |
| | *oğlu* Əhədxan bəy | 8 |
| 13 | Alı ağa İsmayıl ağa oğlu | 22 |
| | *oğulları*: | |
| | 1. İsmayıl ağa | 5 |
| | 2. Salman ağa | 2 |
| 14 | Qəhrəman ağa Əlibəy oğlu Eminov | 40 |
| | *oğulları*: | |
| | 1. Səməd ağa | 15 |
| | 2. Şamil | 7 |
| | 3. Əsəd | 3 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | *qardaşları:* | |
| | 1. Süleyman ağa | 35 |
| | *onun oğlu* | |
| | 1.Məmməd | 2 |
| | 2. Vəlibəy | 30 |
| | *onun oğlu* | |
| | Usuf ağa | 4 |
| | 3. Mehdi ağa | 25 |
| | 4. Məmməd ağa | 20 |
| 15 | İsmayıl ağa Məmməd ağa oğlu | 40 |
| | *oğlu* İbad ağa | 1 |
| | *qardaşı* Abdul ağa | 30 |
| 16 | İsmayıl ağa Ağakişi bəy oğlu Eminov | 35 |
| | *oğlu* Məmməd ağa | 12 |
| 17 | Astan bəy Ağabəy oğlu Eminov | 70 |
| | *oğulları*: 1. Xamay (? - Halay ) ağa | 18 |
| | 2. Nəsib ağa | 15 |
| 18 | Əli ağa Ağabəy oğlu Eminov | 50 |
| | *oğulları*: 1. Ağa bəy | 8 |
| | 2. Yusuf ağa | 5 |
| 19 | İsgəndər ağa Ağa bəy oğlu | 35 |
| | *oğulları*: 1. Qurban ağa | 10 |
| | 2. Əli bəy | 6 |
| | 3. Məmməd ağa | 3 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 20 | İbrahim ağa Balabəy oğlu Eminov | 22 |
| 21 | Alı ağa Hacıməmməd İsmayıl | 35 |
| 22 | Niftalı ağa İrzəqulu ağa oğlu Eminov<br>*oğulları*: 1. Rüstəm ağa<br>2. İsmayıl ağa<br>3. İlyas ağa<br>4. Səməd ağa | 40<br>10<br>7<br>5<br>2 |

**QARA-KEŞƏLİ* kəndinin ağası – 1831-ci il**

*(GMTA, fond 254, siyahı 1, iş № 1254, vərəq 2)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Pənah ağa Kamil oğlu<br>*oğlu* Kamil<br>*qardaşı* Məmməd<br>*onun oğulları*: 1. Usup<br>2. İsmayıl | 70<br>20<br>50<br>10<br>5 | *kəndxuda* |

* Bu adda kənd Dəmirçihasanlı-Keşəli kəndinin qonşuluğunda mövcud olub.

## **BOLNİS-KƏPƏNƏKÇİ kəndinin ağaları və koxası – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəq 154;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Ağakişi bəy* | - | *praporşik, 30 ildən çoxdur ağa imtiyazına sahibdir* |
| 2 | Musa ağa Ağakişi bəy oğlu<br>*qardaşı* Mehdi<br>*qohumu* Məmməd | 20<br>15<br>21 | |
| 3 | Məmməd ağa Abdulla ağa oğlu<br>*oğulları:*<br>1. Əmirastan<br>2. Şamxal<br>3. Musa | 60<br><br>35<br>30<br>7 | *Məmməd ağa İranla müharibədə** medalla təltif olunub* |

---

* Ağakişi bəy və onun oğlu Musa barədə ətraflı bax: F. Valehoğlu. *Bolus-Kəpənəkçi ağaları: Ağakişi bəy və oğlu Musa ağa*, "Qarapapaqlar" dərgisi, 2010, № 8 (38), s. 29-31 *(F.V.)*.

** 1826-1828-ci illər Rusiya-Qacariyyə müharibəsi nəzərdə tutulur *(F.V.)*.

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 4 | Yusuf ağa Atakişi oğlu<br>*oğlu* Nəsib<br>*qohumu* Alı | 63<br>23<br>15 | |
| 5 | İbrahimxəlil Qaravəli oğlu<br>*oğulları:*<br>1. Bayram<br>3. Atakişi | 60<br><br>25<br>11 | *koxa*<br><br><br><br><br>*Kənd 53 evdən ibarətdir.* |

**Qeyd 1.** Təqdim olunan siyahıda sonuncu koxa ailəsi istisna olmaqla digər ailələr *Acalov//Acaloğlu//Hacıalıyev//Hacallı* nəslinin nümayəndələridir.

**Qeyd 2.** 1843-cü ilə aid arxiv bəlgəsində Bolnis-Kəpənəkçi ağalarından 30 yaşlı Musa ağa Ağakişi bəy oğlunun və onun 20 yaşlı Ağa adında qardaşının adı çəkilir[322].

[322] GMTA, f. 254, s. 1, iş № 2048.

## BOLNİS-KƏPƏNƏKÇİ kəndinin ağaları və imtiyazlı ruhanilər – 1859-cu il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 233, vərəq 429)*

### *AĞALAR*:*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Musa ağa Məmməd ağa oğlu | 40 |
| | *oğulları:* | |
| | 1. Süleyman | 12 |
| | 2. İsmayıl | 8 |
| | 3. Məmməd | 5 |
| | *qardaşları:* | |
| | 1. Əmirastan | 60 |
| | *onun oğulları:* | |
| | 1. İsgəndər | 25 |
| | 2. Alxas | 20 |
| | 2. Şamxal | 50 |
| | *onun oğulları:* | |
| | 1. Yusuf | 18 |
| | 2. Alıbəy | 15 |
| | 3. İbrahimxəlil | 12 |
| | 4. Ağacan | 8 |

* Siyahıda təqdim olunan ağaların hamısı *Acalov//Acaloğlu//Hacıalıyev //Hacallı* nəslinin nümayəndələridir.

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 2 | Abdulla ağa İsmayıl ağa oğlu<br>*oğlu* Ağacan bəy<br>*qardaşı* Eyyub ağa<br>*onun oğulları:*<br>1. Yusuf ağa<br>2. Almaz | 50<br>18<br>35<br><br>10<br>8 |
| 3 | Mehdi ağa Qəhrəman ağa oğlu | 30 |
| 4 | Böyükağa Musa ağa oğlu<br>*qardaşı* İsmayıl ağa | 15<br>10 |
| 5 | Alı ağa Ağabəy oğlu | 16 |
| 6 | Məmmədağa ağa Haxverdi ağa oğlu<br>*oğulları:*<br>1. Hüseyn<br>2. İsmayıl | 40<br><br>8<br>5 |
| 7 | Yusuf ağa Hümbət ağa oğlu<br>*oğlu* Qurban ağa<br>*onun oğlu* Alməmməd | 60<br>35<br>8 |
| 8 | Məmməd ağa İbrahim ağa oğlu<br>*qardaşları:*<br>1. Bayram<br>2. Qurban | 25<br><br>20<br>18 |

## *İMTİYAZLI RUHANİLƏR:*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Molla Alı Bulud oğlu<br>*oğlu* Yunis | 45<br>3 |
| 2 | Musta(fa) Əfəndi Veysəl oğlu | 34 |

**Qeyd 1.** Zaqafqaziya müftisi Məmməd Əfəndi Müftizadənin Tiflis mülki qubernatoruna 21 yanvar 1861-ci ildə yazdığı məktubdan bəlli olur: 1858-ci ildə Bolnis-Kəpənəkçi kəndinin imamı vəzifəsinə təyin olunmuş *Mustafa Əfəndi Veyis (Veysəl) oğlu* müfti Məmməd Əfəndiyə şikayət edərək, həmkəndlisi *Molla Alı Bulud oğlunun* təsdiq olunmuş molla adına belə malik olmadığı halda əfəndi rütbəli din xadiminin səlahiyyətinə daxil olan ictimai şəriət məsələlərinin həllinə girişdiyini bildirmişdir. Müfti öz növbəsində Mustafa Əfəndinin şikayətinin əsaslı olduğu qənaətinə gələrək, yerli kəndxudaya və icmaya Alı Bulud oğlunu ruhani kimi tanımamaları, şəriət məsələlərində ona müraciət etməmələri barədə yazılı göstəriş göndərmişdir. Buna rəğmən Borçalı nahiyəsinin qazisi Əli Əfəndi Alı Bulud oğlunun Bolnis-Kəpənəkçi kəndinin imamı təyin edilməsi barədə qeyri-qanuni əmrnamə imzalamış və faktiki olaraq Mustafa Əfəndini öz vəzifəsindən kənarlaşdırmışdır.

Müfti mülki qubernatora ünvanladığı sözügedən məktubunda Əli Əfəndinin öz səlahiyyətini dəfələrlə aşdığını vurğulayır və qeyd olunanları nəzərə alaraq, onun tutduğu vəzifədə Də-

mirçihasanlı-Keşəli Nəbi Əfəndi ilə əvəz olunması barədə vəsatət qaldırır, eyni zamanda heç bir dini rütbə və vəzifə sahibi olmadığı halda Bolnis-Kəpənəkçi kəndinin ağası Musa ağayla yaxın zamanlarda dünyasını dəyişmiş Qarakeşəli Əhmədalı bəyin dul arvadı arasında qeyri-qanuni kəbin kəsdiyi üçün Alı Bulud oğlunun cəzalandırılmasını xahiş edir[323].

**Qeyd 2.** Arxiv sənədlərindən Bolnis-Kəpənəkçi kəndinin imamı *Mustafa Əfəndi Veysəlzadənin (Veysəl oğlunun)* sonradan Borçalı qəzasının sünni məzhəbi üzrə qazisi vəzifəsini tutduğu, bu vəzifədə olarkən həmkəndlisi Süleyman ağa Musa ağa oğlu tərəfindən Türkiyə lehinə və Rusiya əleyhinə iş aparmaqda günahlandırılaraq şikayət olunduğu, Süleyman ağanın şikayət ərizəsini Molla Yusuf Bəkir oğlunun təsdiq etdiyi məlum olur[324].

**Qeyd 3.** Bolnis-Kəpənəkçi kəndinin ağalarının yuxarıda təqdim olunan siyahısına başçılıq edən Musa ağa Məmməd ağa oğlu Acalovun oğlu *İsrafil ağa* 1918-ci ilin yayında Borçalıya soxulmuş çoxsaylı erməni silahlı quldur dəstəsinin Bolnis-Kəpənəkçi kəndi yaxınlığındakı Yel dağının ətəklərində yerli qarapapaq kəndlərindən toplanmış könüllülər tərəfindən darmadağın olunması ilə nəticələnmiş əməliyyatın baş təşkilatçısı idi. Musa ağanın qardaşı Əmirastan ağanın oğlu *Alxas ağa* (1839-1907) ərsəyə gətirdiyi poetik nümunələrlə el şairi kimi Borçalı türk ədəbiyyatında təmsil olunma haqqını qazanmışdır[325].

**Qeyd 4.** Acalovlardan tanınmış siyasi-ictimai xadim *Emin ağanın* siyahıda 2-ci qeydiyyat nömrəli ailənin üzvləri arasında adı göstərilən Eyyub ağanın oğlu olduğu söylənilir.

---

323 GMTA, f. 8, s. 1, iş № 1759.

324 GMTA, f. 153, s. 1, iş № 119, v. 131.

325 Ədəbi Gürcüstan (tərtib edənlər:R.Hümmət, N.Əbdülrəhmanlı), Tiflis, 2012, s. 32.

Qarapapaq mahallarında böyük hörmət-izzət və nüfuz sahibi olmuş Emin ağa bir çox digər Borçalı ağası kimi gəncliyində qaçaq düşmüş, sonradan əfv olunmuş və yaylaq müdiri vəzifəsində çalışmışdır. Borçalı qəzasının Ağbulaq məntəqəsində rus gimnaziyasında təhsil aldığı üçün rus dilində sərbəst danışıb yaza bilmişdir. Emin ağanın həyat və fəaliyyətinin Borçalı dövrünə dair ətraflı bilgiləri ortaya qoyan mənbə onun özünün Yakov İvanoviç Kanevski* adlı rusiyalı zabit və silah mühəndisinə söylədiyi, eləcə də yazıb göndərdiyi, 1915-ci ildə Tula şəhərində kitab şəklində çap olunmuş xatirələridir[326].

Emin ağa türk-qarapapaq ellərinin taleyüklü məsələlərinin həllində kənardan seyrçi qalmamış, xalqa öncüllük etmişdir. O, 1905-ci il Borçalı xalq hərəkatında ön sıralarda olmuş, 1918-ci ilin yayında Qarsdan Azərbaycanı bolşevik-daşnak işğalından azad etməyə yollanan Qafqaz İslam Ordusunun hərbi birliklərini Borçalı üzərindən Qazax mahalına müşayiət etmiş, 14 noyabr 1918-ci ildə Qars İslam Şurasının rəisi seçilmişdir[327]. 8 dekabr 1918-ci ildə yapon imperatoruna sözügedən Şuranın hökumətinin tanınması xahişi ilə göndərilən fransızca teleqramda Emin ağanın imzası dururdu[328]. Qars və ətraf bölgələrin ziyalılarının təşəbbüsü ilə yaradılmış Qars İslam Şurası ilk növbədə Batumdan Naxçıvanadək uzanan böyük bir ərazidə yaranmış hakimiyyət boşluğunu doldurmaq, çoxluqda olan yerli türk-müsəlman əhalinin təhlükəsizliyini təmin etmək məqsədini güdürdü. Çox keçmədən bu qurum Qars Milli Şurası adlandırılmış və qarslı

---

* Y.İ.Kanevski 27 may 1906-cı ildən etibarən Qafqaz atıcı artilleriya divizyonunda ştabs-kapitan rütbəsində xidmət etmiş, 1909-cu ildən etibarən isə uzun müddət Tula silah zavodunda, daha sonra İjevsk silah zavodlarında müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. Ona 1915-ci ildə polkovnik rütbəsi verilmişdir.

326 Bax: Я. Каневский. Эминъ-Ага Борчалинский (Воспоминание бывшего разбойника), Тула, 1915.

327 M.F.Kırzıoğlu. Milli Mücadelede Kars, İstanbul, 1960, s. 8.

328 M.F.Kırzıoğlu, göstərilən əsəri, s. 14.

Cahangiroğlu İbrahim bəy onun rəisi, Emin ağa isə rəis müavini seçilmişdir[329]. 1919-cu ilin aprel ayında Qars ingilis hərbi hissələrinin nəzarəti altına keçdikdən sonra Emin ağa bir müddət Osmanlı hakimiyyətindəki digər bölgələrdə, ömrünün son illərini isə Azərbaycanda – Qazax qəzasının Qarapapaq kəndində yaşamış və bu kənddə dəfn olunmuşdur.

**Qeyd 5.** Bolnis-Kəpənəkçi ağalarının siyahısında 7-ci qeydiyyat nömrəli Yusuf ağa Hümmət ağa oğlunun ailəsi Babakişilər (Musapirian) kəndinin 1860-cı ilə dair kameral təsvirində məmur ailəsi kimi aşağıdakı şəkildə qeydə alınmışdır:[330]

| Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|
| ***Məmur:*** | | |
| Yusuf Ağa Hümmət Ağa oğlu | 70 | *Praporşik* |
| *oğlu* Qurban Ağa | 40 | |
| *onun oğulları*: | | |
| 1. Alməmməd | 12 | |
| 2. Ələsgər | 9 | |

**Qeyd 6.** Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 1848-ci ilin 6 mayında Ağcaqalada («Серый Замок») imzaladıqları 41 saylı şəhadətnamə ilə Böyük Kəpənəkçi* kəndinin 14 hissəyə bölünmüş məskun

[329] S.Sürmeli. Türk-Gürcü İlişkileri (1918-1921), Ankara, 2001, s. 413.
[330] GMTA, f. 254, s. 2, iş № 234, v. 218.
* Bolnis-Kəpənəkçi kəndinin adı bəzi mənbələrdə Böyük Kəpənəkçi kimi qeyd olunur.

və qeyri-məskun torpaqlarının 1 hissəsi (yəni $^{1}/_{14}$-i) praporşik Usub (Yusuf) ağa Hümbət oğlunun ömürlük istifadəsinə verilirdi. Lakin bu torpağın irsi mülkiyyətə verilməsi üçün Usub ağanın oğul övladları ober-ofiser (kiçik zabit) rütbəsi almalı idilər[331]. Ümumiyyətlə, belə hallarda əgər vəfat etmiş ağanın uşaqları azyaşlı idilərsə, onda onun torpaq sahəsi ta oğulları tam yetkinlik yaşına, yəni ober-zabit rütbəsi ala biləcəkləri 21 yaşına çatana kimi ailəsinin ixtiyarında qalırdı. Əks halda ağanın yetkinlik yaşında olan oğullarına ober-zabit rütbəsi almaları üçün 5 il vaxt verilirdi və bu müddətdə torpaqlar onun ailəsinin istifadəsində olurdu (Şəhadətnamənin məzmunu üçün (bax: səh 20)[*].

**Qeyd 7.** Tiflis dairə məhkəməsi 1872-ci ilin 8 fevralında Əmirov Allahyar Hasan oğlu və *Acalov Zali bəy Abbas oğluna* məxsus Tiflisin 9-cu sahəsində yerləşən bir mərtəbəli həyətli daş evin (43 kv.sajen) borc müqabilində ictimai satışa (hərraca) çıxarıldığını elan edirdi[332].

1908-ci ildə Bolnis-Kəpənəkçi kəndinin sakinlərindən *Acalov İsmayıl bəy və İsrafil bəy Musa ağa oğlu*, Molla Nəsib Zərgər oğlu, Hümbət Molla Əli oğlu, Hacı Qurban oğlu, Musa Ömər oğlu və digərləri 2385, 97 rubl uzunmüddətli kredit qarşılığında onlara məxsus 158 desyatin 1380 sajen torpaq sahəsini girov qoymuşdular[333].

---

[331] ARDTA, f. 923, s. 1, iş № 1, v. 7.

[*] Şəhadətnamənin surəti üçün bax: *Əlavə 3* (səh. 274-275).

[332] «Кавказ» qəz., 1871, 15 (27) dekabr, № 147, s. 4.

[333] “დროება” (“Droeba”) qəz., 18.11.1908, № 1.

**1859-cu ilin siyahısına 1871-ci ildə əlavə olunmuş ağa ailələri (ACALOVLAR)**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 234, vərəq 360)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Xəlil ağa Məmmədcan ağa oğlu | 37 |
| | *oğlu* Yüzbaşı ağa | 18 |
| 2 | İsmayıl ağa İbrahim ağa oğlu | 50 |
| | *oğulları:* | |
| | 1. Qurban ağa | 18 |
| | 2. Abdulla ağa | 14 |
| | 3. Məmməd ağa | 12 |
| 3 | | |
| | Məmməd ağa İbrahim ağa oğlu | 35 |
| | *oğlu* İsmayıl ağa | 1 |
| | *qardaşları:* | |
| | 1. Bayram ağa | 33 |
| | *onun oğulları:* | |
| | 1. Alı ağa | 6 |
| | 2. Xəlil ağa | 3 |
| | 3. Süleyman ağa | 1 |
| | 2. Qurban ağa | 25 |

**DƏMİRÇİHASANLI-KƏPƏNƏKÇİ kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 32; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Kərim ağa Əhməd Qasım ağa (Barxudar ağa) oğlu<br><br>*oğulları*:<br>1. Mansur ağa<br>2. Məmməd ağa<br><br><br>*qardaşları:*<br>1. Ömər ağa<br>2. Qasım ağa<br>*onun oğulları*:<br>1. Məsim<br>2. Eyyub<br>*qardaşı oğlanları*:<br>1. Vəli<br>2. Süleyman | 47<br><br><br><br>7<br>4<br><br><br><br>-<br>50<br>8<br>1<br>15<br><br>8<br>- | *kəndxuda; 1826-cı ildən (atası öləndən sonra) ağa imtiyazına sahibdir.*<br><br><br><br>*Praporşik* |

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 2 | Mustafa Barxudar Qasım ağa oğlu | 50 | |
| | *oğulları*: | | |
| | 1. Məhəmməd | 12 | |
| | 2. Barxudar | 7 | |
| | *qardaşı* Osman | 30 | |
| | *onun oğlu* Məmməd Hasan | 1 | |
| 3 | İsa ağa Atakişi ağa oğlu | 45 | |
| | *qardaşı* Atakişi | 32 | |
| | *onun oğulları*: | | |
| | 1. Əbdülxumar | 7 | |
| | 2. Kərim | 3 | |
| | | | *Kənd 51 evdən ibarətdir* |

**DƏMİRÇİHASANLI-KƏPƏNƏKÇİ kəndinin ağaları və ruhaniləri – 1886-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 62-66)*

***AĞALAR:***

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Məmməd ağa Kərim Ağa oğlu Məmmədov | 60 |
| | *oğulları*: | |
| | 1. Yusuf ağa | 44 |
| | *onun oğulları*: 1. Ömər | 10 |
| | 2. Osman | 4 |
| | 3. Əli | 1 |
| | 2. Kərim ağa | 35 |
| | *onun oğulları*: 1. Əhməd | 10 |
| | 2. Mahmud | 6 |
| | *nəvələri*: 1. Qurban | 5 |
| | 2. Musa | 3 |
| 2 | Emin ağa Barxudar ağa oğlu Məmmədov | 30 |
| | *oğulları*: 1. Allahyar ağa | 5 |
| | 2. Nadir | 21 |
| | *qardaşı* Alpaşa | 17 |
| 3 | Məmməd ağa Mustafa ağa oğlu Məmmədov | 70 |
| | *oğulları*: 1. Paşa ağa | 40 |
| | 2. Nəsib ağa | 34 |
| | 3. Rüstəm ağa | 27 |
| | 4. Astan ağa | 18 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | *nəvəsi* Qurban | 6 |
| 4 | Əmir ağa Vəli ağa oğlu Məmmədov | 35 |
| | *oğulları*: 1. Muxtar | 7 |
| | 2. Vəli | 3 |
| | 3. Süleyman | 1 |
| 5 | Eyyub ağa Qasım ağa oğlu | 50 |
| 6 | Kazım ağa Qasım ağa oğlu Məmmədov | 48 |
| | *oğulları*: 1. Daşdəmir | 10 |
| | 2. Həmid ağa | 8 |
| | 3. Musa ağa | 3 |
| 7 | Məmməd ağa Məsim ağa oğlu | 12 |
| | *qardaşı* Alı ağa | 7 |
| 8 | Məmmədhasan ağa Osman ağa oğlu Məmmədov | 50 |
| | *oğlu* İsmayıl | 30 |
| | *onun oğlu* Yusuf | 2 |
| 9 | Alı ağa Osman ağa oğlu Məmmədov | 45 |
| | *oğulları*: | |
| | 1. Musa ağa | 25 |
| | 2. İsa ağa | 20 |
| | 3. Əbdürrəhman ağa | 5 |

## *RUHANİLƏR:*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 10 | Abdulla Molla İsmayıl oğlu<br>*oğulları*:<br>1. Məmməd<br>*onun oğlu* Məcid<br>2. Mustafa<br>*onun oğlu* Süleyman<br>3. Mahmud<br>4. Bala Əfəndi<br>5. Həmid<br>6. Bəkir | 72<br><br>35<br>3<br>30<br><br>4<br>25<br>20<br>15<br>8 | *Dəmirçihasanlı-Kəpənəkçinin ştatlı mollası* |
| 11 | Molla Hacı Əhməd Vəli oğlu<br>*oğulları*:<br>1. Məmməd<br>2. Vəli | 45<br><br>7<br>3 | *qonşu İlməzli kəndinin ştatlı mollası* |

## KOLAYIR (KOLAGİR) kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 144)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Oruc ağa Qurbanəli oğlu | 60 | |
| | *qardaşları*: | | |
| | 1. Hüseyn | 45 | |
| | *onun oğlu* Qurbanəli | 10 | |
| | 2. İsmayıl | 44 | |
| | *onun oğulları*: | | |
| | 1. Bayraməli | 14 | |
| | 2. Məmmədəli | 10 | |
| | 3. Bayram | 8 | |
| | 4. Murtuzəli | 5 | |
| 2 | Qurban ağa Məhəmmədəli oğlu | 50 | |
| | *oğlu* Ramazan | 8 | |
| | *qardaşı* Əbdülqasım | 45 | |

## KOLAYIR kəndinin koxası – 1843-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2047, vərəq 378)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Qurbanəli Ağa Hüseyn oğlu | 22 |

**DƏMİRÇİHASANLI-KOSALI kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 42; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Əhməd Sultan İsa Sultan oğlu* <br> *qardaşı* Vəli bəy Sultan | 13 <br> 14 | *praporşik, 29.01.1827-ci ildən (İsa Sultan öldükdən sonra) irsən ağalıq imtiyazına sahibdir).* |
| 2 | Süleyman ağa Əhməd Sultan oğlu <br> *oğulları*: <br> 1. İsmayıl <br> 2. İsgəndər <br> *qardaşı İsa Sultanın oğlanları*: <br> 1. Kiçik ağa <br> 2. Məmməd ağa | 42 <br> <br> 14 <br> 6 <br> <br> 15 <br> 8 | *praporşik* |

* Dəmirçihasanlı sultanları barədə bax: F.Valehoğlu. *Dəmirçihasanlı və Baydar sultanları tarixi mənbələrdə*, "Qarapapaqlar" dərgisi, 2010, № 10 (40), s. 9-14. *(F.V.)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 3 | Ağacan Sultan Mustafa Sultan oğlu | - | *praporşik* |
| | Mustafa ağa Ağacan Sultan oğlu | 20 | |
| | *qardaşları*: | | |
| | 1. Əlipaşa | 12 | |
| | 2. İsmayıl | 6 | |
| 4 | İrzaqulu ağa Sultan ağa oğlu | 31 | |
| | *oğlu* Bəxtiyar | 1 | |
| 5 | Məmməd ağa Cəlil oğlu | 61 | |
| | *oğulları*: | | |
| | 1. Xələf | 24 | |
| | 2. Mustafa | 18 | |
| | 3. Musa | 16 | |
| | 4. Süleyman | 14 | |
| | *qardaşı* Allahverdi | 60 | |
| | *onun oğulları*: | | |
| | 1. Osman | 17 | |
| | 2. Usub | 12 | |
| | 3. Alı | 8 | |
| | | | *Kənd 110 evdən ibarətdir* |

**Qeyd 1:** Kartli-Kaxetiya çarı XII Georginin hicri tarixi ilə 1214-cü ilin şəvval ayında (miladi təqvimi ilə 1800-cü ilin 26.II-26.III tarixi) imzaladığı əmrlə *Məhəmməd Sultan Əhməd Sultan oğlu* Dəmrçihasanlı əhalisinin başçısı (sultanı) təyin olunmuşdu[334].

**Qeyd 2:** XII Georgi tərəfindən *Vəli bəy Sultan İsa Sultan oğluna* ünvanlanmış 1800-cü il tarixli təliqədə Mehdi Molla Baba adlı şəxsin yenidən xasadar (feodal torpaq mülkiyyətçisi) elan olunduğu və onun Borçalıya köçüb istədiyi yerdə məskunlaşmasına icazə verildiyi qeyd olunurdu[335].

**Qeyd 3.** Dəmirçihasanlı ağalarının (sultanlarının) əksəri Kosalı və Lecbəddin kəndləri arasında yerləşən Çələbilər məzarlığında dəfn olunmuşdurlar və günümüzə gəlib çatmış qəbir daşlarından onların bəzilərinin, o cümlədən yuxarıdakı cədvəldə təqdim olunanların vəfat tarixi barədə aşağıdakı bilgilər aşkar olur:

- *Əhməd Sultan İsa bəy oğlu* (cədvəldə 1-ci sırada adı keçən Əhməd Sultan İsa Sultan oğlunun babası) – vəfat ili: hicri - 1205, miladi - *1790*;
- *Məhəmməd Sətli Sultan oğlu* (ehtimal ki, 1-ci qeyddə adı çəkilən Məhəmməd Sultandır) – vəfat ili: hicri - 1223, miladi – *1807/1808*;
- *İsa bəy Sultan Əhməd Sultan oğlu* (cədvəldə adı 1-ci sırada göstərilən Əhməd Sultanın atası) – vəfat ili: hicri - 1242, miladi - *1827*;
- *Vəli bəy İsa bəy oğlu* – vəfat ili: hicri - 1249, miladi – *1833/1834*;
- *Süleyman ağa Əhməd Sultan oğlu* (cədvəldə qeydiyyat №-si: 2) – vəfat ili: hicri - 1273, miladi – *1856/1857*;

---

334 GMTA, f. 1452, iş № 764.
335 GMTA, f. 1452, iş № 762.

- *Vəli bəy İsa Sultan oğlu Səfa* – vəfat ili: hicri - 1273, miladi – *1856/1857*;

- *Rzaqulu ağa Mustafa Sultan oğlu* (cədvəldə qeydiyyat №-si: 4) – vəfat ili: hicri - 1260, miladi – *1843/1844*.[336]

**Qeyd 4.** Sonrakı illərdə aparılmış kameral təsvirlərdən Dəmirçihasanlı sultanlarının törəmələrinin *Eminov* soyadını daşıdığı bəlli olur.

[336] Ş.Məmmədli. Çələbilər qəbiristanlığında kimlər uyuyur, “Gürcüstan” qəz., 2001, 13 aprel.

**DƏMİRÇİHASANLI-KOSALI[*] kəndinin ağaları və ruhanisi - 1886-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 76-84)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***Müftiyevlər:*** | |
| 1 | Əhməd ağa Məmməd ağa oğlu Müftiyev | 40 |
| | *oğulları*: 1. Paşa ağa | 14 |
| | 2. Hacı Rəhim | 3 |
| | *qardaşları*: | |
| | 1. Mustafa ağa | 30 |
| | *onun oğulları*: 1. Söyün ağa | 6 |
| | 2. Əmir ağa | 3 |
| | 2. Nəsib ağa | 24 |
| 2 | Kərim ağa Abdulla ağa oğlu Müftiyev | 40 |
| | *oğlu* Abdul ağa | 12 |
| | *qardaşları*: 1. Qasım ağa | 35 |
| | *onun oğlu* Qasım ağa | 5 |
| | 2. Hacı Süleyman Əfəndi | 34 |
| | *onun oğlu* Məmməd Bəşir ağa | 3 |
| | 3. Nəbi ağa | 22 |

[*] Əlyazmada "Dəmirçihasanlı kənd icmasının Kosalı kəndi" kimi göstərilib.

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 3 | İsmayıl ağa Hasanpaşa oğlu Müftiyev | 34 |
| | *oğlu* Hasan Paşa | 1 |
| | *qardaşı* Yunus ağa | 20 |
| 4 | Əbdürəhman ağa Alı Əfəndi oğlu Müftiyev | 40 |
| | *qardaşları*: 1. Mahmud Əfəndi | 35 |
| | *onun oğlu* İsa ağa | 6 |
| | 2. Xəlil ağa | 32 |
| | *onun oğlu* Əli ağa | 2 |
| | 3. İbrahim ağa | 30 |
| | 4. Musa ağa | 26 |
| | 5. Mansur ağa | 22 |
| | ***Qeyd:*** *Yuxarıdakı ailələr ağa zümrəsinə mənsub olmaları barədə Zaqafqaziya Baş İdarəsinin 20.12.1844-cü il tarixli, 10 saylı şəhadətnaməsini təqdim etmişdirlər.* | |
| | ***Eminovlar:*** | |
| 5 | Hacı Əhməd Sultan Eminov | 100 |
| | *oğulları*: 1. Məmməd ağa | 60 |
| | *onun oğulları*: 1. İsgəndər ağa | 25 |
| | 2. Ömər ağa | 20 |
| | 3. Musa ağa | 10 |
| | 2. İsa ağa | 40 |
| | *onun oğulları*: 1. Məmməd ağa | 8 |
| | 2. Yusuf ağa | 2 |
| | 3. Emin ağa | 35 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 6 | Alı ağa Hacı ağa oğlu Eminov<br>*oğulları*: 1. İsa ağa<br>2. Musa ağa | 40<br>4<br>1 |
| 7 | Vəli bəy İsgəndər ağa oğlu Eminov<br>*qardaşları*: 1. İsmayıl ağa<br>2. Əhməd Ağa<br>*əmisi oğlu* Süleyman ağa İsmayıl ağa oğlu | 35<br>30<br>25<br>25 |
| 8 | Əli ağa Kiçik ağa oğlu<br>*oğulları*: 1. Mehralı (Məhərrəm) ağa<br>2. Kiçik ağa | 28<br>6<br>2 |
| 9 | Osman ağa Məmməd ağa oğlu<br>*qardaşları*:<br>1. Ömər ağa<br>2. İsmayıl ağa<br>3. Usub ağa<br><br>**Qeyd:** *Eminovlar ağalar zümrəsinə mənsub olmaları barədə notarius Turkovskinin təsdiq etdiyi 30.01.1885-ci il tarixli (№ 315) şəhadətnamə təqdim etmişdirlər.*<br><br>***Mirzəliyevlər:*** | 28<br><br>22<br>20<br>20 |
| 10 | Abdul ağa Qasım ağa oğlu Mirzəliyev<br>*oğulları*: 1. Hacımurad ağa<br>*onun oğlu* Mirzəli ağa | 57<br>27<br>1 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | 2. Mehralı (?) ağa | 19 |
| | *qardaşı* Süleyman ağa | 30 |
| | *qohumu Məmməd ağanın oğulları:* | |
| | 1. Qasım ağa | 13 |
| | 2. Hacı Xəlil ağa | 5 |
| 11 | Mustafa ağa İsmayıl ağa oğlu Mirzəliyev | 30 |
| | *əmisi oğlu* Əli ağa Kərim ağa oğlu | 7 |
| 12 | Hacı Məmməd ağa Qasım ağa oğlu Mirzəliyev | 40 |
| | *oğulları*: 1. Qasım ağa | 14 |
| | 2. Musa ağa | 7 |
| | **Qeyd:** *Yuxarıda qeyd olunan ailələr ağalar zümrəsinə mənsub olmaları barədə Qafqaz canişininin 06.12.1846-cı il tarixli (№ 31) şəhadətnaməsini təqdim etmişdirlər.* | |
| | ***Əliyevlər:*** | |
| 13 | Əhməd ağa Mirzə Vəli ağa oğlu Əliyev | 45 |
| | *oğlu* Yunus ağa | 20 |
| | *əmisi oğlu* Hasan ağa | 40 |
| | *onun oğulları*: 1. Süleyman ağa | 12 |
| | 2. Əhməd ağa | 3 |
| | *onun qardaşı* Qəhrəman ağa | 35 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | *onun oğlu* Allahverdi ağa | 1 |
| 14 | Yusuf ağa Abdul ağa oğlu Əliyev<br>*əmisi oğulları*:<br>1. Əmrulla ağa Kərim ağa oğlu<br>2. Hüseyn ağa Mustafa ağa oğlu | 18<br><br>10<br>8 |
| | ***Qeyd:*** *Yuxarıda qeyd olunan ailələr ağa zümrəsinə mənsub olmaları barədə Qafqaz canişini tərəfindən 1886-cı ildə verilmiş şəhadətnamə (№ 144) təqdim etmişdirlər.* | |
| | ***Kəndin mollası:*** | |
| 15 | Hacı Məmməd Əfəndi Hacı Şəfi Əfəndi oğlu<br>*oğulları*: 1. Molla Mahmud<br>2. Abdulla | 55<br>8<br>2 |

**Qeyd.** Cədvəldə Müftiyevlərin cərgəsində adı çəkilən Hacı Süleyman Əfəndi Abdulla ağa oğlu “Arif” təxəllüslü şair *Sədi bəy Müftizadənin* (1885-1951) atasıdır[337].

[337] Ədəbi Gürcüstan (tərtib edənlər:R.Hümmət, N.Əbdülrəhmanlı), Tiflis, 2012, s. 110.

## KÜRTLƏR* kəndinin ağaları və ruhanisi – 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 48-50)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***AĞALAR:*** | |
| 1 | Abdul ağa Əlibəy oğlu Sultanov<br>*oğlu* Halay bəy | 25<br>1 |
| 2 | Əmirxan bəy Almas bəy oğlu Sultanov | 16 |
| 3 | Əlibəy Vəlibəy oğlu Sultanov | 10 |
| 4 | Məmmədcan bəy Qəhrəman ağa oğlu Sultanov | 17 |
| 5 | Hacı bəy Abdulla bəy oğlu Sultanov<br>*oğlu* Adil bəy | 40<br>15 |
| 6 | Əmiraslan ağa Məhəmməd Emin bəy oğlu Sultanov<br>*qardaşı oğlanları*: 1. Emin bəy<br>2. Mehdi<br>3. Osman | 50<br>20<br>15<br>5 |

* Mənbədə "Kutlyar" («Кутляр») kimi göstərilib.

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 7 | Ağa bəy Astan bəy oğlu Sultanov<br>*oğulları*: 1. Süleyman<br>2. Məmmədcan | 50<br>20<br>7 |
| | ***RUHANİ:*** | |
| 8 | Hacı Musa Əfəndi Hacı İsa Əfəndi oğlu<br>*oğulları*: 1. Bayram<br>2. Ziyəddin | 45<br>5<br>4 |

**Qeyd.** Yuxarıda təqdim olunan siyahıda adları əks olunan ağalar Baydar sultanlarının törəmələridir.

## MAHMUDLU* kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Qeydlər |
|---|---|---|
| 1 | Uğurluxan ağa | *Borçalı vəkili*<br><br>*Gürcü çarları vaxtından imtiyazlıdırlar, səthi olaraq Borçalı kəndlərinin hamısının idarəçisidir və Araplı kəndində yaşayır.* |
| | *oğlu* Məmmədqulu ağa | *praporşik*<br><br>*Kənd 10 evdən ibarətdir.* |

**Qeyd 1.** Mənbədə vurğulanır ki, Qayaqocalı ilə Qoşakilsə arası bütün kəndlər Kartli-Kaxetiya çarının əmri ilə Borçalı vəkili *Uğurluxan ağanın* tabeliyinə verilmişdi[338]. Uğurluxan ağanın oğullarından podporuçik *Qəhrəman ağa* və yaxın qohum-əqrəbaları 1831-ci ildə Araplı kəndinin ağalarının siyahısında qeydiyyata alınmışdılar (bax: səh. 132).

---

* Böyük ehtimalla Araplı kəndinin qonşuluğundakı Axılmahmudlu kəndidir.
[338] GMTA, f. 254, s. 1, № 1254, v. 254.

**Qeyd 2.** GMTA-da mühafizə olunan farsdilli sənədlər toplusunda *Uğurluxan ağanın* Kartli-Kaxetiya çarı XII Georgiyə məktubu saxlanılır[339].

**Qeyd 3.** Praporşik *Qulu ağa Uğurluxan ağa oğlu* 18 may 1842-ci ildə Borçalı nahiyəsinin iclasçısının köməkçisi vəzifəsinə təyin olunmuşdu[340].

## MAMAY (MAMEY) kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 229; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məmməd Hüseyn ağa | - | *1825-ci ildən (qardaşı Məmməd Həsən ağa öləndən sonra) ağa imtiyazına sahib olmuşdur.* |
| 2 | Məmməd ağa Məmməd Həsən oğlu<br>*qardaşları*: 1. Qasım<br>2. Əhməd | 21<br>18<br>6 | *Kənd 7 evdən ibarətdir* |

[339] GMTA, f. 1452, iş № 765.
[340] GMTA, f. 2, s. 1, iş № 8699.

**Qeyd 1.** Kartli-Kaxetiya çarı XII Georginin 1796-cı ildə imzaladığı təliqə ilə *Əhməd ağa Zülfüqar oğluna* Mamay kəndinin rişsəfidi (ağsaqqalı, başçısı) vəzifəsi həvalə olunurdu. Təliqədə bundan əvvəl Mamay icmasında "tarxanların" (vergidən azad edilmiş təbəqələrin) olmadığı da vurğulanırdı[341].

**Qeyd 2.** Mamay kəndinin sakini *İbrahim ağa Məmmədəli oğlu* ilə knyaz Memisov arasında mübahisəli su arxı ilə bağlı 1856-cı ildə məhkəmə çəkişməsi olmuşdur[342].

## MOLLA-ƏHMƏDLİ* kəndinin koxası – 1823-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 811, vərəq 39)*

| Ailənin qeydiyyat nömrəsi | Ailə üzvlərinin siyahısı | Yaş |
|---|---|---|
| 222 | Qurban Məmmədalı oğlu | 50 |
| | *arvadı* Pəri | 30 |
| | *qızı* Xacca | 3 |
| | *qardaşları:* 1. Əbdülqasım | 40 |
| | *onun arvadı* Zeynəb | 30 |
| | 2. Allahverdi | 15 |

341 GMTA, f. 1452, iş № 324.
342 GMTA, f. 26, s. 25, № 1394, v. 10.
* Mənbədə "Bala Kolayır" («Малые Колагири») kimi göstərilib.

**BÖYÜK MUĞANLI kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 76; fond 2, siyahı 1, iş № 2672)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məmməd ağa Mirzəqulu ağa oğlu | 62 | *20 ildən çoxdur ağa imtiyazına sahibdir* |
| | *oğulları*: | | |
| | 1. Məmmədhasan | 31 | |
| | 2. Hasan | 20 | |
| | 3. Paşa | 17 | |
| | *nəvələri*: 1. İrzaqulu | 15 | |
| | 2. Mansur | 12 | |
| | 3. Hətəm | 7 | |
| | 4. Ağabəy | 3 | |
| 2 | Ağakişi ağa İsmayıl oğlu | 50 | *Bu iki ailəyə (2-ci və 3-cü qeydiyyat nömrəli ailələrə - F.V.) çar II İrakli tərəfindən ağalıq şəhadətnaməsi verililmişdir* |
| | *oğulları*: 1. Mustafa | 8 | |
| | 2. Balabəy | 4 | |
| | 3. İsmayıl | 2 | |
| | *qardaşı* Paşa | 6 | |
| 3 | Bayram ağa Məmmədqulu oğlu | 75 | |
| | *oğlu* İbrahimxəlil | 24 | |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 4 | Allahverdi ağa Əli ağa oğlu | 41 | |
| | *qardaşları*: | | |
| | 1. Kərim | 35 | |
| | 2. Molla Məmmədqulu | 24 | |
| | 3. Oruc | 17 | |
| 5 | Musa ağa Əmir ağa oğlu | 43 | |
| | *qardaşları*: | | |
| | 1. Əli ağa | 34 | |
| | 2. Vəli ağa | 21 | |
| 6 | Abdul ağa Oruc ağa oğlu | 20 | *Abdul ağa Yeqoryevsk (Georgi – F.V.) lentində "səyinə görə" medalına sahibdir* |
| | *qardaşları*: | | |
| | 1. Qasım | 15 | |
| | 2. Əlləz | 11 | |
| 7 | Nurməmməd ağa Qurban ağa oğlu | 41 | |
| | *oğlu* Əli | 2 | |
| | *qardaşı* Məmməd | 30 | |
| | *onun oğulları*: | | |
| | 1. Qurban | 11 | |
| | 2. Mehdi | 5 | |
| 8 | Hüseyn ağa Usup ağa oğlu | 43 | |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| | *oğlu* Bəxtiyar | 1 | |
| 9 | Hasan ağa Məmməd oğlu | 25 | |
| | *qardaşı* Hüseyn ağa | 20 | |
| | | | *Kənd 60 evdən ibarətdir* |

**Qeyd 1.** Böyük Muğanlı kəndinin 1823-cü ilə aid kameral təsvirində də birinci sırada *Məmməd ağa Mursaqulu (Mirzəqulu) ağa oğlunun* (45 yaş) adı gəlir. Hazırda da Böyük Muğanlıda yaşayan Mursaqulu ağanın törəmələri Mursaqulov, Abdullayev və Qarayev soyadlarını daşıyırlar.

**Qeyd 2.** Qafqaz canişini M.Vorontsovun 6 dekabr 1846-cı il tarixli reskriptinə əsasən Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 1848-ci ilin 6 mayında Ağcaqalada imzaladıqları 48 saylı şəhadətnamədə qeyd olunurdu ki, Böyük Muğanlı kəndinin məskun və qeyri-məskun torpaqları 14 hissəyə bölünmüş və onun 13 hissəsi canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığına uyğun olaraq aşağıdakı pay bölgüsünə müvafiq adları çəkilən kənd ağalarının ömürlük və irsi mülkiyyətinə verilmişdir:

praporşik Əli bəy (Rzaqulu ağanın oğlu) – 4 ¾ pay;

Paşa ağa və Hasan ağa (Məmməd ağanın oğulları) – 4 pay;

Mustafa ağa, Bala bəy, İsmayıl ağa və Xəlil ağa (Ağakişi bəyin övladları) – 2½ pay;

Hətəm ağa və Ağa bəy (Allahyar ağanın oğulları, Məmməd ağanın nəvələri) – 1 ¾ pay[343].

Bölünmüş torpaqların yerdə qalan bir payı isə (yəni $^{1}/_{14}$-i) sözügedən komissiyanın eyni tarixdə verdiyi 49 saylı şəhadətnamə ilə Xəlil ağa Kürdoğluya (və ya Qurdoğluya) ömürlük istifadə üçün ayrılırdı. Ancaq bu torpaq irsi mülkiyyətə verilmirdi. Bunun üçün Xəlil ağanın oğul övladları ober-zabit (kiçik zabit) rütbəsi almalı idilər[344]. (Şəhadətnamələrdə qeyd olunan digər müddəalar üçün bax: səh 19-20)[*].

**Qeyd 3.** *Allahyar ağa Hətəm ağa oğlu Mursaqulovun* Borçalı qəzasının Muğanlı daçası ilə bağlı yerölçən Teymurazova qarşı şikayəti əsasında 1898-ci ildə məhkəmə araşdırması aparılmışdı[345].

---

343 ARDTA, f. 923, s. 1, iş № 1, v. 8.

344 Yenə orada, v. 9.

* Şəhadətnamələrin surəti üçün bax: *Əlavə 4 və Əlavə 5* (səh. 276-279).

345 GMTA, f. 116, № 1581, s. 17110, iş № 37.

**BALA-MUĞANLI kəndinin ağası – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Qeydlər |
|---|---|---|
| 1 | Məmmədxan Məmməd Rəfi ağa oğlu | *1826-cı ildən etibarən irsən ağalıq imtiyazına sahibdir.*<br><br>*Kənd 32 evdən ibarətdir.* |

**BALA MUĞANLI kəndinin koxası – 1843-cü il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2047, vərəq 374)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeyd |
|---|---|---|---|
| 8 | Xəlil Tanrıverdi oğlu<br>*oğulları*: 1. Şah Söyün<br>2. Hüseyn<br>3. İsmayıl<br>4. Bayram | 50<br>20<br>15<br>12<br>10 | *vəfatı* - 1853<br>*vəfatı* - 1854<br><br>*vəfatı* - 1854<br><br>*Hüseyn və Bayram 1848-ci ildə Gültəpəli kəndinə köçüblər* |

## NAZARLI* kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəq 66;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Mustafa ağa Abdul(la) ağa oğlu | 55 | *Çar II İrakli tərəfindən 1786-cı ildə ağalıq şəhadətnaməsi verilib* |
| | *qardaşları*: | | |
| | 1. Qasım ağa | 50 | |
| | 2. İsmayıl | 35 | |
| 2 | Hacımahmud ağa Mirzali ağa oğlu | 72 | |
| | *oğlu* Məmməd ağa | 24 | |
| 3 | Alı ağa Abdulla ağa oğlu | - | *1827-ci ildən ağa imtiyazına sahibdir* |
| | *oğlu* Mirzalı ağa | - | |
| | | | *Kənd 44 evdən ibarətdir* |

**Qeyd.** GMTA-da Alı ağa Abdulla ağa oğlunun (yuxarıdakı cədvəldə 3-cü qeydiyyat nömrəli ailə) Borçalı distansiyasının Nazarlı kəndinin ağası (idarəçisi) təyin olunması barədə Gürcüstan mülki qubernatorunun hesabat məktubu saxlanılır[346].

---

* Mənbədə "Dəmirçihasanlı kəndi Nazarlı" kimi qeyd olunub.
[346] GMTA, f. 1105, s.1, iş № 15.

**NAZARLI kəndinin ağaları - 1843-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2048, vərəq 6)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Podporuçik Alı ağa Abdulla ağa oğlunun | | |
| | *oğulları*: | | |
| | 1. Mirzalı ağa | 18 | |
| 2 | 2. Kərim ağa | 8 | |
| | | | |
| | Kazım ağa Hacı Mahmud ağa oğlu | 45 | *praporşik* |
| | *oğulları*: | | |
| 3 | 1. Abdulla | 10 | |
| | 2. Məmməd | 4 | |
| | 3. Qasım | 1 | |
| | | | |
| | Mustafa ağa Abdulla ağa oğlu | 60 | |
| | *qardaşı* İsmayıl ağa | 50 | |
| | *onun oğlu* Əli ağa | 1 | |
| | *qohumu* Hacı Mahmud ağa Qasım ağa oğlu | 4 | |

**QAÇAĞAN kəndinin ağaları və koxası – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 198; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məmməd Hasan ağa Topçuoğlu | - | *praporşik* |
| 2 | Vəli bəy Məmməd Hasan ağa oğlu Topçuoğlu | 14 | |
| | *qardaşı* Ağa bəy | - | |
| 3 | Ağacan ağa Topçuoğlu | 31 | |
| | *oğulları*: 1. Usub | 4 | |
| | 2. Abdulla | 2 | |
| | *qardaşı* Əli bəy | 28 | |
| 4 | Hüseyn ağa Əhməd ağa oğlu | 57 | |
| | *oğulları*: 1. Bolu | 36 | |
| | 2. İrzəqulu | 34 | |
| | 3. Əsgər | 22 | |
| 5 | İsmayıl ağa Hümbət Əli oğlu | 42 | |
| | *oğulları*: 1. Babacan | 15 | |
| | 2. Hümbət | 8 | |
| | 3. Həsən | 4 | |
| | 4. Cəfər | 2 | |
| | *qardaşları*: | | |
| | 1. Kərim | 28 | |
| | 2. Adigözəl | 27 | |
| | 3. Bayram | 22 | |

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 6 | Mehdi ağa Nəsib ağa oğlu<br>*qardaşı* Məmməd | 25<br>13 | |
| 7 | Qasım ağa Məmməd ağa oğlu<br>*qardaşları*:<br>1. Oruc<br>2. Seyid | 21<br><br>12<br>3 | |
| 8 | Xangəldi Məmməd oğlu | 36 | *koxa*<br><br>*Kənd 43 evdən ibarətdir* |

**Qeyd 1:** Topçuoğulları ailəsi barədə yuxarıda təqdim edilən məlumatların istinad olunduğu arxiv sənədində belə bir qeyd var: "Çar Georgi* tərəfindən verilmiş şəhadətnamədən onların qədim zamanlardan ağa olduqları görünür".

**Qeyd 2:** XII Georginin 1800-cü il tarixli qərarı ilə Borçalı ağalarından *Topçu ağa* və *Nəbi ağaya* xasadarlıq (feodal torpaq mülkiyyətçiliyinin bir növü) verilmişdi[347]. XII Georginin hicri tarixi ilə 1214-cü ilin səfər ayında (miladi təqvimi ilə 1799-cu ilin 05.07-02.08 tarixlərinə uyğundur) imzaladığı əmrlə Topçuoğullarından *Əhməd* və daha iki şəxs bütün növ vergi və xərclərdən azad edilmişdilər[348].

---

* sonuncu Kartli-Kaxetiya çarı XII Georgi – *F. V.*

347 GMTA, f. 1452, iş № 763.

348 GMTA, f. 1452, iş № 755.

**QAÇAĞAN kəndinin ağaları və ruhanisi – 1886-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 32-35)*

***AĞALAR:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Əsgər ağa Abdulla ağa oğlu Topçiyev<br>*qardaşları*: 1. Yusuf ağa<br>2. Abbasqulu ağa | 26<br>22<br>16 |
| 2 | Firudin bəy Ağacan bəy oğlu Topçiyev<br>*qardaşı* Kiçik ağa | 5<br>3 |
| 3 | Hüseyn ağa Əlibəy oğlu Topçiyev<br>*oğlu* Əli bəy | 27<br>2 |
| 4 | Süleyman ağa Nəsib ağa oğlu Topçiyev<br>*qardaşı* Almaz bəy | 10<br>4 |
| 5 | Məmmədhəsən ağa Süleyman ağa oğlu Topçiyev | 18 |
| 6 | Məmməd Tağı bəy İsmayıl ağa oğlu Topçiyev<br>*qardaşları*: 1. Murtəzəqulu bəy<br>2. Adil bəy<br>3. İsmayıl ağa | 15<br>12<br>7<br>3 |

***RUHANİ:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Molla Həsən Tanrıverdi oğlu<br>*oğulları*:<br>1. İbrahim<br>2. Sarı<br>3. Musa | 36<br><br>12<br>4<br>1 | *axund* |

## QASIMLI* kəndinin ağaları və koxası - 1823-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, № 812, vərəq 331)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Qeydlər |
|---|---|---|
| 1 | Qasım ağa<br>*oğulları*: 1. Osman<br>2. Əsgər<br>*qardaşı* Məhəmməd<br>*onun oğlu* Daşdəmir | *Kəndxuda* |
| 2 | Vəli ağa<br>*oğulları*: 1. Məhərrəm<br>2. Nəsib<br>3. Yaqub<br>4. Mustafa | |
| 3 | Usub ağa<br>*oğulları*: 1. Hüseyn<br>2. Həsən<br>3. Bayram<br>4. Abbas<br>5. Səfər | |
| 4 | Qasım Nəcəf oğlu<br>*oğulları*: 1. Məmməd<br>2. Kərim<br>3. İbrahim | *koxa* |

* Mənbədə "Qasımoğlu kəndi" kimi göstərilib.

## QASIMLI kəndinin ağaları - 1843-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2048, vərəq 46)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Daşdəmir ağa* Məhəmməd ağa oğlu | 34 | *Hərbi ordenin fərqlənmə nişanına sahibdir* |
| | *oğlu* Əli ağa | 6 | |
| 2 | Osman ağa Qasımağaoğlu | 30 | *praporşik* |
| | *oğlu* Qasım ağa | 8 | |
| 3 | Əsgər ağa Qasımağa oğlu | 26 | |
| 4 | Nəsib ağa Vəli ağa oğlu | 29 | |
| | *oğulları*: | | |
| | 1. Məhərrəm ağa | 10 | |
| | 2. Vəli ağa | 7 | |

---

* Daşdəmir ağa və onun ailə üzvləri barədə ətraflı bax: V.Hacılar. *XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı*, Tiflis, 2003, s. 15-37 və 49-72; F.Valehoğlu. *Qarapapaqlar və onların XIX əsr hərb tarixi*, Bakı, 2005, s. 120-195; V.Hacılar. *Qasımlı Daşdəmir ağa*, "Qarapapaqlar", 2007, № 6, s. 6-11 və № 7, s. 7-11; V.Hacılar. *Qasımlı Səməd ağa*, "Qarapapaqlar", 2008, № 3 (11), s. 13-17; V.Hacılar. *Qasımlı Astan ağa*, Qarapapaqlar", 2008, № 4 (12), s. 8-12; F.Valehoğlu. *Krım savaşı və qarapapaqlar,* "Qarapapaqlar", 2007, № 8, s. 30-34 və 2008, № 9, s. 25-32; F.Valehoğlu. *Daşdəmir ağa və Tiflis qəza rəisinin köməkçisi Qluxovski*, "Qarapapaqlar", 2010, № 4 (34), s. 34-35; F.Valehoğlu. *Bir intiqam olayının tarixçəsi haqqında*, "Qarapapaqlar", 2010, № 6 (36), s. 26-28; F.Valehoğlu. *Qasımlı Daşdəmir ağanın nəvəsi – Ağbabalı Dəli Yusuf*, "Qarapapaqlar", 2013, № 4 (68), s. 50-55 *(F.V.).*

| | | | |
|---|---|---|---|
| | *qardaşları*:<br>1. Mustafa ağa<br>2. Yaqub ağa | <br>24<br>17 | |
| 5 | Hüseyn ağa Yusub ağa oğlu<br>*qardaşları:*<br>1. Hasan ağa<br>2. Bayram ağa | 32<br><br>26<br>21 | |

**QASIMLI kəndinin ağaları və ruhaniləri - 1860-cı il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 234, vərəq 364)*

***AĞALAR:***

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Daşdəmir Ağa Məhəmməd ağa oğlu<br>*oğulları*:<br>1. Məhəmməd<br>2. Paşa<br>3. Səməd<br>4. Astan<br>5. Əli | 60<br><br>15<br>12<br>13<br>9<br>3 | *poruçik* |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 2 | Osman ağa Qasım ağa oğlu | 50 | |
| | *oğulları*: | | |
| | 1. Qasım | 25 | |
| | 2. Mansur | 18 | |
| 3 | Əsgər ağa Qasım ağa oğlu | 45 | |
| 4 | Mustafa ağa Vəli ağa oğlu | 45 | |
| | *oğlu* Astan | 4 | |
| | *qardaşı* Yaqub ağa | 40 | |
| | *onun oğulları*: | | |
| | 1. Süleyman | 7 | |
| | 2. İsmayıl | 5 | |
| | *əmisi oğulları*: | | |
| | 1. Məhərrəm | 25 | |
| | 2. Vəli | 20 | |
| 5 | Hasan ağa Yusub ağa oğlu | 45 | |
| | *oğlu* Abbas | 6 | |
| | *qardaşları*: | | |
| | 1. Bayram | 35 | |
| | *onun oğulları*: | | |
| | 1. Usub | 7 | |
| | 2. Oruc | 4 | |
| | 2. Səfər | 30 | |
| | *onun oğulları*: | | |
| | 1. Bəkir | 4 | |
| | 2. Ömər | 4 | |
| | 3. Dəmir (Teymur) | 3 | |
| | 4. Hacımahmud | 1 | |

***RUHANİLƏR:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Mürsəl Molla Hüseyn oğlu | 40 | *əfəndi* |
| 2 | Molla Həsən Molla Əli oğlu<br>*oğulları*:<br>1. Hüseyn<br>2. Mehdi<br>3. İsgəndər | 50<br><br>25<br>7<br>5 | *axund* |

## QASIMLI kəndinin ağaları - 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1553, vərəqlər 40-41)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Astan ağa Daşdəmir ağa oğlu Qasımov | 33 | *praporşik* |
| | *qardaşları*: | | |
| | 1. Pənah ağa | 22 | |
| | 2. Takurbəy (? - Tahirbəy) | 4 | |
| | *qohumları*: | | |
| | 1. Məmməd ağa oğlu Əskər ağa | 18 | |
| | 2. Teymur ağa | 15 | |
| 2 | Paşa ağa Səməd ağa oğlu Qasımov | 8 | } *əkizlər* |
| | *qardaşları*: | | |
| | 1. Rüstəm ağa | 8 | |
| | 2. Hüseyn bəy | 2 | |
| 3 | *Mərhum* Qasım ağa Osman ağa oğlu Qasımovun varisi Minəxanım | 18 | |

**QAYAQOCALI kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,
iş № 1254, vərəq 254;
fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məmmədhasan ağa Seyid Yüzbaşı oğlu | - | *praporşik; 1821-ci ildən ağa imtiyazına sahibdir* |
| 2 | Hüseyn ağa Yüzbaşı ağa oğlu<br>*qardaşları*:<br>1. Mustafa ağa<br>2. Babakişi ağa | 20<br><br>15<br>13 | |
| 3 | Ağakişi ağa Yüzbaşı oğlu | 14 | *Kənd 5 evdən ibarətdir* |

**Qeyd.** Qafqaz canişininin 6 dekabr 1846-cı il tarixli reskriptinə əsasən Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 6 may 1848-ci ildə Ağcaqalada imzaladıqları 43 saylı şəhadətnamədə qeyd olunurdu ki, Qayaqocalı kəndinin məskun və qeyri-məskun torpaqları 14 his-

səyə bölünmüş və onun 13 hissəsi canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığı ilə aşağıdakı pay bölgüsünə uyğun adları çəkilən kənd ağalarının ömürlük irsi mülkiyyətinə verilmişdir:

praporşik Məmmədhasan ağa (Seyid Yüzbaşının oğlu) – 3 ¾ pay;

Mustafa ağa (Seyid Yüzbaşının oğlu) – 2 ¾ pay;

Babakişi ağa (Seyid Yüzbaşının oğlu) – 1 pay;

Abbasqulu ağa və Mehdiqulu ağa (Seyid Yüzbaşının qardaşı Hüseyn ağanın övladları) – hərəsinə 2 ¾ pay.

Bundan əlavə, canişin tərəfindən təsdiq olunmuş qaydalara görə, yerdə qalan sonuncu torpaq payı da (ümumi bölünmüş torpaqların $^1/_{14}$ hissəsi) ömürlük və irsi sahiblik hüququnda praporşik Məmmədhasan ağaya ayrılmışdı[349] (Şəhadətnamədə qeyd olunan digər müddəalar üçün bax: səh 19)[*].

---

[349] ARDTA, f. 923, s. 1, iş № 1, v. 3.

[*] Şəhadətnamənin surəti üçün bax: *Əlavə 6* (səh. 280-281).

## QƏMƏRLİ kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 165; fond 2, siyahı 1, iş № 2672)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Nəsib ağa Məhəmməd ağa oğlu | 26 | *Ağalıq imtiyazına qardaşı Qurban ağa öldükdən (1832-ci ildən) sonra sahib olub* |
| | *qardaşları*: | | |
| | 1. Əhməd ağa | 15 | |
| | 2. Alı ağa | 10 | |
| | *qardaşı oğlu* İsmayıl | 7 | |
| | | | *Kənd 40 evdən ibarət olub* |

**QIRIXLI-BƏYAZİTLİ kəndinin ağaları – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 190; fond 2, siyahı 1, iş № 2672)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1164 | Adıgözəl ağa Əli ağa oğlu<br>*oğlu* İsmayıl<br>*qardaşları*:<br>1. Məmməd<br>2. Əli<br>*qohumu* Paşa (?) ağa | 45<br>19<br><br>25<br>18<br>4 | *20 ildən çoxdur ağa imtiyazına sahibdir, bunu təsdiq edən şəhadətnaməsi var* |
| 1184 | Kərim ağa Məmməd ağa oğlu<br>*oğlu* Abbas Əli<br>*qohumları*:<br>1. Məhəmməd<br>2. Məhəmməd Xəlil | 40<br>1<br><br>17<br>9 | *Ağalıq imtiyazını təsdiq edən sənədləri yoxdur*<br><br>*Kənd 20 evdən ibarətdir* |

## QIRIXLI kəndinin ağaları – 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 56-58)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Kərbəlayı İsmayıl ağa İsmayıl ağa oğlu Sultanov | 40 |
| | *oğlu* Mehdi | 7 |
| 2 | Abbasqulu ağa Paşa ağa oğlu Sultanov | 24 |
| | *oğlu* Paşa ağa | 1 |
| 3 | Süleyman ağa Paşa ağa oğlu Sultanov | 25 |
| | *qardaşı* Məmmədhüseyn ağa | 19 |
| | *onun oğlu* Əsəd ağa | 1 |

## QIZILHACILI kəndinin ağaları - 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1,*
*iş № 1254, vərəq 125;*
*fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Tanrıverdi Novruzalı oğlu | - | *praporşik; 04.09.1812-ci ildən ağa imtiyazına sahibdir.* |
| 2 | İsmayıl ağa İrzaqulu oğlu<br>*oğulları*: 1. Məhəmməd<br>2. Hüseyn<br>3. İbrahim<br>4. Əmirastan<br>5. Əlləz | 54<br>17<br>15<br>4<br>3<br>2 | |
| 3 | Qulu Ağa Xəlifəqulu oğlu<br>*oğlu* Atabəy<br>*qardaşı* Əbilqasım | 53<br>7<br>37 | *Qulu ağa Georgi lentində gümüş medalla təltif olunub.* |
| 4 | Hasan ağa Xəlifəqulu oğlu<br>*oğulları*: 1. İbrahim<br>2. Süleyman | 39<br>15<br>7 | *Kənd 70 evdən ibarətdir* |

**Qeyd.** Siyahıda adı birinci sırada göstərilən praporşik Tanrıverdi Novruzalı oğlu 1823-cü ildə 35 yaşında olmuş və Qızılhacılı kəndinin kəndxudası vəzifəsini icra etmişdi[350]. Törəmələri *Novruzalıyev (Novruzalov)* soyadını daşımışdırlar.

[350] GMTA, f. 254, s. 1, iş № 811, v. 39.

## QIZILHACILI kəndinin ağaları - 1843-cü il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 2048)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Hüseyn ağa İsmayıl ağa oğlu | 26 | |
| | *oğlu* Uğurxan ağa | 7 | |
| | *qardaşları*: | | |
| | 1. Məmməd ağa | 25 | |
| | 2. İbrahim ağa | 12 | |
| | 3. Əmirastan ağa | 14 | |
| | 4. Əlləz (İlyas) ağa | 10 | |
| | 5. Mustafa ağa | 8 | |
| | 6. Astan ağa | 6 | |
| 2 | Atabəy ağa Qulu ağa oğlu | 18 | |
| | *qardaşı* Balabəy | 6 | |
| 3 | Süleyman ağa Həsən ağa oğlu | 18 | |
| | *qardaşı* Ağa bəy | 6 | |
| 4 | Əli ağa Əliqulu ağa oğlu | 32 | *praporşik* |
| | *oğlu* Mehdi ağa | 6 | |
| 5 | Şahqulu ağa Əliqulu ağa oğlu | 46 | *praporşik* |
| | *oğulları*: | | |
| | 1. İman ağa | 18 | |
| | 2. Əli Hümmət Ağa | 16 | |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| | 3. Ağa bəy<br>4. Həsən ağa<br>5. Hüseyn ağa<br>6. Məmməd Həsən ağa | 15<br>12<br>6<br>1 | |
| 6 | Tanrıverdi ağa<br>*oğulları*:<br>1. Əli<br>2. Bala bəy | 56<br><br>7<br>3 | *praporşik* |

**Qeyd.** Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 1848-ci ilin 6 mayında Ağcaqalada imzaladıqları 44 saylı şəhadətnamədə qeyd olunurdu ki, Qızılhacılı kəndinin məskun və qeyri-məskun torpaqları 14 hissəyə (paya) bölünmüş və onun 12 hissəsi canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığına uyğun olaraq aşağıdakı pay bölgüsünə müvafiq adları çəkilən kənd ağalarının ömürlük və irsi mülkiyyətinə verilmişdir:

Şahqulu ağa (Əliqulu ağanın oğlu) – 2¾ pay;

praporşik Əli ağa (Şahqulu ağanın qardaşı) – 2 pay;

Hüseyn ağa (İsmayıl ağanın oğlu) – 1¾ pay;

Əmiraslan ağa, İlyas (Əlləz) ağa, Mustafa ağa və Aslan ağa (İsmayıl ağanın övladları) – 2½ pay;

Ata bəy və Bala bəy (Qulu ağanın oğulları) – 2 pay;

Süleyman ağa və Ağa bəy (Həsən ağanın oğulları) – 1 pay[351].

Bölünmüş torpaqların yerdə qalan 2 payı isə (yəni $^{2}/_{14}$-si) sözügedən komissiyanın eyni tarixdə verdiyi 45 saylı şəhadətnamə ilə podporuçik Tanrıverdi ağa Novruz oğluna ömürlük istifadə üçün ayrılırdı. Ancaq bu torpağın irsi mülkiyyətə verilməsi üçün Tanrıverdi ağanın oğul övladları ober-zabit (kiçik zabit) rütbəsi almalı idilər[352] (Şəhadətnamələrdə qeyd olunan digər müddəalar üçün bax: səh. 19-20)[*].

[351] ARDTA, f. 923, s. 1, iş № 1, v. 4.
[352] Yenə orada, v. 5.
[*] Şəhadətnamələrin surəti üçün bax: *Əlavə 7 və Əlavə 8* (səh. 282-285).

## QIZILHACILI kəndinin ağaları - 1886-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 3, iş № 1552, vərəqlər 70-73)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 1 | Mehdi ağa Əli ağa oğlu Mursaqulov* | 45 |
| | *oğulları*: | |
| | 1. Əli bəy | 22 |
| | 2. Vəli bəy | 17 |
| | 3. Ələsgər ağa | 10 |
| | 4. Kərim ağa | 9 |
| | 5. Mursaqulu ağa | 2 |
| 2 | Atabəy Qulu ağa oğlu Mursaqulov | 60 |
| | *oğulları*: | |
| | 1. Qulu bəy | 30 |
| | 2. Musa ağa | 10 |
| | 3. Astan ağa | 7 |
| | 4. Zal ağa | 1 |
| 3 | Halay bəy Hüseyn ağa oğlu Mursaqulov** | 19 |
| | *oğlu* Xan ağa | 1 |

* Başkeçid bölgəsində XX əsrin 60-cı illərinədək mövcud olmuş Mehdiağalar kəndi Mehdi ağa Mursaqulovun adı ilə bağlıdır *(F.V.)*.

** Halay bəy barədə ətraflı bax: V.Hacılar. *XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı*, Tiflis, 2003, s. 72-89; V.Hacılar. *Qızılhacılı Halay bəy Mürsəqulov*, "Qarapapaqlar", 2008, № 5 (13), s. 17-22 *(F.V.)*.

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | *qardaşları*: | |
| | 1. Cəlil ağa | 9 |
| | 2. Almaz ağa | 4 |
| 4 | Hacı Həsən Ağa Şahqulu ağa oğlu Mursaqulov | 55 |
| | *oğulları*: | |
| | 1. Əsgər ağa | 28 |
| | 2. Şahismayıl ağa | 22 |
| | 3. Uğurlu ağa | 16 |
| | 4. İbrahim ağa | 7 |
| 5 | Rəhim ağa Əli Hümbət ağa oğlu | 30 |
| | *oğulları*: | |
| | 1. Xəlil ağa | 9 |
| | 2. Nəsrəddin ağa | 5 |
| | *qardaşları*: | |
| | 1. Abbas ağa | 9 |
| | 2. Böyük ağa | 7 |
| 6 | Ağabəy Şahqulu ağa oğlu Mursaqulov | 55 |
| | *oğlu* Qədir ağa | 22 |
| | *onun oğlu* Şamxal ağa | 1 |
| 7 | Paşa Əmirastan ağa oğlu Mursaqulov | 29 |
| | *oğlu* Əmir ağa | 5 |
| | *qardaşı* Səməd ağa | 11 |

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 8 | İsmayıl ağa Mustafa ağa oğlu Mursaqulov | 23 |
| | *qardaşları*: | |
| | 1. İsrafil ağa | 18 |
| | 2. Əsəd ağa | 8 |
| 9 | Əlisgəndər ağa Hüseyn ağa oğlu Mursaqulov | 30 |
| | *oğulları*: | |
| | 1. Rəhim ağa | 7 |
| | 2. Teymur ağa | 3 |
| 10 | Uğurlu Xan ağa Hüseyn ağa oğlu Mursaqulov | 45 |
| | *oğlu* Kərim ağa | 14 |
| 11 | Kərbəlayı Balabəy Qulu ağa oğlu Mursaqulov | 45 |
| | *oğulları*: | |
| | 1. Qasım ağa | 16 |
| | 2. Kazım ağa | 11 |
| | 3. Məmməd | 9 |
| 12 | İbrahim ağa Süleyman ağa oğlu Mursaqulov | 27 |
| 13 | Ağa bəy Həsən ağa oğlu Mursaqulov | 47 |
| 14 | Balabəy Tanrıverdi ağa oğlu Novruzov | 40 |
| | *oğlu* Şamil | 4 |
| | *qardaşı* Əli bəy | 37 |
| | *onun oğulları*: | |
| | 1. Camal ağa | 11 |
| | 2. Cavad ağa | 1 |

**Qeyd 1.** *İbrahim ağa Hacı Həsən ağa oğlu Mursaqulovun* (siyahıda 4-cü ailə) adı 1919-cu ildə Gürcüstan Demokratik Respublikasının parlamentinə keçirilən seçkilərdə Gürcüstan Müsəlmanları Milli Şurasının deputatlığa namizədləri siyahısında əks olunurdu[353]. O, İsmayıl Mursaqulov Qızılhacılı məktəbinin müdiri olduğu zaman (1921-ci ildə), həmin məktəbdə müəllimlik etmişdir[354].

İbrahim Mursaqulov Məngilis bölgəsinin 1918-ci ildə 22 türk-qarapapaq ailəsinin yaşadığı Nəbillər (Napilnar) kəndində və Göhnar adlanan ərazisində 150 desyatin (163.5 hektar) torpaq sahəsinə sahib olmuşdur[355].

**Qeyd 2.** *Almaz ağa Mursaqulovun* (siyahıda 3-cü ailə, məşhur Halay bəyin qardaşı) Tiflisdə Surp-Sarkis döngəsi 5 ünvanında (indiki İ.Qrişaşvili küçəsi) şəxsi evi olmuş və kredit pul müqabilində girov qoyulmuş həmin ev 1919-cu ildə hərraca çıxarılmışdır.

---

[353] Ətraflı bax: Valehoğlu-Hacılar F., Hacılar A. *Gürcüstan Demokratik Respublikasında yerli özünüidarəetmə orqanlarına seçkilərdə azərbaycanlıların iştirakı*, "Gürcüstan" qəz., 2018, № 45-50 (№ 12707-12711).

[354] Ə. Paşayev, N. Bayramov, G. Qocayeva-Məmmədova, göstərilən əsər, s. 366.

[355] "ერთობა" ("Ertoba") qəz., 1918, 25 oktyabr, № 229, s. 4.

## QOŞAKİLSƏ kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 182; fond 2, siyahı 1, iş № 2672)*

| Ailənin qeydiyyat nömrəsi | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Əhməd ağa Əli ağa oğlu | 80 | |
| | *oğlu* Mirzə Vəli ağa | 37 | *Vəli ağa Əhməd ağa oğlu 28.08.1831-ci ildən etibarən ağalıq imtiyazına sahib olub Qoşakilsənin ağalar siyahısına başçılıq edir.* |
| | *qardaşları*: | | |
| | 1. Əli ağa | 50 | |
| | *onun oğulları* | | |
| | 1. Abdulla | 7 | |
| | 2. Usub | 5 | |
| | 2. Məmməd ağa | 40 | |
| | *onun oğlu* İsmayıl | 2 | |
| | 3. Bayram ağa | 20 | |
| | 4. Süleyman ağa | 19 | |
| 2 | Əhməd ağa Hacı ağa oğlu | 24 | |
| | *qardaşı* Məmməd | 14 | |
| 3 | Qasım ağa Hacı ağa oğlu | 24 | |
| | | | *Kənd 37 evdən ibarətdir.* |

## AŞAĞI SARAL kəndinin ağaları – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 235; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Məmmədhəsən ağa<br>*qardaşı* Məmmədhüseyn ağa | -<br>- | *praporşik; 22.05.1830-cu ildən ağalıq imtiyazına sahibdirlər* |
| 2 | Ələkbər ağa Məmmədhüseyn oğlu<br>*qardaşı* Ələsgər | 16<br>14 | |
| 3 | Sadıq ağa Əmir ağa oğlu<br>*oğulları*: 1. Mehdi<br>2. Qasım | 31<br>13<br>1 | |
| 4 | Rüstəm ağa Peyğəmbərqulu oğlu<br>*oğulları*: 1. Məmmədxan<br>2. Mirzəli<br>3. Qulu<br>4. Bayram<br>*qardaşı* Astan ağa<br>*onun oğlu* Babakişi | 42<br>17<br>15<br>9<br>3<br>30<br>1 | |
| 5 | Kərəmət ağa Peyğəmbərqulu oğlu<br>*oğlu* Cəfər | 35<br>4 | |
| | | | *Kənd 25 evdən ibarətdir* |

**Qeyd 1.** Aşağı Saral ağaları *Axundov* soyadını daşımış, şəmşəddilli məşhur *Zülqədərov* ağa nəsli ilə qohumluq əlaqələrində olmuşlar.

**Qeyd 2.** 1918-ci ilin yay aylarında Borçalı qəzasında müəyyən silahlı qruplar, əsasən də erməni quldur dəstələri alman qoşunlarının mövcudluğuna arxalanaraq yerli qarapapaq türklərinin sıxışdırılması istiqamətində fəallaşırlar. Bununla bağlı Aşağı Saral kəndinin ağaları *Böyük bəy Axundov* və *Cəlal bəy Axundov* Almaniyanın Gürcüstanda hərbi missiyasının baş qərargahına şikayət ərizəsi yazırlar. Bu ərizəyə alman baş qərargahının kapitanı tərəfindən göndərilmiş cavab məktubunda Borçalıda baş vermiş qarətlərdə ermənilərin suçlu olduğu vurğulanır.

Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstandakı diplomatik nümayəndəliyinin rəhbəri M.Y.Cəfərov da borçalıların üzləşdiyi problemlərlə bağlı Almaniyanın Qafqazdakı hərbi missiyasının başçısı, general-mayor Fon-Kressə (Fridrix Kress fon Kressenşteynə) bir neçə məktub ünvanlamışdı. 31 avqust 1918-ci il tarixində imzalanmış belə məktublardan birinə adları çəkilən sarallı ağaların qeyd edilən ərizəsinin surəti əlavə olunmuşdu[356].

*Böyük bəy Ağa bəy oğlu Axundov* 1919-cu ilin fevral ayında Gürcüstan Müəssislər Məclisinə (parlamentinə) keçirilmiş seçkilərdə Borçalı Qəzası Müsəlmanları Qrupunun millət vəkilliyinə namizədləri siyahısına başçılıq edirdi.

---

[356] ARDA, f. 970, s. 1, iş № 18, v. 89.

## YUXARI SARAL kəndi – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 231; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Əmircan ağa İmamverdi oğlu<br>*oğulları*:<br>1. Məhəmməd ağa<br>2. Əli<br>*qardaşları*:<br>1. Babakişi<br>2. Qasım (Kazım)<br>*qohumu* Qurban ağa<br>*əmisi* Musa ağa Xudun (?) oğlu<br>*onun oğulları*:<br>1. Usub<br>2. Abdulla | 59<br><br>26<br>17<br><br>16<br>13<br>15<br>54<br><br>19<br>15 | *7 ildən çoxdur ki, (qardaşı İmamverdi bəy öləndən sonra) ağalıq imtiyazına sahibdir.*<br><br>*Kənd 20 evdən ibarətdir* |

**Qeyd 1.** *Əmircan ağa* 1817-ci ildə Borçalının Baraxlı kəndində kəndxuda vəzifəsini tutmuşdur. 1836-cı ilə aid arxiv sənədində də Əmircan ağa Baraxlı kəndinin ağası kimi göstərilir. 1804-1813-cü illər rus-qacar müharibəsi zamanı rus komandanlığı üsyankar Pəmbək ağaları ilə əlaqə saxlamaq üçün etibarlı Borçalı ağalarının vasitəçiliklərindən istifadə edirdi. Bu ağaların sırasında Əmircan ağa da var idi[357].

[357] Акты…, т. 2, с. 581.

**Qeyd 2.** Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 1848-ci ilin 6 mayında Ağcaqalada imzaladıqları 52 saylı şəhadətnamədə qeyd olunurdu ki, Yuxarı Saral kəndinin məskun və qeyri-məskun torpaqları 14 hissəyə bölünmüş və onun 13 hissəsi canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığına uyğun olaraq aşağıdakı pay bölgüsünə müvafiq adları çəkilən kənd ağalarının ömürlük və irsi mülkiyyətinə verilmişdir:

praporşik Babakişi ağa və Kazım (Qasım) ağa (İmamverdi ağanın oğulları) – 5 pay;

Məhəmməd ağa və Əli ağa (Əmircan ağanın oğulları) – 5 pay;

praporşik Babakişi ağa – 2 pay.

Bir pay da bu bölgüdən yararlanmış ağaların ümumi istifadəsi üçün ayrılırdı[358].

Bölünmüş torpaqların yerdə qalan sonuncu 1 payı (yəni $^{1}/_{14}$-i) sözügedən komissiyanın eyni tarixdə verdiyi 53 saylı şəhadətnamə ilə kollec registratoru Əmircan ağa Bədəl oğluna ömürlük istifadə üçün verilirdi. Lakin bu torpağın irsi mülkiyyətə verilməsi üçün Əmircan ağanın oğul övladları ober-zabit (kiçik zabit) rütbəsi almalı idilər[359] (Şəhadətnamələrdə qeyd olunan digər müddəalar üçün bax: səh. 19-20)*.

---

[358] ARDTA, f. 923, s. 1, iş № 1, v. 10.

[359] Yenə orada, v. 11.

* Şəhadətnamələrin surəti üçün bax: *Əlavə 9 və Əlavə 10* (səh. 286-289).

**SARVAN kəndinin ağaları və ruhaniləri – 1831-ci il**

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 105; fond 2, siyahı 1, iş № 2672)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | İbrahimxəlil ağa İlyas (Əlyaz) ağa oğlu | - | *praporşik; 18.07.1827-ci ildən ağa imtiyazına sahibdir* |
| | *qardaşı* Əlisgəndər ağa | 13 | |
| 2 | Əmirastan ağa İbrahimxəlil oğlu | 61 | *Georgi lentli "səyinə görə" medalına sahibdir* |
| | *oğulları*: | | |
| | 1. Abdulla | 25 | |
| | 2. Hacıxəlil | 13 | |
| | 3. Qəhrəman | 9 | |
| | 4. İbad | 4 | |
| | 5. Aslan ağa | 1 | |
| 3 | Məmməd ağa İbrahimxəlil ağa oğlu | 52 | *Georgi lentli "səyinə görə" medalına sahibdir* |
| | *oğulları:* | | |
| | 1. Əli ağa | 27 | |
| | *onun oğlu* Balabəy | 1 | |
| | 2. Hacıismayıl ağa | 14 | |
| | 3. Əlişan | 11 | |

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 4 | Gülməmməd ağa Şərif oğlu<br>*oğulları*:<br>1. Şərif<br>2. Əli<br>3. Usub | 65<br><br>22<br>18<br>14 | *Georgi lentində "səyinə görə" medalına sahibdir* |
| 5 | Hüseyn ağa Əli ağa oğlu<br>*qardaşları:* 1. Qasım<br>2. Qurban | 22<br>15<br>10 | *Ərcivan kəndinə köçüb* |
| 6 | Əhməd ağa Molla Məhəmmədxəlil ağa oğlu<br>*oğulları:* 1. Hasan<br>2. Hüseyn<br>3. İrzaqulu<br>4. Qasım | 42<br>15<br>13<br>11<br>8 | |
| 7 | Molla Vəli Məhəmmədxəlil oğlu<br>*oğlu* Məhəmmədxəlil<br>*qardaşı* Məhəmməd | 45<br>8<br>- | *Həkimliklə məşğuldur. Gürcüstandakı rus qoşunlarının baş komandanlığı tərəfindən 24.12.1831-ci ildə ona bu peşə ilə məşğul olmağa icazə verilmişdir*<br><br>*Kənd 105 evdən ibarətdir* |

**Qeyd 1:** Arxiv mənbələrindən bəlli olur ki, Sarvan ağaları XVIII əsrin sonuna yaxın Borçalını tərk etmiş və Kartli-Kaxetiya çarının müdaxiləsi nəticəsində qısa müddət sonra geri vətənlərinə dönmüşdürlər. Çar XII Georgi *İlyas ağa* başda olmaqla öz yurdlarından ayrılmış Sarvan ağalarına və kəndxudalarına 1799-cu ildə təliqə yazaraq onları əfv etdiyini və hamısının öz yaşayış yerlərinə qayıdacağına ümidvar olduğunu bildirirdi[360].

Sözügedən İlyas ağanın ailə üzvləri barədə 1831-ci ilin kameral təsvirinə istinadən yuxarıda təqdim olunan cədvəldən əlavə, Borçalı distansiyasının 1823-cü ilə aid kameral təsvirində nisbətən ətraflı bilgilər verilir:

poruçik İlyas ağa İbrahimxəlil ağa oğlu – 55 yaş;
*arvadı* Gülin (?) – 40 yaş;
*oğulları*: 1. İbrahimxəlil – 28 yaş,
2. İsgəndər ağa – 4 yaş;
*qızları:* 1. Güllüzar – 12 yaş,
2. Xanım – 8 yaş,
3. Nabat – 6 yaş;
*qardaşları*: 1. Əmirastan ağa – 45 yaş,
2. Məmməd ağa – 40 yaş.[361]

Qeyd edək ki, 1823-cü il kameral təsviri Borçalı ağalarının səlahiyyətlərini xeyli azaldıb torpaq mülkiyyətçisi hüquqlarının ləğv edilməsini özündə ehtiva edən 1818-ci il əsasnaməsinin təsdiqindən sonra həyata keçirilmişdir və bu təsvirdə İlyas ağanın ailəsi Sarvan kəndinin dövlət kəndliləri sırasında qeydiyyata alınmışdır.

İlyas ağa İbrahimxəlil ağa oğlu 1806-1812-ci illər Rusiya-Osmanlı savaşı zamanı öz yaxın qohum-əqrəbası ilə birlikdə rus ordusunun 15-ci yeger alayının tərkibində bəzi əməliyyatlarda iştirak edib podporuçik rütbəsinə layiq görülmüşdü[362]. Onun övladları *İbrahimxəlil ağa* və *Əlisgəndər ağa* isə 1853-1856-cı illər

---

[360] GMTA, f. 1452, iş № 786.
[361] GMTA, f. 254, s. 1, iş № 811, v. 57.
[362] Акты …, т. 5, с. 188.

Rusiya-Osmanlı müharibəsində 3-cü müsəlman-süvari alayının vəkilləri* qismində xidmət etmişdilər. Müharibədə göstərdikləri igidliklərə görə Qafqaz Əlahiddə Korpusunun komandanı N.Muravyovun 13 sentyabr 1855-ci il tarixli əmri ilə İbrahimxəlil ağa üzərində "igidliyə görə" yazısı olan düyməyə taxılan gümüş medalla[363], 21 sentyabr 1855-ci il tarixli əmriylə isə Əlisgəndər ağa gümüş temlyak (qotazlı qaytan) taxmaq hüququnda yunker rütbəsi ilə mükafatlandırılmışdılar[364].

İlyas ağa, Əmirastan ağa və Məmməd ağanın atası İbrahimxəlil ağanın XVIII əsrin təqribən 40-50-ci illərində doğulduğunu və yuxarıda təqdim olunan cədvəldə adı keçən Molla Məhəmmədxəlil ağa ilə qardaş olduğunu ehtimal etmək mümkündür. Onların törəmələri sonralar *Bayramov* soyadını daşıyırlar.

**Qeyd 2.** XIX əsrin birinci yarısına aid arxiv mənbələrində sarvanlı iki fərqli İlyas ağayla bağlı materiallarla qarşılaşırıq. Onlardan biri adı yuxarıda hallanan *İlyas ağa İbrahimxəlil ağa oğlu* (≈1768-ci il təvəllüdlü), digəri isə *İlyas ağa Məmməd ağa oğludur* (≈1793-cü il təvəllüdlü).

Sonuncunun atası, Sarvanın *Minasazlı* məhəlləsinin eyniadlı nəslinin ulularından olan Məmməd ağa Kartli-Kaxetiya çarlığında nüfuzlu qarapapaq əyanlarından sayılırdı. Çar II İrakli 20 mart 1784-cü il tarixli əmrilə *Məmməd ağa Minasaza* 10 tümən illik məvacib təyin etmişdi[365].

Sarvan ağaları Borçalı Çar Rusiyasının tabeliyinə keçəndən sonra da hakimiyyətyönümlü mövqedə dayanmışdılar. Rus idarəçiliyinin ilk illərində Məmməd ağa, sonra isə İlyas ağa (çox

---

* Çar Rusiyasının ordu birliklərində vəkil (uryadnik) unter-zabit – aşağı komanda heyətinə mənsub hərbi qulluqçu idi.

363 «Кавказ» qəz., 24.09.1855, № 75; «Закавказский вестник» qəz., 29.09.1855, № 39.

364 «Кавказ» qəz., 08.10.1855, № 79; «Закавказский вестник» qəz., 13.10.1855, № 41.

365 GMTA, f. 1448, iş № 806.

güman ki, İlyas ağa İbrahimxəlil ağa oğlu) Sarvan kəndxudası vəzifəsini tuturdular. Gürcüstanda rus hərbi qüvvələrinin komandanı general İ.Lazarev 1801-ci ildə İrəvan xanlığına köçmüş Pəmbək ağaları ilə əlaqə yaradıb onları öz tərəflərinə çəkmək üçün Sarvan kəndxudası Məmməd ağa Minasazın vasitəçiliyindən istifadə edirdi[366].

Məmməd ağa Minasazın oğlu praporşik İlyas ağa İbrahimxəlil ağanın nəvələri − praporşik Xəlil ağa İlyas ağa oğlu (≈1803 -cü il təvəllüdlü) və praporşik Əli ağa Məhəmməd oğlu, eləcə də digər həmkəndlisi praporşik Qasım ağa Şərif oğlu (≈1793-cü il təvəllüdlü) ilə birlikdə 1843-cü ildə Borçalı nahiyəsində dövlət qulluğunda olublar (bax: səh. 80).

İlyas ağa Məmməd ağa oğlunun övladı *Məmməd ağa Minasazov* (≈1825-ci il təvəllüdlü) 1853-1856-cı illər Rusiya-Osmanlı savaşında Borçalının Qasımlı kəndinin ağası Daşdəmir ağanın başçılıq etdiyi könüllü süvarilər dəstəsində vuruşmuşdur. O, döyüşlərdə fərqləndiyinə görə komandan N.Muravyov tərəfindən üstündə "igidliyə görə" yazısı olan gümüş medala və gümüş temlyak gəzdirmək hüququnda yunker rütbəsinə layiq görülmuşdür[367].

**Qeyd 3.** Sarvan ağalarının yaylaqları Borçalı mahalının şimal hissəsini təşkil edən Barmaqsız bölgəsində Trialet dağlarında yerləşirdi. Onlardan bəziləri yaylaq yerlərində daimi məskən salmışdılar. Barmaqsızın Ərcivan-Sarvan (Dağ-Sarvan) kəndi yaxınlığında mövcud olmuş Minasazkəndin əsası aran-sarvanlı eyniadlı soyun ağaları tərəfindən qoyulmuşdu. Sahibkar kəndi Minasazkənddən fərqli olaraq onun ətrafındakı digər 4 türk-qarapapaq kəndində dövlət kəndliləri yaşayırdı[368]. 1885-ci ildə Minasazkənd praporşik Minasazovun törəmələrinin ömürlük və ödənişsiz istifadə-

[366] GMTA, f. 2, iş № 5, vv. 61-63.
[367] «Кавказ» qəz., 08.10.1855, № 79; «Кавказ» qəz., 19.11.1855, № 91.
[368] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, том 7-ой, с. 386.

sində olan 157 desyatin (2100 kv.sajen) torpaq sahəsindən, sakinləri əkinçiliklə məşğul olan 5 evdən ibarət olmuşdur[369].

Sarvan kəndinin 1831-ci il kameral təsvirinə istinadən yuxarıda təqdim olunan siyahıda 5-ci sırada qərar tutan Hüseyn Əli oğlunun və qardaşlarının adına, eləcə də Minasazlılardan Məmməd (Məmmədəli) ağa İlyas ağa oğlu ilə qardaşları Əsəd, Qəhrəman va Ağabəyin adlarına Ərcivan-Sarvan kəndinin 1860-cı ilə dair kameral siyahısında rast gəlinir (bax: səh. 256).

**Qeyd 4.** 1789-cu ildə kiçik süvari dəstəsi ilə Qars paşalığına soyğunçu hücum edib əldə etdiyi qənimət və əsirlərlə geriyə dönən çar II İraklinin 20 yaşlı nəvəsi şahzadə Davidi onu təqib edən türk atlılarına əsir düşməkdən “sadiq silahdaşı – Sarvan müsəlmanı”, mehtər *Gülməmməd Şərif oğlu* xilas edir. Bu Sarvan qarapapağı süvar olduğu atını öz atı bataqlıqda ilişib qalmış şahzadəyə verərək onu ölümdən qurtarır[370].

Təqdim olunan siyahıda adı 4-cü sırada yer alan Gülməmməd Şərif oğlunun qardaşlarından Qasım XIX əsrin 20-ci illərində Barmaqsız bölgəsindəki gözətçi-süvari dəstənin başçısı idi, həmin dövrdə Ahısqa paşalığının Axalkələk mahalında yaşayan digər qardaşı Əhməd ağa isə çox keçmədən Barmaqsızın Ərcivan-Sarvan kəndinə qonşuluqdakı Culuxlu (Tecis) kəndində məskunlaşmışdı (bax: səh. 152).

**Qeyd 5.** Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağaların torpaq sahəsi ilə təmin olunması üçün yaradılmış xüsusi komissiyanın sədrinin və üzvlərinin 1848-ci ilin 6 mayında Ağcaqalada («Серый Замок») imzaladıqları 46 saylı şəhadətnamədə qeyd olunurdu ki, Ərcivan və Sarvan kəndlərinin məskun və qeyri-məskun torpaqları 14 hissəyə (paya) bölünmüş və onun 11½ hissəsi canişinin icazəsi, eləcə də tərəflərin könüllü razılığı-

---

[369] Yenə orada, s. 465.
[370] Г. Кикодзе. Ираклий второй, Тбилиси, 1948, с. 125.

na uyğun olaraq aşağıdakı pay bölgüsünə müvafiq adları çəkilən kənd ağalarının ömürlük və irsi mülkiyyətinə verilmişdir:

poruçik İbrahimxəlil ağa (İlyas ağanın oğlu) – 3¼ pay;

Əlisgəndər ağa (İbrahimxəlil ağanın qardaşı) – 1¾ pay;

Əmiraslan bəy[*] (İbrahimxəlil ağanın oğlu) – 1¾ pay;

Əli ağa, Hacıismayıl ağa və Əlişan ağa (Məmməd bəyin oğulları) – 1¾ pay;

Məmmədxəlil ağanın oğulları – Molla Bayram ağa, Molla Vəli ağa və Molla Məmməd ağa; Əli ağanın oğulları – Hüseyn ağa, Qasım ağa və Qurban ağa; Əhməd ağanın oğulları – kollec registratoru Həsən ağa, Hüseyn ağa, Rzaqulu ağa və Qasım ağa – hamısına birlikdə 3 pay[371].

Bölünmüş torpaqların $1^{1}/_{2}$ payının xüsusi bölgü əsasında sonradan bölünməsi nəzərdə tutulur, 1 payı (yəni $^{1}/_{14}$-i) isə sözügedən komissiyanın eyni tarixdə verdiyi 47 saylı şəhadətnamə ilə podporuçik Qasım ağa Şərif oğluna ömürlük istifadə üçün ayrılırdı. Fəqət bu torpağın irsi mülkiyyətə verilməsi üçün Qasım ağanın oğul övladları ober-zabit (kiçik zabit) rütbəsi almalı idilər[372] (Şəhadətnamələrdə qeyd olunan digər müddəalar üçün bax: səh. 19-20)[**].

**Qeyd 6.** Arxiv sənədlərindən və dövrün mətbuat xəbərlərindən XIX əsrdə sarvanlılarla Orbeliani və Salaqov knyazları arasında torpaq üstündə uzun sürən çəkişmələrin baş verdiyi aydın olur. GMTA-da saxlanılan "Sarvan və Dəmirçihasanlı kəndlərinin sakinlərinin knyaz Z.Orbeliani və İ.Salaqovun mülkiyyətində olan torpaqlara hüquqlarının təsdiq edilməsi barədə iş" 1815-ci ilə aiddir[373]. "Zakavkazski vestnik" qəzeti 27 may 1854-

---

[*] Şəhadətnamənin Azərbaycan türkcəsinə tərcümə olunmuş hissəsində Əmiraslan ağa ilə əmisi Əlisgəndər ağanın adları səhvən Əlimərdan ağa kimi yazılıb.

[371] ARDTA, f. 923, s. 1, iş № 1, v. 6.

[372] Yenə orada, v. 7.

[**] Şəhadətnamələrin surəti üçün bax: *Əlavə 11 və Əlavə 12* (290-293).

[373] GMTA, f. 2, s. 1, iş № 460.

cü il tarixli sayında Sarvan və Qızılhacılı kənd sakinləri ilə Orbeliani və Salaqov knyazları arasında mübahisəli torpaq məsələsiylə bağlı məhkəmənin çıxardığı yekun qərarı dinləmək üçün Sarvan kəndxudası, podporuçik *İbrahim Xəlil oğlunun* knyaginya Ketevan, knyazlar – Luarsab, David, Aslan, Yakov və Samaraqdo Orbelianilər, Zal və Keyxosrov Salaqovlar ilə birlikdə Tiflis Qəza Məhkəməsinə gəlmələri barədə məlumat dərc etmişdi[374]. Sarvanlılar və qızılhacılılarla Orbeliani, Salaqov və Corayev knyazları arasında mübahisəli torpaq məsələsi ilə bağlı daha bir məhkəmə prosesi 1874-cü ildə baş vermişdi[375].

**Qeyd 7.** GMTA-da saxlanılan türkdilli sənədlər kolleksiyasında yuxarıda təqdim olunan siyahıda 2-ci sırada adları keçən Əmirastan ağa İbrahimxəlil ağa oğlunun övladları Əsədulla ağa, İbadulla ağa, Qəhrəman ağa və Aslan ağanın polkovnik M.Yenikolopova sonuncuya torpaq sahəsi verilməsi ilə bağlı 1855-ci il tarixli məktubları saxlanmaqdadır[376]. Həmin kolleksiyada Ərcivan-Sarvan ağalarının M.Yenikolopova ünvanlanmış 1854-cü il tarixli məktubu da yer alır[377].

**Qeyd 8.** XIX-XX əsrin əvvəllərinə aid arxiv sənədlərində sarvanlı *Bayramlılardan* İsmayıl ağanın, onun qardaşı oğlu Məmməd ağanın, Halay (Haley) ağa Bayramovla övladları Qiyas ağa və Fərəməz ağanın, məşhur qaçaq Hacıxəlil (Hacıxalıl) ağanın, qaraçöplü məşhur qaçaq Çolaq Vəlinin dəstəsinin üzvləri – Əli ağa və Hüseyn (Söyün) ağa Bayramovların adları hallanır[378]. Belə sənədlərdən birindən bəlli olur ki, *Halay bəy Astan ağa oğlu Bayramov*

---

[374] «Zakavkazski vestnik» qəz., 1854, 27 may.
[375] GMTA, f. 116, № 268/a, s. 932, iş № 7.
[376] Bax: GMTA, f. 1453, iş № 377.
[377] Bax: GMTA, f. 1453, iş № 378.
[378] Bax: F.Valehoğlu. *Bir intiqam olayının tarixçəsi haqqında*, "Qarapapaqlar", 2010, № 6 (36); F.Valehoğlu. *Qaraçöplü Çolax Vəli*, "Qarapapaqlar", 2010, № 7 (37), s. 24-25.

1912-ci ildə dövlət əleyhinə fəaliyyətdə suçlanaraq həbs edilmişdir. Tiflis quberniyası Jandarmeriya idarəsinin 26 yanvar 1913-cü il tarixli həbs anketində* onun haqqında aşağıdakı bilgilər verilir:

Doğulduğu yer: Borçalı qəzasının Sarvan kəndi;

Rütbəsi: Sarvan kəndinin şiə zadəganı;

Anası (və onun qızlıq soyadı): Zəhra (Bayramova);

Yaxın qohumları: qardaşları – Qasım ağa, Piri ağa, Həsən ağa və Musa ağa; bacısı – Güləndam;

Təhsili: Tiflis Əliyyə şiə məktəbi (3 sinif hüquq təhsili);

Son iş yeri: Yelizavetpol quberniyasında çəyirtkələrə qarşı mübarizə təlimatçısı;

Son yaşayış yeri: Tiflis şəhəri;

Görünüşünə görə yaşı: 27-28; Boyu: 1 m 66 sm; Qaməti: düz; Saçlarının rəngi: qəhvəyi.

Anketdə, həmçinin, Halay bəyin daha əvvəl məhkum olunmadığı barədə qeyd və daktiloskopik məlumatlar (əl-barmaq izləri) öz əksini tapır[379].

1915-ci ilə aid arxiv sənədlərindən həmin dövrdə Halay ağa Bayramovun fəaliyyəti və davranışlarının rəsmi dairələri şübhələndirdiyi, onun "siyasi etibarlılıq səviyyəsinin" müəyyən edilməsi məqsədiylə müvafiq yazışmaların aparıldığı aydın olur[380].

Təlimatçı-aqronom Halay ağa Bayramov 1919-cu ilin əvvəllərində Gürcüstan Müəssislər Məclisinə (parlamentinə), eyni zamanda Tiflis şəhər şurasına seçkilərdə iştirak edərək, sədr müavini olduğu Gürcüstan Müsəlmanlarının Milli Şurasının namizədlər siyahısına başçılıq edir[381].

---

* Əsli GMTA-da saxlanılan anketin surəti üçün bax: *Əlavə 14* (səh. 296).

379 GMTA, f. 153, s. 3, iş № 523.

380 Bax: GMTA, f. 153, s. 2, iş № 2601 və iş № 2602.

381 GMTA, f. 1834, s. 2, iş № 8; "Sakartvelos Respublika" ("საქართველოს რესპუბლიკა") qəz., 1919, 26 yanvar, № 20, s. 5-6 (Daha ətraflı bax: F.Valehoğlu-Hacılar. *Gürcüstan Parlamentinin ilk türk-müsəlman deputatı. Qaraçöplü Hüseynqulu Məmmədov*, "Birlik" jurnalı, 2018, № 30, s. 50-53).

*Hacıxəlil ağa Bayramov* ünlü qaçaq silahdaşı Qasımlı Astan ağa ilə birlikdə "Vəhşi diviziya" adı ilə məşhurlaşmış Qafqaz yerli süvari diviziyasının tərkibindəki Tatar (Türk) süvari alayının Borçalı qəzasının sakinlərindən təşkil olunmuş 4-cü yüzlüyünün sıralarında Birinci Dünya müharibəsində iştirak etmişdir[382]. Müharibədə göstərdiyi igidliklərə görə ən çox mükafatlandırılan müsəlman süvarilərindən olmuşdur. Könüllü olaraq kəşfiyyata getdiyi üçün IV dərəcəli (təltif № 172584)[383] və III dərəcəli "Georgi xaçı" (təltif № 44588)[384] ordenlərinə layiq görülmüşdür. 7 iyun 1915-ci ildə gizli tapşırığı yerinə yetirən Hacıxəlil ağa düşmənin mühasirəsinə düşsə də, döyüşərək onu yarıb bir nəfər əsirlə öz hərbi hissəsinə qayıda bilmişdir. Bu döyüşdə fərqləndiyi üçün o, 9-cu ordunun komandanı tərəfindən şəxsən ikinci dəfə III dərəcəli "Georgi xaçı" (təltif № 70123) ilə təltif olunmuşdur[385]. Bir müddət sonra bu son təltif II dərəcəli "Georgi xaçı" ordeni (təltif № 29062) ilə əvəz edilmişdir[386]. İlk III dərəcəli "Georgi xaçı"nı alanda H.Bayramov kiçik vəkil, ikincini alanda isə baş vəkil rütbəsində idi.

Hacıxəlil ağa Bayramov qarapapaqlardan ibarət dəstəyə başçılıq edərək uzun müddət Gürcüstanın sovetləşməsinə qarşı fəal mübarizə aparmışdır[387]. Həmin dövrlərdə o, təqiblərdən yaxa qurtarmaq üçün vaxtaşırı Türkiyə ərazisində daldalanmağa məcbur olurdu. Borçalının yerli rəsmi şəxslərinin vədlərinə ina-

---

382 Rusiya Dövlət Hərbi Tarix Arxivi, f. 3642, s. 1, iş № 65, vv. 79-87, 232-236.

383 С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (IV степень, №№ 100001-200000), М., 2012, с. 697.

384 С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (III степень, №№ 1-120000), М., 2015, с. 457.

385 Yenə orada, s. 718.

386 С.Б.Патрикеев. Сводные списки кавалеров Георгиевского креста 1914-1922 гг. (I степень, №№ 1-42480; II степень, №№ 1-85030), М., 2015, с. 631.

387 Hacıbayramlı Nağı Bayramgil. Bolşevik işğalı və mübarizəmiz (siyasi mühacir xatirələri), Bakı, 2020, s. 19.

nıb 1927-ci ildə Qarsdan yurduna dönən H.Bayramov Tiflis yaxınlığındakı Soğanlıq kəndində öz yaxın silahdaşları ilə mühasirəyə alınaraq güllələnmişdir[388].

Tanınmış gürcü yazarı Nuqzar Şataidze Gürcüstanın milli qəhrəmanı, bu respublikada antisovet hərəkatına başçılıq etmiş knyaz Kakutsa Çoloğaşviliyə (Kayxosro Çelokayev) həsr etdiyi "Ağ at" əsərində Borçalı atlılarının başçısı Hacıxəlil obrazına geniş yer ayırmışdır. Güman etmək olar ki, bu obraz Hacıxəlil ağa Bayramovun prototipidir.

**Qeyd 9.** Sarvanın ağa nəsilləri Borçalı mahalında nüfuzlu ziyalıları ilə də seçilmiş, onlardan tanınmış publisistlər *Abbas Minasazov* və qardaşı *Hüseyn Minasazov* (1881-1932), *Ziyad Ağabəy oğlu Şərifov* (1881-1961) və *Rüstəm Paşa oğlu Şərifov* (1882-1972) Qori Müəllimlər Seminariyasının məzunları, XX əsrin əvvəllərində Borçalıda Azərbaycan-türk milli maarifçilik hərəkatının öncüllərindən olan adlı-sanlı pedaqoqlar olmuşlar.

*Abbas bəy Minasazov* Tiflisdə Azərbaycan türkcəsində yayımlanan "Şərqi-Rus" qəzetinin 1903-cü il saylarında publisistik yazıları ilə çıxış etmiş, 1910-1911-ci illərdə Bakı şəhərində "Nicat" Müsəlman Xeyriyyə-Maarif Cəmiyyətinin təşkil etdiyi axşam təhsili kurslarının müdiri olmuş, daha sonra 1912-ci ildə Ordubad şəhər ibtidai məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. O, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Maarif Nazirliyinin xalq təhsili şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

Görkəmli jurnalist-publisist, tərcüməçi, ədəbi tənqidçi və pedaqoq *Hüseyn (Şahhüseyn)Minasazov*[*] siyasi-ictimai fəaliyyətlə də məşğul olmuş, 1917-ci ilin 30 iyul tarixində seçki yolu ilə Tiflis Müsəlmanları Milli Komitəsi sıralarından Tiflis şəhər dumasının qlasnısı (deputatı) seçilmişdir[389]. Azərbaycan Xalq Cümhuriyyətinin

---

[388] M.Sarvan. Ulu Borçalı, Bakı, 1998, s. 520.

[*] H.Minasazovun həyat və yaradıcılığı barədə bax: А.Алиев. Верность правде и жизни, Баку, 1999.

[389] "Kavkaz" qəz., 1917, 4 avqust, № 173.

Gürcüstanda diplomatik nümayəndəliyi təsis olunduğu gündən 3 mart 1919-cu ilədək bu qurumda kargüzar vəzifəsində çalışmışdır[390]. Tiflisdə Vorontsov küç. № 53 ünvanında yaşamışdır[391].

Hüseyn bəy Gülənbər Molla Vəli qızı Minasazova (1893-cü il təvəllüdlü) ilə evli olmuşdur. Onların gənc yaşlarında iki qızı vəfat etmiş, oğulları Məcnun Minasazov isə 1945-ci ildə həlak olmuşdur.

Abbas və Hüseyn Minasazovların atası *Mirzə Baxşəli* Borçalının Qızılhacılı kəndində 1877-ci ildə açılmış ilk türk (Azərbaycan) məktəbində və Tiflis Əliyyə məktəbində müəllim işləmişdir.

Qori seminariyasından 1906-cı ildə məzun olmuş *Rüstəm Şərifov* 1911-ci ildə Tiflis Aleksandr Müəllimlər İnstitutunun üçillik kurslarını da bitirmişdir. Bundan sonra Gorarxı və Sarvan kənd məktəblərində müəllimlik etmiş, Sibirdə siyasi sürgündə olmuş, Gürcüstan Demokratik Respublikası dövründə − 3 oktyabr 1919-cu ildə Sarvan məktəbinə müdir-müəllim təyin olunmuşdur[392]. Həmin dövrdə pedaqoji fəaliyyətlə yanaşı, siyasi-ictimai fəaliyyətlə də məşğul olmuş, 5 noyabr 1920-ci ildə Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) Sarvan kəndində keçirilmiş iclasında təşkilati işlərin görülməsi üçün yaradılmış 5 nəfərdən ibarət müvəqqəti komitənin sədri seçilmişdir[393]. Sovetlər Birliyi dönəmində R.Şərifov yaşadığı rayonun məktəb şöbəsinin müdiri, Qızılhacılı kənd məktəbinin (1935-1938-ci illərdə) və Borçalı Türk Pedaqoji Texnikumunun direktoru olmuşdur. Səmərəli pedaqoji fəaliyyətinə görə ona 1939-cu ildə Gürcüstan SSR Əməkdar müəllimi fəxri adı verilmişdir[394].

---

390 ARDA, f. 897, s. 1, iş № 45, v. 9, 12-13.

391 ARDA, f. 897, s. 1, iş № 103, v. 12.

392 Ə.Paşayev, N.Bayramov, G.Qocayeva-Məmmədova. Gürcüstanda Azərbaycan məktəbləri, Tiflis, 2012, s. 249.

393 «Борьба» ("Borba") qəzeti, 1920, 18 noyabr.

394 Ə.Paşayev, N.Bayramov, G.Qocayeva-Məmmədova, göstərilən əsər, s. 250; G.Qocayeva-Məmmədova, göstərilən əsəri, s. 43.

Sarvanlı yazar-dramaturq *Kərim bəy Şərifli* (1892-1918) də Qori seminariyasını bitirmişdir*. Təəssüflə qeyd etmək lazımdır ki, məşhur qarapapaq ağaları arasında üstünlük və birincilik uğrunda mübarizə bəzən faciəvi sonluqla nəticələnirdi. K.Şərifli də öz həyatı bahasına başa çatmış belə bir mübarizənin qurbanlarından idi. "İşxanyan" imzalı müəllifin Tiflisdə rusdilli Kavkazskoye slovo" qəzetinin 18 yanvar 1918-ci il tarixli sayında yayımlanmış "Birincilik üstündə qətl" başlıqlı məlumat xarakterli məqaləsindən bəlli olur ki, 1917-ci il Oktyabr çevrilişindən sonra Borçalı qəzasında hökm sürən hakimiyyət boşluğu sonucunda yarana biləcək xaosun qarşısını almaq məqsədiylə yerli ağalar könüllü atlı dəstələri formalaşdırırlar. Belə ağalar cərgəsində Sadıq bəy Abbasəli bəy oğlu Yadigarovun poruçik rütbəli oğlu Arçil (Ərçil) bəy və Kərim bəy Şərifli də olur. Gorarxı kəndində yerləşən və Arçil bəyin adamları tərəfindən mühafizəyə alınmış özəl bir malikanə onlar arasında qarşıdurmaya səbəb olur. Belə ki, 1918-ci ilin ilk ayında Kərim bəy dəstəsi ilə bu malikanəyə gəlir və onun mühafizəsini öz üzərinə götürür. Sonra isə malikanəni xalq mülkiyyətinə çevirmək düşüncəsi ilə yaxın kəndlərin sakinləri olan əvvəlki icarədarları arasında bölməyə başlayır. Arçil bəy öz nümayəndələri vasitəsiylə Kərim bəyə özbaşına qərarlarından əl çəkib malikanəni tərk etməsi tələbli ismarıc göndərsə də, heç bir nəticə hasil olmur və sonda özü onun yanına gəlir. Söhbət zamanı aralarında mübahisə yaranır və başçılıq etdikləri atlı-silahlı dəstələr arasında atışma baş verir. Atışmada Kərim bəy öldürülür, adamlarından biri isə yaralanır[395].

---

* K.Şəriflinin yaradıcılığı barədə bax: Ş.Məmmədli. Azərbaycan ədəbiyyatının Borçalı qolu (1920-ci ilə qədər), Tiflis, 2003, s. 205-212.

[395] «Кавказское слово» qəz., 1918, 18 yanvar, № 13.

## ƏRCİVAN-SARVAN kəndinin ağaları, maafları və ruhaniləri - 1860-cı il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 2, iş № 234, vərəqlər 293-294)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| | ***Ağalar:*** | |
| 1 | Məmmədəli İlyas ağa oğlu | 35 |
| | *qardaşları*: | |
| | 1. Əsəd ağa | 30 |
| | 2. Qəhrəman | 25 |
| | 3. Ağabəy | 15 |
| | *Əsədin oğlu* Rüstəm | 3 |
| 2 | Hüseyn ağa Əli Ağa oğlu | 45 |
| | *oğulları*: | |
| | 1. Həsən ağa | 25 |
| | 2. Əli ağa | 20 |
| | 3. Hacı ağa | 18 |
| | 4. Qəhraman ağa | 12 |
| | 5. Rüstəm ağa | 5 |
| | 6. İsmayıl ağa | 4 |
| 3 | Qasım ağa Əli ağa oğlu | 40 |
| | *oğulları*: | |
| | 1. Piri ağa | 10 |
| | 2. Balabəy | 4 |

| № | Ailədəki kişilərin siyahısı | Yaş |
|---|---|---|
| 4 | Qurban ağa Əli ağa oğlu | 30 |
| | *oğulları*: | |
| | 1. Halay bəy | 8 |
| | 2. Ağa bəy | 3 |
| 5 | Abdulla ağa Molla Məmməd ağa oğlu | 30 |
| | *oğulları*: | |
| | 1. Məmməd ağa | 8 |
| | 2. Rüstəm ağa | 2 |
| | *qardaşları*: | |
| | 1. Əli ağa | 25 |
| | *onun oğlu* Abbas ağa | 5 |
| | 2. Zeynal ağa | 8 |
| | ***Maaflar:*** | |
| 6 | Murtuzəli ağa Məmməd ağa oğlu | 25 |
| | *qardaşları:* | |
| | 1. Hüseynqulu ağa | 15 |
| | 2. Musa ağa | 10 |

***RUHANİLƏR:***

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | Molla Əhməd Molla Qurban oğlu | 40 | *axund* |
| 2 | Molla Süleyman Məşədi Təhmiraz oğlu | 40 | *axund* |
| | *oğulları*: 1. Molla Mustafa | 15 | |
| | 2. Molla Məmməd | 12 | |
| 3 | Molla Hümmət Sadıq oğlu | 45 | |
| | *oğlu* Molla Hasan | 13 | |
| 4 | Molla Əmiraslan Namazalı oğlu | 25 | |
| | *oğlu* Əlləz | 3 | |

**Qeyd 1.** Yuxarıda təqdim olunan siyahıdakı ağaların bəzilərinin özlərinin, bəzilərinin isə yaxın qohumlarının adları Sarvan kəndinin ağalarının 1831-ci ilə dair siyahısında əks olunubdur (bax: s. 243).

**Qeyd 2.** 1885-ci ildə Ərcivan-Sarvan kəndində *Bayramlılar* nəslindən 9 ağa ailəsi yaşayırdı və onlara kənd torpaqlarından 9 pay malikanə yeri ayrılmışdı. Bayramlılar, eləcə də knyazlar Cavaxov və Muxranski ilə Ərcivan-Sarvanın yerli kəndliləri arasında əkin torpaqları üstündə ara-sıra mübahisələr baş verirdi[396]. GMTA-da "Ağalar podporuçik İbrahimxəlil İlyas ağa oğlu və praporşik İlyas ağa Minasaz Məmməd oğlunun Ərcivan və Yuxarı Sarvan kəndlərindən gəlirlərin əldə edilməsi ilə bağlı mübahisəsi" adlı sənəd saxlanılır[397].

---

[396] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, том 7-ой, с. 412-413, 429.

[397] Bax: GMTA, f. 2, s. 1, iş № 12396.

## TƏRKİVAN* kəndinin koxası – 1831-ci il

*(Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 254, siyahı 1, iş № 1254, vərəq 218)*

| № | Ailədəki kişilərin siyahısı | Yaş | Qeydlər |
|---|---|---|---|
| 1 | İmaməli Qulu oğlu | 35 | ***koxa*** |

**Qeyd:** Tərkivan kəndinin 1821-ci ilə aid kameral siyahısında 1-ci sırada aşağıdakı ailə qeyd olunur:

Abdulla İbrahim oğlu;
*oğulları*: 1. Mehdi,
2. Nağı,
3. Məmməd [398].

Bu ailəyə Tərkivanın 1843-cü il kameral siyahısında da rast gəlinir[399].

---

